**Vüsal Tağıbəyli**

# TÜRKMƏNLƏR

*(siyasi roman)*

**Bakı-2021**

Redaktor: **Şəlalə Tağıyeva**

**Vüsal Tağıbəyli. Türkmənlər, Bakı, "Təknur" nəşriyyatı, 2021. 272 səh.**

Yazıçı-jurnalist Vüsal Tağıbəyli daha bir əsəri – "Türkmənlər" adlı siyasi romanı ilə oxucularının görüşünə gəlir. Mürəkkəb hərbi-siyasi vəziyyətin hökm sürdüyü vaxtlarda bir neçə dəfə İraqa səfər edən müəllif, bu ölkədə görüb-eşitdiklərini, şahidi olduğu maraqlı hadisələri, həmsöhbət olduğu, bir-birindən maraqlı adamlarla görüşlərini, gözqamaşdıran qədim tarixi məkanları-abidələrin, dəhşətli müharibənin miras buraxdığı xarabalıqların, daşı-daş üstə qalanmış şəhər və kəndlərin qanlı xatirələrini qələmə alaraq bədiləşdirib.

"Türkmənlər" əsərinin əsas motivini İraqın üçüncü böyük xalqı olan türkmənlər təşkil edir. Qədim türk millətinin bir qolu olan türkmənlərin İraqda yaşayışından, xüsusilə də yığcam məskunlaşdıqları Türkməneli torpaqlarında, məhz türk olduqları üçün onillər boyunca başlarına açılan müsibətlərdən söz açan yazıçı, bu gün onların qədim türkmən şəhəri olan Kərkükdə azlığa çevrildiyini ürək ağrısı ilə qeyd edir. Səddam Hüseyn dönəmində ərəbləşdirilməsinə start verilən Kərkük və digər türkmən yaşayış məntəqələrini, son iyirmi ildir birtərəfli qaydada kürdləşdirməyə çalışırlar. Müəllif öz kitabında müasir türkmən siyasi fikir məktəbinin banisi, milli lider Riyaz Sarıkahyanın türkmən xalqı üçün əvəzsiz əhəmiyyətindən söz açır, onun ictimai fəaliyyətini müxtəlif obrazların görüşlərində canlandırır.

**ISBN: 978-9952-445-03-5**

**© Vüsal Tağıbəyli, 2021**

# GİRİŞ

İraqı hələ uşaqlıq illərimdə oxuduğum nağıllarda tanımışam. Cadugərlərin öz sehrləri ilə min dona girdiyi, divlərin, əjdahaların qorxu yaşatdığı, amma bütün dəhşətlərin son anda sevginin, məhəbbətin qələbəsi ilə məğlub edildiyi bu füsunkar keçmişli ölkəni məktəb illərimdə keçdiyim tarix dərslərində daha reallığı ilə öyrəndikcə, təəssüf ki, bəzi acı həqiqətlərin də şahidi olmağa başladım. Çünki bəşər tarixinin yarandığı bu məhsuldar coğrafiya – Mesapotamiya zaman-zaman yadellilərin işğalı altında min əziyyətlə qurub-yaratdığı mədəniyyəti ilə birlikdə, eynilə bu gün yaşadığı tarixi gerçəklik kimi, yandırılıb-dağıdılıb, amma xoşbəxtlikdən özündə təpər taparaq yenidən dirçələ bilib.

Böyüdükcə İraqı öz ailəmizdə, dost-tanışımız arasında az qala ikinci adına çevrilmiş Kərkük kimi kəşf eləməyə başladım. Həmişə ətrafımdakı insanlardan, Kərkük camaatının bizimlə eyni dildə danışdığını eşidirdim. Bir şərqi oxunardı radiolarda, həzin melodiyası indiyədək olduğu kimi qulalarımda səslənir:

*“Evlərinin dalı yonca,*
*yonca qalxıb dam boyunca.*
*Boyu uzun, beli incə,*
*Minnə yarım Minnə,*
*əsmər yarım Minnə...”*

Müğənnilər Nərminə Məmmədova ilə Sinan Səidin birlikdə ifa etdikləri bu duet onillər boyunca həzin melodiyası ilə məni qədim Kərkükə səsləyib və həyatımın reallığı da məni addım-addım bu müqəddəs türk elinə yaxınlaşdırıb.

Elə iraqlı siyasətçi, keçmiş millət vəkili, İraq türkmənlərinin mənəvi atası sayılacaq qədər hörmət-izzət sahibi, milli lider, Türkməneli Partiyasının başqanı Riyaz Sarıkahya ilə tanışlığım da bu müstəvidə baş verib. İraqda baş verən hadisələri işıqlandırmaq üçün təsadüfən onunla əlaqə yaratdım və ilk gündən fəal əməkdaşlığa başladıq. Hansı ki, bu əlaqələr yaxın gələcəkdə məni gerçək mənada İraqa qovuşduracaqdı...

***

...2015-ci il idi. Mart ayının əvvəlləri olsa da, Bakıda soyuq adamı qılınc kimi kəsirdi. Xəzər dənizindən əsən rütubətli külək buzlu silləyə dönüb çırpılırdı adamların üzünə. Elə buna görə də, ehtiyyatsızlıqdan bərk soyuqlamışdım. Öskürək ara vermirdi. Amma nə etmək olardı – artıq təyyarə biletini də almışdıq, sabah axşam ilk dəfə İraqa uçacaqdım.

İraqda İŞİD-lə (DAEŞ-lə) genişmiqyaslı müharibə gedirdi. Ölkənin orta-qərb, orta və şimal-qərb bölgələrini ələ keçirmiş İŞİD terrorçularını məğlub eləmək üçün ABŞ-ın rəhbərliyi altında beynəlxalq hərbi ittifaqa məxsus hava qüvvələri göydən bomba ələyir, İraqın xeyli zəifləmiş ordusu və ona yardım məqsədilə yaradılmış yerli silahlı qruplar isə yerüstü əməliyyat keçirirdi. İŞİD-in mülki insanlara qarşı həyata keçirdiyi toplu edam və çox amansız işkəncə faktları isə nəinki İraq cəmiyyətini, minlərlə kilometr uzaqda yaşayan insanları belə vahiməyə salmaqdaydı. Ona görə də hamı mənimlə sanki bir daha görüşməyəcəklərmiş kimi sağollaşırdı. Hətta başqa ölkələrə gedərkən "reportajlar yaz göndər" deyən qəzetimizin baş redaktoru, bu dəfə sadəcə "ehtiyyatlı ol" deməklə kifayətləndi.

...İraqa ilk səfərim, məncə, Bakıdan yox, İstanbuldan başlamışdı. Çünki təyyarə Bakıda havaya qalxanda qardaş dövlətə – ikinci doğma vətənim olan Türkiyəyə getdiyimi düşünürdüm.

Yalnız İstanbulun Atatürk hava limanında Ərbilə uçacaq təyyarəyə daxil olanda tarixin canlı muzeyi olan İraqı hiss eləməyə başladım. Səbəb də aydındır: nə İŞİD, nə də hansısa məzhəbçi qüvvələrin məcazi mənada qara çarşaba bürüyə bilmədiyi İraqın istiqanlı vətəndaşlarını görürdüm – hamısı bir-birindən müasir, dünyagörüşlü. Kimi ərəbcə danışırdı, kimisi də kürdcə. Amma hər birinin ləhcəsində ərəb aksenti açıq-aşkar duyulurdu. Son illər İraq əhalisinin məzhəblərarası çəkişmələrdə çox əziyyət çəkdiyini eşitmişdim, amma gördüklərim insanların ruhən azadlıqlarını qoruduğunu isbatlayırdı.

Bağdadın ətrafında vəziyyət xeyli gərgin idi. Üstəlik, Bağdadla ölkənin şimalında yerləşən bölgələri bağlayan yollar İŞİD silahlıları tərəfindən zəbt olunduğu üçün, təyyarə biletini daha sabit və təhlükəsiz olan Ərbilə almışdım.

Məlumat üçün deyim ki, Ərbil İraqın şimalında özünü muxtariyyət elan edən Kürdistanın siyasi-inzibati mərkəzidir. Təxminən 1,3 milyon nəfər əhalisi var. Tarixi mənbələrə görə, qədimdə şəhərin əhalisi tamamilə türklərdən ibarət olub. Ərəblər və kürdlər isə sonradan burada yerləşməyə başlayıblar və budur, xüsusi assimilyasiya siyasəti nəticəsində Ərbil kürd şəhərinə çevrilib. Buna baxmayaraq, indinin özündə də şəhər əhalisinin 20-25 faizi türkmənlərdir.

***

Təyyarəmizin enəcəyi Ərbil hava limanı 1970-ci illərdə İraq Hərbi Hava Qüvvələri üçün aerodrom olaraq tikilib və 1991-ci ilədək fəaliyyət göstərib. "Scott Wilson Group" tərəfindən layihələndirilən indiki, 550 milyon dollara başa gələn müasir hava limanını isə Türkiyənin Makyol Cengiz İnşaat şirkəti tikib. İlk terminal binası 2010-cu ildə istifadəyə verilib. Terminal binası, 6-sı sərnişinlərə xidmət göstərməklə 16 qapısı olan iki xətdən ibarətdir.

Maraqlıdır ki, dünyanın ən uzun eniş-qalxış xətlərindən biri məhz bu hava limanında tikilib.

Təyyarə Ərbil səmasında ləngər vura-vura hava limanına enəndə artıq gecədən xeyli keçmişdi. Balaca, oval pəncərədən prajektorların işıqlandırdığı meydana baxdım. Onlarla təyyarə səf tutub növbəti uçuş anını gözləyirdi. İnkişaf eləmiş ölkələrdə olduğu kimi, mükəmməl işıqlandırılan hava limanında, təəssüf ki, qarşılaşdığım ilk münasibət məni gözəlliyin sehrindən diksindirdi. Buraxılış məntəqəsində çalışan məmurlar yarım saat kefimə soğan doğrayanda anladım ki, heç də hər şey göründüyü kimi deyil...

İndiyədək çox ölkələrdə olmuşam, amma buradakı münasibəti heç yanda görməmişdim. Üzərində "Azərbaycan vətəndaşı" yazılan yaşıl rəngli pasportumu əldən-ələ gəzdirən sərhəd-buraxılış məntəqəsinin məmurları, çox qəribədir ki, öz aralarında belə bir dövlətin olub-olmadığını

aydınlaşdıra bilmirdilər. Beynəlxalq qaydalara əsasən pasportumda hər şey ingiliscə tərtib olunmuşdu, amma deyəsən məmurlar ingiliscə yaxşı bilmirdilər, ya da Azərbaycanın varlığını görməzliyə vururdular. Məmur kürd dilində israr edirdi ki, Azərbaycan Respublikası barədə eşitməyib, amma hardansa Bakının adı ona tanışdır. Yanındakı başqa bir məmur isə öz dilində sübut eləməyə çalışırdı ki, Bakı Rusiyanın şəhəridir – dünyada Azərbaycan adında dövlət yoxdur və sair...

Xeyli sonra məmurlardan biri deyəsən insafa gəldi, birtəhər başa saldı ki, dəvətnamə göndərən şəxsin telefon nömrəsi varsa, ona zəng vuraq. Mən də nömrəni verdim, bir neçə dəqiqə sonra qonağı olduğumuz, gecənin bu vaxtınadək yatmayıb hava limanında yolumuzu gözləyən Türkməneli Partiyasının sədri Riyaz Sarıkahya və köməkçisi Yılmaz harayıma yetişdilər.

Artıq tam rahat idim, çünki canı canımızdan, qanı qanımızdan olan iki türkmən qardaşımızın yanındaydım. Ərbilin geniş və işıqlı küçələrini şütüyərək birbaşa Türkməneli Partiyasının Ərbil bürosunun ofisinə gəldik.

İki qatlı binanın ikinci qatında yerləşəm partiya ofisi bir böyük zal, əlavə də 3-4 otaqdan ibarət idi. Otaqlardan bir neçəsi gecəni qalmaq üçün hazırlanmışdı.

Yol çantamı foyedə qoyub zala keçdik. Yılmaz sağ olsun, əlüstü çay hazırladı, əvvəlcədən aldıq-

ları şirniyyatları masaya düzdü. Beləcə, çayımızı udumlaya-udumlaya xeyli söhbət edib, necə deyərlər, üz-üzə tanış olduq.

Bu arada, gecəni partiyanın ofisində qalmağımızın xüsusi səbəbi vardı. Riyaz bəy dedi ki, ən yaxşı oteldə yer ala bilədilər, amma təhlükəsizlik baxımından rəva görməyiblər. Çünki Ərbildə əcnəbi jurnalist olduğumu öyrənə və məni xəbər-ətərsiz həbs edə bilərdilər. Məntiqli idi, çünki Kürdüstan muxtariyyətinin məmurları hava limanında İraqın rəsmi VİSA-sını heçə sayırdısa, deməli hər şey baş verə bilərdi.

– Çox yerlərdə olmuşam – Türkiyədə, Amerikada, Avropada – burdan-bura ikinci vətənimiz olam Azərbaycana getməmişəm…

Riyaz bəy sanki utanırmış kimi başını aşağı saldı. Bir anlıq nəsə düşünürmüş kimi susdu.

– Əlaqələrimiz olmayıb indiyədək, inanıram ki, bundan sonrası belə qalmayacaq, Azərbaycan biz türkmənlərə sahib çıxmalıdır, – sözünə əlavə etdi.

– Amma, Bakı universitetlərində çox sayda iraqlı tələbə təhsil alır, yəqin türkmənlər də var aralarında. İnşallah, yaxşı olar, – söhbəti müsbət məcraya yönəltdim. – Azərbaycan öz müstəqilliyini rahat qazanmadı, torpaqlarımızın iyirmi faizi Rusiyanın diqtəsi ilə oturub-duran Ermənistan ordusunun işğalı altındadır, minlərlə insanımız həlak olub, milyondan çox qaçqınımız ağır şəraitdə yaşayır, dövlət onların dərdini yüngülləşdirmək üçün əlləşir. Bu qədər çətinliyin

qarşısında Azərbaycan İraqa necə kömək eləsin?.. – etiraz etdim.

– Başa düşürük, Can Azərbaycandan aldığımız kədərli xəbərlər hər zaman bizi sarsıdıb. Amma əlimizdən nə gəlir, dualarımız sizinlə olub. Eyni aqibəti bölüşürük. Bu gün İraqın harasına getsəniz, qaçqın düşmüş türkmən ailəsini görərsiniz, – Riyaz bəy gözlərini masaya zillədi, – Kərkük İraq türkmənlərinin mənəvi qalasıdır. Amma təəssüf ki, indi bu qalada qərarı gəlmələr qəbul edir. Cəmi beş min türkmən ailəsinin Kərkükdə yerləşməsinə imkan verdilər, 30 min ailə isə ölkənin cənubuna köçüb. Amma onlar o yerlərdə duruş gətirə bilmirlər, mədəniyyət uyğunsuzluğu var, bu səbəbdən də geri qayıtmaq istəyirlər. Yenə deyirəm, Kərkükdə idarəetmə kürdlərin əlindədir, onlar türkmənlərin bu vilayətdə yerləşdirilməsinə isti yanaşmır. Niyə qorxurlar, səbəbi aydındır: axı bu halda Kərkükdə türkmənlərin sayı artacaq. Bir qism Təlafər camaatı da Ərbil və Duhokdakı düşərgələrə yerləşib. Kaş ki, hər şey qaydasında olaydı, Azərbaycan da türkmən qaçqınların bir hissəsini qəbul edəydi, bu milli və humanitar vəzifədir. Amma nə edək, çox təəssüf...

Səhərin açılmasına az qalmışdı, söhbət isə uzandıqca-uzanırdı. Riyaz bəs təklif elədi ki, daha gecdir, yatıb dincələk, çünki ürəyimizi boşaltmağa qarşıda xeyli vaxtımız olacaq.

Riyaz bəyin çox israr etməsinə baxmayaraq,

qonşu otaqda hazırlanmış yataqda yatmağı deyil, elə zaldakı divanda mürgüləməyi üstün tutdum. Həm də axı yol təəssüratımı özümlə gəzdirdiyim netbuka köçürəcəkdim...

Çox gec yatmağıma baxmayaraq səhər erkəndən qalxmışdım. Pəncərəyə yaxınlaşıb göz işlədikcə Ərbilin ənginliklərinə zilləndim. Bakıdan fərqli olaraq, buradakı tikililərin çoxu bir-iki qatlı idi. Əsl Şərq şəhəri görünüşü vardı...

Bir az sonra artıq hamı yuxudan qalxmışdı, masa ətrafında birlikdə qəlyanaltımızı edirdik.

İnsanlar çox qonaqpərvər idi, özümü evimizdə, doğmalarımın yanındakı kimi hiss edirdim. Riyaz bəylə virtual olaraq çoxdan tanış olsam da, Yılmazı ilk dəfə görürdüm. Amma elə bil illərdir bir yerdə olmuşuq. Mehriban, istiqanlı, çoxdan görmədiyi qardaşını görürmüş kimi qulluq göstərirdi mənə...

***

Şəhərin sükuta qərq olmuş küçələrində maşın izdihamı səs salmışdı. Pəncərədən ətrafa boylandım: səkilərdə insanlar ora-bura tələsirdi. İlk dəfə düşdüyüm bu qədim ölkənin səhər mühütü, başqaları üçün adi olsa da, məni sözün əsl mənasında sehrləyirdi.

– Xoş gəlib, səfa gətirmisiniz, – tanış olamayan səs məni diksindirdi.

Arxaya çevrildim. Ucaboylu, gülərüz bir kişi dayanıb baxırdı. Salamlaşdıq. Riyaz bəy onun

Türkməneli Partiyasının Ərbil bölməsinin rəhbəri Salar bəy olduğunu dedi. Oturub xeyli söhbət etdik. Partiyanın Ərbildəki fəaliyyətindən, ümumiyyətlə Kürdüstan muxtariyyətində mövcud ictimai-siyasi şəraitdən söz açdıq. Daha sonra isə «Min eşitməkdənsə, bir görmək yaxşıdır» deyiminə uyğun olaraq, Salar bəyin müşayiəti ilə Ərbil şəhərinin tarixi yerlərini gəzməyə çıxdıq.

Maşın geniş prospektləri şütüyüb əksəriyyəti iki-üç qatlı, bir-birinə söykənmiş yastı damlı binaların arasında dolaşan dar küçəyə girəndə Salar bəy dedi ki, bu yol bizi dünyalarca məşhur Ərbil qalasına aparır.

Ərbil qalasında heç vaxt olmasam da, haqqında kitablardan oxumuşdum. Müdafiə məqsədilə hündür təpədə tikilmiş, ilkin ehtimallara əsasən beş min il yaşı olan bu qala sonradan ətraf ərazilərdən insanları özünə cəlb edib. Tədricən adamlar bura köçməyə başlayıb və qalanın ətrafında xalqavarı şəkildə yeni küçələr salınıb, evlər tikilib. Beləliklə, müəyyən dövr ərzində gördüyümüş Ərbil şəhəri təşəkkül tapıb.

Qala 2014-cü il iyunun 21-də UNİSCO-nun Dünya Mədəniyyəti İrsi siyahısına salınıb.

Qədim Assuriyanın ən strateji qalalarından sayılan bu istehkam xarakterli tikili Abbasilər, eləcə də Sasanilər üçün də mərkəz rolu oynayıb, Osmanlı dövründə istehkam kimi əhəmiyyət daşıyıb. Amma monqol ordusu 1258-ci ildə bu yerləri istila etdikdən sonra qalanın önəmi əvvəlki

dövrlərlə müqayisədə bir qədər azalıb. Ötən əsrdə 32 metr hündürlüyü olan qaladakı kərpicdən tikilmiş bir neçə vacib tikili məhv edilib. Bundan sonra isə orada təmir-yenidənqurma işlərinə start verilib.

Məlumata görə, 1995-ci ildə Ərbil qalasında 247 ev olub ki, onlarda toplam 1631 nəfər yaşayıb. Amma 2003-cü ildə UNESCO buranı Mədəniyyət İrsi siyahısına salandan sonra qala sakinləri şəhərin başqa bölgələrinə köçürülüb. Amma buna baxmayaraq, hələ də bir ailə qalada yaşamaqdadır...

Qalanın ətəyində – insanların qaynadığı qədim bazarın yanındayıq. Salar bəyin sözlərinə görə, konkret mənbələr Ərbilin ilk sakinlərinin türkmənlər olduğunu isbat edir. Kürdlər, ərəblər və başqa xalqların nümayəndələri isə sonradan bura köçənlərdir.

Qarşıda qədim şərq memarlığının nümunəsi, yüzillərin canlı şahidi Qeysəriyyə bazarı yerləşir. Amma yalnız bazarda deyil, hətta ətrafını saran binaların dükan və iaşə obyektləri kimi fəaliyyət göstərən birinci mərtəbələrində də şıdırğı alver gedir. Xırda daş plitələr döşənmiş darısqal küçə və dalanlardakı çoxlu çayxanalarda müştəri əlindən tərpənmək olmur. Çoxu da elə türkmənlərdir. Çünki Salar bəyi və maşından düşər-düşməz bizə yoldaşlıq edən başqa bir türkmən qardaşımızı – o vaxt Ərbil şəhər şurası sədrinin müavini olan Azad Kürəcini görən hər kəs onları türkcə

salamlayıb, hal-əhval tuturdu. Əlbəttə, onlar da fürsət itirmədən məni təqdim edib, Azərbaycandan gəldiyimi deyirdilər.

Türkmənlərin çalışdığı dükan və dərzixanaları gəzə-gəzə Azad bəylə ayaqüstü söhbət edirdik. Savadlı insan idi, heç bilmədiyim məlumatları eşitdikcə marağım daha da artırdı.

Burada görüb-rastlaşdığım hər kəs türkmən olsa da, ərazi ərəb məhəlləsi kimi tanınırdı. Səbəbini soruşdum. Azad bəy dedi ki, təxminən 200 il əvvəl bazara gələn ərəb tacirlər elə buradaca yerləşiblər. Məhəllənin adı bu səbəbdən belə qalıb.

Ərbildə ərzaq məhsulları Bakıdakından xeyli ucuzdur. Məsələn, bir stəkan çay içmək üçün 250 dinar tələb olunur ki, bu da Azərbaycan pulu ilə 20 qəpik edir. Yaxud da, əsasən ərəblərin ənənəsi sayılan təndir lavaşının 8 ədədi min dinara (80 qəpik) təklif edilir.

Ərbilin qədim hissəsindəki saysız-hesabsız dərzixanaların əksəriyyəti türkmənlərə məxsusdur. Hətta burada tanıdığım və ya tanımadığım bir çox türkmən “Dərzi” sözünü özünə soyad götürüb. Emalatxanalardan birinə keçib ətrafa baxıram – üç-dörd nəfər başlarını qaldırmadan nəsə tikirdilər. Onlardan biri – emalatxananın rəhbəri olan Azad Dabbağ adlı təcrübəli dərzi ilə həmsöhbət oldum. Bildirdi ki, bu kiçik tikiş emalatxanası 1970-ci illərdən fəaliyyətdədir.

– O vaxt mən yeniyetimə oğlan idim, iş axta-

ra-axtara gəlib çıxdım bura, – Azad bəy başının işarəsi ilə ətrafı göstərir. – Sonradan o, Bağdada köçdü, mən isə buranı müstəqil olaraq işlətməyə başladım, – dedi.

– Qazancınız necədir, dolanışığa yetirmi? – soruşdum.

– Dərzilik böyük pullar qazandırmır, – narazı şəkildə başını yellədi. – Amma olan da bəsimdir. Allahın verdiyinə min şükür. Ayda ortalama 300 dollar gəlirim olur. Allaha şükürlər olsun, dolanıb keçinirik, – gülümsədi.

Bir anlıq susdu, əlindəki iynəni köklədiyi pencəyə sancıb:

– Beş-on il əvvəllə müqayisədə dərziyə üz tutan müştərilərin sayı çox azalıb, – təəssüflə başını yırğalayaraq sözünə davam etdi: – İndi nəyi axtarsan hazırını ala bilərsən. Türkiyədən, başqa ölkələrdən gətirib doldurublar ticarət mərkəzlərinə, gedib alırlar. Əslində məntiqlidir, yoxsa ki, parça al, sifariş ver, vaxt gedir, bəzən xərc də daha çox çıxır deyə, hazır geyimləri alırlar.

Sağollaşıb ayrıldım. Yan-yana sıralanmış dərzi emalatxanalarından daha bir neçəsinə baş çəkib, əhvallarını soruşdum.

Küçənin tinindəki çayxanaya çatanda, Salar bəylə Azad bəyi yanımda görən tanımadığım, amma türkcə danışan biri – sonradan onun da türkmən olduğunu öyrəndim – bizi çaya qonaq elədi. Hava isti olduğundan elə çayxananın bayırındaca, armudu stəkanları qan qırmızı rəngə

boyayan çaydan adama bir səkan içdik. İnsafən, Azərbaycandan gəldiyimi bilən türkmən qardaşımız, Salar bəyin israrlarına baxmayaraq bizdən pul da almadı.

Nahardan sonra ilk baş çəkdiyimiz yerin təsirini, aradan illər ötsə də, heç cür unuda bilməmişəm. O vaxt Ərbilin mərkəzində yerləşən, çoxdan tikilmiş yaşayış binasının birinci qatında fəaliyyət göstərən antik əşyalar satılan dükana baş çəkəndə elə bildim əfsanəvi xəzinədəyəm.

Türkmən qardaşımız Xalis Yunusa məxsus bu dükanın əsas satış salonu birinci qatda olsa da, əsas məhsullar qaranlıq və havasız zirzəmiyə yığılmışdı. Burada nələr yox idi, xalça-palazdan qab-qacağa, rəsm əsərlərindən zinət əşyalarına, qədim silah-sursatdan hər dövrü əhatə edən qiymətli sikkələrədək, hətta timsah, anakonda, pələng dəriləri, dəvəquşunun dipdiri, qurudulmuş canlı maketi sərgilənir. Qədim əşyaları alıb-toplayan və əlbəttə, satışını təşkil edən Xalis Yunusa Ərbildə çoxları «Xalis Antik» deyirdi.

– Burada gördüyünüz kolleksiyanı uzun illər ərzində toplamışam. İraqın harasında maraqlı, qədim əşya olduğunu eşitmişəmsə, gedib almağa çalışmışam, – ovcuna doldurduğu sikkələri masanın üstünə tökür, – Bəzən olub ki, ayrı-ayrı insanlar əllərindəki eksponatları təklif edib, onların da pulunu verib, almışam. Elə sənət nümunəsi var ki, onu almaq üçün 20 min dollarımdan keçmişəm, – Xalis bəy dedi.

Allah bilir neçənci əsrə aid olan qılıncı əlinə götürüb:

– Əlimizdə çox miqdarda qızıl və gümüşdən tökülmüş qədim sikkələr, zinət əşyaları da var. Amma onları burada saxlamaq təhlükəlidir deyə, necə deyərlər, gözdən-könüldən uzaq yerdə mühafizə edirik, – dedi.

Bayaqdan məni fikir götürmüşdü: belə bir xəzinə qaranlıq və havasız zirzəmidə məhv olub gedir, niyə rəsmi orqanlar bu məhsulların sərgi-satışını həyata keçirmək üçün işıqlı, müasir satış mərkəzi açmaqda Xalis bəyə kömək göstərmirlər. Bunu özündən də soruşdum, cavab verdi ki, türkmənə kömək etmək kimsəyə lazım deyil. Hətta əlacları olsa, hər şeyi bir andaca əlindən alıb mənimsəyərlər.

Beləcə, öz torpağında, öz şəhərində özgəyə çevrilən türkmən qardaşımıza yuxarıların münasibətindən təəssüflənərək oradan ayrıldım.

Vaxt yox idi, hava qaralmamış Ərbilin simgəsi sayılan, əslində qədim türk abidəsi olan qalaya getməliydik. Salar bəyin və Azad Kuzəcinin müşayiəti ilə hündür təpə üzərində minillərə şahidlik edən, məğrur Ərbil qalasına səmt aldıq.

Ərbil qalasını giriş qapısında dayanan əliavtomatlı polislər qoruyurdular. Məlumat aldım ki, hələ qədimdən qalaya bir neçə giriş olub və bunlardan ən vacibi Əhmədiyyə darvazasıdır. Ona görə də biz məhz Əhmədiyyə darvazasını seçdik. Avtomobillərin rahat hərəkət edə biləcəyi daş

plitələr döşənmiş yol, yoxuşa qalxdıqca sol tərəfdən dərinləşən dərə, sağ yamacdan isə qalanın yenilməz divarları ilə əhatə edir.

Qalanın içi Bakının İçərişəhər hissəsi kimi alçaq kərpic evlərdən ibarət kiçik şəhərcikdir. Amma bir neçə il əvvəl orada yaşan insanlar evlərindən köçürülüb və biz orada olarkən bütün qalada təmir-bərpa işləri gedirdi. Sırf şərq memarlıq üslubunda tikilmiş qala-şəhərcikdə adi yaşayış evləri ilə yanaşı məscid, iaşə obyektləri, mədrəsə, karvansara və sair də mövcuddur. Şəhərciyin lap mərkəzindəki kiçik meydançada ucalan dəmir dirəyin başında isə İraqın deyil, sadəcə Kürdüstan muxtariyyətinin bayrağı dalğalanır.

***

Orada bir maraqlı məqamla da rastlaşdım. Qalada yaşayan hər kəs köçürülsə də, bir ailə hələ də qalır. Deyilənə görə, həmin ailə qalanın içində çalışır, həm də uzun tarixi dövr ərzində orada mövcud olan əhalini təmsil edir. Elə bu ailənin yaşadığı evin yanından – Qalanın başqa bir qapısından çıxıb möhtəşəm Qeysəriyyə bazarının geniş meydanına endik...

Hə, bayaqdan bəri Ərbil qalasını birlikdə gəzdiyimiz Azad Kürəçi ilə ölkədə baş verən hadisələrlə bağlı ayaqüstü söhbət də elədim.

– Vəziyyət olduqca ağırdır. Hərbi əməliyyatlar zamanı İŞİD silahlılarından öldürüləni öldürüldü, sağ qalanlar qaçıb evlərdə gizlənib, təh-

lükə törədirlər, – Azad bəy narahatlıqla dilləndi.

– Eşitdim ki, peşmərgə, İraq əsgərləri Mosulun şərqini azad edərək, orada yerləşiblər. Elə isə necə oldu ki, İŞİD quldurları məsələn, uzun-uzadı yol gələrək bir gecədə Kərkükdə peyda olublar?, – etiraz elədim, – deməli, hökumət qüvvələriniz heç bir qələbə çalmayıb, – dedim.

– Onlar hər yerdə var, amma partizan hücumu taktikasını seçiblər, – Azad bəy cavab verdi.

Çox maraqlıdır, Ərbil küçələrində çox sayda kürd özünümüdafiə əsgərləri gəzib-dolaşsa da, insanlar İŞİD-in təhlükəsindən uzaq hiss edirdi özlərini. Sanki adamlara "narahatlığa əsas yoxdur" deyərək tam təminat verilmişdi. Amma ölkədaxili heç bir siyasi prosesə müdaxilə etməyən Kərkük isə hər zaman hücum üçün hədəf seçilir.

– İŞİD Kərkükdə törətdiyi terror aktları ilə Mosul əməliyyatının intiqamını almaq istəyib, – Azad bəy sözünə davam etdi: – Onlar Kərkükdəki gizli evlərdə məskunlaşan silahdaşlarını oyadaraq, şəhərdə özlərini sınamaq istəyiblər. Əgər hücum zamanı uğur qazansaydılar, Hevicədəki terrorçular Kərkükə yerləşəcəkdilər.

– Nə məsələdir bilmirəm, İraqda biri bir güllə atsa, mütləq türkmənə dəyir, ziyansız tərəf isə ərəblərlə kürdlər olur, – dilləndim. – Budur, Amerikanın bombaları da türkmənləri öldürdü, – dedim.

– Elədir, – bir anlığa susdu, – Amerika təy-

yarəsi Duhoku bombaladı, 25 nəfərimiz həlak oldu. Məncə burada yanlışlıq ola bilməzdi. Çünki Dakuk döyüşlər gedən ərazidən xeyli aralıdadır, – dedi. – Amarika həmişə buna bənzər problemlər yaradır, sonra da dalıyla mütləq nəsə baş verir. Gözləyək görək nə olacaq.

Bir anlıq duruxdum. Əzəmətli Ərbil qalası gözlərimdə ucaldı. Amma bu ucalığın altında türklərin necə əzildiyini hiss elədim.

– Yalnız türkmənlər deyil, ümumiyyətlə, türk millətinə qarşı hücum var ölkənizdə, – bildirdim. – Baxın, hökumətiniz dünyanın o başından Amerikanı, Kanadanı İŞİD-lə vuruşmasına icazə verir, təkcə sərhədin o tayında yerləşən Türkiyəni yaxına buraxmır. Baş nazir İbadinin Türkiyədən verib ala bilmədiyi nəsə var elə bil, – səsimi qaldırdım.

– Nə edə bilərik, bu gün Bağdad hökumətini İran idarə edir! – amiranə tərzdə dilləndi. – Hazırda İraqın bütün ərazisi İranın nəzarətindədir, yalnız Mosul, Ərbil və Duhokdan başqa. İbadinin Ankara ilə çəkişməsinin səbəbi də budur. İran Mosula nəzarəti ələ keçirərsə, həm bu şəhər, həm Suriya, həm də kürd dəhlizini ələ almış olacaq. Tehran bu yolla Türkiyənin ərəb ölkələri ilə birbaşa əlaqəsini qırmağa çalışır.

Millətçi kürdləri öz ətrafında birləşdirən Abdullah Öcalanın yazdığı proqramlar əsasında 1974-cü ildə yaradılan, 1978-ci ildən aktiv terror fəaliyyətlərinə start verən Kürd İşçi Partiya-

sı – PKK, hər zaman düşüncəmizdə Türkiyəyə qarşı düşmən münasibəti ilə canlanır. Bu səbəbdən də, Kürdüstan muxtariyyəti rəhbərliyinin İraqa, İrana və ya ABŞ-a, Rusiyaya deyil, məhz Türkiyəyə sığınması şəxsən məni sevindirir. Bildiyim qədər, Cəlal Təlabaninin rəhbərlik etdiyi və Süleymaniyyədə mərkəzləşən şiə kürd qrupu İran tərəfindən dəstəklənsə də, Məsud Bərzaninin rəhbərliyi altında sünni kürdlərin iqtidar qurduqları Ərbil tək qalmışdı. Millətçi şiə ərəblərin İraqda hakimiyyətə gəlməsi və ilk gündən də Səddah Hüseynə sonsuz nifrətlərini ölkənin sünni əhalisinə zülm etməklə söndürməyə başlaması Ərbili özünə müttəfiq axtarmağa vadar eləmişdi. Təbii ki, bu müttəfiq qonşu Türkiyə idi. Qənaətimi Azad bəylə də bölüşdüm.

– Tamamilə doğru deyirsiniz, İraqdakı bütün kürd təşkilatları İranın nəzarəti altındadır. Yeganə olaraq Bərzaninin rəhbərlik elədiyi partiya İrandankənar siyasət yürüdür, – Azad bəy sözümü dəstəklədi. – Çünki Bərzani İranı və onun yürütdüyü siyasəti qəbul eləmir. Bərzani üç məsələ ilə bağlı Türkiyənin siyasətinə tərəfdardır: Kürdüstan Türkiyə ilə həmsərhəddir; Türkiyə Bərzaninin müstəqil siyasət yürütməsinə mane olmur; Bərzaninin rəhbərlik elədiyi Kürdüstan Demokratik Partiyası ilə Kürdüstan Vətənpərvərlər İttifaqı və "Goran"çılar arasında iqtidarın bölünməsi problemi var. Bu məsələdə Bərzani ABŞ-a yüz faiz güvənmir, çünki amerikalılar vax-

tilə dəfələrlə kürdləri yarıyolda qoyublar.

Ətrafı gözdən keçirib, bir anlığa susdu. Birdən nəyisə xatırlayıbmış kimi söhbətə başladı:

– Onu da bilin ki, PKK Türkiyə ilə yanaşı, Bərzaninin də ən böyük düşmənidir. İran isə Cəlal Təlabaninin lideri olduğu Kürdüstan Vətənpərvərlər İttifaqını və PKK-nı dəstəkləyir.

– Deməli, İŞİD-dən, hətta nüvə bombasından daha dəhşətli olan məzhəblərarası münaqişəyə sürüklənir İraq, – təlaşlandım. – Dünyada heç bir müharibə məzhəblərarası düşmənçiliyin fəsadlarını yarada bilməz. On dörd əsrdir İslam ikiyə bölünüb – sünnü və şiələrə. Nəticəsi də göz qabağındadır. Amma nə olur-olsun, İraqda olmasın, bu ölkə bəşər tarixinin canlı muzeyidir, bu torpağa ancaq sülh və əminamanlıq yaraşır, – əlavə etdim.

Azad bəy başının təsdiqi ilə mənimlə eyni fikirdə olduğunu göstərsə də, narahatlığı tutqun sifətindən açıq hiss olunurdu. Bir az ümidsiz görünürdü.

– İran var qüvvəsi ilə çalışır ki, burada böyük bir şiə dövləti qurulsun. Bu yolla İraq və Suriyanı tam nəzarətində saxlamaq istəyir, – dedi. – Ona görə də Bərzani Türkiyənin timsalında sunnilərlə ittifaqda olacaq. Yeganə məqsəd isə İrana və onun gələcəkdə törədəcəyi təhlükəyə qarşı indidən tədbir görməkdir. Kürdüstanın Türkiyə ilə müttəfiq olması biz türkmənlərin də təhlükəsizliyinin qorunması deməkdir, – əlavə etdi.

Eşitmişdim ki, İraqda yaşayan türkmənlərin

də bir hissəsi sünni, bir hissəsi şiədir. Hətta deyilənə görə, eyni xalq olsa da, məzhəb fərqi onların arasında bir az məsafə qoyur. Hə, bir dostum demişdi ki, Türkiyə sünni, İran isə şiə türkmənlərə dəstək verir. Bunun doğru olub-olmadığını soruşdum. Azad bəy dedi ki, məsələn, Mosul vilayətində Təlafər də daxil olmaqla təxminən yarım milyon türkmən yaşayır. Onların da hardasa 65 faizi sünni, qalan 35 faizi şiələrdir.

– İraqın Səddamdan sonrakı hökumətləri çalışırlar ki, idarəetmədə və sair şiə türkmənlər daha aktiv rol oynasınlar. Bu halda Mosulun sünni türkmənləri acınacaqlı vəziyyətə düşəcəklər. Bu zaman isə onlar xilas yolunu Türkiyədə görəcəklər – ona sığınacaqlar, – Azad bəy dedi. – Sunni türkmənlər əvvəldən deyirlər ki, "Haşdi Şabi" Mosul və Təlafərə gələrsə, evlərinə qayıtmayacaqlar. Çünki, yenə deyirəm, onlar bu şəhərlərdə təriqət müstəvisində qətliam olacağından çəkinirlər, – sözünü bitirdi.

***

Səhəri gün Türkiyədəki Bilkənd Universitetinin mərhum rəhbəri, dünyaşöhrətli alim, məşhur xeyriyyəçi İhsan Doğramacının Ərbildə açdığı kollecə baş çəkdim. Bir neçə universitetin əhatəsində, müasir və çox möhtəşəm binası olan kollecin rəhbəri, bütün canı-qanı ilə türkçülüyü təbliğ edən Nihat İlhanlı ilə çoxdan tanış idim. Dəfələrlə internet üzərin-

dən söhbətləşmişdik də. Amma realda ilk dəfəydi görüşürdük.

– Xoş gəlib, səfa gətirmisən, – Nihad bəy mənimlə salamlaşdı. Oturmağa yer göstərdi, köməkçisinə içməyə çay, qəhvə gətirməyi tapşırdı.

– Neçə ildir internet üzərindən danışırıq, bu gün isə üzbəüz oturmuşuq, – gülümsədi.

– Əla məktəbiniz var, müasirdir, hətta İraqda belə müasiri yoxdur desəm yanılmaram, – dedim.

– Hə, əlbəttə. 2010-cu ildə açmışıq. Məqsəd Ərbildə, ümumiyyətlə, İraq Kürdüstanında türk dilini inkişaf etdirməkdir. Bu səbəbdən də kollecə hər il 45 türkmən qəbul edirik. Ərbildə insanlar üç aydır maaş almır, amma şükürlər olsun ki, kollecdə maliyyə sıxıntıları yaşanmır. Çünki arxamızda dünya şöhrətli Bilkənd Universiteti dayanır. Hər il Bilkənd Universitetindən 4 milyon dollar maliyyə dəstəyi alırıq. Təhsil müəssisəsində orta aylıq əməkhaqqı 3 min dollardan yüksəkdir. Məktəbdə dərs demək üçün 10 ölkədən müəllim dəvət edilib. Məsələn, Türkiyədən 11, Azərbaycandan 3 müəllim burada dərs deyir, tədris işləri üzrə direktor müavini isə İngiltərədən gəlib, – kənarda oturub səssizcə bizə baxan, ucaboylu, sarışın kişini göstərdi.

Qapı bir az açıq olduğu üçün birinci qatdakı konfrans zalından yüksələn musiqi səsi otağa dolurdu. Kollecdə deyəsən çox önəmli bir tədbir keçirilirdi, müəllim və tələbələrlə yanaşı xeyli sayda qonaqlar da vardı. Amma Nihat bəy, mə-

nim simamda bir Azərbaycan insanını qəbul etmək üçün bütün iş-gücünü kənara qoymuşdu.

Yerindən qalxıb ehmalca qapını örtdü.

– Kollecimiz yenidir, amma ildən-ilə genişləndiririk, tələbələrimizin də sayı durmadan artır, – dedi. – Hazırda 454 tələbəmiz var. Şəraitlərinə söz ola bilməz – Ərbil təhsil sistemində ən yüksək vəziyyət bizdədir. Var olsun Türkiyəni, adına uyğun təhsil sistemi yaradıb. Necə olmasa da, çalışırıq türkmənlərin varlığını qorumaq, dilimizi, elmimizi, şəxsiyyətimizi inkişaf etdirmək üçün imkanlarımız daxilində nəsə edək. İndiyədək çox assimilyasiya olunduq, daha bəsdir, millət olaraq əzmlə ayaqda durmalıyıq, – əlavə etdi...

Kollecdə vaxtın necə tez keçdiyini hiss eləmədim. Riyaz bəy zəng vurub, Ərbilin adlı-sanlı ədəbiyyatçılarının bizi gözlədiyini dedi. Ona görə də, maşına oturub Türkməneli Partiyasının ofisinə yollandıq.

Riyaz bəy hazır vəziyyətdə yolumuzu gözləyirdi. Vaxt itirmək olmazdı, İraqın tanınmış türkmən ədibləri Qardaşlıq Ocağına toplaşmışdılar. Odur ki, nəfəs dərmədən yola düşdük.

Əsasən orta və yaşlı nəslin yaradıcı nümayəndələrini bir araya gətirən Türkmən Qardaşlıq Ocağı, adı kimi, doğrudan da isti idi. Adamlar məni sanki müharibədən salamat qayıtmış oğulları kimi, içdən gələn sevinclə qarşıladılar.

Çay süfrəsində davam edən tanışlıq söhbətimiz zamanı xəbər tutdum ki, Qardaşlıq Ocağı

1960-cı ildə Bağdadda yaradılıb. Ərbildəki şöbə isə 1974-cü ildə təsis edilib. Ocaqda adətən yaradıcı insanlar – yazıçılar, şairlər cəmlənsə də, ilk yaradılanda siyasi məqsəd güdüb. İndi isə əksinə, siyasətdənuzaq fəaliyyət sürdürürlər: ədəbi məclislər təşkil edilir, yaradıcılıq diskussiyaları keçirilir və sair.

Türkmən Qardaşlıq Ocağında Azərbaycanı həm yaxşı tanıyırlar, həm də gileylənirlər. Deyirlər ki, millət olaraq azərbaycanlılarla eyni kökə bağlıdırlar. Hətta tarixi dövr ərzində məkan olaraq Türkməneli ilə Azərbaycan bir bayraq altında birləşib...

*Kərkükə mən*
*Həsrətəm Kərkükə mən*
*Qara altun üzünnən*
*Görmədi Kərkük aman...*

Bu bayatının müəllifi olan Hüsam Həsrət türkmənlərin böyük şairidir – 30-dək kitabın müəllifidir. Yazdığı şeirlərin əksəriyyəti vətənpərvərlik, millətçilik aşılayır, vətən torpağının müqəddəs olduğunu və mütləq azadlıq qazanacağını bəyan edir.

Şair yazır ki, millət özünü yaşatmaq və dünyaya tanıtmaq üçün ilk növbədə dilini qoruyub, inkişaf etdirməlidir.

*... Sormayın hangi bir türk, ya hangi bir Azəri,*
*Yoksa hangi bir türkmən bu dilə mail olmaz!..*

Öz təşkilatlarından söz açan şair deyir ki, əvvəl yardım xarakterli missiyanı yerinə yetirərək, təxminən 42 min insana humanitar kömək göstəriblər. Yardım üçün lazım olan vəsaiti isə 6 min üzvün təşkilata ödədiyi üzvlük haqqı ilə yığıblar.

Həmsöhbət olduğum başqa bir şair Aydın Rəşid Arslan da deyir ki, ən böyük arzularından biri Azərbaycanı görməkdir. Ona görə də, hər dəfə başqalarından və ya mediadan Bakı haqqında məlumat alanda bu şəhəri görmək keçir ürəyindən. Soruşdum ki, sərhədlər-yollar açıqdır, nə əcəb indiyədək gəlməyib. Dedi viza göndərən olmayıb. Buna baxmayaraq, bir gün Bakını gəzib-görəcəyinə ümidini itirmir. Hansı ki, qiyabi olaraq Azərbaycan yazarları ilə sıx əməkdaşlıq da edir.

– Onlar İraq ədəbiyyatının Ərbildə cəmləşdiyini nəzərə almırlar. Niyə Azərbaycan Yazıçılar Birliyinin nümayəndə heyəti bircə dəfə bizim Türkmən Qardaşlıq Ocağını ziyarət etmir? Sizdən çox xahiş edirik, Bakıya dönəndə onlara xatırladın ki, İraqda türkmən həmkarları var! – Rəşid Arslan dedi...

Qardaşlıq Ocağından ayrılıb nahar elədik, sonra yenidən Türkməneli Partiyasının ofisinə gəldik. İçəridə xeyli adam vardı. Çoxunu tanımasam da, artıq neçə ildir qiyabi salam-əleykümümüz olan bir nəfər – Türkmən Cəbhəsinin fəalarından, ixtisasca iqtisadçı olan Dilşad Dərzi özü yanıma gəlib, hal-əhval tutdu, Azərbaycandakı vəziyyətlə maraqlandı.

Kürdüstan muxtariyyətində nisbi sakitlik olsa da, daxili siyasi vəziyyətin gündən-günə kəskinləşdiyi hiss olunurdu. Artıq iqtidardakı Kürdüstan Demokratik Partiyası ilə ana müxalifət qrupu olan "Goran" arasında qalmaqal yarandığı deyilirdi. Hətta bu, bəzi yerlərdə toqquşmalara gətirib çıxarmışdı. Vəziyyət o qədər ciddiləşmişdi ki, bəziləri Kürdüstanın bölünəcəyinə dair mülahizələr səsləndirirdilər.

Çoxdan eşitmişdim ki, Məsud Bərzaninin rəhbərlik etdiyi Kürdüstan Demokratik Partiyası ilə Cəlal Tələbaninin sədri olduğu Kürdüstan Vətənpərvərlər İttifaqı arasında hakimiyyət uğrunda mübarizə gedir. Amma "Goran" qrupunun nə istədiyi maraqlı idi.

Fürsətdən yararlanıb Dilşad bəylə bir az söhbət elədim.

– "Goran" Kürdüstan bölgəsinin ən böyük müxalifət partiyasıdır. Onlar birmənalı şəkildə Məsud Bərzaninin vəzifə müddətinin daha iki il uzadılmasına qarşı çıxırlar, – Dilşad bəy dedi. – Üstəlik, bölgədə özünə görə güc sahibi olan islamçılar da bu məsələdə "Goran"ın tərəfindədirlər. Səbəb bilirsinizmi nədir, insanlar sosial sıxıntı içindədirlər. Dörd aydır Kürdüstandakı büdcə təşkilatlarının işçiləri maaş almırlar. Qlobal maliyyə böhranı, neftin kəskin ucuzlaşması səbəbindən ölkədə maaşları verməyə pul qalmayıb. Bütün bunlar Bağdadla Ərbil arasında münasibətlərə də ciddi təsir göstərir. Amma bəzi

qaranlıq məqamlar var. Bağdad hökuməti deyir ki, hər ay Kürdüstana vəsait göndərilir. Elə isə bu pullar hara gedir? "Goran" da bu suallara cavab almaq istəyir.

– Ərbildə olduğum günyarımda narahatlıqla üzləşməmişəm. Sakitlikdir, şəhər tikilir, inkişaf edir. Hər halda zahiri görünüş bunu deməyə əsas verir. Amma burda dostlar deyir ki, nəsə daxili narazılıqdan doğan münaqişə alovlanır, – soruşdum.

– Süleymaniyyədə maaşlarını ala bilməyəm müəllimlər və başqa büdcə təşkilatlarının işçiləri haqlarının ödənilməsi tələbi ilə etiraz aksiyası keçirib. Vəziyyət o yerə çatıb ki, aksiya iştirakçıları Bərzaninin sədri olduğu Kürdüstan Demokratik Partiyasının, eyni zamanda digər hakimiyyətyönümlü təşkilatların ofislərinə hücum edərək talayıb, dağıdıblar. Rəsmi məlumata görə Kaladzre bölgəsində bir neçə nəfər ölüb. Özü də tək Süleymaniyyədə yox, Kələpcədə, başqa ətraf şəhərlərdə də aksiyalar keçirilib, Bərzaninin ofisləri yandırılıb.

– Bir halda ki, ictimaiyyət Bərzaniyə üsyan edir, niyə bəs aksiyaların qarşısı alınmır? – soruşdum.

– Məncə vəziyyət Bərzaniyə sərf edir, – cavab verdi. – O bildirib ki, baş verən bütün hadisələrin və həlak olan insanların məsuliyyəti "Goran"ın üzərinə düşür. Çünki bu qrup problemləri şişirdib indiki həddə çatdırmasaydı, nə dağıntı

olardı, nə də ölüm-itim. Dünən Kürdüstan parlamentinin spikeri hökumət başçısı ilə görüşüb, danışmaq istədi. Amma hökumətə nəzarət edən Bərzəninin təhlükəsizlik qüvvələri onları geri qaytardı. Ona görə də nümayəndə heyəti Süleymaniyyəyə qayıdaraq mətbuat konfransı keçirdi. Bildirildi ki, qarşı tərəf çevriliş edib, bu isə qanunlara ziddir. Parlamentdə təmsil olunan beş türkmən partiyasının nümayəndələrindən yalnız bizim – Türkmən Cəbhəsinin deputatı Aydın Maruf müxalifətin tələblərinə qoşulur, qalan dörd millət vəkili Bərzaninin tərəfindədir. “Goran”ı vaxtilə Tələbaninin partiyasından ayrılan narazılar yaradıb, amma bu gün vəziyyət o yerə çatıb ki, eyni cəbhədə birləşiblər. Tələbani bir neçə il öncə Bərzaninin partiyası ilə yaşanan qarşıdurma səbəbindən hazır bitərəf mövqe tutub. Amma bu aldadıcıdır. Çünki Tələbaniyə çox yaxın olan siyasi qruplardan biri Nəçirvan Bərzaninin Kürdüstan hökumatinin başçısı kimi tanımadıqlarını bəyan edib.

– Belə çıxır ki, Kürdüstan muxtariyyəti bölünə bilər?

– Bölünməsə də, nə qədər ki, Bərzani və Tələbani qütbləri var, narazılıq da qalacaq. Tələbaninin nəzarətindəki Süleymaniyyə qütbünə İrandan böyük dəstək var. Hətta bu gün bölgədə qalmaqallara səbəb olan “Goran” qrupu da İran tərəfindən himayə olunur. Müharibədən əvvəl də Kürdüstanda iki idarəedici mərkəz vardı: biri

Ərbildə, digəri Süleymaniyyədə. Bu gün məhz həmin siyasi vəziyyət təkrarlanır. Onsuz da Süleymaniyyədəki hökumət idarəsində, məsələn, peşmərgə, maliyyə nazirliyi fərqli şəxslər tərəfindən və fərqli üsulla idarə edilir.

– Onda siz türkmənləri yaxşı gün gözləmir, ehtiyyatlı olun. Bu ölkədə harda daş atılsa mütləq türkmənin ayağına dəyir, – dedim.

– Parlamentdə millət vəkili ilə təmsil olunmuş türkmən partiyalarının doxsan faizi Məsud Bərzanini dəstəkləyir. Həm də, Kürdüstanda türkmənlər azlıqdır, onsuz da səsələri nəyəsə təsir göstərəcək səviyyədə deyil. Süleymaniyyədə çox az sayda türkmən yaşayır, onların da təhlükəsizliyi tam təmin edilməyib. Məsələn, ötən aylarda türkmənlərin oradakı ofislərinə hücumlar edilmişdi. Türkmənlərin böyük hissəsi məhz Bərzaninin hakim olduğu Ərbil və ətraf bölgələrdə məskunlaşıb. Mən demirəm Bərzani türkmənlərə yaxşı nəsə edib, o, vəd verir, amma yerinə yetirmir. Buna "yuxuyavermə siyasəti" də deyə bilərik.

Bu an qapıdan içəri girən naməlum kişinin sifəti mənə kimisə xatırlatdı. Həmişə sosial şəbəkə üzərindən həmsöhbət olduğum İsam Adilə oxşatdım, amma tam dəqiqləşdirə bilmədim.

Həmin adam Riyaz bəylə, otaqdakı digər insanlarla salamlaşdı. Riyaz bəy məni təqdim edəndə, yaxınlaşıb "xoş gəlmisiniz" deyərək əl sıxıb, hal-əhval tutdu. Hə, yanılmamışdım, o idi –

İraq Milli Türkmən Partiyasının baş katibi İsam Adil Tərzi. Üzrxahlıq edib Dilşad bəydən ayrıldım, pəncərənin qarşısında özümüzə yer edib, qısa da olsa, İraqda olub-bitənlərlə bağlı baş-başa söhbət elədik.

– Biz türkmənlər milli kimliyimizə sıx bağlıyıq. Türk olduğumuza kimsə şübhə edə bilməz, – dedi. – Türkiyəni də təminatçımız hesab etmişik indiyədək, bundan sonra isə Türkiyəyə daha sıx bağlı qalacağıq.

– İŞİD terroruna qarşı savaşırsınız, xüsusilə də türkmən xalqı müharibələrdə həlak olur, onların müdafiəsinə ehtiyac ərəbin, kürdün müdafiəsindən daha böyükdür, – dedim. – Millət vəkilisiniz, Türkiyə ordusunun bu gün İraqda olması sizi daha təhlükəsiz edər məncə.

– İraqın şimalında türk ordusu əvvəldən vardı. İŞİD Mosulu tutandan sonra İraqın, xüsusilə də kürd peşmərgə qüvvələrini döyüşə hazırlamaq üçün türk hərbçilərə ehtiyac yaranmışdı. Bu məqsədlə də türk ordusunun bölmələri Mosulun yaxın ətrafında yerləşdirilmişdi. İndi deyirlər guya bizim Kürdistan hökuməti türk ordusunu özbaşına çağırıb, qətiyyən belə deyil. Bu məsələdən Bağdad hökumətinin xəbəri vardı – türk əsgəri ora İraq hökumətini məlumatlandırılaraq gətirilmişdi. Bu günlərdə Türkiyə Mosulun Beaşika bölgəsinə əlavə hərbi qüvvə gətirib. Bu İraqa müdaxilə kimi qəbul edilməməlidir. Əksinə, onların burada olması biz türkmənləri,

eləcə də bütün iraqlıları rahat edir.

– Axı eşitdiyimə görə, Bağdad hökuməti Ankaraya 48 saat vaxt verib ki, əsgərlərini geri çəksin, – təəccüblə ona baxdım.

– Hə, düzdür, Türkiyəyə 48 saat verilmişdi. Amma məncə bu siyasi gediş idi. Fikir verin: artıq verilən möhlət başa çatıb, amma türk ordusu yenə də Beaşika bölgəsindədir. Bu gün İraq o qədər güclü deyil ki, hansısa dövlətlə müharibə eləsin. Onsuz da İŞİD İraqı gücdən salıb. Həm də ki, Türkiyənin İraq ərazisində olduğunu Amerika da bilir. Amerika öz müttəfiqinin Mosul yaxınlığında düşərgə qurmasına səssiz qalırsa, deməli, İraq da səssiz qalacaq.

– Əsas odur ki, Kürdüstan muxtariyyəti Ankaranı dəstəkləyir. Xüsusilə də Bərzani...

– Hə, düzdür, Ərbildə türklərin gəlişini anlayışla qarşılayıblar, – İsam Adil sevinclə dedi. – Çünki İŞİD olduğundan daha böyük təhlükədir bölgəmiz üçün. Bildiyimə görə, Kürdistan rəhbəri bu günlərdə Türkiyəyə gedəcək. Yəqin ki, orada bu məsələlər də müzakirə ediləcək. Nəzərə alın ki, Mosulun təkcə Təlafər rayonunda türkmənlərin sayı 400 min nəfərdir. Mosul şəhərinin özündə isə haradasa 250 min türkmən yaşayır. Üst-üstə Mosul vilayətində bu say 650 minədək yüksəlir. Əslində, İraqda milliyyətinə görə əhali sayımı keçirilməyib və indi də keçirilmir. Ona görə də türkmənlərin dəqiq sayı barədə heç nə demək olmur. Yerli camaat çətinliklərlə üz-üzə-

dir. Türkiyə həmişə, İŞİD-dən əvvəl də Mosulun və Təlafərin türkmən xalqına Qızıl Aypara Cəmiyyətinin xətti ilə çox böyük maddi-mənəvi yardımlar göstərib, indinin özündə də canını götürüb qaçan insanlara yardım olunur.

– Ərbili gəzdim, qalada oldum, çox sayda türkmən sakinlərlə görüşüb-söhbətləşdim, fikirlərini soruşdum. Partiya rəhbəri, millət vəkili olaraq siz nə düşünürsünüz türkmənlərin yaşayışı barədə, bircə hər şey yaşıdır deməyin, – yarızarafat tərzdə əvvəlcədən xəbərdarlıq elədim.

– Vallah, İraqın başqa yerləri ilə müqayisədə Kürdüstan muxtariyyətində türkmənlərin vəziyyəti daha yaxşıdır, – amiranə şəkildə cavab verdi.

Bir anlığa gözucu ətrafdakı insanları süzdü. Sanki kiminsə söhbətimizi dinləyib-dinləmədiyini yoxlayırmış. Sakit səslə söhbətinə davam elədi:

– Kürdüstanda türkmənlərin təhsil və mədəni inkişaf etmək haqqı rəsmən tanınır. Bu gün təkcə Ərbildə türkmən dilində təhsil verən doqquz orta məktəb və dörd lisey fəaliyyət göstərir. Bundan əlavə, Ərbildə türkmənlərin mədəniyyət mərkəzi var. Əlbəttə, bunlar çox azdır, hakimiyyətdə təmsil olunan türkmən mənşəli rəhbərlər çalışırlar ki, bu sahədə nəzərəçarpan problemlər tezliklə çözülsün. Amma açıq deyirəm: biz türkmənlər xalq olaraq özümüz səy göstərib, daha çox imtiyaz almalıyıq. Bura İraqdır, hər bir xalqın nümayəndəsi çalışıb öz hüququnu tələb

etməlidir. Bura elə bir ölkədir ki, oturduğu yerdə heç kimin haqqını asanlıqla verməzlər. Demokratiyadan danışırlar, amma əməldə başqa iş görürlər.

– Demək istəyirsiniz ki, Kürdüstan parlamentində lazımi sayda kürsü ala bilmisiniz? – soruşdum.

– Türkmənlər üçün Kürdüstan parlamentində kvota möbcuddur. Yəni 101 millət vəikilindən ancaq beşi türkmən ola bilər. İndiki şəraitdə, hesab edirəm beş millət vəkili sadəcə, Ərbildə yaşayan türkmənlərin sayına uyğundur. Amma ruh yüksəkliyini qorumaq lazımdır. Yəqin ki, gələcəkdə türkmənlər üçün ayrılmış kürsülərin sayı artırılacaq. Milli Türkmən Partiyası olaraq mövqeyimiz açıq və qətidir. Türkmənlər Təlafər və Mosulda çox böyük zərərə uğrayıb. Təsəvvür edin ki, insanlar səssiz-səmirsiz oğurlanır, qızları qaçırırlar, yaşlılar və uşaqlar öldürülür, xalq evindən-eşiyindən olur, namus və şərəfləri tapdanır. Bütün bunlar baş verdiyi halda, bir ildən çoxdur İraq hökuməti heç nə etməyib, olub-keçənlərə kənardan baxır. Minlərlə türkmən bu gün çadırlarda çətin şəraitdə yaşamaqdadır. İraq hökuməti onlara sahib çıxmaq istəmir. Bu gün türkmənləri yaşadıqları məşəqqətdən çıxarmaq üçün hər yerdən yardım gözləyirik. Tək Türkiyə deyil, insanlığa dəyər verən bütün ölkələrdən yardım gözləyirik. Türkmənlər birmənalı şəkildə öz təbii haqlarına qovuşmalıdır. Haqlarımıza qovuşmaq üçün biz də

Türkmən Siyasi Hərəkatında daha ciddi addımlar atmalıyıq. Bu ölkədə haqqını istəyənin qarşısına böyük problemlər çıxarılır.

Beləcə söhbətimiz xeyli uzandı. Başqa insanlarla da ayaqüstü söhbət elədim, Azərbaycanla bağlı verilən sualları cavablandırdım. Amma daha Ərbildə vaxt itirmək olmazdı, qarşıda gəzib-görməli olduğum, təəssüf ki, əksəriyyəti İŞİD tərəfindən yerləbir edilmiş çox yerlər vardı.

Artıq maşın Azərbaycan folklorunun, ədəbiyyatının dönə-dönə bizlərə xatırlatdığı, ürəyimizdən qırılıb İraqda qalmış doğma Kərkükə doğru şütüyürdü. Maşın Kürdüstan muxtariyyətinin ərazisi ilə üzügüneyə hərəkət etdikcə yolun hər iki tərəfini saran yamyaşıl taxıl tarlaları, sarıçiçəklərin boy atdığı təpələr göz oxşayırdı. Martın əvvəlləri olsa da, axı yaz fəsli bura Azərbaycandan daha tez gəlirdi, günortalar azından 20 dərəcə isti olurdu…

***

Yol maşınla dolu idi. Baxmayaraq ki, insanların həyatı üçün xeyli təhlükənin mövcud olduğu güneyə – müharibənin davam etdiyi bölgələrə yaxınlaşırdıq, qətiyyən həyəcanlı deyildim. Çünki ətrafımdakı hər kəs həyata nikbin baxırdı. Onların bu ovqatı məni də sakitləşdirirdi.

– Postu keçdik, artıq Kərkük torpaqlarındayıq. Bura Kərkük vilayətinin ərazisidir, – Riyaz

bəy başı ilə pəncərədən çölə işarə elədi. – Heyif ki, gəlmələrin at oynatdığı halal torpaqlarımızın sahibi deyilik, – səsi titrədi.

Maşında nisbi sakitlik yarandı. Pəncərədən ucsuz-bucaqsız, bərəkətli çöllərin məhsuldar zəmilərinə zillənərək, indiyədək oxuyub-öyrəndiyim Kərkük həqiqətlərini bir-bir gözlərimdə canlandırdım.

Hə, budur, bolsulu Kiçik Zab çayına çatdıq. Maşın çayın üstündəki körpünü keçib bir az irəlilədikdən sonra nisbətən kiçik, amma həyatın aşıb-daşdığı, sakit, yaşıllıqlara qərq olmuş Altunkörpü şəhərinə yetişdik.

Kərkük–Ərbil şosse yolu üzərində yerləşən Altunkörpü Kərkük vilayətinin şəhəri olub, çox böyük strateji əhəmiyyətə malikdir. Kərkükdən 44 kilometr şimalda yerləşən bu şəhərdə müxtəlif mənbələrə görə, təxminən 12 min nəfər yaşayır. Əhalisinin tamamı türkməndir. İŞİD-in hücumlarından canını götürüb qaçan çox sayda türkmən ailə də bura sığındığı üçün, şəhər daha da böyüyüb.

Allah Altunkörpüyə elə əsrarəngiz təbiət bəxş eləmişdi ki, baxmaqla doymaq olmurdu. Kiçik Zab çayının bol suyu ilə suvarılan bu torpaqlarda nə istəsən əkib yetişdirmək mükün idi və bundan istifadə edən yerli camaat Allahın verdiyi bu nemətdən maksimum yararlanmağa çalışırdı.

Şair Səttar Körpülü öz şerində Altunkörpünü yaxşı təsvir etmişdi:

*Zab suyu keçər içindən,*
*Altunkörpü, məmləkətim.*
*Yandım, öldüm həsrətindən,*
*Altunkörpü, məmləkətim.*

*Oğuzxanın bir Bozqurdu,*
*Tikdi körpünü, yurdu,*
*Torpağında məskən qurdu,*
*Altunkörpü, məmləkətim.*

*Doğuldum, böyüdüm mən orda,*
*Başım heç qalmadı darda,*
*Çalışdım yağmurda, qarda,*
*Altunkörpü, məmləkətim.*

*Millətin vermiş əl-ələ,*
*Yaşarlar könül könülə,*
*Bənzərlər baxçada gülə,*
*Altunkörpü, məmləkətim.*

*Hər könülün fərmanısan,*
*Bütün dərdin dərmanısan,*
*İgidlərin xırmanısan,*
*Altunkörpü, məmləkətim.*

*Vəsiyyət etdi ata, ana,*
*Şeir, bayatı yazım sana,*
*Deyirlər körpülü mənə,*
*Altunkörpü, məmləkətim.*

Hər yan yaşıl libasına bürünsə də, hər ürəkdə amansız cəhənnəm yanğısı alovlanırdı. 1991-ci

il mart ayının 28-də Səddam Hüseynin əsgərləri burada 100-dən çox, bəzi mənbələrə görə isə 135 günahsız türkməni məhz türkmən olduqları üçün güllələyib. Qətliamdan sonra yerli xalq şəhidlərin meyitlərini toplayaraq əsas magistralın sol kənarındakı qəbiristanlıqda dəfn ediblər. Daha sonra isə qətliam zamanı həlak olanların ad-soyadları yazılmış böyük bir lövhə hazırlanaraq məzarlığın girişində quraşdırılıb.

Yılmaz maşını sağa çəkib saxladı. Öncə niyə dayandığımızı bilməsəm də, Riyaz bəy “düşək, şəhidliyi ziyarət etmədən keçə bilmərik” deyib qapını açdı.

Türkmən şəhidlərin dəfn edildiyi məzarlıq yolun sol tərəfində yerləşirdi. Ətrafını qollu-budaqlı ağacların sardığı məzarlar, dizədək qalxmış yamyaşıl otların, sarıçiçəklərin, qan qırmızı ləçəklərini günəşə açan lalələrin içində cənnətə bənzəyirdi. Bəlkə də yanılmırdım: 100-dən artıq şəhidi qoynunda uyudan məzarlıq elə cənnətin özü idi.

Riyaz bəy şəhidlərin ruhuna dua oxuyandan sonra, ürək ağrısı ilə də olsa, bir neçə məzarın başdaşının üzərini oxudum. Aziz Ali Said, Saib Tatar Kadir, Ahməd Ənvər Köprülü... Soyad və ata adlarının eyniliyindən bəzi şəhidlərin bir ailəni təmsil etdiyini başa düşdüm. Məsələn, Turan Əhməd Ənvər və Atilla Əhməd Ənvər, yaxud Amir Mithat İzzət, İsam Mithat İzzət və Hani Mithat İzzət, yaxud da Mansur Mazlum Nuri, Çingiz

Mazlum Nuri və Nuri Mazlum Nuri adlı şəhidlər hansısa konkret bir ailənin itkiləri idi. Səddam rejiminin türkmən xalqına zülmü o həddə yüksəlmişdi ki, əsgərlər qətlə yetirdiyi türkmənlərin meyitlərini belə ailələrinə vermirlərmiş. Dəqiq faktların birində deyilir ki, hətta bəzi meyitlər ailələrinə 3 həftə sonra verilib...

Gedəni geri qaytarmaq olmaz deyib babalarımız. Türkmən xalqı 1991-ci ildən bu yana hər il mart ayının 28-də Altunkörpü şəhidlərinin xatirəsini göz yaşları içində anır.

Altunkörpüdən bayaqdan ayrılmışdıq. Günortadan xeyli keçdiyi üçün, Yılmaz maşını yüksək sürətlə sürürdü ki, Kərkükdə türkmən xanımların 8 mart qadınlar bayramı günü münasibətilə təşkil etdiyi tədbirə yetişək. Bu səbəbdən, Riyaz bəy də sürətin yüksək olmasına etiraz eləmirdi.

Bir azdan Kərkükün əsasən şəxsi mülklərdən ibarət məhəllələri uzaqdan gözlər önündə canlandı. Başdan-başa iki və üç qatlı villalar sıralanan ucsuz-bucaqsız məhəllə deyəsən yeni salınmışdı. Çünki əksər evlərin suvağı demək olar ki, qurumamışdı. Deyəsən yanılmırdım. Pəncərədən Kərkükün geniş mənzərəsini seyr edən Riyaz bəy:

– Baxın, Şivan adlanan bu yerlərdə yaxın illərədək bir dənə ev yox idi. Amma İŞİD-dən qaçan kürd ailələri planlı şəkildə burada yerləşdirdilər. Bütün bu evlər xüsusi ayrılan fond tərəfindən tikilib, kürdlərə verilib, – Riyaz bəy gözlərini evlərdən çəkmədən ani susdu.

Avtomobil şütüdükcə yeni salınmış məhəllənin bir-birindən qətiyyən seçilməyən villaları adamı təəccübləndirirdi. Kərkükdə kürdlərin yaşadığı məhəllələr çox idi – İmam Kasım, Şorca, Kür Rahimala, Pəncali. Amma o məhəllələrin tarixi bir az daha əski olduğu üçün, Şuvandakı bir-birinin əksi olan boz evlər kimi yekcinsliyi ilə adamı heyrətləndirmirdi.

– Şuvan bölgəsinin torpaqları anamın anasına – nənəmə məxsusdur. Amma gördüyünüz kimi, kürdlər zəbt edib, məskunlaşıblar, – Riyaz bəy dedi.

– Siz onları ərazinizdən çıxara bilərsiniz, məhkəməyə verin... – heyrətlə etiraz elədim. – Məsələn, Azərbaycanda heç kim başqasının torpaqlarını bu cür qəsb edə bilməz. Hətta edərsə, mütləq qanunla cəzalandırılar və əlbəttə ki, mülk sahibinə vurulan ziyan ödənilər, – dedim.

Riyaz bəy sözlərimə gülümsəməklə reaksiya verdi. Başını bulayaraq:

– Bura Azərbaycan deyil, İraqdır, müharibə gedir, daxildə hərbi-siyasi qarışıqlıq ifrata varıb. Ona görə də silahlanan kürd təşkilatları istədikləri kimi fürsətdən yararlanırlar, – cavab verdi. – Arxalarında Kürdüstan dayanır, Bağdad da onları dəstəkləyir, üstəlik Peşmərgə də. Bu bölgələrdə bütün hakimiyyəti əlində cəmləyən Kürdüstan muxtariyyəti Kərkükü kürdləşdirmək istəyir. Ona görə də hər tərəfdən gətirtdiyi kürd ailələri burada yerləşdirib. Nəticəsi də göz qaba-

ğındadır – tarixi türkmən şəhəri olan Kərkükdə bu gün kürdlər çoxluq təşkil edirlər, – əlavə etdi.

Təxminən 600 min nəfərin yaşadığı Kərkük şəhərinin, Türk Əhmədağa, Musalla, Almas, Bağdad yolu, Sarıkahya, Həmzəlilər və sair kimi qədim türkmən məhəllələri son zamanlar xüsusi plan əsasında bura köçürülən kürdlərin tikdiyi evlər arasında əriməkdəydi. Əsasən bir-iki mərtəbəli evlərin əksəriyyətinin yeni tikildiyi aydın görünürdü. İş o yerə çatmışdı ki, kürdlər hətta qədim Kərkük qalasının guya onlara məxsus olduğunu iddia edirdi. Hətta qaladan asılan türkmən bayrağını endirib yerinə Kürdüstan bayrağını sancmışdılar ki, bu da kürdlərlə türkmənlər arasında qarşudarmaya səbəb olmuşdu. Bu yerdə şair yaxşı deyib:

*Həzan vurdu bizim Türkmən elinə,*
*Lənət olsun yadın qazma belinə,*
*Canım qurban Türküm deyən dilinə,*
*Qara duman sardı yurdu heç olduq.*

*Elifiykən dala döndük zamannan,*
*Zalım dövran həp uğraşdı gümannan,*
*Həsrət qaldıq tanışmadıq amannan,*
*Taleh bizi görməz oldu, heç olduq.*

*Sevdalıyam mən Kərkükün daşına,*
*Yoxsulların gözdən axan yaşına,*
*Qorxum odu bir şey gəlsin başına,*
*Qara tapu qoynumuzda heç olduq.*

*Sevda quşu əlimizdə varıydı,*
*Kasıb-zəngin bir-birinə yarıydı,*
*Gedən canlar bizlər üçün barıydı,*
*Hanı gəlsin gül adamlar heç olduq…*

Bir az da Kərkük şəhəri haqda danışaq. Şəhər paytaxt Bağdaddan 236 kilometr şimalda, Ərbildən isə 83 kilometr cənubda yerləşir. Eyni zamanda, Kərküklə Mosulu 149, Süleymaniyyəni 97, Tikriti 116 kilometr məsafə ayırır.

Kərkük şəhəri coğrafi baxımdan əsasən ovalıq ərazidə salınıb. Eyniadlı qala isə ətəyindən, qışda dolub-daşan, yayda isə quruyan Hasa çayının axdığı təpənin üzərində tikilib. Çay isə öz növbəsində şəhəri Əskiyaka və Koryayaka adlanan iki hissəyə bölür.

Antik Assuriya dövlətinin paytaxtı Arrapa şəhərinin xarabalıqları yaxınlıqlarında yerləşən Kərkükün tarixi 5 min il əvvələ uzanır.

Hesab edilir ki, əvvəl qaladan ibarət olan, amma əhalinin sürətli artımı nəticəsində böyüyən şəhərdə, qaladan kənar ilk məhəllələr XVII əsrdə salınıb. Əskiyakada qalan, ətrafında müəyyən zamanda Çay, Çuxur, Musalla, Bulaq, Avcı, Piryadi, Ahi Hüseyn, İmam Qasım adlı səkkiz məhəllə, Koryayakada isə Şatırlı, Sarıkahya, Bəylər və Tisin adlı məhəllələr salınıb.

Kərkükün mərkəz bölgəsində və ətraf qəsəbələrdə türkmənlər yaşayır. Kürdlər isə əvvəllər ancaq şəhərin şimal bölgəsində məskunlaşıb.

Şəhərin mərkəzi hissəsində türkmənlərin yaşaması isə məntiqlə düşünməyə əsas verir ki, bura qədimdən türkmən şəhəridir. Yoxsa kürdlər şəhərin ətraf məhəllələrində deyil, türkmənlər kimi, ən qədim mərkəz hissəsində yaşayardılar.

Kərkük qədim türk mədəniyyətinin incisidir. Səlcuqlar, Teymurilər, Cəlayirilər, Səfəvilər, Qaraqoyunlu, Ağqoyunlu və Osmanlı kimi türk dövlətərinin idarəetməsində inkişaf edən şəhərin (Hətta 1533-1536-cı illərdə Kərkük Gökyurt qonağı adlandırılırdı), guya minillər boyu kürd və ya ərəblərə məxsus olması haqda deyilənlər qətiyyən inandırıcı görünmür. Hətta Osmanlı hökuməti əhalisinin türk olduğunu nəzərə alaraq, Kərkükü 1850-ci ildə Yeni Şəhrizor, 1879-1883-cü illərdə isə yeni yaradılan Mosul vilayətinin inzibati mərkəzi edir.

Əsasən bir-iki qatlı şəxsi tikililərin yayıldığı Kərkük çoxmillətli şəhərdir. Osmanlı imperiyası dövründə burada əsasən türkmənlər yaşayıb. Amma Səddam Hüseynin hakimiyyəti dövründə, iqtidar xüsusi proqram əsasında kürd və ərəb ailələri Kərkükə köçürərək türkmənləri üçüncü xalq səviyyəsinə sıxışdırır. Hətta 1997-ci ilin statistikasına görə, Səddam hökuməti Kərkükdə ərəb əhalinin sayını 72 faizə qaldırır, əvəzində türkmənlərin sayı 7 faizə enir. Hə, kürdlər də bütün əhalinin 21 faizini təşkil edir. Təbii ki, Səddam Hüseyn devrildikdən, eləcə də İŞİD hücuma başlayandan sonra İraqın hər yerin-

dən kürd əhali Kərkükə köçürüldü. Hətta bunun üçün Kürdüstan tərəfindən xüsusi maliyyə fondları da yaradıldı ki, şəhərə köçən kürd ailələrin yerləşməsi üçün evlər tikilsin və ya alınsın. Kərkükə köçürülən kürdlər üçün minlərlə saxta sənədlər tərtib olunub. Üstəlik, İraqın hər yerində doğulan kürd körpələr məhz bu şəhərdə doğulublarmış kimi qeydiyyata alınıblar. ABŞ da öz növbəsində kürd ailələrin Kərkükdə yerləşdirilməsinə dəstək məqsədilə burada 8 min evin tikintisi üçün Məsud Bərzaniyə kredit ayırıb. Bu da ortalama 60 min nəfər deməkdir. Ümumilikdə isə, Səddamdan sonrakı dövrdə məhz ABŞ-ın dəstəyi ilə yarım milyondan artıq kürdün Kərkükə köçürüldüyü deyilir. Bu da sonu: günümüzdə kürdlər Kərkükdə ən çoxsaylı xalq statusuna yiyələniblər. Amma məsələ bundadır ki, kürdlərin iddialarına baxmayaraq, türkmənlər tarix boyu şəhərdə hakim mövqedə olublar. Məsələn, tarixi vərəqləyəndə görürük ki, 1875-ci ildən başlayaraq 2003-cü ilədək Kərkükə rəhbərlik edən ümumilikdə 34 bələdiyyə sədrindən – Kırdar, Neftçi, Yakubi, Arslan və Salihi ailələrindən olmaqla – 22-si türkmən, 8-i ərəb, cəmi 4-ü (Təlabani və Bərzənci ailələrindən) kürd olub. Əgər qeyd edilən 34 bələdiyyə sədrinin üçdən ikisi türkmən olubsa, məntiqlə niyə yerli əhalinin üçdə birinin türkmən olduğunu düşünməyək?

Kərkükün əvvəllər ərəbləşdirildiyi kimi, son iyirmi ildir də kürdləşdirilməsi siyasəti yürüdü-

lür. Bunun nəticəsidir ki, Səddam Hüseyn devrildikdən sonra – sadəcə 2003-2010-cu illər arasında Kərkük bölgəsinə, yuxarıda qeyd etdiyimiz kimi, yarım milyondan artıq kürd köçürülüb. Əvəzində isə, min cür təsir və təzyiqlərlə ərəb və türkmən millətindən olan insanlar bölgədən uzaqlaşdırılıb. Hətta demək olar ki, Səddam Hüseyn devriləndən az sonra, İraqı işğal edən ABŞ-ın güclü təzyiqləri altında, parlament Anayasanın 140-cı maddəsinə etdiyi düzəlişlə Kərkükün statusunu müəyyənləşdirmək məqsədilə orada referendum keçirməyə yol açdı. Bu maddəyə əsasən Səddam dönəmində Kərkükdən zorla köçürülmüş əhali evlərinə qaytarılacaq, sonra əhali sayılacaq, ardıyla da status müəyyən olunacaqdı. Təbii ki, bu qərar həyata keçirilmədi...

Bu arada qeyd edək ki, yerli kürdlər israrla Kərkükün Kürdüstan muxtariyyətinə birləşdirilməsini, türkmənlər isə buna qarşı çıxaraq, şəhərə xüsusi statusun verilməsini istəyirlər.

Azərbaycanda bir deyim var: sən saydığını say, gör fələk nə sayır. Bağdadda və Ərbildə yazılan ssenarilərə əsasən Kərkükün əvvəlcə ərəbləşdirilməsi, sonra da kürdləşdirilməsi prosesi gedib, eyni zamanda, türkmənlərə təzyiq məqsədilə 1924, 1946 və 1959-cu ildə böyük qətliamlar kəyata keçirilib, 1980-ci ildə türkmən liderlər dar ağacından asılıb, sui-qəsdlər, sürgünlər, assimilyasiya siyasəti, qorxudaraq zorla öz milli kimliyini inkar etdirmələr yaşanıb, türk-

mən əhali dədə-babadan yaşadıqları torpaqlarından tamamilə yzaqlara – ölkənin ərəblər yaşayan şəhərlərinə köçürülüb, yetər ki, Kərkük və civarındakı türk yurdları ərəblərə və ya kürdlərə qalsın.

Yadıma düşmüşkən, 1959-cu ildə türkmən xalqına qarşı həyata keçirilən amansız qətliamdan bir-iki kəlmə deməsəm olmaz. Hətta bu mövzuda Azərbaycan mətbuatında böyük bir məqalə də yazmışdım...

Kərkükdə 60 il əvvəl nə baş verdi, türkmənlər nə etdilər ki, sözün əsl mənasında qətliam yaşandı – canı canımızdan, qanı qanımızdan olan türkmən xalqına amansız divan tutuldu? 1959-cu ilin 14-16 iyul tarixlərində Kərkük və ətrafında – bütün Türkmənelidə günahsız, öz milli haqlarını ala bilməyən xalqa qarşı törədilən cinayətlər türkmənlərə qarşı soyqırımın pik nöqtəsi sayıla bilər.

Birbaşa İraq Silahlı Qüvvələrinin 2-ci ordusunun gözləri qarşısında, Kərkük və çevrəsində türkmənlərə qarşı hücuma keçən silahlanmış kürdlər üç gün üç gecə ərzində nə qədər türkməni qətlə yetirdi, nə qədərini yaraladı, onlarla türkmənin ömrünü sərf edərək tikib-qurduğu evini soyub-taladı, yandırıb xarabaya çevirdi, dükanlarını yığıb-yığışdırıb apardılar. Elə isə İraqın 2-ci ordusu niyə kürdlərə gözün üstə qaşın var demədi? Cavab aydındır: çünki onlar türkü öldürürdülər – ərəbin gizli, kürdlərin isə açıq-aşkar

nifrət bəslədiyi bir millətin nümayəndələrini...

Türkmənlərə qarşı yaşanan qətliamın məhz bu tarixdə baş verməsi də qəribədir. Çünki tam bir il öncə – 1958-ci ilin 14 iyul tarixində İraq Kürdüstanının keçmiş rəhbəri, Məsud Bərzaninin atası Molla Mustafa Bərzani 11 il yaşadığı, Türkiyə və türk milləti ilə tarixi ədavəti olan, Türkiyəyə qarşı hücumlar təşkil etmək üçün PKK-nı yaradan SSRİ-dən İraqa qayıtmışdı. Bundan ilhamlanan kürdlər artıq özlərini İraqın sahibi saymağa başlamışdılar. Rəsmi Bağdadın coşan kürdlərin davranışına göz yumması, arxada isə onları türkmənlərə qarşı hücuma həvəsləndirməsi nəticəsində Kərkük qan gölünə çevrildi. Məhz bu tarixdə siyasi və ictimai tribunalarda söz deyə bilən türkmən aydınlar qara siyahıya alınıb, bir-bir evindən və ya iş yerindən qaçırılaraq ya öldürülüb, ya da ağır işgəncələr verilərək ərəb hakimiyyətinin əli ilə zindanlara atılıblar. Bununla da kifayətlənməyən azğınlaşmış kürdlər qədim türk şəhəri Kərkükün bütün idarəetmə orqanlarına kürd və erməniləri təyin ediblər. Nəticədə isə Kərkükdə türkcə yayımlanan mətbuatın fəaliyyəti dayandırılıb, türk dilində danışmaq yasaqlanıb. Ardıyla da Sovet İttifaqında təlim keçmiş kürd kommunistlər kütləvi şəkildə Kərkükə yerləşdirilib, onlar da öz növbələrində yerli kürdləri silahlandıraraq İraqın daxilində de-fakto ordu yaradıblar. İyulun 14-də isə Cümhuriyyət elan olunmasının ilk ilini bayram edən

insanlar rəsmi keçid zamanı yuxarıda haqqında söz açdığımız SSRİ-nin agentləri olan kürd silahlılar tərəfindən gülləboran ediliblər. Sadəcə güllələsəydilər nə dərdləri vardı, insanları ailəsinin gözləri qarşısında diri-diri torpağa basdırıblar, meyitləri məftillə maşınlara bağlayaraq küçələrdə sürüyüblər, kimlərin gözləri çıxarılıb, kimlərin cəsədləri hissələrə parçalanıb, kimlərininsə meyitləri elektrik dirəklərindən asılıb və sair.

Haşiyə: bu vəhşət 60 il öncə türkmən qardaşlarımıza qarşı edilsə də, müstəqilliyinin ilk illərində insan qanına susamış ermənilər eyni üsulu günahsız azərbaycanlılara qarşı tətbiq edib. Türkmənelidə insanlar boş yerə özlərini azərbaycanlı saymırlar. Həqiqət budur: dilimizdəki sözlərin çoxu, şivələr, adət-ənənələr eynidir. Təəssüf ki, tarix boyunca bəxtləri də azərbaycanlılarınkı kimi gətirib. Onlara zərbəni həmişə kürdlər vurub, azərbaycanlılara isə ermənilər. Kürdləri də ruslar və Qərb əlinin altında oynadır, erməniləri də. Amma hər ikisinin hədəf eynidir – türk milləti...

... İyulun 15-də dünyada şok təsiri yaradan Kərkük qətliamına qardaş Türkiyənin sərt reaksiyası Bağdadı özünü toparlamağa məcbur eləyib. Tarixi mənbələr yazır ki, İraqın o vaxtkı hökuməti Türkiyənin Bağdaddakı səfiri vasitəsilə Ankaranı əmin edib ki, türkmənlərə qarşı bir də belə münasibət təkrarlanmayacaq. İlkin addımlar da atılıb: türkmənlərə qarşı qətliamda iştirak edən 260 kürd tutulub, onlardan 28 nəfəri edam

edilib, bir çoxu həbs olunub. Amma təəssüf doğuran haldır ki, günahkar olmasına baxmayaraq çox sayda əliqanlı kürd qatil sərbəst buraxılıb. Əlbəttə, hökumətin kürdlərə sərt davranmadığını görən türkmən fədailər təxminən 40 qatili taparaq qətlə yetirib, xalqın qisasını alıb.

Hə, onu da deyim ki, bəhs etdiyimiz qırğınlar və ağır təzyiqlər müasir dövrümüzdə İŞİD terrorçularının, PKK-nın vasitəsilə davam etdirilir. Sadəcə 2003–2019-cu illər arasında Mustafa Kamal Yayçılı (14 may 2004-cü il), Yaşar Cengiz, Sabah Karaaltun (3 iyun 2005-ci il), Əli Haşim Muhtaroğlu və Əhməd Əbdülvahid Koca (24 iyun 2013-cü il), Münir Kafilî (23 iyun 2014-cü il) və sair kimi çox sayda türkmən siyasətçi, ziyalı, həkim, iş adamı, müəllim İŞİD və ya PKK terrorunun qurbanı olub.

Amma kərküklülər heç də bədgüman deyillər, türkmən şair Hüseyn Şükürün qələmə aldığı şeirdə deyildiyi kimi:

*Günəşimiz doğacaq,*
*Yaban ellər gedəcək.*
*Bu çilələr dolacaq,*
*Üzülmə sən, Kərküküm.*

*Bir gün özgür olacaq,*
*Azadlığa qovuşacaq,*
*Hamısı bizə qalacaq,*
*Atam yurdu, Kərküküm.*

*Altundan tac yapacaq,*
*Altına taxt quracaq,*
*Düşmənə saldıracaq,*
*Sənin uğruna, Kərküküm.*

*Bil ki, qanın verəcək,*
*Canın fəda edəcək,*
*Məncə sənə yetəcək,*
*Bir tək türkmən, Kərküküm.*

*Mavi devrim yapacaq,*
*Sonra qaçan qaçacaq,*
*Gülən ən son güləcək,*
*Sən də gül, can Kərküküm.*

***

Maşın köhnə və dağınıq görünüşlü, amma tipik şərq şəhəri olan Kərkükün enli, hər dirəkdən, hətta binaların damından Kürdüstan bayrağı asılmış küçələrini dolaşaraq sakit məhəllələrdən birində dayandı.

Həyət qapısının qarşısında bir neçə hərbi mundirli, əliavtomatlı adam dayanmışdı. Yanlarından ötüb içəri girər-girməz özümü böyük bir izdihamın içində gördüm. Xanımlar rəngarəng, milli qiyafətdə idilər. Hamısı da şən, bir-birindən mehriban.

Hündür divarla əhatə olunmuş kiçik həyətdə sırayla rəsm əsərləri sərgilənirdi. Soruşdum, dedilər 8 mart bayramı olduğundan, burada an-

caq qadın rəssamların əl işləri nümayiş etdirilir. Bəzilərinə diqqətlə nəzər yetirdim: hər biri günahsız yerə tökülən qanı, şəhidlərin harayını, gündən-günə millətdən qarış-qarış qoparılan torpaq namusunu, milli haqları canlandırırdı. Ədalət arayan əsərlərin hər birində, xüsusilə də, qadınların əzabı daha ciddi qabardılırdı. Qadın isə anadır və onlar bildirirdilər ki, analar İŞİD terrorçularının əsarətindədir, analar şəhid balalarına qovuşmaq istəyir, analar gələcəyə yeni nəsillər bəxş edərək Türkmənelinin rifahı və asayişi, millətin özünü dərk eləməsi üçün çalışırlar…

Həyətə çıxan bir xanım niyə burada dayandığımı soruşub, içəri girib tədbir işğtirakçıları ilə tanış olmamı istədi. Görən kimi tanıdım, Kərkükdə və bütün Türkməneli yurdunda tanınan və sevilən, İraqın keçmiş millət vəkili Feyha Bayatlı idi. Bu o Feyha Bayatlı idi ki, türkmənlərin haqqının qanunlarda isbatı üçün Bağdadda hökumət binasının qarşısında çadır qurmuşdu. Bu o Feyha xanım idi ki, türkmənlərin haqqının dünyada tanınması üçün böyük mücadələ etmişdi və bu gün də var qüvvəsi ilə buna çalışırdı.

Birlikdə salona keçdik. İçəridə o qədər adam vardı ki, gəl görəsən. Səs-küydən, necə deyərlər, ağız deyəni qulaq eşitmirdi. Hamının üzündən sevinc yağırdı. Hə, lap qabaq cərgədə bir kişi də vardı. Davranışından və mülki paltarın üstündən zirehli gödəkçə geyindiyi üçün vacib şəxsə oxşayırdı. Özüdür ki var, Türkmən Cəbhəsinin başqa-

nı, millət vəkili Ərşad Salehi idi.

Yol yorğunu olsam da, ayaqüstü bir neçə xanımla söhbətləşdim. Hər biri fərqli sənətin sahibi olsa da, problemləri, ümumi istəklərləri bir idi – İŞİD-in zülmündən qurtulmaq və türkmənlər olaraq öz təbii haqlarına qovuşmaq.

Öz simamda Azərbaycana da böyük hörmət gördüm. Hər kəsin dilində-könlündə Azərbaycana sonsuz sevgi vardı. Kim mənimlə görüşürdü, «biz də azərbaycanlıyıq», «türkmənlər Türkiyədən daha çox Azərbaycana yaxındır», «biz eyni dildə danışırıq» və sair deyirdi.

Elə həyətdəcə, Feyha xanımın gətirdiyi tortdan ayaqüstü bir-iki tikə atışdırıb, oradan ayrıldım.

Yılmaz dedi ki, Riyaz bəy bizi Türkməneli Partiyasının binasında gözləyir, ora getməliyik. Əlbəttə ki, yola düşdük və beş dəqiqə keçməmişdi ki, Qüds prospektində şütüyən maşınımız İhsanoğli ticarət evinin yaxınlığında dalana girib dayandı.

Sakit məhəllə idi. Küçənin hər iki tərəfində əsasən iki və üç mərtəbəli müasir həyət evləri sıralanmışdı. O cümlədən, Türkməneli Partiyasının iki mərtəbəli binası da öz balaca həyətində qonaq-qara ilə aşıb-daşırdı.

Çox maraqlı idi: Kərkükdə hər bir partiya, hər bir dövlət və özəl qurumun ofisinin şqarşısında silahlı mühafizəçilər dayansa da, bölgənin ən iri siyasi təşkilatlarından olan Türkməneli Partiyasının qapısında kimsəni görmədim. Sanki burada-

kıları nə İŞİD, nə də başqa təhlükə narahat edirdi, adamlar tam rahat şəraitdə öz işlərindəydilər.

Yeri gəlmişkən, İraqda keçirdiyim iki gün ərzində görüşüb söhbətləşdiyim hər kəs Türkməneli Partiyasının əsl xalq yığıncağı olduğunu deyirdi. Hələ partiyanın sədri Riyaz Sarıkahyanı demirəm, sözün əsl mənasında türkmən millətinin fədaisidir. Bu insan bütün canı-qanı ilə həyatını xalqına həsr edib. Başqa irili-xırdalı partiyalar hərəsi bir yerdən maliyyə yardımı aldığı halda, Türkməneli Partiyasına kimsədən bir dinar pul gəlmir. Hər şeyi öz hesabına həll edən partiya türkmənlərin gələcəyini siyasi müstəqillikdə görür. Hansı ki, bəzi partiyalar türkmənlərin gələcəyini ya Kürdüstanla birlikdə, ya da Bağdad hökumətinin hökmündə təsəvvür edir. Türkməneli Partiyasında düşünürlər ki, türkmənlərin yığcam yaşadığı Türkməneli bölgəsi ayrıca inzibati subeykdir və bütün hallarda onun siyasi varlığı qəbul edilməlidir. Hətta Kürdüstan muxtariyyətinə birləşsələr, o zaman bu muxtariyyətin adı dəyişməli və hər iki xalqın maraqlarını qoruyacaq ad almalıdır. Təbii ki, kürdlər bunu qəbul etməzlər...

Hə, qeyd edim ki, Türkməneli Partiyası 27 il əvvəl – 1994-cü ildə qurulub. İlk yaradıldığı vaxt adı Türkmən Birlik Partiyası olub. Amma 1996-cı ildə struktur islahatları aparılıb və təşkilat da Türkməneli Partiyası adlandırılıb. Partiya sırf türkçülük idealogiyasını təbliğ eləməkdədir.

Eyni zamanda, Türkməneli Partiyası xalq məclisi rolunu oynayır, heç vaxt öz mövqeyindən sui-istifadə etməyib. Əksinə, İraq türkmənlərinin yaşadığı coğrafi bölgənin – Türkmənelinin xəritəsini tərtib edib, bayrağını təsdiqləyib və bütün bunları digər türkmən milli partiya və siyasi təşkilatlarına da qəbul etdirə bilib. İraq dövlətinin ərazi bütövlüyünə tərəfdar olan Türkməneli Partiyası türkmənlərin yaşadığı coğrafi bölgəyə muxtariyyət almaq üçün mübarizə aparmaqdadır. Türkmən Cəbhəsinin (İTC) də qurucusu məhz Türkməneli Partiyasıdır.

...Kərkükün ətraf kənd və qəsəbələri İŞİD terrorçuları tərəfindən zəbt olunmuşdu deyə, mən şəhərdə olanda həmin əraziləri azad etmək üçün, ABŞ-ın havadan zərbə dəstəyi ilə İraq ordusu əks hücuma keçmişdi. Şəhərin qərbində yerləşən, türkmənlərin yaşadığı Bəşir qəsəbəsi uğrunda döyüşlər gedirdi. Ona görə də İraq ordusundan qisas almaq fikrinə düşə biləcək terrorçuların şəhərdə mümkün partlayışlar törədə, silahlı basqın edə biləcəklərini nəzərə alaraq maksimum təhlükəsizlik tədbirləri görülmüşdü.

Binanın birinci mərtəbəsində yerləşən böyük salona keçdim. Divarboyu yumşaq divan və kreslolar düzülən bu böyük salonda, Riyaz bəy həm partiyaya gəlib-gedən qonaqları qəbul edir, həm də yığıncaqlar-müzakirələr burada aparılırdı. Salon yuxarı başda öz-özünə açılıb-bağlanan avtomat şüşə qapılarla Riyaz bəyin sədr kabinetinə açılırdı.

Pəncərənin altında – üzü qapıya sarı oturub, telefonda qurdalanmağa başlamışdım ki, bir gənc yaxınlaşdı. Tanış olduq. Adı Ömər idi. Dedi əslən Mosuldandır, amma şəhərin işğalından əvvəl Kərkükdə olduğu üçün, indi evlərinə qayıda bilmir.

– Bir gün eşitdik ki, İŞİD terrorçuları Mosulu işğal edib. Nə edəcəyimi bilmirəm, anam-atam, bacı-qardaşlarım – hər kəsim ordadır, – Ömər gözlərini yerə dikdi. – Mən Kərkükdə təhsil alıram, İŞİD Mosula girəndə burada olmuşam.

– Heç olmaya evinizdə salamatçılıqdırmı, əlaqə saxlayırsanmı? – soruşdum.

– Arada telefonla danışırıq. Amma onlar çox qorxurlar. Hətta telefonla da elə yerdə danışırlar ki, İŞİD terrorçuları duyuq düşməsinlər. Onlar nağıllardan oxuduğumuz kabus kimidirlər, ancaq öldürürlər, həm də bunu həzz alaraq edirlər, – səsi titrədi.

Maraqlıdır, ailəsi, qohum-əqrabası Mosuldadırsa, bəs bu gənc indiki çətin zamanda Kərkükdə necə yaşayır, nə yeyib-içir? Elə bil nə fikirləşdiyimi üzümdən oxudu. Sakit tərzdə:

– Allah Riyaz bəyə ömür versin, məni burada işlə təmin edib. Elə ikinci mərtəbədəki otaqların birində də qalıram. Yəni həm aylıq maaşım var, həm də yatacaq yerim. İnşallah, yəqin ki, Mosul çox qalmaz işğalda, dövlət vətəndaşlarını mütləq azad edər, – dedi. – Riyaz bəy müqayisəolunmaz insandır. Tək mənə deyil, çox adama sahib

çıxıb. O, əsl liderdir, – əlavə etdi.

Azərbaycanda bir məsəl var: düz adam sözünün üstünə gələr. Söhbətin bu yerində salona daxil olan Riyaz bəy mənimlə üzbəüz divanda əyləşdi. Gah mənə, gah da Ömərə baxdı. Sonra Kərkükü bəyənib-bəyənmədiyimi, görüşdüyüm çoxsaylı insanlar haqda nə düşündüyümü soruşdu.

– Bəzən adam gecələr elə sehrli yuxu görür ki, ayılmaq istəmir. Kərkük də mənim yuxumdur, – dedim. – Amma İraq şəhərlərini bu cür dağıdılmış görmək məni çox ağrıdır. Budur, Ömərin ailəsi, qohum-əqrabası Mosul kimi bir şəhərdə qaçaq-quldurun əlində qalıb. Hər yerdə deyirəm ki, İraq bəşər tarixinin canlı muzeyidir, ona toxunmaq olmaz.

Çarəsiz vəziyyətdə başını bulayan Riyaz bəy heç də özünü ümidsiz göstərmək istəmirdi. Atalar boş yerə deməyib ki, hər qaranlıq gecənin bir işıqlı sabahı olur. O da gec-tez İraq dövlətinin özündə təpər taparaq dirçələcəyinə əmin idi.

– İraqı parçalayıb, yenidən qurmaq istəyirlər. Mosulun işğal olunması bu məqsədi güdür, – dedi. – Mosul İraqda Bağdad və Bəsrədən sonra 3-cü iri şəhərdir. Əhalisinin çoxu sünni ərəblər, qalanları türkmənlər, kürdlər, yezidilər, xristianlardır. Mosulda yaşayan 4 milyon əhalinin 22 faizi türkmənlərdir. Bu da 880 min nəfər edir. Oradakıların cəmi 18 faizi kürdlərdir. Baş nazir seçildiyi gündən Malikinin hökuməti bu şəhərə qəti fikir verməyib. Ölkə əhalisinin 13 faizi Mosulda

yaşadığı halda, büdcədən ora cəmi 3 faiz maliyyə ayrılıb. Hansı ki, əhalinin faizinə uyğun olaraq 13 faiz ayrılması lazım idi. Müqayisə üçün deyim: bütün Kürdüstan muxtariyyətində Mosulun əhalisi qədər adam yaşayır, amma ora büdcənin 17 faizi ayrılır. Problmelər tək bununla bitmir, siyasi təcrid və məzhəb baxımından göstərilən münasibət Mosulla Bağdadı üz-üzə qoymuşdu. Radikal qruplar da bundan məharətlə istifadə etdilər. Yerlərdə islama meylin güclü olması isə onların xalq tərəfindən qəbuluna kömək göstərdi. İraqın bölgədəki ordusu Mosulda böyük həcmdə silah, bankları da xeyli pul qoyub gedib. Suriyanın şimal bölgələri də bu prosesin tərkibidir. Bölgənin xəritəsində dəyişikliyin olacağını gözləmək lazımdır – bu qaçılmazdır!

Riyaz bəy anidən dayandı. Nə isə fikirləşibmiş kimi, tez də söhbətinə davam elədi:

– Əminəm ki, yeni cızılan xəritədə türkmənlər unudulmayacaq. Hadisələri yaxından izləyirik. Amma yaşanan yeniliklərdən yerli kürd hökuməti də yararlanmaqdadır. Nəticəsi də budur ki, artıq peşmərgə bölgəmizə nəzarət edir.

– Türkiyə Kərkükü tək buraxmaz, qoymaz ki, İŞİD və ya başqaları Kərkükə əziyyət versin. Təhlükə ciddiləşsə, müdaxilə edərlər, – fikrimi bildirdim.

– Tükiyənin müdaxilə edəcəyini düşünmürəm. Çünki xalq onsuz da Türkiyəyə böyük rəğbət bəsləyir. Yəni müdaxilə yanlış anlaşıla və xalqa

zərər yetirə bilər, – etiraz elədi. – İŞİD etnik mahiyyət daşımır, orada hər bir millətin nümayəndəsi var. Sələfi təməlli sünni təşkilatıdır, çox üzvü ərəb olsa da, orada istədiyiniz qədər türkmən və kürdə də rast gələ bilərsiniz. Amma şiə türkmənlər proseslərdən bir az narahatdırlar. Əslində biz türkmənlərin arasında məzhəb ayrılığı yoxdur, mübarizəmiz sırf milli müstəvidə gedir.

Riyaz bəy qəddini dikəldib, qürurla üzümə baxdı. Ərkyana tərzdə:

– Biz Azərbaycan dövlətindən Türkməneli yurdunda yaşayan azəri – türkmən qardaşlarına yardım etməsini gözləyirik. Bizim siyasi və mənəvi dəstəyinizə ehtiyacımız var, – dedi.

Çox gec idi. Yol yorğunu olduğumu nəzərə alan Riyaz bəy “indi sizi otelə aparacaqlar, yatın dincəlin, səhər proqramınız zəngin olacaq” dedi və qapının kandarında dayanıb bizə qulaq asan Yılmaza maşını işə salmağa işarə etdi.

Dörd qatlı otel şəhərin tam mərkəzində yerləşirdi. Düzdür, bir az baxımsız görünürdü, amma menecer dedi dedi ki, təmirə başlayıblar, otaqların yarısı artıq yenilənib, ilin sonuna bina yaxşı mənada tanınmayacaq.

Otel otaqlarının əksəriyyəti dolu idi – İŞİD-dən qaçan ərəb ailələr tutmuşdular. Mənim üçün ikinci qatda ayrılmış otağa da talib çıxıbmış, amma Riyaz bəyin istəyi ilə, otelin xristian-assur mənşəli xanım rəhbəri qərarı mənim xeyrimə verib.

***

Səhər erkən qalxmışdım. Pəncərədən bayıra boylandım: iri gövdəli xurma ağacı otel boyunca qalxaraq, qılınc yarpaqları ilə günəşin ilıq şəfəqləri önündə pərdə çəkmişdi. Bir anlığa fikirlərimdə şəhərin keçmişini vərəqləməyə başladım. Minillərə şahidlik etmiş Kərkük nələri yaşamayıb – soyqırımlar, milli mənsubiyyətinə görə insanların ev-eşiyindən didərgin salındığını, öz milli haqlarını dilə gətirən insanların edam olunmasını... Bu gün də mənzərəsi ürəkaçan deyildi. Dünənədək evlərində, kafe-restoranlarında türkülər səslənən bu qədim şəhərin küçələrində indi addımbaşı beton barrikadalar, tikanlı məftillər sarılmış divarlar, hər küncdə, hər tində gözlərini dörd açıb təhlükəsizliyi qoruyan əliavtomatlı döyüşçülər gözə çarpırdı. Bəli, 2015-ci ilin yazında Kərkükün, əslində bütün İraqın mənzərəsi bu cür görünürdü. Qadın-uşaq, qoca-cavan – heç kim küçədə rahat gəzib-dolaşa bilmir, axşam saatlarında isə ümumiyyətlə, kimsə qorxusundan küçəyə çıxmağa cəsarət etmirdi. Çünki qəfil küçələri silkələyən terror partlayışları hamının gözünü qorxutmuşdu.

Kərkük İraqın sayca beşinci böyük şəhəridir. Mənbələrə əsasən, şəhərin əsası 3 min il əvvəl şumerlər tərəfindən qoyulub. Hazırda Kərkük vilayətində yaşayan təxminən 1,3 milyon nəfərin 600 mini məhz bu şəhərin sakinləridir. Əvvəllər Kərkükün əhalisi tamamilə türkmənlər olub.

Amma Səddam Hüseynin dövründə köçürülmüş ərəblərin hesabına milli yeknəsəklik pozulub. Səddam devriləndən sonrakı dövrdə isə planlı şəkildə şəhərə köçürülən çoxsaylı kürd ailələr də türkmənləri azsaylı sakinlərə çevirib. Nəticə budur ki, hazırda Kərkükdə türkmənlər ümumi əhalinin 30 faizindən çox deyillər.

Mən şəhərdə olanda İŞİD-lə döyüşlər ətraf qəsəbələrdə gedirdi deyə partlayış səsləri Kərkükün hər bir evində aydın duyulurdu. Gecə saatlarında şiddətlənən döyüşlər zamanı Amerika qırıcıları terrorçuların mövqelərinə havadan bomba yağdırırdı. Aviazərbələrin gücü o qədər böyük idi ki, qaldığım otel, sanki zəlzələ baş verirmiş kimi, yerində ləngər vururdu. Hətta titrəyişin gücündən tavanın tozu başıma tökülürdü.

Səhər saatlarında partlayış səsləri kəsilsə də, yanımdakı türkmən dostlar dedilər ki, bu nisbidir, axşam yenidən bombardman başlayacaq.

Mən gələndə Türkməneli Partiyasının qərargahında xeyli canlanma vardı. Hamı mehriban, qayğıkeş, qonaqpərvər. Riyaz bəy də otağındaydı. Gədiyimi eşidib qarşıladı, xoş gəlmisən deyib, səhər yeməyi üçün masaya dəvət etdi. Süfrədəcə axşamkı bombardmandan söz açdım, Kərkükdə hərbi-siyasi vəziyyət haqda söhbət elədim.

– Türkməneli torpaqlarının yarısı bu gün İŞİD-in nəzarətindədir. Həmin ərazilərdə yaşayan türkmənlərin əksəriyyəti canlarını götürüb ölkənin dörd bir yanına köçüb. Hətta Türkiyəyə

köçənlər də az deyil, – Riyaz bəy dedi.

Armudu stəkanda buğlanan pürrəngi çaydan bir-iki udum içib sözünə davam elədi:

– Bu gün də İŞİD tərəfindən öldürülən türkmənlərin xəbərlərini almaqdayıq. Bu azmış, kürd partiyalar Kərkük və Duz Hurmatu bölgələrində ağalıq edirlər. Davamlı olaraq bu ərazilərdə türkmənlər girov götürülür, böyük pullar müqabilində sərbəst buraxılır, bir çoxları isə öldürülür. Məsələn, dünən axşam Kərkükdəki «Mərcan Hotel»in sahibi, əslən türkmən olan Emin Fiter qaçırılıb, oğlu isə öldürülüb. Onu azad etmələri üçün yarım milyon dollar istəyirlər. Özü də onu bizim partiyadan iki tin arxada yerləşən küçədəki evinin qabağından qaçırıblar. Beş gün əvvəl də bir gəncimiz, ondan bir həftə əvvəl isə başqa bir türkmən qətlə yetirilib. Biz kürd mənşəli qatillərdən şübhələnirik. Türkmənlər bu gün çox narahatdır. Xüsusilə də Türkiyə PKK-ya qarşı əməliyyatlara başlayandan sonra terrorçuları dəstəkləyən kürd qruplar hərəkətə keçib. Biz də türkmən partiyalar olaraq kürd partiyalarının liderləri ilə danışıqlar aparmağa başlamışıq. Təbii ki, kimsə bu cinayətlərin məsuliyyətini öz üzərinə almır. Qısa desəm, Kərkükdə türkmənlərin aqibəti ilə maraqlanan yoxdur, cinayətkarların tutulması üçün heç bir iş görülmür.

– Valiyə şikayət edin, – dedim.

– Telefonla danışırıq, ola bilsin bu şənbə yenə görüşdük. Amma əminik ki, o da baş verənləri

adi cinayət adlandıracaq, siyasi mahiyyətini gizlədəcək, – deyə Riyaz bəy bir anlığa susdu. Nədənsə əminmiş kimi, – tək Kərkük deyil, bütün İraq dövləti xaos içindədir, – dedi.

– Xaos ancaq türkmənlərə ziyan vurur! – hirsimi boğa bilmədim.

– Elədir, – sözümə qüvvət verən Riyaz bəy, – Hökumətdə islahatlar aparılır, hökumət üzvlərinin sayı 33-dən 22-yə endirilib. Bu yaxşıdır, amma rüşvət və korrupsiyada adı hallanmayan, işini tam ləyaqətlə görən türkmən nazirimiz Məhmət Mehdi niyə vəzifəsindən azad olundu? Axı o, türkmən olsa da, əslində bütün İraqı idarə edən şiələrin təmsilçisiydi və İnsan Haqları Nazirliyinə başçılıq edirdi. Artıq hökumətdə bir nəfər də olsun türkmən nazir qalmayıb. Odur ki, türkmən milləti olaraq narazıyıq. Bir qrup türkmən Bağdadda aksiya da keçirib. Bu günlərdə Kərkükdə də türkmənlərin etiraz aksiyası olub. Məqsədimiz ictimai diqqəti üzərimizə yönləndirməkdir. Bu böyük haqsızlıqdır. Təsəvvür edin, bəyənmədiyimiz keçmiş baş nazir Malikinin dönəmində türkmənlərin 3 naziri vardı, İbadi isə onların hamısını kənara atdı. Biz xalq olaraq islahatları dəstəkləyirik, amma hökumətdəki təmsilçilərimizin kənara atılmasını qəbul edə bilmərik.

– Kürdlərin neçə naziri var? – soruşdum.

Sualımı eşitcək özündən asılı olmayaraq nurani simasında təbəssüm yaranan Riyaz bəy:

– Kürdlərin nazirlərinə toxunmayıblar, – dedi.

– Çünki Bərzani onları hədələdi. Həm də, axı prezident də kürddür. Parlamentin sədri sünni ərəb, baş nazir isə şiə ərəbdir, amma türkmənlərə heç nə çatmır. Hansı ki, İraq konstitusiyada yazılır: İraq xalqı ərəb, kürd, türkmən, sünni və şiəsi ilə qardaşdır. İbadini ABŞ, İngiltərə, eləcə də şiə qruplar dəstəkləyir. İraq xalqı isə əvvəlki hökumətlərin uğursuz siyasətindən bezdiyi üçün İbadinin islahat proqramını müdafiə edir. İbadi də bu dəstəkdən sui-istifadə edərək ənənəvi şiə siyasətçilərə arxalandı.

– Belə olmaz, – etiraz əlaməti olaraq başımı yellədim. – Üç milyondan artıq türkmən xalqı ayağa qalxıb, milli haqlarını küçələrdə, etiraz aksiyaları keçirməklə tələb etməlidirlər. O zaman Bağdad hökuməti də onların varlığını nəzərə alar!

– Bütün türkmən təşkilatları etiraz edir, o cümlədən biz – Türkməneli Partiyası da. Yenə deyirəm, diqqət çəkmək istəyirik. Sadəcə ümid edirik ki, hökumətdə heç olmaya bir nazir postunu türkmənlərə verərlər. İraq ciddi çalxantılarla üz-üzədir. Şiələr arasında ixtilaf yaranıb. Şimalda isə Bərzaninin növbəti dəfə hakimiyyət müddətini uzatma problemi var. "Goran" və islamçı partiyalar onun vəzifədə qalma müddətinin uzadılmasına qarşıdırlar. Amma türkmən və xristianların güclü dəstəyi sayəsində onu iqtidardan ata bilmədilər. Bu gün Kürdüstan muxtariyyəti içindən parçalanır kimi görünür. Yəni bölgəmizdə ciddi dəyişiklik gözlənilir. Biz də öz yerimizə

çalışırıq ki, ölkəmizdə sülh və sabitlik yaransın, insanlar azad, təhlükəsiz yaşasınlar.

Yadıma düşmüşkən, 2015-ci ilin əvvəlində türkmənlər öz təhlükəsizliklərini təmin etmək üçün silahlı özünümüdafiə qüvvəlləri yaratmaq istəyirdilər. Çünki ərəbləri İraq ordusu, kürdləri də de-fakto ordu olan peşmərgə qoruyurdu, amma türkmənlər bu iki silahlı qrup arasında təşvişdə qalmışdı. Riyaz bəydən soruşdum, dedi ki, hə, Kərkükdə qurulan xalq könüllülərindən ibarət 16-cı briqadanın başqa bir adı da türkmən təhlükəsizlik qüvvələridir.

– Türkmən qardaşımız Yılmaz Nəccarın rəhbərlik etdiyi briqada İŞİD-ə qarşı mübarizə aparır, insanlarımızın təhlükəsizliyini qoruyur. Açıqlamaq istəmədiyim layihələrimiz də var, onları həyata keçirməklə torpaqlarımızı İŞİD-dən qurtaracağıq, – Riyaz bəy qürurla dilləndi.

– Yadımdaykən soruşum: bir dəfə demişdiniz ki, Türkmən Məclisi qurursunuz, nə oldu onun aqibəti?

– Öz içimizdən olan baltalar mane oldu, – Riyaz bəy üzünü turşutdu. – Türkmən Cəbhəsi ayaqda qalsın deyə dostlarımız tərəfindən təxribat olundu. Mən də hərəkatımızın içində ciddi çat yaranmasın deyə layihənin icrasını təxirə saldım. İŞİD təhlükəsi var, köç kimi problemlər mövcuddur. Amma şükür ki, buna baxmayaraq, türkmən partiyalarının nümayəndələri hər həftə yığışıb-görüşürlər. Hətta belə demək olarsa, va-

hid siyasi mərkəz şəklində çalışırıq. İnşallah, vaxtı çatanda Məclis də qurulacaq.

Söhbət edə-edə yeməyimizi yedik. Yazın əvvəlləri olsa da, gün qızmağa başlamışdı, ona görə də Türkmənelinin, çox təəssüf, daşı-daş üstə qalanmış kənd və şəhərlərini gəzib-görməyə tələsməliydik.

İsrarlı istəyimi nəzərə alan Riyaz bəyin tapşırığına əsasən, gecələr aviasiyanın bombaladığı ətraf qəsəbələrdən birinə aparacaqdılar məni. Bir azdan yüzbaşı Kənanla Tahir məni öz maşınlarında türkmən könüllülərinin təlim keçdiyi hərbi düşərgəyə apardılar...

***

Türkmən əsilli əliavtomatlı döyüşçülərin müşayiəti ilə şəhərdən çıxıb səmt aldıq Leylan istiqamətinə. Yazın qızmar istisi münbit torpağı qızdırdıqca hər tərəfdə ot-alaqlar, gül-çiçəklər qarış-qarış boy ataraq günəşə boylanırdı. Taxıl zəmilərində sünbüllər artıq şişib-pardaxlanırdı. Sarıçiçəklər bütün tarlaları, adda-budda yüksələn təpələri əlvan xalısına bürümüşdü. Bir sözlə, Kərkük torpaqları cənnəti xatırladırdı.

Yolüstü türkmən və ərəb qaçqınlar üçün salınmış iki böyük düşərgənin yanından şütüyüb türkmən döyüşçülərin Leylandakı hərbi-hazırlıq mərkəzinə çatdıq. Böyük bir ərazidə könüllülərin qalması üçün çadırlar qurulmuşdu. Ortalıqda

isə bir qatdan ibarət kərpic binada komandanlıq yerləşirdi.

Təlim düşərgəsinə Səddam dönəmində orduda əmək sərf etmiş, işinin ustası olan bir polkovnik rəhbərlik edirdi. Çox ciddi və hərbi qanunlarla yaşayan şəxs idi – masanın üstündəki hansısa sənədlərlə maraqlanırdı. Bircə kəlmə «xoş gəlmisən» deyib, oturmağa yer göstərdi və yenidən öz işi ilə məşğul oldu. Mənimlə isə minbaşı Əli Hürmüzlü, yüzbaşı Kənan, türkmən hərbi birləşmələrinin koordinatoru Əbu Səccad və bir neçə adını unutduğum hərbçilər söhbətləşdi. Əslində onlar mənim üçün öz ailəmin insanları qədər doğma idilər. Hamısının üzündə təbəssüm, gözündə ümid parlayırdı. Müharibədən zəfərlə çıxaraq bu torpaqlara yenidən sabitlik, rifah gətirmək arzusu ilə yaşayırdılar…

Əlüstü çay gətirdilər – şəkəri də içində. Nahar vaxtı olduğundan yeməyə də təklif etdilər. Amma heç bir köməyim dəyməyən bu döyüşçülərin çörəyinə ortaq olmaq istəmədim. Çaydan bir-iki qurtum içib söhbətə davam etdim.

– Burada güclü intizam var, kənar şəxslərin düşərgəyə girməsi qəti mümkün deyil. Çünki ölkədə hərbi-siyasi vəziyyət dəhşətlidir, insanlara inanmaq olmur, – deyə Əbu Səccad əlindəki avtoqələmi barmaqları arasında oynatmağa başladı.

Otaqdakı 3-4 rütbəli zabiti ötəri süzən Əbu Səccad oturduğu yerdəcə qəddini dikəldib:

– Bizim gec də olsa toparlanmağımız, necə

deyərlər, güc nümayiş etdirməyimiz artıq öz bəhrəsini verir – İŞİD müəyyən qədər qorxmağa bağlayıb, – dedi. – İŞİD-in sonuna lap az qalıb, onları məhv edəcəyik. Buna gücümüz də var, cəsarətimiz də. İŞİD-in ən çox istifadə etdiyi silahlar “Kannas -2”, “Havan” toplarıdır. Onlar əvvəllər daha güclü idilər, indi çox zəifləyiblər. Görürsünüz, hətta bizə mərkəzi hökumətdən dəstək gəlməmiş özümüz toparlanıb, mübarizəyə qalxmışıq. Düşünürəm ki, artıq İŞİD xofunu sona çatdırmağın zamanıdır.

Bu zaman yan masada oturan, tanımadığım hərbi mundirli zabit İslam dininin qanunlarından birini xatırladaraq, “müsəlman müsəlmanı nə öldürə bilər, nə də işgəncə verə, bu yasaqdır!” dedikdə, Əbu Səccad sanki həmin zabitin dediklərindən ilhamlanaraq səsini qaldırdı:

– Sən nəyi qoyub, nəyi axtarırsan, bunlar nə insandır, nə də müsəlman – yırtıcıdırlar. Bu terror qruplaşmasını kimin ərsəyə gətirdiyini yaxşı bilirik. Məqsədləri də aydındır. Ancaq biz itirdiyimiz bütün torpaqları geri qaytaracağıq. Bu gün 15-16 yaşlı gənclər döyüşmək üçün yanımıza gəlirlər. Əvvəl onları geri qaytarmağa çalışırdıq, amma getmirlər, qalmaq üçün israr edirlər. Biz də razılaşırıq, təlim mərkəzində saxlayıb, döyüş sənətinə dair müəyyən şeylər öyrədirik. Bütün bu vəhdət isə göstərir ki, yaxın zamanda Kərkük vilayətini tamamilə azad edəcəyik, sonra Mosula girib bütün İŞİD-i ya məhv edəcəyik, ya da bu

ərazilərdən qovub çıxaracağıq. Bizim bir ali şüarımız var – az yaşa, azad yaşa, – əlini masanın üstünə çırpdı.

Söhbətin bu yerində qapı açıldı, kandarda görünən əsgər yanındakı mülki geyimli bir nəfərlə gəlmək üçün icazə istədi. Yanındakı yeniyetmə oğlan idi, komandirlə söhbətləşmək istəyirdi. Mən də istər-istəməz qulaq müsafiri oldum.

Sən demə bu yeniyetmənin 15 yaşı varmış, Kərkükün müdafiəsində iştirak eləmək üçün buradadır. Qəribədir, bu yaşda yeniyetmə təhsil almaqdansa, silahla rəftarı öyrənmək yolunu seçib, bəs valideynlərin nə deyib, niyə buraxıb bunu? Zabit ürəyimi oxuyubmuş kimi, məni narahat edən hər şeyi incəliyinə qədər soruşdu ondan.

– Oğlum, sən hələ çox balacasan, döyüşmək vaxtın deyil. Ondansa məktəbini oxu, bir sənətə yiyələn, bu zaman millətinə daha çox xeyrin dəyər, – zabit dedi.

– Bura gələrkən valideynlərimlə söhbət elədim. Onlara qəti şəkildə bildirdim ki, torpaqları almaq üçün türkmən könüllülərin yanına gedirəm, – yeniyetmə israrla mövqeyində durdu. – İcazə verməsələr evdən qaçacağımı dedim, onlar da razılaşdılar. Hələ uşaq vaxtlarımdan necə tərs, inadkar olduğumu atam da, anam da yaxşı bilir. Odur ki, daha pis nəticə olmasın deyə, xeyir-dua verdilər. Bura mənim əsl arzuladığım yerdir. İŞİD-dən qisas alacağıma and içmişəm və qarşınızda yenə də and içirə, – yeniyetmə son

damla qanınadək qisas alacağına and içib, komandirin razılıq cavabını gözlədi.

Bu balaca, qarayanız oğlanı eşitdikcə, heyrətdən ağzım açıla qalmışdı. Əhsən ondakı şücaətə, var ol. Düzdür, o yaşda yeniyetmənin məktəbdə elm öyrənməsini arzu edərdim, onların hərbi sahəyə gəlmələrinin qəti əleyhinəyəm, amma içindən gələn vətənpərvərliyin qarşısında lal-dinməzəm. Evdə, anasının himayəsində olmalı olan bu uşaq, əksinə, silah götürüb evini, anasını terrorçulardan qorumaq yolunu seçib.

Beləcə, komandirlə də söhbətləşdim, xoş təsadüf məni ürəyi torpaq sevgisi ilə dolu bu yeniyetmə ilə rastlaşdırdı. Sağollaşıb hərbi düşərgədən ayrıldım.

Yüzbaşı Kənan və Tahirin müşayiəti ilə, məni düşərgədən uzaqlaşdıran "Mitsubishi" markalı avtomobil, türkmənlərin təbirincə desəm, «Tazə»yə və ya əsl adıyla, Təzə Hurmatuya istiqamət götürdü. Hə, Təzə Hurmatunun lap yaxınlığında İŞİD-lə döyüşlər getdiyi üçün, hər ehtimala bizimlə əlavə dörd əliavtomatlı türkmən əsgər də yol yoldaşı oldu.

Yaz olsa da, günəşin qızmar istisində qovrulub yanan, günün altında gözlərini dörd açıb keşik çəkən döyüşçülərin sayı-hesabı yox idi. Vəziyyət o qədər ağır idi ki, heç kim günəşdən qorunmaq üçün özünü adda-budda göylərə yüksələn xurma və söyüd ağaclarının gölgəsinə verməyi düşünmürdü.

Yolüstü ərazidəki türkmən təlim düşərgələrindən birinə də baş çəkdik. Bir iki xatirə şəkli çəkmək istədim, amma icazə vermədilər. Dedilər hazırda əməliyyat gedir, düşərgə döyüş hazırlığı vəziyyətindədir, hərbi qaydalara da hər birimizin sayğılı olmağımız lazımdır. Dünyanın hər yerində, adətən, hərbçilər zəhmli olsalar da, türkmən döyüşçülər başqa aləm idilər. O odun-alovun içində mənə elə böyük rəğbət göstərirdilər ki...

Maşını sürən Kənan elə hey telefonla kiminləsə nəsə haqda danışırdı. Əlbəttə, səmimi və gülə-gülə söhbət etməsindən, qarşı tərəfin heç də yad olmadığını göstərirdi. Yanılmamışdım. Güzgüdən arxa oturacağa baxaraq:

– İndi elə bir yerə gedəcəyik ki, tam əminəm, sizin üçün maraqlı olacaq, – dedi və cavab gözləmədən maşının sürətini artırdı.

Maşın baxımsız, çala-çökək yolla şütüyərək, müharibə meydanının lap yanında yerləşməsinə baxmayaraq, çox sakit və insana rahatlıq verən balaca, amma qeyri-adi, möhtəşəm görünən Təzə Hurmatu şəhərinin darısqal küçələrindən birinə burulub tindəki uca, yarpaqlarını torpağadək əymiş xurma ağaclarının yanında dayandı.

Hara gəldiyimi bilmirdim. Sürpriz olsun deyə Kənangil də heç nə deməmişdi. Səssizcə maşından enib balaca, xurma ağaclarının kölgəsində sərinləyən həyətə keçdik.

– Xoş gəlib, səfa gətirmisiniz. Nə yaxşı oldu gəldiniz, sizi gördüm, – klassik ərəb milli geyi-

mində – başında əmmamə, əynində uzun qara əbası olan kişi məni qucaqlayıb bağrına basdı.

Burada öyrəndim ki, çox sürətli nitqi olan və hətta bəzən nə dediyini anlaya bilmədiyim bu mehriban, qonaqpərvər kişi Bektaşi şiə cərəyanının rəhbəri Seyid Həmid Bektaşidir. Gəldiyim məkan isə İraq şiələri arasında çox məşhur ocaq sayılır və el arasında Seyid Xunkər ziyarətgahı adlanır. Təxminən 60-65 yaşlarında olan Seyid Həmid Bektaşi bütün dini məzmunlu kitabları, şeirləri, qəzəl və qəsidəli əzbər bilir. Öz bilgisi və hər kəlməni cəsarətlə deməsi ilə daha da məşhurlaşan bu insanın dediyi bir sözü iki edən yoxdur.

Bizi içəri dəvət elədi. Döşəməyə başdan-başa al-əlvan xalılar döşənmişdi. Elə xalının üstündəcə döşəkçələr düzdülər, bardaş qurub oturduq. Əlüstü çay, şirniyyat gətirdilər, beləcə şirin söhbətə başladıq.

– Azərbaycanda vəziyyət necədir, salamatçılıqdırmı? – Bektaşi sevincindən parlayan gözlərini üzümə dikdi. – Azərbaycan bizim vətənimizdir. Türkiyədənsə siz daha yaxınsınız bizə. Tariximiz, məişətimiz, dilimiz-şivəmiz də eynidir. Allah Azərbaycanı şərdən, bəladan qorusun, – dedi.

– Yəqin sizə deyiblər, mən jurnalistəm. İraq türkmənlərinin vəziyyətini öyrənib Azərbaycan oxucusuna çatdırmaq üçün burdayam. Əlbəttə, Riyaz bəyin sayəsində, – dedim.

– Riyaz Sarıkahya türkmən millətinin qayğısı-

nı çəkən insandır. Yaxşı oldu Tazəyə də gəldiniz, viran edilmiş türkmən torpaqlarını gördünüz. Dünənədək Səddam xaraba qoyurdu, bu gün İŞİD. Bizi qoruyan yoxdur... – Bektaşinin nurlu çöhrəsinə kədər çökdü.

Başını aşağı salıb bir anlıq susdu. Üzündəki kədəri məndən gizləyən uzun, ağ saqqalına sığal çəkib sözünə davam etdi:

– Azərbaycanda deyin ki, türkmən millətinin kimsəsi qalmayıb, onlar əzilir, şəhid edilir, torpaqları əllərindən alınır, öz yurdlarında qaçqına çevrilir. Azərbaycanda deyin ki, türkmənlərə kömək etmək lazımdır...

Söhbətimiz bir saatdan çox uzandı. Çayımızı içən kimi yenisini gətirdilər, zorla şirniyyata qonaq elədilər, Bektaşi də ki, maşallah, Azərbaycan qarışıq, Şərqin bütün şairlərini tanıyırdı. Nizaminin, Nəsiminin qəzəllərindən əzbər dedi, türkmən, ərəb, türk şairlərin, filosofların yaradıcılığından sitatlar çəkdi. Hətta bizim üçün qəsidə də oxudu.

Amma gec idi. Riyaz bəy də zəng vurub deyirdi ki, gecəyə qalmaq olmaz – təhlükəlidir. Ona görə də, nə qədər ki, hava qaralmayıb, Kərkükə çatmaq lazım idi. Ev sahibinin israrına baxmayaraq, üzürxahlıq edib ayağa qalxdıq. Maşına oturmaq istəyəndə, qolumdan yapışan Bektaşi:

– Bir-iki gün qonağım olun, evimiz çox genişdir, qalın burda. Heç bir təhlükə də ola bilməz bu evdə, tam rahat olun, – dedi. – Bəlkə bir də evi-

min kandarına Azərbaycan insanının ayağı dəyməyəcək...

– Bədgüman olmayın, artıq Azərbaycan müstəqil dövlətdir, gündən-günə iqtisadiyyatını, xarici əlaqələrini gücləndirir, genişlədir. İnşallah, bundan sonra qapınızı daha tez-tez açarıq, – deyib maşına oturdum.

Axşam yeməyindən sonra, evimiz qədər əziz olan Türkməneli Partiyasının iqamətgahına gəlib, günboyu topladığım təəssüratlarımı Riyaz bəylə bölüşüb, uzun-uzadı söhbət elədim.

Gün ərzində gördüklərim haqda Riyaz bəyə danışdım. İŞİD-in darmadağın etdiyi kənd və qəsəbələrin, yol infrastrukturunun vəziyyətindən təəssüfləndiyimi dedim. Əlbəttə, bütün bunlar ona tanış idi deyə, dediklərimi sakit tərzdə, başını tərpətməklə təsdiqləyirdi.

– Türkmən xalqı Səddamın dövründə olduğu kimi, yenə də çətinliklər yaşayır. Torpaqlarımızın bir qismi İŞİD-in, qalan qismi də başqa güclərin nəzarəti altındadır. Bu gün türkmənlər sadəcə, Tuz və Təzə Hurmatu bölgələrində söz sahibidirlər.Yenə də insanlarımıza idarəçilikdə, siyasi və iqtisadi sahələrdə haqsızlıq edilir. Türkmən olduğumuz üçün heç bir idarəetmə işinə alınmırıq, – Riyaz bəy dedi. – Nə Bağdad hökuməti, nə də Ərbildəki yerli kürd idarəçiləri türkmən xalqına arxa durmaq istəmir. Çoxları əmin idi ki, dünya birliyi bu vəziyyətə göz yummayacaq, təəssüf, nə Birləşmiş Millətlər Təşkilatı, nə də

ABŞ-ın başını çəkdiyi koalisiya gücləri türkmənlərin mövcudluğunu görmək istəmirlər. Hiss olunan odur ki, türkmənlərin timsalında bütöv bir xalqı məhv etməyə çalışırlar! Ən pisi isə budur ki, türkmənlərin üzləşdiyi fəlakətə türk dünyası da səssiz qalır.

– Suriya türkmənlərinin liderlərindən olan Abdurrəhman Mustafa ilə danışırdım. Ona deyəndə ki, İraq türkmənləri partiyalaşma məsələsində daha çox irəli gediblər, razılaşmışdı, – dedim. – Doğrudan da, bu qədər partiya və təşkilat yaratmısınız, amma dövlətə təsir imkanlarınız hiss olunmur...

– Sizinlə razıyam, – İraq türkmənləri siyasi təşkilatlanma prosesində xeyli məsafə qət edə biliblər, – deyən Riyaz bəy masanın üstündəki qalaqlanmış qovluqları eşələməyə başladı. – Burada partiyalaşma ilə bağlı sənədlər olmalıdır, – deyərək gözləri sənədlərdə, sözünə davam etdi: – Türkmən hərəkatı 1990-cı ilədək müxtəlif qruplar şəklində mövcud idi. Məsələn, Həttat qrupu, Abdullah Əbdurrahman qrupu, Qoçaq qrupu... Amma biz 1990-cı ildən sonra ilk türkmən siyasi partiyasını quraraq fəaliyyətə başladıq. Daha sonra iki partiya yaratdıq və ardıyla da iki partiya tərəfindən Türkmən Cəbhəsini formalaşdırdıq. Hansı ki, sonradan həmin cəbhə də vahid partiya olaraq təşkilatlandı, inkişaf etdi. Son 25 ildən artıqdır çox sayda partiya yaratmağımıza baxmayaraq, siyasətçilərimiz nadir hal-

larda dövlət vəzifələrində təmsil olunmaqdadır. Çünki seçkilərdə aldığımız səslər 250 min civarındadır. Bu qədər səs isə ancaq sayı bir milyon olan əhaliyə uyğun gəlir. Hansı ki, bizim sayımız üç milyondan artıqdır. Bu da onu göstərir ki, yaratdığımız partiyalar heç də dövlətə təsir edə bilməyib. Amma bütün hallarda partiyalarımız türkmənləri təmsil etmək baxımından üzərilərinə düşən vəzifəni yerinə yetiriblər. Suriyadan söz saldınız, oradakı qardaşlarımız çox ağır şəraitdədirlər. Xüsusilə də təhlükəsizlik baxımından əziyyət çəkirlər. Bu məsələdə Türkiyə onlara yardım edir, amma əsas odur ki, onlar həm daxili, həm də xarici düşmənlərlə savaşırlar. Allah köməkləri olsun. Onların da Məclisinin aktiv vəziyyətə gətirilməsi çox vacibdir. Qanuni səlahiyyətlərə malik Məclis vasitəsilə Suriyada da bir Türkməneli yaratmağın vaxtı çatıb. Çünki proseslər Suriyanın bir neçə parçaya bölünəcəyinə doğru gedir. Ona görə də Türkiyə və türk dünyası Suriya türkmənlərinin başına gətirilənlərə kənardan baxmamalıdırlar.

– Sizin də Məclis yaratmağınızın vaxtıdır. Bir dəfə eşitmişdim ki, Türkmən Cəbhəsindən kənarda Məclis qurulur, amma sonradan səs-soraq çıxmadı...

– Kərkükdə Türkmən Məclisinin qurulması məsələsi hələ də gündəmdədir. Amma bu gün əsas məsələ torpaqlarımızı İŞİD-in tapdağından xilas eləməkdir. Xüsusilə də Təlafər və Bəşir böl-

gəsi bizim üçün strateji əhəmiyyət daşıyır. Yüz minlərlə türkmənin öz doğma torpaqlarına, yaşadıqları evlərinə qayıtması lazımdır. Hər gün neçə-neçə şəhid veririk, cənazə qaldırmaqdan iş görməyə vaxt da tapmırıq, – deyən Riyaz bəyin səsi titrədi. – Türkmənlər taleyin hökmünə tərk edilməməlidir. Kürdlərin, şiələrin, sünnilərin hamiləri var, arxalarında siyasi müttəfiqləri dayanıb və cidd-cəhdlə dəstəklənirlər. Türkmənlərin isə yetərincə dostu-müttəfiqi yoxdur, əvəzində düşmənləri çoxdur, – dedi.

– Maraqlıdır, heç olmaya İŞİD təhlükəsi-zülmü türkmən siyasi elitasını fikir birliyinə yaxınlaşdıra bilib, yoxsa əksinə, daha da uzaqlaşdırıb? Axı üç fikir səsləndirir türkmənlər. Bəziləri federal statusda Bağdaddan asılı qalmağı, bəziləri Kürdüstana birləşməyi, bir qism isə müstəqil olmağı düşünür. Məncə belə olmaz, konkret mövqedə yürümək lazımdır, – qeyri-iradi səsimi ucaltdım.

– Əslində İraq parlamentində təmsil olunan bütün türkmən millət vəkillərinin mövqeyi eynidir. Amma təəssüf ki, qəti nəticəyə vara bilmirlər. Çünki baş nazir Malikinin zamanında əldə etdiyimiz bəzi uğurlarımız vardı. Məsələn, hökumətdə üç nazir, dörd nazir köməkçisi ilə təmsil olunurduq. İngiltərə vətəndaşı olan İbadi hökumət başçısı keçəndən sonra bir çox təmsilçiliklərimiz əlimizdən alındı. Hazırda cəmi bir nazir köməkçisi postu qalır türkmənlərdə. Vətəndaşı oldu-

ğumuz dövlətin hökumətində bir nazir vəzifəsi türkmənlərə çox görüldü. Ona görə də türkmən siyasi təşkilatları həm Bağdaddan, həm də Ərbildən ümidlərini kəsiblər. Artıq türkmənlərlə bağlı layihələrimizi işləməkdən başqa çarəmiz yoxdur. Bu da mərkəzi Təlafər şəhəri olacaq Türkməneli federal bölgəsi, yəni Türkməneli milli vilayətini qurmaqdan ibarətdir. Kərkükdə isə ortaq idarə ediləcək eyni adlı vilayət qurmaq təklifi üzərində işləyirik. Düşünürəm ki, bunun reallaşmasına lap az qalır. İnşallah Duz Hurmatu da vilayət olaraq Kərkük bölgəsinə daxil olar. Digər bölgələrdə isə adil təmsil olunma istəklərinizi irəli sürməkdəyik. Heç kim bizə açıq-aşkar etiraz eləmir, amma dəstək də vermirlər. Bunları reallaşdırmaq gücümüz də yoxdur – bizi müdafiə etmirlər, – Riyaz bəy azacıq əsəbi tərzdə əlindəki avtoqələmi, bir az əvvəl nəsə axtararkən dağıtdığı kağızların üstünə atdı.

– İŞİD-in özünə paytaxt seçdiyi Mosulda da türkmənlərin sayı çoxdur. Təəssüf ki, işğal altındadır, çox istəyirdim oranı görüm...

– Allah qoysa, Mosulun azad olunacağı gün yaxındadır. Azadetmə əməliyyatlarında biz türkmənlər də igid oğullarımızla iştirak edirik, amma oradakı ümumi qüvvələrin və ya peşmərgənin tərkibində. Çox istərdik türkmənlər öz bayrağımız altında xilasetmə əməliyyatlarına qatılsın, amma silahlı birliklərimizi yarada bilmədik. Səbəbi də sadədir: nə pulumuz var, nə də

silah-sursatımız. Eyni zamanda ətrafımızdakılar da silahlı güc qurmamıza mane olmaqdadırlar. Necə deyərlər, niyyətimiz var, imkanlarımız zəifdir. PKK-ya gəlincə, İraqın və bəzi başqa ölkələrin icazəsi ilə əməliyyatlarda iştirak edəcəklər. Süleymaniyyədəki yerli idarəçilər də onlara istiqamət verməkdədir, – Riyaz bəy dedi.

– Kərkükdə görüşdüyüm çox adam türkdilli ölkələrdən kömək gəlməsini arzuladıqlarını dedi. Qınamıram, uman yerdən küsərlər. Amma Türkiyə xaric, qalan türkdilli ölkələr indi-indi inkişaf edirlər...

– Türkiyədən ilk başdan humanitar yardımlar alırıq. Amma açıq deyim: bizim humanitar yardım qədər siyasi və hərbi dəstəyə ehtiyacımız var. Türkiyə və digər türk dövlətləri, İraq və Suriya türkmənlərinə sahib çıxmalıdırlar. Yaxın Şərqin siyasi xəritəsi yenidən cızılır, – Riyaz bəy təlaşlandı.

Susdu. Bir anlıq fikrini toplayıb:

– Azərbaycan da türkmənlər üçün federal bölgələr qurulması təklifini irəli sürməlidir. Azərbaycanlı millət vəkilləri və Xarici İşlər Nazirliyi, hətta parlament bu çətin və qara günümüzdə bizə sahib çıxmalıdır. Biz Azərbaycan türküyük, qardaşıq. İstərdik ki, Azərbaycan telekanalları, media təmsilçiləri İraqa gəlib bölgəmizi işıqlandırsınlar. Millət vəkillərinizin Kərkükə gəlməsini, Azərbaycanın Kərkükdə Mədəniyyət Mərkəzini açmasını istərdik. Burada şiələrə İran, sünnilərə

Səudiyyə Ərəbistanı, kürdlərə isə Qərb yardım edir. Türkmənlərə də eyni cür kömək edilməzsə vəziyyətimiz pisləşər. Azərbaycanın bizə yardım etməsi mənəvi borcudur, çünki biz də azərbaycanlıyıq...

Beləcə, Riyaz bəylə xeyli söhbətləşdik. Dünənki kimi, artıq çox gec olduğunu deyən Riyaz bəy Yılmazı çağırıb məni otelə aparmağı tapşırdı. Mənə də tapşırdı ki, səhər erkən qalxım, Yılmaz dalımca gələcək. Çünki sabahkı proqramımız çox maraqlı olacaqmış.

İkinci mərtəbədəki otel otağımda oturub günboyu gəzib-gördüklərim əsasında məqalə hazırlayırdım. Bir az yorğun olduğum üçün fikrimi çətinliklə toplayırdım. Amma qonşu otaqdan gələn yüksək səs yazmağıma mane olurdu. Bir neçə kişi başa düşmədiyim ərəb dilində ucadan danışır, hətta bəzən mübahisə edərək səslərini daha da qaldırırdılar.

Aşağı mərtəbədəki balaca kafedən aldığım qazlı su şüşəsini başıma çəkib, bir-iki udum içdim. Elə yenicə yazmağa başlamışdım ki, güclü bombardman başladı. Nəinki qorxmadım, heç narahat da olmadım. Heç vaxt müharibədə olmayan bir adamın qorxması mümkün də deyildi. Odur ki, heç nəyə əhəmiyyət vermədən yazmağa davam etdim.

Bombardman ara vermirdi. Bəzən mənə elə gəlirdi ki, təyyarələr bombanı lap otelin həyətinə atırlar. Çünki çox güclü partlayış o qədər

yaxında baş verirdi ki, həmin an silkələnən tavanın toz-torpağı başıma tökülürdü. Özümü lap kinolardakı kimi hiss eləməyə başlamışdım. Amma deyəsən bombardmanın mənə xeyri də oldu – qonşu otaqda yüksələn səslər kəsilmişdi. Ona görə də yuxu məni yatıranadək təəssüratlarımı komputerin yaddaşına köçürə bildim...

Gec yatmağıma baxmayaraq, səhər yerimdən qalxanda saat yeddi olardı. Pəncərənin pərdəsini çəkib günəşin sarımtıl işığında rəngdən-rəngə boyanan xurma ağacının yarpaqları arasından şəhərin baxımsızlıqdan köhnəlmiş mənzərəsini seyr etdim. Beləcə, xəyallarıma bürünüb bir qədər baxdım, sonra da əynimi geyinib aşağı endim.

***

Bir az olardı ki, partiyanın iqamətgahına gəlmişdim. Ömərdən başqa heç kim yox idi. Çay gətirdi, yanımda oturub dünənki günümün necə keçdiyini soruşdu. Biz söhbət edərkən, Riyaz bəy də gəldi. Ordan-burdan danışdıq, axşamkı partlayışlardan söz açdım. Məlum oldu ki, gecəboyu Kərkük şəhərinin lap yaxınlığında yerləşən Bəşir qəsəbəsində döyüşlər gedib. Türkmənlərin ən böyük qəsəbələrindən olan bu yeri İŞİD-dən geri almaq üçün Amerika təyyarələri havadan bomba yağdırıb.

– Bəs atılan bombalar qəsəbənin yerli əhalisini öldürmürmü, həm də gecə vaxtı, – narazı şəkildə, sual dolu nəzərlərlə yanımdakı hər kəsə

baxdım.

– Orada yerli əhali qalmayıb, İŞİD qəsəbəyə girmədən öncə camaat baş götürüb qaçıb, – Riyaz bəy cavab verdi.

– Bütün Türkməneli İŞİD-in əsarətindədir. Türkmənlərin yerləşdirilməsi prosesini tənzimləmək mümkün deyildimi? – soruşdum. – Axı fürsətdən istifadə edən kürdlər onların atıb getdikləri torpaqlarda məskunlaşırlar...

Ümidsiz halda başını tərpətməklə dediklərimi təsdiqləyən Riyaz bəy indiki vaxtda türkmən qaçqınların yerləşdirilməsi prosesini tənzimləməyin mümkünsüz olduğunu dedi:

– Kərkükdə beş min türkmən ailə yerləşdirilib – bu imkan məsələsidir. Otuz min ailə isə ölkənin cənubuna köçüb. Amma onlar o yerlərdə duruş gətirə bilmirlər, mədəniyyət uyğunsuzluğu var, bu səbəbdən də geri qayıtmaq istəyirlər. Bundan əlavə, Kərkükdə idarəetmə kürdlərin əlindədir, onlar isə türkmənlərin vilayət ərazisinə yerləşdirilməsinə yaxşı baxmırlar. Bilirlər ki, bu halda Kərkükdə türkmənlərin sayı artacaq. Təlafər camaatının bir hissəsi Ərbil və Duhokdakı qaçqın düşərgələrinə yerləşib, – Riyaz bəy dedi. – Kaş ki, Azərbaycan da türkmən qaçqınların bir hissəsini qəbul edəydi, bu milli və humanitar vəzifədir, – əlavə etdi.

– Deyirsiniz cənuba köçən türkmənlər orada duruş gətirə bilmirlər, geri qayıdırlar. Olmazdımı ilk başdan ora getməyəydilər?

– Əlacları kəsilmişdi. Kərkükə və civarına gəlməyə kürdlər imkan vermədi. Onlar da məcburən Nəcəfə, Kərbəlaya yönəldilər. Biz həmişə ən çox zərər görən tərəf olmuşuq ölkədə və bu gün də eyni aqibəti yaşayırıq. Nəticəsi də budur ki, minlərlə ölümüz var, – Riyaz bəy dedi…

Bir azdan "yolçu yolunda gərək" deyib Türkməneli Partiyasının qərargahından çıxdıq. Heç on dəqiqə keçməmişdi ki, çox danışmağa meylli olmayan Yılmazın idarə etdiyi ağ rəngli avtomobil, Kərkükün nağıllara dönən qoynundan aralanıb, hər tərəfi yamyaşıl taxıl zəmiləri ilə haşiyələnən, adda-budda top mərmilərinin qazdığı çuxurlarla yolçulara maneə yaradan şosse ilə şütüyürdü. Hər dəfə hara getdiyimizi soruşanda, "sürprizdir" deyən Yılmaz, belə demək mümkünsə, marağımı beşqat artırmışdı. Nəhayət, qarşıdan gələn, yük yerində bir dəstə əliavtomatlı əsgər olan "Tayota"nı ötəndən sonra, bu gecə İŞİD-in əsarətindən azad olunmuş bir kəndə getməkdə olduğumuzu dedi.

Hə, bu arada qeyd edim ki, bizdən qabaqda içində peşmərgə qüvvələrinin komandirlərindən olan daha bir "Tayota" gedirdi. Yılmaz dedi ki, danışıblar, o, bizi kürd və türkmən döyüşçülərin İŞİD-ə qarşı birlikdə savaşdığı döyüş zonasına müşayiət edəcək. Doğrudan da belə oldu: əvvəl üçüncü, sonra da ikinci müdafiə istehkamını ötüb, Yılmazın izah etdiyi, əkinləri suvarmaq məqsədilə tikilmiş uzunsov formalı dəryaçaya

çatdıq. Dəryaçanın üstündən keçən körpünün qarşı sahilə birləşən hissəsi İŞİD tərəfindən partladılsa da, biz ora çatanda artıq maşınların keçə bilməsi üçün işlək vəziyyətə gətirmişdilər.

Qarşı tərəfə keçəndə məni dəhşət bürüdü. Xarabazara çevrilmiş, bircə tikilisi belə qalmayan böyük bir yaşayış yerini gördüm.

– Aman Allah... – heyrətimdən oturduğum yerdəcə donub qaldım.

– Bura Məktəbxalid kəndidir. Dünənədək İŞİD-in əlindəydi, keçdiyimiz gecə azad olunub, – Yılmaz diqqətini sükandan yayındırmadan dedi.

– Türkmənlərin kəndidir? – soruşdum.

– Yox, ərəb kəndidir. Amma görürsən da, yəqin ki, bir daha ərəblər bura qayıtmayacaq.

– Hə, əlbəttə, qayıdış prosesi vaxt alacaq, baş soxmağa bircə ev qalmayıb. Toyuq-cücə damlarını da dağıdıblar, – onun dediklərini təsdiqlədim.

– Gecə sabahadək Amerika təyyarələri havadan bombalayıb, peşmərgə ilə türkmən döyüşçülər isə yerüstü əməliyyatla alıblar kəndi. Yəqin ki, evlər aviazərbənin gücündən dağılıblar, – dedi.

Kəndi ikiyə bölən geniş, asfalt yol bombardman nəticəsində uçulub dağıldığı üçün, qalın toz-torpaqla örtülmüşdü. Ona görə də, Yılmaz maşını orta sürətlə sürməsinə baxmayaraq, toz duman kimi havaya qalxırdı. Biz də isti olmasına baxmayaraq, pəncərənin şüşəsini bağlamışdıq ki, toz içəri dolmasın.

Maşın kənddən çıxıb torpaq qalanmış, hər tərəfdə yandırılmış, partladılmış avtomobillər, hərbi texnikanın qalıqları səpələnmiş yolla irəli şütüdükcə daha vahiməli mənzərəyə şahid olurdum. Maşın əlli metr irəlidə dayananda ətrafımıza çox sayda silahlı döyüşçülər toplaşdı. Aralarından orta yaşlı biri çıxıb bizə yaxınlaşdı, əl verib görüşdü. Kürd peşmərgələrinin komandiri idi. Yılmaz məni təqdim etdi, Azərbaycandan gəldiyimi, İŞİD-dən alınmış bu ərazilərdən reportaj yazmaq istəyimi dedi.

Üzündə təbəssüm parlayan, adını bilmədiyim komandir mənə baxaraq kürd dilində:

– Buyurun, nə qədər istəyirsiniz şəkil çəkin, nəyi də öyrənmək istəyirsiniz soruşun. Düzdür, döyüş bölgəsində belə şeylər olmaz, amma biz heç kimdən qorxub-çəkinmirik. İstədiyiniz qədər sərbəst ola bilərsiniz. Bu gördüyünüz əsgərlər – əli ilə ətrafımı saran onlarla döyüşçünü göstərdi, – sizin qardaşlarınızdır. Onların yanında heç bir təhlükə yoxdur sizə, – əlavə etdi.

Yılmaz komandirin dediklərini tərcümə edər-etməz, fürsəti fövdə vermədən başladım sağı-solu fotokameraya köçürməyə. Çoxlu şəkillər çəkdim, məni maraqlandıran suallara da komandirdən cavab aldım.

Bir az irəlidə, şimaldan cənuba doğru xeyli məsafədə hündür torpaq istehkam uzanırdı. İstehkamın üstündə də torpaqla doldurulmuş kisələrdən bürclər qurulmuşdu. Hər bürcdə isə bir

neçə pulemyot atəş üçün əmr gözləyirdi.

Dedilər ki, əslində gördüyüm bu istehkam yol qovşağı olub. Amma İŞİD silahlıları geri çəkilərkən buradakı körpünü dağıdıb.

Əsgərlər məni bir qədər aralıda – istehkamın altında qalmış, lüləyi və sadəcə qarşı tərəfi görünən tankın yanına gətirdilər.

– İŞİD terrorçularının tankı olub – Rusiya istehsalı "T-55"dir, – əsgərlərdən biri dilləndi.

– İstəyirsiniz keçin qarşısında dayanın, şəklinizi çəkim, xatirə saxlayarsınız, – başqa bir hərbi mundirli, qarayanız bir gənc mənə yaxınlaşaraq, qeyri-iradi əlini telefonuma uzatdı.

İmtina etmədim, bir-iki rakursdan şəklimi çəkdirdim, hətta həmin gənc də daxil olmaqla, bir neçə döyüşçü ilə birlikdə tankın ətrafında xatirə şəkli çəkdirdik. Sonra da, bayaqdan mənimlə türkcə danışan gənc istehkamın üzərinə qalxmağı təklif elədi.

– Oradan gördükləriniz çox maraqlı olacaq sizə, qarşıda İŞİD-in səngərləri yerləşir, – deyib özü qabaqda, mən də arxasınca torpaq istehkamın üstünə qalxdıq.

Təxminən beş metr hündürlüyündə olan istehkamın qarşı tərəfi boş düzənlik idi. Yazın istisinin indidən yandırıb-qovurmağa başladığı ot, tikanlı yabanı bitkilərin baş qaldırdığı düzənliyin ucu-bucağı görünmürdü. Bəli, bura Mesopotamiya ovalığı idi. Qarşıda – xeyli aralıdan axan Dəclə çayının dərəsinə, hətta ondan o tərəfə

– Suriya torpaqlarınadək hər yer beləcə düzənlik idi. Amma iki-üç yüz metr irəlidə görünən kənddə göyə yüksələn qara tüstü burulğanları, bölgənin düzənlik olmasına baxmayaraq, burada ən hündür dağlardan da keçilməsi çətin olan maneələrin varlığını isbatlayırdı.

Həmin kənd İŞİD terrorçularının nəzarətindəydi. Yanımdakı döyüşçü dedi ki, buradan qovulan terrorçular həmin kənddə toplaşıblar. Gördüyüm tüstü isə onların taktikasının bir hissəsidir. Sən demə İŞİD qruplaşmaları döyüş xəttində maşın təkərləri-filan yandırmaqla öz varlıqlarını isbatlamağa və qarşı tərəfdə qorxu yaratmağa çalışırlarmış.

– Bir az da irəli gedə bilərikmi – İŞİD-ə daha yaxın, – maraqla yanımdakı döyüşçülərə baxdım. – Heç olmaya ora, o təpəyə qədər, – irəlidəki torpaq qalağını göstərdim.

Döyüşçülərdən səs-səmir çıxmasa da, komandir ora getməyin çox təhlükəli olduğunu dedi. Çünki qarşı mövqedən İŞİD terrorçuları bizi snayperlə asanlıqla nişan ala bilərdilər. Buna baxmayaraq, görünüşündən və yanındakılarla davranışından çox sərt olduğu görünən komandir, deyəsən yumşalmışdı. Öz dilində döyüşçülərə nəsə dedi və həmin an otuzadək əliavtomatlı mövqedən irəli çıxaraq məni göstərdiyim yerə müşayiət etdilər.

Komandir özü də bizimlə getdi. Təxminən yüz addım qabağa çıxmaq, həm maraqlı, həm də

çox acınacaqlı anlar yaşatdı mənə. Yolboyu çoxlu rəngarəng, güllü-çiçəkli pal-paltar, ayaqqabı, başqa geyim əşyaları səpələnmişdi. Ən acınacaqlısı isə yolun kənarında düşüb qalmış balaca qız ayaqqabasının tək tayını görmək idi.

Bir anlıq xəyalımda cılız, qarayanız, məsum və qara gözlərində həyata ümid parlayan bir qızcığaz canlandı. Bəlkə də anasını öldürmüşdülər, tək qalmışdı, kimsəsi yox idi, sadəcə ölümdən qaçan insanların axarına düşüb yaşamaq üçün üzürdü. Bilmirəm, bəlkə də əksinə, İŞİD terrorçularının odsaçan gülləsi bu məsum qızcığazı elə anasının əlindən bu yoldaca almışdı. Hər şey ola bilərdi...

Təsadüfi gülləyə tuş gəlməyim deyə ətrafımda öz bədənləri ilə səd quraraq məni qoruyan kürd və türkmən döyüşçülərin əhatəsində xeyli şəkil çəkdim. Bu vaxt komandir məni bayaq getmək istədiyim təpəciyin yanına çağırdı. Getdim. Yolun kənarında yerdə böyük bir dəmir lövhə vardı. Üstü ərəbcə yazılan lövhə əzilib yarasız hala düşmüşdü. Komandir dedi ki, İŞİD bu yerləri tutandan sonra, qondarma xilafətin ərazisi elan etmişdi. Elə yerdə atılıb qalmış lövhənin üstündə də həmin “xilafətin” qara bayrağı əks olunub. Doğrudan da, döyüşçülər çox iri lövhəni toz-torpağın içindən qaldıranda ilk dəfə terrorçuların qara dünyasını xatırladan, qara bayraqları və qara yazıları həkk olunmuş, eləcə də bəşəriyyətə ünvanlanmış ismarıclarını öz gözümlə oxudum:

«Kərkük bizim gələcəyimizdir, Kərkükü almaq üçün and içmişik»...

Ümumiyyətlə, işğal olunmuş bütün ərazilərdə məkan adları bu cür xüsusi tərtib edilmiş lövhələrə yazılaraq yolların kənarlarına yerləşdirilmişdi. Əlbəttə, həmin torpaqlar terrorçulardan azad edildikdən sonra lövhələr də beləcə yerindən çıxarılaraq atılırdı.

Komandir göstəriş verdi ki, bura İŞİD-in görə biləcəyi yerdir, ona görə də daha irəli gedə bilmərik və təcili geri qayıtmalıyıq. Belə də etdik, qayıtdıq.

Yadımdaykən deyim ki, səngərdən geri qayıdarkən komandirdən soruşdum ki, bu gecə harasa hücum edəcəksiniz? Dedi döyüşdən bu gecə çıxmışıq, əsgərlər yorğundur, bir az dincəlməlidirlər. Həm də ki, hələlik burada möhkəmlənəcəklər, irəli getmək üçün baş komandanlıqdan əmr almayıblar. Əmr verilən kimi hücuma keçəcəklər…

İstehkamın arxasında, komandir əraziyə yeni gəlmiş, tanımasam da, mötəbər biri olduğu geyimindən görünən zabitlə kənara çəkilib nəyisə müzakirə edirdi. Ona görə də bir-iki əlavə şəkil çəkmək, əsgərlərlə bir-iki ağız söhbət eləmək fürsəti qazanmışdım. Kürd dilini bilməsəm də, aralarındakı qarayanız, bayaqdan ara-sıra mənimlə danışan gəncdən, baxmayaraq ki, danışmağa cürət eləmirdi, bəzi şeyləri soruşa bildim. Maşına doğru gedəndə, o, az qala qulağıma pıçıldayırmış kimi, asta səslə “bayaq Məktəbxalid kəndindəki evlərin İŞİD tərəfindən dağıdıldığını

dedilər, inanmayın, aldadırlar. Bütün tikililəri peşmərgə döyüşçüləri partladıb. Həm də yalnız o kənddə deyil, İŞİD-dən geri alınan bütün kəndlərdə eyni şeyi edirlər" dedi.

Eşitdiklərimdən dəhşətə gəlmişdim. Əliqanlı terrorçular kəndi işğal etsələr də, insanların ömür boyu min əziyyətlə tikib-yaratdıqları ev-eşiklərə toxunmayıblar, amma peşmərgə döyüşçüləri bir saatın içində hansısa siyasi səbəbdən camaatın geri qayıtmağa olan son ümidini beləcə, məhv etmişdilər.

Bir az olardı Duz Hurmatudan Kərkükə qayıtmışdıq. Amma gördüklərimin acı təəssüratları məni rahat buraxmırdı. Dağıntılar, insanların gələcək arzularını da özü kimi xarabaya çevirmişdi.

Yeri gəlmişkən, Kərkükdən sonra ən çox hücumlara məruz qalan, şəhid verən türkmən yurdlarından biri elə Duz Hurmatudur. Əsasən şiə türkmənlərin yaşadığı bu şəhər 2003-cü il avqustun 22də kürd peşmərgəsinin hücumuna məruz qalıb. Peşmərgənin özbaşınalığı o həddə çatmışdı ki, hətta buradakı tarixi və dini dəyəri hədsiz dərəcədə yüksək sayılan Aliyyül-Murtaza Yatırına da silahlı basqın düzənlənmiş, məkan yarasız hala salınmışdı. Bu zaman 20 dinc və günahsız türkmən qətlə yetirilmişdi.

Tuz Hurmatu bölgəsi terror bəlasından heç vaxt qurtulmayıb. Rayonun Amirli nahiyyəsində 7 iyul 2007-ci ildə meydana gələn terror qorxunc nəticəyə yol açmışdı. Bazarda qarpız yüklənmiş,

əslində isə alt hissədə bomba yerləşdirilmiş yük maşınının partladılması nəticəsində çoxu qadın və uşaq olmaqla, 160-a yaxın türkmən insan həlak olmuşdu. Deyilənə görə, o vaxt yaralananların sayı 250-dən çox olub, 50-dən artıq ev dağılmışdı.

Duz Hurmatunun başı üzərində dolaşan bəlalar bununla bitməmiş, 2007-ci ilin ikinci yarısında daha bir sıra qanlı hadisələr baş vermişdi. Məsələn, həmin il sentyabrın 12-də bombalı terror hücumunda 6 nəfər şəhid olmuş, daha 18 günahsız insan yaralanmışdı. Bundan başqa, 2009-cu ilin dekabr ayında baş verən terror hücumu 4 türkmənin həyatına son qoymuş, 15 nəfəri isə yaralamışdı. 2012-ci il sentyabrın 5-də türkmən əsilli prokurur Əməl Əhməd Kayacı və sürücüsü terror hücumuna məruz qalaraq şəhid olublar. Hücumlar bununla başa çatmayıb, cəmi 4 gün sonra – sentyabrın 9-da Duz Hurmatuda meydana gələn iki bomba partlayışı nəticəsində ümumilikdə 8 türkmən həlak olub, 35 nəfərsə yaralanmışdı. Terror həmlələri bitib-tükənməyən Duz Hurmatuda 24 iyun 2013-cü ildə törədilmiş bombalı hücum zamanı İraq Türkmən Cəbhəsinin sədr müavini Əli Haşim Muhtaroğlu, Səlahəddin vilayəti valisinin müavini Əhmət Əbdülvahid Koca və 15 yaşlı oğlu Eren Koca, ümumilikdə 10-dan çox türkmən həlak olmuş, 71 nəfər isə müxtəlif dərəcədə yaralanmışdı...

...Riyaz bəyə getdiyimiz yerlərdən, döyüş-

çülərlə söhbətlərimdən danışırdım. Duz Hurmatunun azad olunmuş kəndlərinə, İŞİD-in lap yaxınlarınadək getdiyimizi dedim.

– Özünüz gördünüz, Duz Hurmatu türkmənlərin ən sıx yaşadığı bölgələrdəndir. Amma təəssüf ki, terrorçular bu rayonun bəzi yerlərini ələ keçiriblər, – Riyaz bəyin səsi titrədi. – Mosul və Səlahəddin vilayətlərinin böyük hissəsi hazırda İŞİD-in nəzarətindədir. Amma Təlafər rayonunda hələlik şiə türkmənlərlə mərkəzi hökumətin silahlı qüvvələri İŞİD-ə birlikdə ciddi müqavimət göstərməkdədir. Təlafər Mosulun qərbində yerləşir – 60 kilometr arası olmalıdır. Dəqiq olmasa da, Təlafərdə ən azı 250 min insan yaşayır. Tək şəhər deyil, rayonda yerləşən yüzədək kənd və qəsəbənin də əhalisi türkmənlərdir. İraq əhalisinin bəlasına baxın: əhalinin dəqiq sayı barədə məlumat yoxdur, amma məzhəbinə-inancına görə statistika mövcuddur. Deyilənə görə hazırda Təlafər bölgəsində yaşayan türkmənlərin hər dörd nəfərindən üçü sünni, qalanı şiələrdir. Bax, beləcə parçalayıb bölürlər xalqımızı, – Riyaz bəy təəssüflə başını buladı. – Təlafər şəhəri Osmanlı dövlətinin dövründə salınıb. Əvvəl orada Osmanlı ordusunun hərbi bazası – qalası olub. Getsəniz, indi də qalanın qalıqlarını görərsiniz. Özü də Təlafər camaatı eynən Azərbaycan insanları kimi danışırlar. Ora getsən elə bilərsən ki, Azərbaycandasan. Danışıqları, adət-ənənələri, folklorları, məişətləri – hamısı sizinki ilə eynidir. Amma başları çox çə-

kib. Bütün İraq türkmənləri ağrılı tarix yaşayıblar, amma Təlafər türkmənlərinin dərdi daha böyükdür. Səddam Hüseynin zamanında BƏƏS Partiyası oranın ərəbləşdirilməsi siyasətini yürüdürdü. Özü də insanların milli-mənəvi hüquqlarını ən sərt şəkildə pozmaqla. Şükür ki, Səddam devrildi, adamlar fikirləşdilər ağ günə çıxacaqlar. Amma olmadı: Amerika "Əl-Qaida"nın burada yerləşdiyini zənn edərək şəhəri bombaladı. Deyilənə görə, Amerika üst-üstə səkkiz dəfə hücum edib Təlafərə. Bu günün özündə də yeddi mindən çox təlafərli İraq zindanlarında azad olunacaqları günü gözləyirlər. Kürdlər də çalışır ki, Təlafər kimi möhtəşəm türk məkanı xəritədən silinsin. Çünki bu rayon İraq və Suriya kürdlərinin yaşadıqları coğrafi bölgələrin bütünləşməsinə maneə kimi görülür. Buna görə də, peşmərgənin ciddi təzyiqləri altında, Amerika ordusunun ortaq hücümü nəticəsində Təlafərdə türkmən əhalinin sayı xeyli azalıb.

Riyaz bəy qəfil sözünə ara verib susdu. Sanki ölkəni daha böyük təhlükənin gözlədiyini hiss edirmiş kimi, dilxor idi. Bu, səsindən də açıq-aşkar hiss olunmaqdaydı. Birtəhər özünü toxtayıb sözünə davam etdi:

– Siz gedən Duz Hurmatu isə Səlahəddin vilayətinin şərqində yerləşir. Dəqiq bilinmir əhalisi nə qədərdir. Bəzi rəqəmlərə görə 100 min, başqa rəqəmlərə görə isə 150 minədək insan yaşamaqdadır orda. Əhalisinin çoxu türkmənlər, kürdlərdir. Rayon ərazisində çox sayda türkmən

kəndləri var. Orada da vəziyyət çox ağırdır. İŞİD yaraqlılarının Kərkükə doğru hərəkətinin qarşısını ilk olaraq yerli polis və peşmərgə qüvvələri alıb. Son vaxtlar tez-tez iranlı rəsmi şəxslər gəlir bu yerlərə. İraqda İŞİD-dən daha böyük təhlükə közərir – məzhəb davasına zəmin hazırlanır! Baş nazir Nuri əl-Maliki orduya inanmır. Buna görə də «Bədr» silahlı dəstələrini prosesə cəlb etməyə başlayıb. Maliki açıq-aşkar şiələrdən ibarət milis güclərini dəstəkləyir. Yanlış siyasətin nəticəsidir ki, ölkəmizin sünni-ərəb əhalisi də hökumətə qarşı İŞİD-in tərəfindədir. Amma müharibənin sərhəd xətti Türkməneli torpaqları olduğundan, ən böyük əziyyəti də biz yaşayırıq. Bu dava-dalaş biz türkmənlərin deyil, ancaq bölgəmizdə olduğu üçün ziyanı bizə dəyir. Öz aramızdan olan bəzi adamlar dolayısı yolla tərəf tutmağa başlayıblar. Bu isə Türkmən milli hərəkatının uğursuz siyasəti ilə bağlı ola bilər. Məncə türkmən xalqının milli şüurunu oyandırmaq lazımdır.

– Siz Türkməneli Partiyasının sədrisiniz, elin mənəvi liderisiniz. Milli şüuru sizdən yaxşı kim oyada bilər? – dedim.

– Biz tam səlahiyyətli türkmən heyəti yaratmağa çalışırıq. İnşallah bu həftə proses başa çatacaq. Bundan sonra türkmənlərin bütün maraqlarını təmin edəcək hər şey həmin heyətin səlahiyyətində olacaq. Hadisələr göstərir ki, bu gün İŞİD sünnilərin nəzarətindəki dörd təşkilatdan sadəcə biridir. Digərləri isə BƏƏS, «Müsəl-

man qardaşlar» və «Təriqətçilər»dir. Məqsədləri sünnilərin federativ bölgəsini yaratmaqdır. Bir məsələ var ki, onlar Kərkükü də yaratmaq istədikləri bölgənin içində görmək istəyirlər. Bu azmış kimi, kürdlər də bu yandan Kərkükə iddialıdırlar. Çünki bu bölgədə çox böyük neft ehtiyatları var – hamı onu nəzarətə götürmək istəyir. Biz türkmənlər isə Kərkükü ayrıca federativ subyekt olaraq görmək arzusundayıq. Düşünürük ki, ölkəmiz ərəb, türkmən və kürd xalqları tərəfindən bərabər səviyyədə, eyni hüquqda idarə olunmalıdır. ABŞ İraqı demək olar ki, üç yerə bölüb. İstəyir ki, İraq torpaqlarında sünni, şiə və kürd bölgələri yaransın. Görürsünüz, amerikalılar da türkmən milli varlığını diqqətdən kənarda saxlayır. Biz təklif edirik ki, kürd, sünni və şiə bölgələrinin yanında, inzibati mərkəzi Təlafər şəhəri olmaqla Türkməneli milli muxtariyyəti də yaradılsın. Bununla yanaşı, Kərkük ərazisində 5 inzibati rayonun yaradılması da planımıza daxildir. Azərbaycan da bu təkliflərimizə dəstək verməlidir. Rəsmi Bakı bununla Türkməneli bölgəsində yaşayan azərbaycanlı qardaşları qarşısında öz borcunu yerinə yetirmiş olar. Nəzərə alın ki, biz türkmənlər dil və mədəniyyət baxımından azərbaycanlıyıq. Amma tarixən əlaqələrimiz Anadolu cografiyasına bağlı olub. Çünki uzun müddət Osmanlı dövlətinin vətəndaşları olmuşuq və bu gün də İraq dövləti üzərindən Türkiyə ilə əlaqələrimiz çox sıxdır. Buna baxma-

yaraq, türkmən dilinin Azərbaycan türkcəsinə uyğunluğu özünü qoruyub saxlayıb.

– Axı Azərbaycan müstəqilliyini iyirmi-iyirmi beş ildir bərpa edib, o qədər geniş imkanı yoxdur.., – təəssüflə başımı buladım. – Amma maraqlıdır, Azərbaycana bununla bağlı müraciət eləmisiniz və ya eləmək fikriniz var? – təəccüblə üzünə baxdım.

– Keçmişdə az da olsa, tanıtım məqsədilə görüşlərimiz olardı. Bir çox türkmən liderlər əvvəlki dövlət başçıları Əbülfəz Elçibəylə, Heydər Əliyevlə, indiki prezident İlham Əliyevlə görüşlər keçiriblər, – Riyaz bəyin simasında sevinc parladı. – Amma bunu hansısa şəkildə siyasi dəstək almaq məqsədilə etməyiblər. Düşünürəm ki, artıq vaxtı çatıb, kömək üçün Azərbaycan hökumətinə müraciət etməyə çalışacağam. Məncə, Türkmənelinin problemləri bizim qədər Azərbaycanın da milli-mənəvi məsələsidir. Bölgəmizdə bir xalqın yox edilməsinin qarşısını almaq lazımdır, – əlavə elədi.

– Məncə, türkmənlərin milli probleminin həlli kənarda yox, Bağdaddadır, – dedim. – Bəzən təzyiqlər əks təsir göstərir. Amma hökumətlə dil tapmaqla çox şey əldə edərsiniz...

– Sünni koalisiyasında yer alan qruplarla görüşmək mümkündür. Amma şiələrlə, kürdlərlə, eyni zamanda, bölgəyə təsir edən xarici ölkələrlədə danışıqlar aparmaq lazımdır. Çox təəssüf, türkmənlər olaraq bizim buna gücümüz çat-

mır. Türkiyə, Azərbaycan, Türkmənistan, başqa türk dövlətləri də, bizi ciddi şəkildə dəstəkləyib mənəvi kömək göstərməlidirlər. Necə ki, İran şiələri, Səudiyyə Ərəbistanı sünniləri, Qərb ölkələri də kürdləri dəstəkləyir.

– Bərzaninin Türkiyə ilə çox isti əlaqələri var, o, dəstək verər türkmənlərə. Əlbəttə, istəsəniz...

– Dəflərlə söhbətlərimiz olub. Əvvəllər birmənalı şəkildə planlarımıza qarşı çıxırdılar, indi nisbətən yumşalıblar. Amma öncə millətimizin dəstəyinə ehtiyaclıyıq. Çünki bu halda özümüzü arxalı hiss edərik və işlərimiz daha rəvan gedər. Çox şey istəmirik – haqqımızı versinlər, vəssalam. Ümumiyyətlə, bütün xalqlar öz haqlarına düşəni alsınlar, biz buna müsbət yanaşırıq, – Riyaz bəy dedi.

Ağlıma yeni fikir gəlmişdi: niyə muxtariyyətlərini elan etmirlər? Amma bunu yəqin ki, türkmən siyasətçilər fikirləşməmiş deyildilər. Xüsusilə də Türkməneli Partiyasının sədri olan Riyaz Sarıkahya kimi bir lider. Amma yenə də, fikirləşdiyimi deməklə ürəyimi boşaltmağa qərarlı idim.

– Məncə türkmənlərin bütün siyasi partiyaları, ictimai təşkilatları, QHT-ləri bir araya gələrək milli-muxtariyyət elan etməlidir. Sonra da bu qərarı rəsmiləşdirərək hər bir ölkədaxili rəsmi orqana, eləcə də xarici dövlətlərə çatdırmalı, tanınmasını tələb etməlidir. Amma siz bunu etmədən başqa ölkələrdən yardım istəyirsiniz. Azərbaycan bir zamanlar azadlığına qovuşmaq

üçün çox sayda şəhid verdi, amma geri çəkilmədi, haqqını aldı…

– Bu elə də asan deyil! – Riyaz bəy ayağını ayağının üstünə aşırdı. – Kürd qardaşlarımız 1991-ci ildə ABŞ, Türkiyə, Böyük Britaniya və Fransa tərəfindən yaradılan təhlükəsiz bölgə sayəsində muxtariyyətini qazandı. Amma kürdlərdən başqa İraqda heç bir xalq öz milli bölgəsini qura bilmədi. Yaddan çıxarmayan ki, buralar dünyanın vacib hesab etdiyi yerlərdir, burada istənilən qərarı vermək o qədər də asan deyil. Hamı kimi bizim də siyasi dəstəyə ehtiyacımız olur və hətta var. Özü də müəyyən qədər irəli gedə bilmişik. Səddam Hüseynin zamanında türkmən olmaq günah sayılırdı.

Az-çox tarixdən oxuduqlarımdan bilirəm ki, istənilən milli mübarizə vahid mərkəzdən, həm də siyasi müstəvidə idarə olunduğu təqdirdə qələbə ilə nəticələnir. Onu da bilirəm ki, milli mübarizənin iflas etməsi üçün ən əlverişli üsul millətin önündə gedən liderlərin vəhdətini parçalamaqdır. Bu mənada, Türkməneli yurdunda fəaliyyət göstərən bir çox siyasi partiyaların ayrı-ayrılıqda mübarizə aparmasından istənilən nəticəni almaq çox çətin görünür. Xüsusilə də İraq kimi, türkmənlərə zülm edilən ölkədə. Bəs türkmən siyasi cameəsini bir araya gətirmək olmazmı? Məni düşündürən bu sualı Riyaz Sarıkahyaya ünvanladım.

Riyaz bəy birmənalı şəkildə mənimlə razılaş-

dı. Bildirdi ki, mübarizənin daha effektli olması üçün Türkmən Məclisinin qurulması çox vacibdir. Çünki bütün partiya və təşkilatlar həmin Məclisdə təmsil olunarlar və təbii ki, siyasi qərarları da birlikdə verərlər.

– İraq Türkmən Cəbhəsindən başqa bütün siyasi partiyalar Məclisin qurulmasına dəstək verirdilər. Şəxsən bizim Türkməneli Partiyası iki ildir Məclisin yaradılması üçün əlindən gələni edib, – Riyaz bəy dedi. – Çünki əvvəllər qurulmuş qondarma bir məclis vardı – Türkməneli Partiyası olaraq biz onu tanımırdıq. Təbii ki, tanımırdıqsa, deməli, orada iştirak da eləmirdik, – əlavə elədi.

– Niyə, səbəb nə idi? – təəccübləndim.

– Məqsədimiz tamam başqadır. İstəyirdik ki, bütün türkmən partiyaları, millisindən tutmuş islamçısınadək, hansı bölgəni təmsil etməsindən və hansı məzhəbə qulluq göstərməsindən asılı olmayaraq hamı qurulacaq məclisə qatılsın. Belə bir Məclisin yaranması indiki şəraitdə millətimiz üçün çox lazımdır. Türkmən Cəbhəsi isə türkmən adını, türkmən xalqının əldə edə biləcəyi haqq və qələbələri təkbaşına əlində saxlamaq üçün Məclisin tam mənada qurulmasını dolaylı yolla əngəlləyirdi. Üzdə isə özlərini elə göstərirdilər ki, guya Məclisin yaradılmasını onlar da istəyirlər. Bir müddət əvvəl yenidənqurulma prosesinə başlanılsa da, keçmiş üzvlər imkanları daxilində prosesi gecikdirməyə çalışırdılar. Bunu görən

bir qrup türkmən gənc Məclisin binasını tutaraq keçmiş üzvlərin səlahiyyətlərinə son qoydular. Bu üzvlərin doxsan faizi Türkmən Cəbhəsinin üzvləri idi.

– Bu gün Türkmən Cəbhəsi özünü şəriksiz avanqard hesab edir, Türkiyə də onları dəstəkləyir. Belə olduğu təqdirdə niyə təxribata əl atmışdılar? – maraqlandım.

– Türkmən Cəbhəsi daha əvvəllər bütün türkmən partiyalarını özündə birləşdirən böyük bir koalisiya və ya ittifaq idi. 1995-ci ildə onun qurulmasında şəxsən mən vacib rol oynamışdım. Açığını desəm, cəbhəni qurmaq mənim layihəm idi. Ancaq sonradan Səddam Hüseyn və bəzi kürd partiyaları cəbhəyə təzyiqlərini artırdılar. Hətta adını çəkdiyim qüvvələr öz adamlarını cəbhəyə soxdular ki, istədiklərini asanlıqla ala bilsinlər. Cəbhəni, sədrini tərəflərinə çəkməklə tam nəzarətə götürmüşdülər. O illərdə cəbhədə Səddam rejiminə qarşı kəskin mövqeyimi bildirdim, hər yanlış addımlarına etiraz etdim. Nəticəsi də özünü çox gözlətmədi: Səddam rejimi və kürdlər Türkmən Cəbhəsini yox, şəxsən məni hədəfə aldılar. Türkiyəyə gəlincə, Səddam Hüseynlə və kürd partiyaları ilə əlaqələrinə xələl gəlməsin deyə, məni müdafiə etmədi. Əksinə, Səddamçı və kürdçü düşüncələri ilə tanınan şəxslərin idarə etdiyi Türkmən Cəbhəsini dəstəkləməyə məcbur oldu. Mən də Türkiyənin maraqlarına xələl gəlməsin deyə Cəbhədə fəa-

liyyətimi dayandırdım. Orada üzvlüyüm sadəcə simvolik məna daşıyırdı. Səddam devriləndən sonra isə, ümumiyyətlə, Cəbhədən ayrıldım. Az sonra bəzi yeniliklər baş verdi. Cəbhənin özü də siyasi fəaliyyət formasını dəyişdi – özünü partiya elan etdi. Ancaq bu günədək çoxları elə bilir ki, Türkmən Cəbhəsi hansısa koalisiyanı özündə birləşdirir. Hansı ki, Cəbhə sıradan bir partiyadır. Onlar məhz xalqın fikrini azdırmaq üçün partiya olduqlarını maksimum gizlədirlər. Bütün bunlara baxmayaraq, Türkmən Məclisinin yaradılması istiqamətində iş gedir və inşallah qurulmasını bu dəfə heç kim əngəlləyə bilməyəcək.

– Mən də arzu edirəm ki, Türkmən Məclisi ən qısa zamanda fəaliyyətə başlasın, – sevincək tərzdə söhbəti müsbət məcraya yönəltməyə çalışdım. – Neçə partiyanın Məclisə gəlməsini gözləyirsiniz? – soruşdum.

– Əslində türkmən partiyalarının hamısı dəvətlidir. Amma indidən deyə bilərəm ki, azından beş partiya Məclisdə bir araya gələcək. Tək partiyalar deyil, türkmən mənşəli tanınmış, müstəqil şəxsiyyətlər də Məcisə üzv ola biləcəklər. Məclisin təxminən 100 üzvü olacaq.

– Heç olmaya bütün Türkməneli adına qərarlar qəbul edə biləcəkmi? Məsələn, az da olsa Kürdüstan məclisi kimi səlahiyyətləri olacaq?

– Elə bizim də gözləntilərimiz budur, – Riyaz bəy gülümsədi. – Ancaq Məclis qanun yox, qərarlar qəbul edə biləcək, – dedi. – Əsas odur ki,

türkmən tərəfləri bir araya gətirəcək, onları milli məsələlərdə birləşdirəcək. Həm də ki, bütün millət vəkilləri və nazirlər, nazir müavinləri də Məclisə üzv ola bilərlər. Bu prizmadan yanaşanda, bəli, Kürdüstan məclisinə bənzərliyi olacaq. Bağdad hökuməti – bütün İraq cəmiyyəti bilir nə istədiyimizi. Heç kim bu məsələyə qarşı çıxmır, çünki bu bizim təbii haqqımızdır. Amma açığını desəm, kənardan dəstək verənimiz yoxdur – heç istəmədik də. Yetər ki, mane olmasınlar, bu bizə bəsdir. Türkmən partiyaları, Məclisdə təmsil olunacaq varlı üzvlər maddi ehtiyacları yoluna qoyacaqlar. Buna baxmayaraq, Bağdad hökumətinə maliyyə dəstəyi almaq üçün müraciət edəcəyik. İraq konstitusiyası da buna imkan verir.

Bir anlığa fikrim-xəyalım gün ərzində baş çəkdiyim döyüş bölgəsinə uçdu. Hər yerdə dağılıb-viran edilmiş kəndlər, qəsəbələr gördüm, qətlə yetirilmiş insanların ahı, əlli-ayaqlı itkin düşmüş məsum vətəndaşların taleyi məni ciddi narahat edirdi. Bütün İraq insanları bu bəlanın qoynunda üzsə də, türkmənlər daha ağır vəziyyətdəydilər. Allahın işinə bax: İŞİD də əsasən Türkməneli torpaqlarını işğal eləmişdi. Haradan bir daş atılsaydı, mütləq türkmənə dəyirdi. Dövlət bu bölgələrdə vətəndaşlarının həyatını qorumaq iqtidarında deyildi, bədbəxtlikdən, kürdlərin olduğu kimi, bu milləti qoruyacaq milli özünümüdafiə qüvvələri də yox idi. Bütün ümidlər göydə Allaha, yerdə isə xaricdən göstəriləcək

yardımlara bağlanmışdı.

– Dövlətin ordusu ərəblərə xidmət edir. Kürdlərin də öz silahlı qüvvələri var – Peşmərgəni deyirəm. – Məncə türkmənlərin də özünümüdafiə qüvvələrinin formalaşdırılmasına ehtiyac var. Türkmən Məclisinin belə qüvvə yaratması mümkündürmü, – soruşdum.

– İnşallah! Əgər İraq qanunları başqalarına silahlı qüvvə yaratmağa icazə verirsə, deməli, bizə də verəcək, – Riyaz bəy gülümsədi. – Türkmənlər üçün özünümüdafiə qüvvələri yaratmaq çox vacibdir, xüsusilə də indiki zamanda. Əlbəttə, bunun üçün qanuni zəmin olmalıdır.

– Türkməneli kimi böyük bir coğrafi bölgə var. Türkmən Məclisi də yaratsanız, sizə mütləq inzibati mərkəz statuslu bir yer seçmək lazım olacaq...

– Bu barədə fikrimiz var, Riyaz bəy sözümü kəsdi. – Türkmənelinin ilk mərkəzi Təlafər olacaq. Kərkükdə isə kürdlərlə birlikdə tam müstəqil federativ bölgə yaratmaq planımız var və bu yönümdə səylərimizi davam etdiririk. Siyasi ittifaqların yaranması vacibdir. Bölgə xalqlarının gələcəkdə söz sahibi olmaları lazımdır. Bizim hədəfimizdə Türkmənelinin ərazisi 40 min kvadratkilometr, burada yaşayacaq əhalinin sayı isə 3 milyon nəfər ola bilər. Təbii ki, bunlar ehtimallardır. Biz İraqın bölünməsini arzulamırıq, əvvəlki kimi birlikdə yaşamaq istəyirik. Biz türkmənlər İraq dövlətini də, iraqlıları da çox se-

virik. Amma əgər böyük güclər İraqın bölünməsini istəyirlərsə, deyəcək sözümüz qalmır. Proses bu istiqamətdə gedirsə, o zaman bizim də öz torpaqlarımızda milli idarəetmə orqanlarımızı yaratmaq tam haqqımızdır...

Beləcə, maraqlı söhbətimiz oldu Riyaz bəylə. Xeyli müzakirə etdik, bilmək istədiklərimi soruşdum, o da sağ olsun, səbrlə cavab verdi. Amma üzü gecəyə gedirdi, ona görə də sağollaşıb ayrıldım.

***

Səhəri gün Kərkükdəki təhsil müəssisələrinin incisi sayılan Barış Qız Liseyinə baş çəkdim. Adından da göründüyü kimi, burada ancaq qızlar təhsil alır. Əvvəlcə on iki illik təhsil sisteminə malik liseyin müdirəsi ilə görüşdüm. Orta yaşlı xanım idi. Özünü təqdim etdi – Solmaz Hamamcı. Çox mehriban, həm də işində tələbkar olan Solmaz xanımla giriş qapısının sağındakı kabinetində söhbətləşdik.

Müdirə xanım dedi ki, qonağı olduğumuz bu məktəb 2009-cu ildə açılıb. Əvvəl şəhərin ayrı yerində fəaliyyət göstərib, indiki binasına isə bir il əvvəl – 2014-cü ildə köçüblər. Hazırda 6 sinifdən ibarət məktəbdə 532 şagir təhsil almaqdadır. Nə az, nə çox, 46 müəllim burada türk dilində dərs deyir. Həm də İraqda ərəb dili və əlifbası hakim olmasına baxmayaraq, burada şagirdlərə latın əlifbası öyrədilir. Düzdür, dini dərslər ərə-

bcə keçirilir, amma onların da tədrisində latın əlifbasından istifadə olunur.

Solmaz xaım dedi ki, məktəbdə nəinki təhsilhaqqı alınmır, əksinə, bütün dərs kitabları şagirdlərə pulsuz verilir. Bütün bunları eləmək üçün isə Kərkük Vilayət Vəqfindən hərtərəfli yardım alırlar.

Məktəbdə dərslərin hər biri fərqli universitet bitirmiş savadlı müəllimlər tərəfindən deyildiyini vurğulayan Solmaz xanımın sözlərinə görə, hətta vaxtaşırı müxtəlif fənlər üzrə müsabiqələr də təşkil olunur. Bundan əlavə, şagirdlər vilayət üzrə bir sıra məktəblərarası yarışlarda iştirak edərək qalib də olublar.

Amma bir problemləri vardı: ola bilər ki, müharibə şəraitində olduqlarından maaşları çox aşağı idi. Ona görə də bazardakı yüksək qiymətlərə qarşı aldıqları maaş onları təmin etmir.

Müdirə xanımla söhbətdən sonra birlikdə sinifləri gəzdik. Məktəb binası yeni tikildiyi üçün dəhliz və sinif otaqları da tər-təmiz görünürdü. Yüksək nizam-intizam vardı, dərs vaxtı kimisə dəhlizdə görmək mümkün deyildi.

Baş çəkdiyimiz siniflərdə uşaqlardan Azərbaycan barədə nə bildiklərini soruşdum. Hamılıqla olmasa da, çoxu dövlətmizlə bağlı müəyyən məlumatlar verdilər. Hətta qızlardan biri Azərbaycanda Xocalı soyqırımının baş verdiyini və bunun ermənilərin törətdiyini dedi. Şagirdlər hətta əlavə etdilər ki, məktəbi bitirəndən sonra

məmnuniyyətlə Azərbaycan universitetlərində təhsillərini davam etdirmək istərdilər.

Beləcə, məktəblə tanışlığımı başa vurub küçəyə çıxdım. Yılmaz ağ rəngli avtomobildə gözləyirdi. Hara gedəcəyimizi soruşdum. Dedi Kərkük Vilayət Məclisinin üzvü Əli Mehdi ilə görüşəcəyik. Riyaz bəy danışıb, görüş üçün vaxt ayrılıb.

Yola düşdük. Baxımsız, İŞİD təhlükəsinin narahat etdiyi sakinlərin harasa tələsdiyi küçələri şütüyən maşın bir azdan hündür divarlarla əhatələnən yarıaçıq dəmir darvazanın qarşısında dayandı. Darvazadan içəri dar, asfalt yol uzanırdı. Küçədə beton plitələrlə sədd qurulması və çox sayda əliabvtomatlı əsgərlərin gəlib-keçən hər kəsi çox ciddi yoxlamaları, buranın önəmli yer olduğunu göstərirdi. Doğru düşünmüşdüm, vilayət məclisinin binası idi.

Bizi maşından düşürdülər. Əvvəl detonatorla maşının çölünü, içini, yük yerini – hər yerini daradılar, sonra da özümüzün üst-başına göz gəzdirdilər. İkinci dəfə itlər axtarış apardı. Bu dəfə də bir şey tapmayınca sənədlərimizi yoxlayıb, harasa zəng vurdular. Təxminən on dəqiqə gözləyəndən sonra bizə həyətə daxil olmağa icazə verdilər.

Məclisdə türkmənləri təmsil edən Əli Mehdi məni çox mehribanlıqla, əziz qonağı kimi qarşıladı, hal-əhval tutub, Azərbaycanın vəziyyəti ilə maraqlandı. Dedi Kərkükdə vəziyyət ürəkaçan deyil, elə hey milli-etnik mahiyyətli problemlərlə üzləşirlər.

– Türkmən millətindənik deyə bu ölkədə həmişə düşmənlərimiz olub. Burada türkmənləri Osmanlı İmperiyasından qalma türklər adlandırırlar, onlara xor baxırlar, – Əli Mehdi oturduğu hündür söykənəcəkli kreslosunda qəddini dikəltdi. – Türkmənlər xalq olaraq oxuma-yazma bilirlər, sıralarımızda çox məşhur həkimlər, tacirlər, iqtisadçılar var. Yalnız indi deyil, tarix boyunca türkmənlər bu kimi ürəkaçan göstəriciləri ilə İraqda seçiliblər. Biz kürdlərə paltarın nə olduğunu öyrətmişik, savadımızla, müasirliyimizlə öyünmüşük. Biz milli kimliyimizi elmimizlə, mahnılarımızla dünyaya çatdırmışıq. Bu da başqalarında xalqımıza qarşı qısqanclığı dərinləşdirib. Türkmənlər tarixin bütün etaplarında zəngin, böyük torpaq-mülk sahibləri olublar, – Əli Mehdi anidən susdu.

Sanki kövrəlibmiş kimi, səsi titrədi. Bəlkə də düşdüyü duyğusal vəziyyəti ört-basdır eləmək üçün dəstəyi qaldırıb katibəsindən çay gətirməsini istədi. Dəstəyi yerinə qoyar-qoymaz mənə sarı dönüb:

– Amma indi baxın vəziyyətimizə, əvvəlcə Səddam Hüseyn bizə qənim kəsildi, torpaqlarımızı türkmənlərdən boşaldıb ərəblərə verdi. 2003-cü ildən sonra isə kürdlər xalqımıza divan tutmağa başlayıblar. Bizi öz torpaqlarımızda özgə ediblər. 2003-cü ildən sonra türkmənlərə qarşı sözün əsl mənasında qətliam başlayıb, – dedi. – Türkmənlərin adlı-sanlı həkimləri, sö-

zükeçər ziyalıları qətlə yetirilib, sağ qalanlar isə təqib olunublar. 2003-cüilədək Kərkükdə 850 min əhali yaşayırdı, hansı ki, 60 faizdən çoxu türkmənlər idi. Ancaq son 10 il ərzində vilayətə yarım milyon kürd köçürülüb. Nəticəsi də məlumdur: bu gün Kərkük əhalisinin ancaq üçdən biri türkmənlərdir. Yəni türkmənlər öz torpaqlarında etnik azlığa çevriliblər. Bütün bunlara baxmayaraq, Kərkükdə bir türkmən qalsa da, bu torpaqları heç kimə verməyəcəyik. Kərkük türkmən torpağı olduğu kimi, türkmən torpağı da qalacaq.

– Amma təəssüf ki, İraqdan xaricə ancaq ərəblərin və kürdlərin səsi çıxır, – dedim.

– Onların imkanları var. Ərəblər dövlətdir, kürdlər də həm yarımdövlətdir, həm də arxalarında böyük güclər dayanıb. Bizim də yerli telekanallarımız var, bir neçə qəzet çap etdiririk və bu media orqanları vasitəsilə millətimizin çəkdiyi əzabları, tapdanan haqq-ədalətimizi dünayaya çatdırmağa çalışırıq. Vətəndaşı olduğumuz dövlətin, səs verib seçdiyimiz mərkəzi hökumətin Kərkükün acılarına göz yummasını başa düşə bilmirik. Kürdlərin bölgədə apardığı assimilyasiya siyasətini Bağdad hökuməti görməzliyə vurur, – Əli Mehdi cavab verdi.

– O doğrudur, kürdləri Amerika, Avropa dəstəkləyir, İsrail müdafiə edir. Amma türklərin də söz demək şansı artıb. Çünki bayaqdan Türkiyə tək idi, indi isə onun arxasında Azərbaycan, Qa-

zaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan kimi müstəqilliklərini yenicə bərpa edən dövlətlər dayanıb. Bu, Türkməneli türklərinin də səsinin eşidilməsinə kömək edəcək, – dedim.

– Mən hələlik bu köməyi hiss eləmirəm, – Əli Mehdi narazı halda başını yellədi. – Ən böyük türk dövləti Türkiyədir, varlığından qürur duyuruq, ancaq bizə arzuladığımız dəstəyi vermir. Başa düşürük, dövlətlərin özləri böyüklüyündə də milli maraqları olur. Türkiyənin də öz milli maraqları var və hesab edirik ki, bu bizim yaşadığımz əzab-əziyyətdən daha üstündür. Türkiyənin güclü olması bizim güclü olmağımız deməkdir.

– Biz də hər zaman Azərbaycanda belə deyirik, zaman böyük, güclü olan dövlətlərindir, – sözünə qüvvət verdim.

– Haqlısınız, Azərbaycan üçün də Türkiyənin güclü olması əhəmiyyətlidir. Bu gün Türkiyədən narazılıq edən insanlar əslində bu ölkənin qarmaqarışıq siyasətini başa düşmürlər. Heç kim bilmir ki, bu gün Ankara Kürdüstan muxtariyyəti, İran, Amerika, lap elə Bağdadın özü ilə nə danışır, planı nədir və sair. Mən isə işimlə-vəzifəmlə əlaqədar olaraq az-çox məlumatlıyam proseslərdən. Xarici işlər naziri olarkən Əhməd Davudoğlu ilə dəfələrlə görüşüb, müzakirələr aparmışam. Hətta bir dəfə Davudoğlu o zamankı baş nazir Nuri əl-Malikinin qəti narazılığına baxmayaraq Kərkükə gələrək türkmən liderlərlə təmas qurdu. Bir dəfə də Rəcəb Tayyib Ərdoğanla

görüşüb, problemlərimizi müzakirə eləmişəm. Şəxsi qənaətim belədir ki, Türkiyənin varlığını Türkmənelinin varlığından üstün tutmalıyıq.

– Azərbaycan müstəqilliyini, belə demək mümkündürsə, yeni bərpa edib, dünya düzənində indi-indi mövqeyini gücləndirir. Həm də, axı bizim Qarabağ kimi problemimiz var, – səsimi qısdım.

– İnşallah, Qarabağ münaqişəsi həllini tapacaq, torpaqlarınız azad olunacaq, – Əli Mehdinin üzündə təbəssüm parladı. – Başa düşürük ki, bu münaqişəyə görə, Azərbaycanın İraq türkmənlərinə dair siysəti açıq deyil. Amma qeyri-rəsmi yollarla Bakıdan türkmən qaçqınlara humanitar yardımın çatdırılması, bu da olmasa, heç olmaya mənəvi dəstəyin verilməsi çox yaxşı effekt verərdi. Türkmənlərin bu gün yardıma böyük ehtiyacı var. Şəhər ətrafında türkmən qaçqınlar üçün öz gücümüzə çadır düşərgəsi saldırmışıq. Təxminən 2,5 min qaçqının yaşadığı düşərgədəki bütün çadırları, içinin avadanlığı ilə birlikdə Türkiyə verib. Ərazi isə türkmən soydaşlarımızdan birinindir, pulsuz-parasız verib ki, qaçqınlar yerləşdirilsin.

Söhbətin bu yerində katibənin gətirdiyi çaydan bir-iki udum içib, nə isə ağlına gəlibmiş kimi, mənə baxan Əli Mehdi:

– Yeri gəlmişkən, istəsəniz sizi həmin düşərgəyə apararam. Onsuz da getməliyəm, köçkünlərin bir çox problemi var, onların həlli ilə maraq-

lanmalıyam, – dedi.

– Hə, əlbəttə, məmnuniyyətlə düşərgəni görmək istərdim, – cavab verdim. – Ən azından İraqda qaçqın və köçkünlərin yaşadıqları mühitlə tanış olardım.

Yarım saat sonra söhbətimizi başa vurub Əli Mehdi ilə birlikdə kabinetdən çıxdıq. Səsli-küylü dəhlizi addımlayıb həyətə endik. Əli Mehdinin özünün idarə etdiyi "Toyota" markalı ağ avtomobillə, daha iki maşın cangüdənin müşayiəti altında Kərkükün dağınıq ənginliklərindən sürətlə ayrılaraq Yahyava qaçqın düşərgəsinə səmt aldıq.

Maşın əsas yoldan sağa burulub düşərgənin ərazisinə girən kimi hər tərəfdən azyaşlı uşaqlar üstümüzə yürüdülər. Birinin ayağında ayaqqabısı yoxdu, birinin corabı, başqa birinin pencəyi... Maşından yerə ayaq basan kimi hərə bir tərəfdən Əli bəyin başına yığışıb, «çantam yoxdur», «kitabım yoxdur», «ayaqqabım yoxdur»... şikayətlər yağdırdılar. Əli Mehdi də hər birinin saçını tumarlayaraq «alacağam» deyirdi. Elə bil bu sözü eşitmək istəyirlərmiş kimi, uşaqlar da sakitləşib kənara çəkilirdilər.

Birlikdə düşərgəni gəzib, dolaşdıq. Havalar hələ yenicə isinməyə başlasa da, çadırların içində bürküdən adamın bağrı yarılırdı.

– İnsanlarımızın gününü görürsünüzmü, yaşamaq deyil, əzab çəkməkdir, – Əli bəy dedi. – Hələ yaz girməyib, bürkü adamın ürəyini yandırır, yayda bu yerlərdə hərarət 50 dərəcəyə qalxır,

onda nə edəcək bular? Çadırlara ventilyatorlar paylayacağıq, heç olmaya bir az köməyi dəyər.

– Azərbaycan xalqı bu əzabı 25 ildir yaşayır, – dedim. – Ermənistanın işğalından canını götürüb qaçan insanlarımız çadırlarda, ilanmələyən çöllərdəki qazmalarda yaşamağa məcbur oldular. Düzdür, artıq Azərbaycan özünü toparlamağa başlayıb, qaçqınlarımız üçün bütöv qəsəbələr salır – məktəbi, xəstəxanası, iaşə obyektləri ilə birlikdə, – əlavə etdim.

Dinməzcə çadırların arasında gəzişdik. Düşərgənin sağ tərəfində böyük bir ərazi buldozerlərlə hamarlanıb, ətrafı hasarlanmışdı. Əli bəy dedi ki, buranın sahəsi hektar yarımdır. Yerini hazırlayıblar, yaxın günlərdə köçkünlər üçün bir neçə yüz əlavə çadır qurulacaq və burada həm yeni ailələr, həm də hazırda baş çəkdiyimiz düşərgədə məskunlaşmış bəzi insanlar yerləşdiriləcək.

Bu arada, Əli bəyin sözlərinə görə, düşərgədə 400 ailə məskunlaşıb, buradakı insanların ümumi sayı isə 2433 nəfərdir. Çox sıxlıqdır. Ailələr orta hesabla altı-yeddi nəfərdən ibarətdir, hətta bəzi ailələrin ondan çox üzvü var, ona görə də bir az seyrəlmələri lazımdır. Bu səbəbdən də qurulacaq yeni çadırların bir hissəsi oradakı insanlara veriləcək.

Yeri gəlmişkən, mən düşərgədə olarkən qurulacaq yeni çadırlar, eləcə də yataq dəstləri və sair gətirilmişdi.

Əli bəylə birlikdə düşərgə komendantının oturduğu çadıra gəldik. Onlarla qaçqın şikayətlərini çatdırmaq üçün növbəyə düzülmüşdü. Bəziləri dərman çatışmazlığından əzab çəkdiyini bildirir, bir başqaları ərzaq qıtlığından, yataq dəstlərinin azlığından şikayətlənir, hətta bəziləri oğlan övladlarının polis tərəfindən aparıldığını deyirdilər. Bunun səbəbini soruşdum, Əli bəy dedi ki, polis hansısa qruplaşma ilə əməkdaşlıq etdiyi güman olunan insanları axtarır. Narahat olmayaq, günahları yoxdursa, sorğu-sual edib buraxacaqlar.

Düşərgənin ortasında qaçqın uşaqların adi qaydada təhsil alması üçün bir neçə iri çadırdan ibarət məktəb tikilmişdi. İçəridə iki nəfərlik partalar düzülsə də, şagirdlərə çatmırdı. Hansı sinifə girdimsə, ən azı 6-7 şagirdin yerdə oturduğunu gördüm. Qarşıda yazı lövhəsi qoyulmuşdu, kitab-dəftərləri Kərkük Vilayət Şurası tərəfindən verilən uşaqlar isə, deyəsən, oxumaq əzmini itirməmişdilər – müəllimin sualını göydə tutaraq, cavablandırırdılar.

Məlumat üçün deyim ki, məktəbdə 470 şagird təhsil alırdı. Hələ bu azmış kimi, yeniləri də gəlməkdədir. Bu qədər uşağa elə düşərgədə yaşayan 16 müəllim dərs deyirdi.

Artıq gec idi, şəhərə qayıtmalıydıq. Dəvət olunduğumuz bir-iki çadıra baş çəkib, insanların olduqca ağır keçən gündəlik yaşayışları, məişət qayğıları ilə maraqlandım. Nə edə bilərdim? Azərbaycanda, Ermənistan ordusunun işğal et-

diyi torpaqlardan qaçan bir milyon həmvətənlimiz də onlarla eyni, bəlkə də daha ağır məhrumiyyətləri yaşamaqdaydı. “Amma üzülməyə dəyməz, buna da həyatın sınağı kimi baxmaq lazımdır” deyib düşərgədən ayrıldıq.

Bir azdan bizi Kərkükə aparan “Toyota” şəhərə doğru şütüməkdəydi. Yolboyu Əli bəy indicə acınacaqlı reallığından ayrıldığımız düşərgənin necə ərsəyə gəlməsindən, ora sığınan ailələrin çətinliklərindən söz açdı. Bildirdi ki, həmin ailələrin hərəsi bir yerə sığınmışdı, amma beş ay əvvəl onları çətinliklərini daha operativ həll eləmək üçün gördüyümüz düşərgəyə toplayıblar. Hətta Əli bəy bunun üçün öz cibindən 80 min dollar xərcləyib. Düşərgə əvvəl 250 ailə üçün nəzərdə tutulub, amma məcburiyyət qarşısında ora ikiqat sayda ailələr yerləşdirilib.

Əli bəy onu da dedi ki, bu insanlara yardım göstərməklə problem azalmır. Çoxunun ailəsi, yaxın qohumu şəhid verən bu insanları ovutmaq mümkün deyil. Həm də tək bu düşərgədəki insanlar deyil, İraqda bütövlükdə 200 mindən çox türkmən qaçqın vəziyyətində yaşayır.

Həmin gün Kərkükdə bir çox yerlərə baş çəkdik. Düzdür, şəhər əmin-amanlıqda deyildi, hər an və hər yerdə bombalar partlaya, insanlar ölə bilərdi. Ona görə də nə tarixi türkmən çarşısına gedə bildim, nə də başqa maraqlı məkanlara. Kərkükün simgəsi hesab olunan qalaya getmək həvəsim də ürəyimdə qaldı. Düzdür, Feyha

Bayatlı öz maşını ilə məni qalaya aparacaqdı, amma kürdlər bürclərə öz qondarma bayraqlarını sancdıqları üçün türkmənlərlə orada qarşıdurma yaranmışdı. Ona görə də həyatım üçün təhlükə ola biləcəyini düşünüb, aparmadılar.

Yenə də özüm üçün təhlükəsiz, ən doğma yerdə – Türkməneli Partiyasının qərargahındaydım. Hər zamankı kimi, armudu stəkandan çay udumlaya-udumlaya Riyaz bəylə baş-başa söhbətləşirdim.

– Ayağınız düşərli oldu, o gün demişdim ki, türkmənlərdən ibarət təhlükəsizlik qüvvəsi yaratmaq istəyirik – yaratdıq, – dedi. – Artıq 4 min nəfərlik türkmən silahlı qüvvələri yaradılıb və ona 16-cı ordu adı verilib.

Bir anlıq xəyalımda işğal altındakı Türkməneli torpaqları canlandı. Yollara səpələnmiş ana-bacılarımızın paltarları, öldü-qaldısından xəbər olmayan kiçik qız uşağının təktay ayaqqabısı gözümün qarşısından yuxu kimi keçdi. Türkmənlərin ayrılmaz parçası olan Duz Hurmatuda son on ildir ki, türkmənləri öz torpaqlarından köçürməyə çalışırlar. Bu məqsədlə bəzi kürd partiyaları ilə ərəb tayfaları bölgədə tez-tez terror aktları törədirlər, insanları qorxu-vahimə içində saxlayırlar. Bütün bu vəhşiliyin nəticəsidir ki, indiyədək Tuz Hurmatuda 4 mindən çox türkmən qətlə yetirilib. Çox sayda türkmən ailəsi sağ qalmaq üçün daha sabit şəhərlərə köçüb. Buna baxmayaraq, tarixi türkmən şəhəri olan Tuz Hur-

matu mətanətlə müqavimət göstərirdi. Səddam Hüseyn devriləndən bu yana keçirilmiş bütün seçkilərdə Duz Hurmatudan iki-üç türkmən millət vəkili seçildiyi üçün ərəblər və kürdlər oradan bircə mandat qazana bilmirdilər.

Duz Hurmatu türkmənləri şiə məzhəbinin ardıcılları olsalar da, türk milli kimliklərinə çox möhkəm bağlıdırlar. Hətta İŞİD yaraqlıları hücuma keçən vaxt İraq ordusu geri çəkildi, amma türkmənlər torpaqlarını atıb getmədilər, şəhid verdilər, amma qaçmadılar. Əvəzində özlərini qorumaq üçün "Haşdi Şabi"ni yaratdılar. Məhz bu qüvvə illərdir türkmənlərə qarşı terror hücumlarının qarşısını almaq üçün şəhərin küçələrində keşik çəkirlər. Yalnız bundan sonra türkmən əhali rahat nəfəs almağa başlayıb. Amma kürdlər türkmənlərin silahlanmasını həzm edə bilmirlər və ona görə də indiki toqquşmalar baş verməkdədir.

– "Haşdi Şabi" ilə peşmərgə arasında niyə qarşıdurma yaranıb? – xəyal yuxusundan oyanıb Riyaz bəydən soruşdum. – Peşmərgə nəyə görə Duz Hurmatuda özünü hakim kimi aparır? – soruşdum.

– Duz Hurmatuya nəzarət eləmək üçün zaman-zaman burada belə toqquşmalar olub, sonda türkmənlər şəhərlərini qoruya biliblər. Şəhərdəki kürd asayiş keşikçiləri ilə kürd partiyalarının milisləri türkmən könüllülərlə yola getmədiyindən, ora Süleymaniyyədən peşmərgə

qüvvələri gətirilib, – Riyaz bəy dedi. – Şəhərdə neçə aydır gərginlik yaşanır. Təsəvvür edin ki, Duz Hurmatu türkmənlərlə kürdlər arasında məhəllə-məhəllə bölünüb. Sanki nəzarət uğrunda iki tərəf arasında yarış gedib. Buradakı ərəb kəndləri də kürdlərin nəzarətində birləşib. Dünən axşam Duz Hurmatuda vəziyyəti qarışdıran bəzi tayfaların agentləri bir türkmən sakinə hücum edib. Təbii ki, türkmələr də cavabını verib, nəticədə qarşıdurma yaranıb. Bu gün şəhər "Haşdi Şabi"nin nəzarətindədir, amma peşmərgə oranı mühasirədə saxlayır. Türkmənlər hər zaman atəşkəsə razı olub, sülh istəyib. İndi vəziyyət sabitdir, amma bunun davamlı olub-olmayacağı bəlli deyil. Eşitmişik ki, davamlı şəkildə kürdlərin köməyinə Süleymaniyyədən əlavə qüvvələr göndərilir. Türkmən "Haşdi Şabi"sinə də Bağdaddan ərəb "Haşdi Şabi"si hərbi qüvvə göndərməkdədir. İnşallah toqquşmalar dayanar və problemlər sülh yolu ilə həllini tapar. Bir neçə ay əvvəl də türkmənlərlə kürdlər rasında anlaşma imzalanmışdı. Duz Hurmatunun təhlükəsizliyini birgə qorumaq üçün ortaq planlar hazırlandı, amma yerinə yetirilmədiyi üçün ittifaq dağıldı. Türkmən şəhəri olan Duz Hurmatunun icra başçısı bu gün kürd, Məclis sədri isə ətrəbdir və onları bu vəzifəyə Amerika qoyub. Amma neçə ildir Amerika bölgədən çəkilib gedib, həmin adamlar isə vəzifəda qalmaqdadırlar. Ən pisi isə odur ki, onlar türkmənlərə qarşı birləşiblər.

– “Bədr” tüməni haqqında eşitdim, kimindir bu silahlı qrup, türkmənlərə, kürdlərə münasibəti necədir, – soruşdum.

– “Bədr” qüvvələri Səddam Hüseynin dönəmində yaradılıb, özü də İranda. Əlbəttə, İranda yaradılıbsa, deməli şiələrin nəzarətindədir, – dedi. – Qrupun yaradılma məqsədi Səddam iqtidarı ilə mübarizə aparmaq olub. Amma qurucusu, həm də ilk rəhbəri təlafərli türkmən olub. Son vaxtlaradək komandiri millət vəkili Şeyx Taki Mevla idi. Bu səbəbdən də “Bədr” birliyində çox sayda türkmən qulluq edir. Özü də “Bədr” gücü hamının yaxşı tanıdığı Əl-Hakim ailəsinin nəzarətində olub. Şeyx Taki Mevladan sonra qrupun başına Hadi əl-Amiri gətirilib. Amma “Bədr” gücünün şimal qrupunun rəhbəri əslən Tuz Hurmatudan olan, keçmiş türkmən nazir Məhmət Mehdi Bayatlıdır. “Bədr” gücü “Haşdi Şabi”nin ən vacib qolu sayılır, üzvlərinin hamısı türkmənlərdir. Əslində, Duz Hurmatudakı “Haşdi Şabi”ni Bağdadda türkmən qüvvəsi adlandırırlar.

– Eşitdiyimə görə, Kərkük valisi Nəcbəddin Kərim bundan sonra Duz Hurmatuda təhlükəsizliyi kürd, türkmən və şiə milislərin birgə qoruyacağını deyib. Qorusunlar, amma kürdlər türkmənlərə imkan verəcəkmi öz işlərini görməyə? – soruşdum.

– Kürd partiyaların məqsədi türkmənləri hətta öz torpaqlarında belə idarəetməyə ortaq eləməməkdir. Onların tək istəyi var: türkmən

torpaqlarını nə yolla olur-olsun, Kürdüstana birləşdirmək. Bunu isə ancaq biz türkmənlərin silahlı qüvvələrini zəiflətməklə reallaşdıra bilərlər, – dedi. – Bağdad hökuməti də türkmənləri müdafiə eləməyə həvəsli deyil. Onlar da Kürdüstanın genişləndirilməsi planına dəstəkləyir. Bu gün kürd partiyalarının əlində yüzlərlə müasir tank-top, döyüş helikopterləri var. Yenicə yaranan türkmən güclərinə isə sadəcə yüngül silahlar verilib. Bizim qarşıdurmaya getmək niyyətimiz yoxdur, istəyirik kürdlərlə sülh şəraitində yaşayaq, idarəetmə strukturlarında birgə təmsil olunaq. Hər kəs bilməlidir ki, türkmənlərin maraqlarını nəzərə almayan heç bir həll prosesini qəbul etməyəcəyik. Türkmənlərlə kürdlər İŞİD-lə mübarizədə birlikdə hərəkət etməyə məcburdurlar. Duz Hurmatunu yalnız milis qorusun, razıyıq buna. Amma icra başçısı on üç ildir ki, kürddür, onun türkmən olmasını istəyirik. Peşmərgə bölgədən çıxarılmalı, mühasirə və təcridə son qoyulmalıdır. Biz Duz Hurmatunun vilayət olmasını istəyirik. Malikinin hakimiyyəti dönəmində İraqın Nazirlər Şurası Duz Hurmatu vilayətinin yaradılması haqqında qərar verib və təsdiqləmək üçün sənədi parlamentə göndərib. Amma bu günədək həmin qərar layihəsinə parlamentdə baxılmayıb. Duz Hurmatu vilayət olaraq gələcəkdə yaradılacaq Kərkük federal subyektininin tərkibinə salınmalıdır. Çünki 1976-cı llədək Duz Hurmatu Kərkük vilayətinin tərki-

bində ayrıca rayon olub. Amma Səddam Hüseyn Kərkükü kiçiltmək məqsədilə onu Səlahəddin vilayətinə birləşdirib.

– Siz Duz Hurmatunun vilayət statusu almasından danışırsınız, amma türkmənlər yaşayan onlarla kənd və qəsəbə bu gün boşdur, İŞİD qovulandan sonra həmin yerlərin əhalisi geri qayıtmasa əsl demoqrafik faciə baş verəcək, – təlaşla dilləndim.

– Hə, doğrudur, – mənimlə razılaşan Riyaz bəy cib telefonuna qəfil gələn zəngə cavab vermək üçün söhbətə ara verdi.

Riyaz bəy kiminləsə danışdığı dəqiqələrdə mən yarısoyumuş çayımı iki qurtuma içib qurtardım. Telefonumun vayfayını yandıraraq Azərbaycanla bağlı xəbərlərə ötəri göz gəzdirməyə başladım.

– Üzr istəyirəm, yaxın adam idi, cavab verməsəydim yaxşı düşməzdi, – Riyaz bəy üzrxahlıq edərək söhbətinə davam etdi. – İŞİD-dən geri alınmış yaşayış məntəqələri boşdur. Bağdadda deyirlər ki, hələ təhlükəlidir əhalinin geri qayıtması. Bu səbəbdən də türkmənlərdən evinə qayıdan olmayıb. Həm də axı döyüş zamanı kəndlər, qəsəbələr xarabaya çevrilib. Hələ qarşıda Mosulu xilas eləmək məsələsi var. Ora girmək istəyən qüvvələrin sayı çoxdur, amma təəssüf ki, aralarında qarşılıqlı inam, kordinasiya çox zəifdir və hətta yoxdur. İraq ordusu "Haşdi Şabi", peşmərgə və yerli tayfaların silahlılarından

ibarətdir. Hər qrupun da özünəməxsus fərqli hesabları var. Mosulun qurtuluşu İŞİD-in bölgədən tamam qovulması demək olardı. Bu səbəbdən də ABŞ əməliyyata başlamaq üçün icazə verməli və kömək göstərməlidir. Birləşmiş Ştatlar bu gün yerli siyasi qruplarla birlikdə İraqın yeni xəritəsini tərtib eləməklə məşğuldur. Təəssüf ki, bu proseslərdə ABŞ türkmənlərin maraqlarını nəzərə almır. Məqsəd də budur ki, türkmənlər daha da zəifləsinlər, proseslərə təsirsiz qalsınlar. Ona görə də biz türkmənlər və Mosulun bəzi ərəb qəbilələri şəhəri işğaldan qurtarma əməliyyatında Türkiyənin də iştirak etməsini arzulayırıq. Çünki Türkiyə olmadan bu əməliyyat müsbət nəticə verməyəcək...

Axşam düşmüşdü – saat 8 olardı. Başqa vaxtlar olsaydı, belə ılıq havada sakinlər küçələrdə olardı. Amma indi terror qorxusu insanların canına elə vəlvələ salmışdı ki, şər qarışmamış hamı evə girib qapısını bağlayırdı. Mən də axşam yeməyimi yemişdim, bir azdan otelə qayıdacaqdım. Amma sürpriz təklif bütün planlarımı dəyişdi. Riyaz bəy dedi ki, Kərkük türkmənlərini İraq parlamentində təmsil edən Türkmən Cəbhəsinin sədri İrşad Salehi ilə görüş razılaşdırılıb, məni gözləyirmiş.

Salehinin adını eşitsəm də, heç vaxt üz-üzə gəlməmişdim. Çoxları onun özündənrazı biri olduğunu deyirdi. Amma onu da bilirdim ki, vaxtilə məşhur Əbu Qureyb zindanında yatmış bu şəxs

Türkiyənin siyasi dairələri tərəfindən dəstəklənir. Beləcə, az sonra Türkməneli Partiyasının nümayəndəsi olan Cihat Avcı ilə birlikdə millət vəkili Salehinin yanına yollandım.

Şəhərin sakin məhəllələrindən birindəki qısa dalana yaxınlaşanda maşını dayandıran hərbi qiyafətli, əliavtomatlı qoruyucular Cihatı sorğu-suala çəkməyə başladılar. O, da Ərşad bəyin bizi gözlədiyini, mənim Azərbaycandan gəldiyimi, jurnalist olduğumu və deputatla müsahibə edəcəyimi dedi. Bir qədər gözlətdilər, harasa zəng edib, məlumatı dəqiqləşdirdilər, yalnız bundan sonra maşını içəri buraxdılar.

Dalan hər iki başdan beton lövhələrlə bağlanmış, hər iki tərəfdə lövhələrin arxasında hündür dəmir darvazalar qurulmuş, darvazaların yanında isə çox sayda hərbçilər keşik çəkirdilər. Mən belə güclü mühafizəni ancaq Kərkük Məclisinə – Əli Mehdinin yanına gedərkən görmüşdüm. Başadüşülən idi, İraqda müharibə gedir, terror aktları törədilir, millət vəkilləri isə xüsusilə terrorçuların hədəfindəydi. Amma bu qədər böyük silahlı güc saxlamaq millət vəkilinin nəyinə gərəkdi? Öz-özümə düşündüm: Azərbaycanda heç bir millət vəkilinin adi bir cangüdəni də yoxdur. Millət vəkilləri hər zaman sıradan vətəndaşlar kimi, xalqın içində olardı...

Bir qədər sonra Salehinin olduğu binaya çatdım. Böyük və təmtəraqlı zala keçib gözləməyə başladım.

Qonşu otaqda yüksək səslə kiminləsə danışan Ərşad Salehi yarım saatadək gözlədəndən sonra mən olan zala gəldi. Salamlaşıb, "xoş gəlmisiniz" dedi və əl sıxmadan yuxarı başda qoyulmuş kresloda oturdu. Təbii ki, onun müharibənin bu qızğın vaxtında, Can Aərbaycandan İraqa gəlmiş bir jurnalistə bu cür rəsmi davranması məni açmadı, amma nə edək, səbrimi basıb oturdum. Ordan-burdan söz açıb, söhbətləşməyə başladıq.

– Bu gün Kərkükdə bayrağımızı yandırıblar, buna çox təəssüf edirəm, – Ərşad bəy dedi. – Biz ölkəmizdə və bölgəmizdə sülhün, sabitliyin yaranmasına çalışırıq, amma təxribatçılar öz çirkin əməllərindən qalmırlar. Bayraq yandırmaq heç də elə-belə şey deyil, bunun əvəzini çox ağır ödəyəcəklər. İstəyirik haqq səsimizi hamı eşitsin. O cümlədən siz də, Azərbaycanda türkmənlərin üzləşdiyi ədalətsizliyi işıqlandırın. Siz mətbuatın rolu çox böyükdür. Bizim Azərbaycan dövlətindən heç bir təmənnamız yoxdur. Tək istəyimiz budur ki, Azərbaycan hökuməti türkmənlərin müdafiəsinə qalxaraq, bircə kəlmə «orada bizim türkmənlərimiz var» desin. Bu bizə yetər ki, özümüzdə təpər tapıb ayaqda duraq. Biz türkmənlər arxamızda milyonlarla türkün, türk dövlətlərinin dayandığını hiss etməliyik. İnanıram ki, siz də İraq türkmənlərinin dərd-sərini Azərbaycan ictimaiyyətinə çatdıracaqsınız, öz qələminizlə bizə dəstək olacaqsınız. Mən özüm 2007-ci ildə Bakıda olmuşam. Dünya Azərbaycanlılarının

Qurultayında iştirak edirdim. O vaxt millət vəkili deyildim, Türkmən Cəbhəsini təmsil edirdim. Təsadüfdən, Bakıda olduğum iki gün ərzində xəstələndim deyə, görüşlərə-filana vaxt ayıra bilmədim.

– Burada görüşdüyüm bir çoxları Azərbaycanı İraqın problemlərinə səssiz qalmaqda günahlandırır. Amma bilin ki, bizim Qarabağ kimi iyirmi beş ildən artıqdır uzanan böyük dərdimiz var, Xocalı kimi bir şəhərimizi ermənilər yer üzündən silib, soyqırım törədiblər xalqımıza qarşı, – ciddi etiraz elədim. – Bu yaxınlarda Xocalı soyqırımının növbəti anım günü oldu. Əslində biz də tarixən yaxşı əlaqələrimiz olan İraqdan Xocalı soyqırımını tanımaqla bizə dəstək verəcəyini gözləyirdik, amma bu baş vemədi!

– Bu, türkmən millət vəkillərinin mövqeyindən asılı deyil, – Ərşad bəy başını buladı. – Ona görə ki, parlamentdə sayımız çox azdır və hətta bu məsələni gündəliyə salmaq istəsək belə, çoxluq tərəfindən qəbul edilməyəcək. Çünki orada bizim əleyhimizə böyük qüvvə var. Xocalı soyqırımını tanımaq məsələsini ancaq parlamentdəki çoxluq – şiə koalisiyası qaldıra və müsbət qərara bağlaya bilər. Çünki onların azından səksən millət vəkili var, hökuməti də onlar təşkil edir.

– Başa düşürəm, amma siz məsələni qaldırın, qoy həmin çoxluq qəbul eləməsin…

– Bizim problemlərimiz o qədər çoxdur ki… Orada heç türkmənlərin dərd-sərinə işıq sala

bilmirik. Açıq deyirəm: Kərkük türkmənlərinin üzləşdikləri problemləri İraq parlamentində müzakirəyə çıxarmaqda çətinlik çəkirik. Səbəb isə bayaq dediyim kimi, sayımızın az olması ilə bağlıdır. Bağdadda çox zəifik, gücümüz istədiyimiz səviyyəyə yetmir. Amma bilin ki, nə vaxt parlamentdə Azərbaycanla əlaqələrə dair məsələ qaldırılsa, əlimizdən gələn dəstəyi verməyə çalışacağıq.

Ərşad bəy danışdıqca qulaqlarım onda olsa da, xəyallarım uşaqlıq illərimə uçub getmişdi. Azərbaycan Sovet İmperiyasının əsarətində olsa da, Moskvanın başı üzərindən İraqla dostluq əlaqələri qurmuşdu. Hətta İraqın Bakıda konsulluğu da vardı…

Mən balacaydım, həmişə Kərkük türküləri eşidərdim telekanallardan, radiodan:

*Evlərinin dalı yonca,*
*yonca qalxıb dam boyunca...*

Nərminə Məmmədovadan tutmuş bütün klassiklərimiz oxuyardı bu həzin mahnını. Səddam Hüseyn də çox məhşur idi ölkəmizdə, məktəblərdə, evlərimizdə eşidərdik onun adını. Axı İraq SSRİ-nin ən yaxın dostlarından, müttəfiqlərindən biri idi...

İraqla, xüsusilə də Kərküklə Azərbaycan arasında sıx münasibətlərin bir simgəsi də ədəbiyyatçılarımız, incəsənət xadimlərimiz olub. Yazarlarımız, şairlərimiz mütəmadi görüşürdülər,

sənət adamlarımız qarşılıqlı səfərlər ediblər. Çox təəssüf ki, bu gün həmin əlaqələr nədənsə zəifləmiş kimi görünürdü.

– Azərbaycanın hələ də İraqda səfirliyi yoxdur! – Ərşad bəyin incik tərzdə dediyi bu söz məni qəfil xəyal dünyamdan ayırdı. – Bir müddət əvvəl İordaniyaya – Əmmana getmişdim, orada Azərbaycan səfiri ilə görüşüb, söhbətləşdim. O, Bağdadda səfirlik açılacağını demişdi, amma hələ gözləyirik. Hə, deyirdi təhlükəsizlik məsələsindən əmin deyillər, ona görə iş yubanır. Mən də ona cavab verdim ki, Bağdadda «Yaşıl zona» deyilən rayon var, başqa ölkələr kimi orada bir bina tutun, fəaliyyət göstərin. Bilirəm, əvvəl ayrılmış bina «Yaşıl zona»dan kənardadır, amma yenə deyirəm, binanın yerini dəyişmək asandır, təki istək olsun. Hələ gözləyirik. İraqın Azərbaycanda səfirliyi lap çoxdan var. Hətta ölkənin ən ağır vaxtlarında belə səfirliyimiz var qüvvəsi ilə işləyib.

Sözlərində həqiqət vardı: Səddam Hüseynin hakimiyyətinin son ilində səfirliyin bağlanmaq ehtimalı yaranmışdı. Amma bizim o vaxtkı Qadınlar Şurasının sədri, mərhum Zenfira Verdiyeva, həmin vaxt Bakıda səfərdə olan İraq xarici işlər nazirinin müavininə təklif etdi ki, öz maaşlarının bir hissəsini iraqlı diplomatlara əməkhaqqı kimi ayırmağa hazırdılar, təki səfirlik qapanmasın. Bu istəyi yüksək qiymətləndirən Bağdad hökuməti səfirliyə toxunmadı…

– Yazarlarımız, ədəbiyyatçılarımız arasında

əlaqələr tarixən dərin olub və həmişə də onlar iki ölkə arasında münasibətlərin dostluq müstəvisində qalmasına vasitəçilik ediblər, – Ərşad Salehi sözünə davam etdi. – Çox istərdim ki, burada olduğunuz müddətdə mütləq Kərkük yazarları ilə görüşəsiniz. İraq parlamentində Azərbaycan Milli Məclisi ilə dostluq qrupu var, amma fəaliyyəti qənaətbəxş deyil. Ümumiyyətlə, İraq parlamentindəki dostluq qrupları müəyyən səbəblərdən işləyə bilmirlər. Əgər bir qrup hansısa iş görmək istəsə, mütləq başqa bir fraksiya kənardan onlara mane olur.

– Məncə başı min cür bəlalar çəkən siz türkmənlər arasında da birlik yoxdur. Birlik olmaqdansa, neçə-neçə kiçik partiyaya bölünmüsünüz. Məzhəbinə, mövqeyinə görə hər siyasi qrupun səmti başqadır, – qeyri-iradi etiraz səsimi yüksəltdim.

– Kürdlərin də 15-20 partiyası var.., – Salehi hazırcavablıq edibmiş kimi gülümsədi.

– Var, ancaq onlar sizin kimi adi milli kimliklərini təsdiqlətmirlər, müstəqil dövlət qurmağa çalışırlar.., – cavab verdim.

– Düzdür, mən də düşünürəm ki, indiki məqamda türkmənlərin partiyalara bölünərək pərakəndə fəaliyyət göstərmələri yaxşı deyil, – mənimlə razılaşdı. – Əvvəl Türkmən Cəbhəsi vardı, millətimizin bütün siyasi fəalları orada təmsil olunurdu. Amma təəssüf ki, sonradan müəyyən fikir ayrılığını əsas tutaraq hərə bir yana çəkilib,

özünə partiya yaratdı. Amma şükürlər olsun ki, aramızda elə ciddi ixtilaf yoxdur. Məsələn, Türkməneli Partiyasının sədri Riyaz Sarıkahya ilə əksər məsələlərdə eyni fikirdəyik. Hamımız istəyirik türkmənlər öz haqlarını alsınlar, millətimizin yaşadığı torpaqlarda Türkməneli bölgəsini yaradaq, Kərkük türk şəhəri olsun və sair. Bilirsiniz, kənardan baxanda türkmənlər parçalanmış kimi görünür. Əslində isə belə deyil, hamımızın strategiyamız birdir. Bəziləri deyir ki, guya türkmənlər Kürdüstan muxtariyyəti ilə birlikdə olmaq istəyir, bu səhvdir, heç bir türkmən kürdlərlə birlikdə olmaq istəmir! Ərbildəki partiya rəhbərləri cəmiyyəti aldadır bu yalanla. Məsələn, Kürdüstan muxtariyyətinin millət vəkili Muna Kahvəci var, Məsud Bərzaninin partiyasından seçilib, türkmənlərə heç bir aidiyyəti yoxdur. Kürdüstan muxtariyyətinin öz ərazisi var. Biz türkmənlərin də Kərkük, Təlafər, Duz Hurmatu, Diyala və sair bölgələrimiz mövcuddur ki, sünni ərəblərlə kürdlər arasındakı geniş zolaqda yerləşir. Biz istəyirik ki, ərazisində kimin yaşamasından asılı olmayaraq Təlafər və Duz Hurmatu ayrı-ayrılıqda müstəqil vilayət statusu alsınlar. Kərkükə gəlincə, kürdlər bu vilayəti Kürdüstana qatmaq arzusundadırlar. Biz isə deyirik ki, bircə türkmən sağ qalsa belə, Kərkükün Kürdüstana birləşdirilməsinə imkan verməyəcəyik. İstəyirik bu vilayətə özəl status verilsin – dövlətdən maliyyələşən federal subyekt kimi idarə olunsun.

Səddamın vaxtında burada hakimiyyət ərəblərin, indi isə kürdlərin əlindədir. Biz deyirik ki, bu cür təktərəfli idarəetmə düz deyil, heç vaxt da müsbət nəticə verməyəcək. Muna Kahvəci kimiləri isə Bərzanidən maaş alır, ona görə də onların siyasətini təkrarlayır. Bu gün Kürdüstan parlamentində cəmi beş türkmən millət vəkili var, onlardan dördünü Bərzani seçib, maaş verir. Yalnız biri Türkmən Cəbhəsini təmsil edir. Biz istəyirdik öz təhlükəsizlik qüvvələrimiz olsun, amma mərkəzi hökumət icazə vermir. Türkmənlərlə Kürdüstan rəhbərliyi arasında dərin siyasi ixtilaflar var. Ona görə də hər vəchlə çalışırlar ki, türkmənlərin özünümüdafiə qüvvələri yaradılmasın. Yəni buna həm öz vasitələri, həm də Bağdad hökumətinin əli ilə mane olmağa çalışırlar.

– Bütün bu arzuları gerçəkləşdirmək üçün, partiyaların sayı çox olsa da, hamınızı birləşdirən vahid lider olmalıdır, – dedim. – Amma belə görürəm ki, qurula biləcək türkmən koalisiyasının başında kimin dayanacağı məsələsində birlik yoxdur. Hər partiya sədri birinci şəxs olmağa iddialıdır…

– Məncə millət kimə səs veribsə, o da rəhbər ola bilər!

– Yəni millət vəkili?

– Bəli. Özü də türkmən millət vəkilləri arasında kim daha çox səs toplayıbsa seçki zamanı, o da türkmən siyasi birliyinə rəhbərlik etməlidir, – dedi.

– İraqda ərəbi də, kürdü də, türkməni də deyir ki, səsvermə ədalətli keçmir, saxtakarlıq olur, lider saxta yolla seçilən biri olmamalıdır, – etiraz etdim. – Məncə siz, siyasi partiya rəhbərləri olaraq öz aranızdan birini lider seçə bilərdiniz…

– Türkmənlər arasında saxtakarlıqdan söhbət gedə bilməz. Bunun ancaq türkmənlərlə kürdlər arasında ola bilməsi mümkündür, – mənimlə razılaşmayaraq öz mövqeyini müdafiə etməyə başladı. – Mən deyirəm ki, türkmənlərin qurultayı çağırılsın, bütün ziyalılar, ictimai nüfuz sahibləri orada iştirak etsinlər. Qurultayda soruşulsun ki, kimə səs verirlər, kimin Türkmənelinin rəhbəri olmasını istəyirlər. Kim çox səs toplasa, o da olsun vahid lider.

Salehi ilə görüşdən çıxıb birbaşa otelə gəldim, ikinci qatdakı otağıma qalxıb netbukumu işə saldım. Adət eləmişdim, getdiyim ölkələrdə günboyu gəzib görərdim, axşam isə yatmadan öncə iki saat ərzində təəssüratlarımı netbukun yaddaşına köçürərdim. Eynən bu axşam da, saatyarım ərzində günboyu görüb-eşitdiklərimi qeyd elədim.

***

Qəribədir, dünənki vaxt yenə bombardman səsləri eşidilməyə başladı. Otağın titrəyən tavanından tökülən toz-torpaq, təyyarələrin hardasa şəhərin lap yaxınlığına bomba yağdırdığını göstərirdi.

Hə, günorta Yılmaz demişdi axı, Kərkükün ətrafında yerləşən Bəşir qəsəbəsini İŞİD terrorçularından azad etmək üçün neçə gündür ki, İraq ordusu əməliyyatlar aparır. Gecələr gurultuyla partlayanlar isə Amerika qırıcılarının terrorçuların başına tökdüyü bombalar idi.

Gecədən xeyli keçmiş yatsam da, səhər tezdən oyanmışdım. Gödəkçəmi əynimə keçirib aşağı – birinci qatdakı yeməkxanaya endim. Düzdür, yeməkxana işləmirdi. Ona görə də cərgəylə düzülmüş divanlardan birində özümə yer edib oturdum, gözlərimi iri pəncərədən baxımsız, dağınıq küçəyə zillədim.

Təxminən yarım saat beləcə oturdum. Ətrafımda bir neçə kişi də oturmuşdu. Ərəbcə danışırdılar. Onlardan ən yaşlısının mobil telefonuna gələn qəfil zəng səhərin bu saatında oteldə təkliyimə son qoydu. Yad kişi türkcə danışdığı üçün ya türkiyəli, ya da elə İraq türkməni olmalıydı.

Danışıb qurtarmasını gözlədim. Qurtarınca üzr diləyib, onunla söhbət eləməyə çalışdım. Azərbaycandan gəldiyimi, jurnalist olduğumu dedim. Sonra da cavab verməsini gözləmədən haralı olduğunu soruşdum. Dedi Mosuldandır, özü isə türkmən, adı da Salehdir. İŞİD şəhəri zəbt etməmişdən iki gün əvvəl ailəsini də götürüb Ərbilə sığınıb. Kərkükdə vacib işi varmış, ona görə də iki gündür burdadır – oteldə qalır, axşamüstü Ərbilə qayıdacaq.

İraqdan və dünyadan təcrid olunmuş Mosul-

da vəziyyətin necə olduğunu soruşdum.

– Mosul da, çevrəsindəki bütün kənd və qəsəbələr, hətta Təlafər də İŞİD-in işğalı altındadır. Amma bu belə getməyəcək, güman ki, ayın sonuna qalmaz, İŞİD-ə qarşı antiterror əməliyyatlarına başlanılacaq, – dedi. – Hərbi hazırlıqlar tamamlanıb, amma bu işdə maraqlı olan tərəflər arasında etimadverici anlaşma yoxdur. Hələ də heç kim bilmir ki, bu bölgələr azad olunandan sonra necə idarə ediləcək. Mosulda yaşayan sünni ərəb xalqı şiə milislərin, yəni "Haşdi Şabi"nin şəhərə girməsini istəmir. Çünki qorxurlar. Mosullu sünni ərəblər istəyirlər ki, əməliyyata, sadəcə, İraq təhlükəsizlik qüvvələri və şəhərin özündən olan güclər qatılsın. Əks halda məzhəblərarası toqquşma yaşana bilər. Mən özüm sünniyəm, xanımım isə kürddür. Ərbildə də xanımımım qohumlarının evində məskunlaşmışıq. Bəs orada qohumlarımız olmasaydı nə edəcəkdik, Kərkükə, Səlahəddinə köçsəydik sabah məzhəb gülləsinə tuş gəlməzdikmi? Xüsusilə də iranlı zabitlərin bu bölgələrdə nüfuz sahibi olduqları bir vaxtda.

– Bəxtiniz gətirib, Kürdüstan muxtariyyətində qohumlarınız var, olmayanların işi daha çətindir, – Saleh bəyə zarafatla dedim. – Mosulda kürdlər də çoxdur, Ərbil imkan verməz orda məzhəb davası çıxsın.

– Bəziləri deyir ki, Mosul vilayətinin şərqindəki ərazilər Kürdüstan muxtariyyətinə birləş-

diriləcək. Amma şəxsən mən inanmıram. O ki qaldı Kürdüstanın Mosulu qorumasına, hərənin öz maraqları var, kürdlərin iştahası isə hamınınkından daha böyükdür. Kürdüstan tərəfi biz türkmənlərlə indiyədək bircə dəfə görüşməyib. Ərbil türkmənləri heç bir siyasi prosesdə görmək istəmir, bu da bölgəmizin gələcəyi məsələsində narahatlığımızı artırır, – dedi.

– Məncə heç kim narahat olmamalıdır, tarixən bölgənizə iddialı olan Türkiyə Mosulda qarışıqlığın yaranmasına imkan verməyəcək...

– Türkiyə onsuz da iki ildir peşmərgəyə, həm də Mosuldakı yerli silahlı qüvvələrə hərbi təlim keçir. Bölgə camaatının çoxu Mosulun azad edilməsində Türkiyədən çox şey gözləyir. Bu da boş yerdən deyil: bölgədə yaşayan insanların Türkiyə ilə qohumluq bağları, digər ortaq dəyərləri mövcuddur. Eşidirik ki, hətta türkmənlər arasında məzhəb üstündə qarşıdurma yaratmaq istəyirlər, bu olan şey deyil. Bizim milli kimliyimiz, elimiz-obamız təhlükə altındadır. Belə qarşıdurma ərəblər arasında yaşana bilər, türkmənlərin yox. Xüsusilə də əməliyyatlar gedən əsnada.

– Kürdlərlə qohumsunuz deyə demirəm, Kürdüstanın Türkiyə ilə yaxşı münasibətləri bizi sevindirir. Kaş ki, kürdlər də siz türkmənlərlə dost ola biləydi...

İri, şüşə pəncərədən binanın önündə dayanan ağ avtomobildən enən Yılmazı görər-görməz yerimdəm qalxdım, həmsöhbət olduğum

kişilərdən üzr istəyib qapıya yönəldim. Və adəti üzrə, on dəqiqə keçməmiş artıq Türkməneli Partiyasının baş ofisindəydik.

Riyaz bəyin yanında kimlərsə vardı, ona görə də böyük zala keçdim. Tanımadığım daha iki nəfər də vardı, salamlaşıb pəncərənin qabağında, üzü qapıya sarı oturdum. Elə oturmağımı görmüşdü ki, qapının kandarında görünən Ömər "çay gətirimmi" soruşdu. Amma qəribədir ki, cavabımı gözləmədən də getdi və iki dəqiqə keçməmiş armudu stəkanı masanın üstünə qoydu.

Riyaz bəyin qonaqlara başı qarışdığı üçün bir az da gözləməli oldum. Zaldakı iki adamı tanımadığım üçün söhbət edib, başımı da qata bilmirdim. Nə yaxşı ki, bu vaxt gözləmədiyim yerdən Feyha xanım gəldi.

Sevincək ayağa qalxdım, irəli yeriyib "xoş gəldiniz" dedim, oturması üçün yer göstərdim.

Feyha Bayatlının türkmən milli azadlıq hərəkatında özünəməsus yeri vardı. Keçmiş millət vəkili Feyha xanım İraqın siyasi düzənini əla bilirdi.

Bu arada, axşan Ərşad Salehinin "xalq səs verib millət vəkili seçib", "xalq kimə səs veribsə, türkmənlərin vahid lideri də o olmalıdır" kimi dediyi şişirdilmiş sözlər axşamdən bəri mənə rahatlıq vermirdi. İnsan özünü haqlı sanırdı, dolayısıyla türkmən xalqının qeyd-şərtsiz lideri elan etmişdi. Bilirdim ki, son seçkidə namizədliyini vermiş Feyha xanım da nəticələrdən yerlə-göy qədər narazıdır. Ona görə də fürsət düşmüşkən,

onunla qısaca söhbət elədim.

– Mən seçkinin ədalətli keçdiyini deyə bilmərəm! – Feyha xanım amiranə tərzdə dedi. – Parlament seçkilərindən üç gün əvvəl xaricdə yaşayan iraqlılar səs verib, iki gün əvvəl isə İraqın özündə xüsusi və məhdud dairədə səsvermə keçirilib ki, burada əsgər, polis, xəstəxana, həbsxana işçiləri iştirak ediblər. Həmin gün Kərkükün ortasında terror baş verdi – bomba partladıldı, səkkiz polisimiz öldü, bir çoxu yaralandı. Amma seçkilər dayandırılmadı. Bizdə elektron səsvermə çox zəifdir. Ona görə də elektron kartlardan istifadə etməməklə səsvermə halları olub. Bir çoxları qeydə alınmadığı halda qutuya bülleten atıblar. Bu səbəbdən də çox sayda məntəqədə nəticələr ləğv olunub.

– Neçə namizəd olub yarışda?

– 9043 namizəd iştirak edib. Onların da 6436 nəfəri kişi, 2607-si isə qadınlar idi.

– Yəni seçkinin qeyri-demokratik keçdiyini, müdaxilə edildiyini deyirsiniz...

– Bəzi bölgələrdə, ən çox da Ənbar və Fallucada vəziyyət gərgin olduğunu üçün çox adam səsverməyə getməyib. Kərkükün ərəblər yaşayan kəndlərində isə xeyli sayda vətəndaş bülletenlərin üzərini mürəkkəb və su ilə silərək ikinci dəfə səs verib. Türkmənlər müxtəlif siyahılar üzrə 10 mandat qazanıb. Kərkükdə iki türkmən siyahısı mövcud olub. Biri Türkmən Cəbhəsinin siyahısı idi ki, ora altı türkmən paritiyası qoşul-

muşdu. İkinci siyahı isə Türkmən Koalisiyasının idi. Bu siyahıda «Əl-Bədr» təşkilatı, Türkmən Milliyyətçi Partiyası və başqaları birləşmişdi. Birinci siyahıda 21 türkmən və 1 ərəb namizədin adı yazılmışdı. Onlardan da altısı qadın idi. İkinci siyahıda isə 24 namizəd vardı ki, onların da altısı qadın olub. Bu iki türkmən siyahısında toplam 46 namizəd yarışıb. Təəssüf edirəm ki, bu qədər namizəddən cəmi 2 nəfəri Kərkükdə qələbə qazanıb: biri Türkmən Cəbhəsinin sədri Ərşad Salihi, o biri də Türkmən Cəbhəsinin sədr müavini Həsən Turan.

– Kərkük türkmən şəhəridir, amma kürd qadınlar uğur qazanır, özü də üçü birdən. Necə ola bilər, yəni türkmənlər kürd qadınlara səs veriblər? – etirazla səsimi qaldırdım.

– Bunun səbəbləri var! – Feyha xanım cavab verdi. – Türkmən seçicilər öz səslərindən yetərincə istifadə etmədilər. Düşünürdülər ki, qadınlar üçün parlamentdə xüsusi kvota var, mütləq qələbə qazanacaqlar. Ona görə də səslərini kişi namizədlərə verdilər. Ümumiyyətlə, Kərkükdə əhalinin seçkidə iştirakı çox zəif idi. Kərküklülərin 50 faizi səsverməyə qatılmayıb. Bəzi türkmənlər isə kürdlərə, xüsusilə də Kərkük valisinə səs veriblər.

– Yəqin seçicilərin sosial problemlərini nəzərə alan bəzi rəqib namizədlər yardım-filan etməklə onları ələ alıb…

– Söz yox ki, seçkidə saxtakarlıq hər zaman olub, bu gün də var. Sosial çətinliklər də həm-

çinin. Kimdir problemlərə baxan?! Mərkəzi hökumət öz hayındadır. Bir tərəfdən Ənbar vilayətindəki hərbi-siyasi qarışıqlıq, bir tərəfdən də Kürdüstan muxtariyyət hökuməti ilə arasında yaranmış anlaşılmazlıq vəziyyəti çətinləşdirir...

Bax beləcə, Feyha xanımla qısaca söhbət elədim, bir azdan Riyaz bəylə də gəldi, bir az ordan-burdan danışdıq. Əlbəttə, bu gün harasa getməyəcəkdim, çünki Ərbilə, ordan da Bakıya qayıdacaqdım...

***

İraqa səfərimi başa vurub Azərbaycana qayıtmışdım. Artıq bu əfsanəvi ölkədən aldığım təəssüratlarımı çalışdığım qəzetdə dərc etməyə də başlamışdım. Bir səhər İraqın Azərbaycandakı səfirliyindən zəng vurub, uyğun vaxtda ora gəlməyimi xahiş etdilər. İraq səfiri Heydər Şiyə əl-Barrak mənimlə görüşüb, söhbətləşmək istəyirmiş...

O vaxt ətrafı adamboyu hündürlükdə dəmir çərçivələrlə əhatələnmiş üç qatlı səfirlik binası, Bakının olduqca sakit, yaşıllığa qərq olmuş məhəlləsində yerləşirdi. Səfirin özü ərəb olsa da, digər diplomatlar arasında türkmən də vardı, kürd də. Elə səfirin müavinlərindən olan Cassim də türkmən idi.

Səfirin ikinci qatda yerləşən iri və təmtaraqlı kabinetinə Cassimlə birlikdə qalxdıq.

Söhbətə başladı, İraqda keçirdiyim yeddi gün

ərzində haralarda olduğumu soruşdu, səfər təəssüratlarımı dinlədi. Sözümü qurtarar-qurtarmaz ölkəsinin uğur qazanmağa başladığını, artıq bir çox sahədə üstünlük əldə etdiyini dedi.

– Gördünüzmü, İraq ordusu İŞİD üzərində böyük uğurlar qazanmaqdadır. Sürətlə irəliləyən silahlı qüvvələrimiz şəhərlərimizi, kənd və qəsəbələrimizi terrorçuların əsarətindən təmizləyir, – səfirin qarabəniz çöhrəsində təbəssüm parladı. – Dünənədək İraq ordusu müdafiə olunurdu, artıq hücum taktikasına keçib. Mənə verilən məlumatlara görə, İŞİD yaraqlıları tab gətirməyərək Suriya ərazisinə qaçırlar. Hətta terrorçuların rəhbəri Bağdadi də. Düzdür, o, bir yerdə iki saatdan artıq qalmır, ələ keçə biləcəyindən ehtiyyatlanaraq yerini dəyişir. Buna baxmayaraq, onun Suriya torpaqlarına qaçmasına dair yayılan xəbərlər İŞİD-in təşviş içində olduğunu göstərir. Bir çox strateji əhəmiyyətli yaşayış məntəqəsini geri qaytarmışıq. Peşmərgə adlanan kürd müdafiə qüvvələri isə artıq Mosul şəhərinin 15-ci kilometrliyinə qədər irəliləyiblər. Bizim ilk məqsədimiz üç strateji şəhəri – Fəlluca, Ramadi və Tikriti azad etməkdir. Qələbə bizimlədir, böyük Allah bu işin sonunu İraq dövlətinin xeyrinə yazıb. Baxmayaraq ki, çox böyük itkilər vermişik, amma bu bizi ruhdan salmır. Əksinə, böyük itkilər siyasi və milli əqidəsindən, məzhəbindən-dinindən asılı olmayaraq bütün İraq xalqını daha sıx birləşdirə bilib. Atalar yaxşı

deyib: hər zərərdə bir xeyir var. İŞİD-lə mübarizə ərəbi, kürdü, türkməni, müsəlmanı, xristianı – hamını bir araya gətirərək vahid amal uğrunda birlşəməyə sövq etdi. İraq cəmiyyəti heç vaxt belə möhkəm birlik görməyib. Bu birləşmə ordumuzu da şücaətləndirib, daha böyük qələbələr qazanmağa ruhlandırıb.

– Mən İraqda olarkən minlərlə qaçqının məskunlaşdığı, yaşayış üçün qəti uyğun olmayan çadırlara baş çəkdim, insanlar əzab çəkir, – təəssüflə başımı buladım. – Siz səfirliklər niyə xaricdən kifayət qədər yardım çəkə bilmirsiniz?

– Yox, niyə ki, çox sayda dost ölkələrdən mütəmadi yardım alırıq. Hamısına təşəkkür edirik, sağ olsunlar, – razılıq elədi. – İran hərbçilərimizin döyüş hazırlığını artırmaq üçün öz məsləhətçilərini göndərib. Səudiyyə Ərəbistanı, Küveyt, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, başqa neçə ərəb ölkəsi də maddi və humanitar yardımlar göndərməkdədirlər. Azərbaycandan "Azərsun Holding"dən böyük yardımlar alırıq. Şirkət insanların sığınması üçün İraqa isti çadırlar, ərzaq məhsulları, gündəlik işlənən tələbat malları göndərir. Terrorçularla mübarizədə İraq hökuməti Birləşmiş Ştталarla birlikdə çalışır. Amerika qırıcıları terrorçulara durmadan hava zərbələri endirir. Bu da, dediyiniz kimi, yerüstü hücumu sürətləndirir. Ancaq hesab edirik ki, ABŞ-ın köməyi azdır – hava zərbələrinin sayını artırmalıdır. Bu gün ABŞ-ın yaratdığı birləşmiş

koalisiyada qırxdan çox dövlət təmsil olunur – onların sayı artmaqdadır. Yeri gəlmişkən, aldığım məlumata görə, hazırda İraqın baş naziri, dövlətlərarası koalisiyanın konfransında iştirak edərək, müttəfiqləri İŞİD-lə mübarizənin detalları barədə məlumatlandırmaq üçün Londonda səfərdədir. – Çox sayda şəhər və qəsəbə yerlə bir edilib, kəndlərinizdə bircə tikili belə salamat deyil. Ziyan olduqca böyükdür, yazıq insanlar, daha neçə illər lazımdır ki, həyatlarını normal axara sala bilsinlər...

– Hər qaranlıq gecənin bir günəşli sabahı olur, inanıram ki, İraq yenidən bərpa olunacaq, hətta daha da inkişaf edəcək, – səfir gülümsədi. – Amma sizinlə həmfikirəm, İraqa on milyardlarla dollar ziyan dəyib. Bu gün İraqda 3 milyon insan ev-eşiyindən didərgin düşüb. Əlavə xərclər lazımdır ki, dövlət dağılmış evlərini bərpa edərək, onları geri qaytarsın. İraq heç vaxt belə böyük çətinliklə üzləşməyib, hətta İranla səkkizillik müharibədə, Səddam Hüseynin Küveytə hücum etdiyi vaxtlarda da. Ən pisi odur ki, neft dəyərdən çox düşüb. Bu da İŞİD-lə müharibə şəraitində ölkəmizə əlavə problem gətirib. İraq büdcəsinin 95 faizini neft gəlirləri təşkil edir. Qiymət düşübsə, deməli, qazanc da azalıb. Hazırda hökumətimiz neftin hasilatını artırmaqla dəyən ziyanın yerini doldurmağa çalışır. Bu da xeyli vaxt alacaq. Vaxt gözləmir, dövlət İŞİD-i cilovlamaq üçün silah-sursat almalıdır. Biz İŞİD terrorçu-

larını sizin – dünyanın qurtuluşu naminə məğlub etmək istəyirik. Amma silah yoxdursa, bunu necə edəcəyik? Əminəm ki, bütün ölkələr bizi doğru-dürüst başa düşür.

– Yəqin ki, belə böyük ziyan vurulan ərazilərinizin sosial-iqtisadi infrastrukturunu bərpa etmək üçün hökumətin proqramı var...

– Bərpa-quruculuq işləri adi qaydada gedir, – sözümü ağzımda qoyan səfir dedi. – Amma konkret müharibə gedən bölgələrdə tam sabitlik bərqərar olandan sonra bu işlərə başlayacağıq. Güman ki, hökumət bu sahədə geniş proqramlara malikdir. Yaxın münasibətimiz olan ölkələrdən də çox şey gözləyirik. Məsələn, Türkiyə İraqın böyük və tarixən yaxın əlaqələrə malik olan qonşusudur. İŞİD-lə mübarizədə Türkiyə İraqa xeyli yardım göstərib. Bilirsiniz, terrorçuların nəzarətində olan ərazilər Türkiyə ilə həmsərhəddir. Onlar İŞİD-lə mübarizədə İraqla məlumat mübadiləsi edirlər.

– İŞİD söhbəti çıxandan sonra Azərbaycanın da İraqla əlaqələrində bir az durğunluq yaranıb. Hər halda belə deyirlər, – başımı buladım. – Amma deyim ki, Azərbaycan da İŞİD-ə qarşı mübarizəyə böyük dəstək verir, – əlavə etdim.

– Hə, əlbəttə, Azərbaycanın dəstəyini həmişə hiss etmişik. Mən həmişə demişəm: İraq Azərbaycanın ərəb dünyasına, Azərbaycan isə İraqın Qafqaza açılan qapısıdır. Bunun ən böyük isbatı günümüzdə türkdilli xalqların İraqda da ya-

şaması faktıdır, – səfir dedi. – Azərbaycandan əsas yardımı beynəlxalq siyasi müstəvidə alırıq. Amma maddi, yaxud ərzaq, zəruri yardımlar baxımından hələlik kömək görməmişik. Düzdür, bayaq da dedim, Abdolvari Gözəlin şirkəti İraqa isti çadırlar, qışda istifadə olunan digər zəruri vasitələr, ərzaq məhsulları göndərib. Millət vəkili Qənirə Paşayeva bir aylıq maaşını İraqa – yardım fonduna köçürüb. Millət vəkili İlham Məmmədov da şəxsən zəng vuraraq çətin vəziyyətimizdə İraq xalqı ilə həmrəy olduğunu bildirib. Amma biz yenə də Azərbaycandan çox şeylər gözləyirik. Bizə ilk növbədə müasir silah-sursat lazımdır ki, İŞİD-lə mükəmməl mübarizə apara bilək. Hərbi kəşfiyyat məlumatlarına, ərzağa, dava-dərmana, qış olduğu üçün çadırlara, qızdırıcı cihazlara ehtiyacımız var.

...Beləcə, səfirlə söhbətimi bitirib, bayaqdan söhbətimizə şahidlik edib, ara-sıra özü də söhbətə qoşulan Cassimlə birlikdə otaqdan çıxıb birinci qata endik.

***

Cassim yaxşı insan idi. Türkmən olduğunu tək danışdığı dili ilə yox, davranışı, insanlara münasibətilə göstərirdi. Onun səfirlikdə olması bütün jurnalistlərə ruh verirdi. Çünki hər kəs dil problemi yaşamadan səfirliyə – birbaşa Cassimin şəxsi mobil nömrəsinə zəng vurmaqla İraqda olub-bitənlər barədə

məlumat ala bilirdi.

Cassim mənə də heç vaxt sıradan jurnalist kimi yanaşmazdı, sanki şəxsi qonağıyammış kimi qəbul edər, çay gətirdər, söhbət edər, böyük ehtiramla da yola salardı.

Türkmən qadınının öndərlərindən olan Feyha Bayatlı ilə illərdir qiyabi şəkildə əlaqə saxlayırdım, dəfələrlə müsahibələr yazmışdım, İraqda, xüsusilə də Türkmənelidə olub-bitənləri də çox vaxt ondan soruşub-öyrənirdim. Amma bu illərdə onun Cassimin anası olduğunu bilməmişdim. O vaxtadək ki, Cassimlə İraq qadınları barədə söhbət edərkən, o, anasının keçmiş millət vəkili, türkmən hərəkatının öndərlərindən Feyha xanım olduğunu dedi. Bundan sonra Cassimlə münasibətlərimizdəki mehribançılıq daha da artdı.

***

2017-ci ilindekabrında yenidən İraqa uçmalı oldum. Təyyarənin kapitanı enişə start verildiyini elan edən kimi, salonda ani canlanma yarandı: kimi uçuş zamanı çıxardığı ayaqqabısını ayağına keçirməyə, kimisi üst geyimini geyinməyə, kimisi də, daha səbirsiz olduğundan, çantasını yük yerindən qamarlamağa başladı. Amma məni sol cərgədə oturan ortayaşlı kişinin türkmən dilində yanındakı yoldaşına nəsə deməsi cəlb elədi. Fürsəti fövdə vermədən "Türkmənsiniz?" – soruşdum. O da sanki türkcə

danışan biri üçün darıxırmış kimi, mənimlə söhbətə girişdi. Soruşdu ki, hara gedirəm, qarşılayan olacaq, ya yox.

– Hə, amma Abbas bin Firnas adlı yerə getməliyəm, orada gözləyirlər, – dedim.

Adı İbrahim olan ortayaşlı kişi Abbas bin Firnas eşidən kimi,

– Bizim hava limanı sizinki kimi deyil... Abbas bin Firnas hava limanından xeyli aralıdadır, mən sizi apararam, – deyib enərkən ondan aralanmamağı tapşırdı.

Bağdada ilk dəfə gəlirdim. Ötən dəfə İraqa şimal qapısından – Ərbil hava limanından girmişdim. Kiçik olduğu qədər sərnişinləri də az, səssiz-səmirsiz görünən Ərbil hava limanı ilə müqayisəedilməz dərəcədə böyük və qələbəlik olan Bağdad hava limanının ucu-bucağı görünmürdü. Hava limanı o qədər böyük idi ki, dünyanın fərlqi bölgələrindən gələn sərnişinlər sıxlıq olmasın deyə ayrı-ayrı qapılardan qəbul edilirdi. Ona görə biz də giriş qapısına çatınca xeyli yol gedəsi olduq.

Sərnişinlər sərhəd buraxılış postunda üç-dörd sıra düzülsələr də, növbə çox uzanmışdı. İraq vətəndaşları bir-bir keçib gedirdilər. O cümlədən, İbrahim də postdan keçib, irəlidə – gözlə görə biləcəyim yerdə dayanıb məni gözləyirdi. Amma deyəsən Azərbaycandan olduğum üçün ölkəyə buraxmaq istəmirdilər. Pasportum əldən-ələ gəzirdi. Yarım saat belə gözlədim. Son-

da rəis deyilən qara forma geyinmiş kişi gəldi, pasportumu incələdi, postda dayananlarla ərəb dilində nəsə qısa söhbəti oldu və nəhayət, İraqa girişimə icazə verildi.

İbrahimlə birlikdə salondan çıxıb dəhlizlə xeyli addımladıq. İri şüşə qapıdan bayıra çıxanda hər şeyin başa çatdığını düşünsəm də, yanılmışdım. Mikroavtobusların gözlədiyi qarşı yola çıxmaq üçün yarıqaranlıq və dolanbac yerlərdən keçib xeyli getdik.

Budur, köhnə mikroavtobuslar dayanan dayanacaqdayam. Digər sərnişinlərlə birlikdə Abbas bin Firnasa gedən maşına oturduq. Amma sürücü nağdı qoyub nisyəyə qaçan adama oxşamırdı. Adambaşına on dollar yolhaqqı yığandan sonra maşını işə saldı.

Yol hamar, gediş-dönüş olmaqla ikitərəfli idi. İki yolun arasındakı boş zolaqda isə ağaclar əkilib, ara sıra ağaclar arasında da rəngli işıqların boyadığı fəvvarələr püskürürdü. Qısası, son qırx ildir başı müharibələrdən açılmayan bu ecazkar ölkə hələ də turistləri heyrətləndirə bilirdi.

Hava limanından Abbas bin Firnasa çatınca maşını iki dəfə dayandırıb yoxladılar. Təkcə sənədlərimizi deyil, yüklərimii də, özü də itlərlə. Şükür ki, mikroavtobusda hamının həm sənədləri qaydasındaydı, həm də yükləri. Beləcə, gecənin qaranlığında xeyli qələbəlik görünən Abbas bin Firnasa çatdıq.

Türkməneli Partiyası Kərkük şəhər bürosu-

nun rəhbəri Əli Qaryağdı, gecə yarı olmasına baxmayaraq, qışın soyuğunda gözləri ilə hava limanından gələn mikroavtobusları axtarırdı. Maşından yerə enər-enməz yaxınlaşdım. Yəqin qaranlıq olduğu üçün, bir az da soyuqda qalıb yorulduğundan əvvəl tanımadı. Ona görə də özümü təqdim elədim. Ortayaşlı, ixtisasca bioloq olan mülayim xasiyyətli Əli bəyin üzündə təbəssüm parladı. Əl sıxıb, "xoş gəldin" dedi, hal-əhval tutub, yolçuluğumun necə keçdiyini soruşdu. Daha sonra isə, əvvəlcədən sövdələşdiyi sarı rəngli taksini əl işarəsi ilə yaxına çağırdı, oturub üzügüneyə – Kərbəla şəhərinə yollandıq.

İraqa səfərim zamanı Kərbəlaya getmək planım yox idi. Amma görünür iki il əvvəl İraqa ilk gəldiyimdə müqəddəs şəhərlərə gedə bilmədiyimi nəzərə alan Riyaz bəy bunu mənə sürpriz hazırlayıbmış. Yolda Əli bəydən öyrəndim ki, bir gün Kərbəlada, bir gün də Nəcəfdə qalacağıq, daha sonra Bağdada qayıdaraq müqəddəs məkanları ziyarət edəcəyik. Təbii ki, müsəlman-şiələrin ziyarətgahı olan bu iki şəhəri görməyi çox arzulayırdım. Yalnız dini baxımdan deyil, tarixi-mədəni zənginliklərini görüb-duymaq istəyirdim. Ona görə də, baxmayaraq ki, Türkməneli bölgəsinə getmək üçün bu ölkədəydim, ürəyimin dərinliyində çox sevinirdim.

***

Bağdaddan Kərbəlaya məsafə elə də böyük deyil – cəmi saatyarımlıq yoldur. Üçzolaqlı, həm də birtərəfli olan şosse xeyli keyfiyyətli tikilmişdi, səliqəliydi. Nəzərə alsaq ki, uzun illərdir İraq bir müharibədən çıxıb digərinə girir, bu yolları müsbət qiymətləndirmək olar. Amma problem o idi ki, yolboyu addımbaşı post quran təhlükəsizlik qüvvələri saatyarımlıq məsafəni sanki dartıb uzadaraq iki saata çıxarırdılar. Hələ onu demirəm ki, Bağdaddan üzügüneyə uzanan bütün şosselərdə neft daşıyan avtmobil-tankerlərin uzun kanvoyu hərəkətdədir. Bütün bunlar onsuz da çox olan avtomobillərin hərəkət sürətini yavaşıdırdı.

İnsafən, mənim mindiyim taksini postlarda ləngitmirdilər, Azərbaycandan gəldiyimi eşidən kimi ölkəmizə hörmət əlaməti olaraq mehribanlıq göstərir, səfər boyu uğurlar arzulayırdılar. Beləliklə, gecənin qaranlığını yararaq üzügüneyə şütüyən taksi dan yeri ağarmamış, artıq 14 əsrdir İslam hümmətini içindən yaralayıb-qanadan müsibətlərin yaşandığı məkana – Kərbəlaya çatdıb...

Küləkli, bir az da soyuq Bakı səhərlərindən fərqli olaraq, Kərbəlada elə bil oktyabr ayı indi girmişdi – havası xeyli mülayim idi. Gödəkçəmi çiynimə atıb, Əli bəyin yanında yavaş-yavaş oyanmaqda olan şəhərin dar, xeyli əskimiş küçələrini dolaşmağa başladım.

– Dəfələrlə olmuşam bu şəhərdə. Kərbəla hə-

yatımın bir parçasıdır, – Əli bəy ətrafı süzərək dedi. – Hər bir şiənin mənəvi borcu olmalıdır Kərbəlanı ziyarət eləmək. İmam Hüseyn İslama sədaqətini nümayiş etdirdi, haqq yolunda şəhid oldu. Onun göstərdiyi hünər, 14 əsr ötməsinə baxmayaraq, bütün müsəlmanlar üçün nümunədir.

– Şəhəri yaxşı tanıyırsınız deyəsən, – soruşdum.

– Hə, əlbəttə, buranın hər məhəlləsinə, hər küçəsinə bələdəm, – asta səslə dilləndi. – Bayaqdan fikirləşirəm ki, necə edək, baş yolla deyil, ara küçələrdən keçməklə gedək ziyarətgaha. Əsas yolla getsək, qələbəlik olur, vaxt itirəcəyik.

Səhərin alatoranında tək-tək adamın gözə dəydiyi ara küçələrdən birində, ərəb milli qiyafətində olan yaşlı kişiyə yaxınlaşan Əli bəy ərəbcə nəsə dedi. Kişi də əlini arxaya uzadaraq öz dilində cavab verməyə başladı. Hə, deyəsən ziyarətgaha gedən ən kəsə yolu başa salırdı. Əli bəy şükranlarını bildirərək ondan ayrıldı və heç on dəqiqə keçməmişdi ki, biz artıq qara geyimli qələbəliyin içində ayaqlarımızı sürüyürdük.

İnsan izdihamı eynən Bakıdakı “Tarqovıy” adlanan, avtomobillərin girməsi yasaq edilmiş bölgə kimi, hər iki yanı hündür və qədim binalarla əhatələnmiş küçəylə irəliləyirdi. Dini əşyalar, suvenir, ərzaq, geyim-kecimin və daha nələrin satıldığı dükanlarla əhatələnmiş meydana sarı irəlilədikcə, bayaqkı sükut izdihamlı qələbəlikdə əriyib yox olurdu. İnsan əlindən tərpənmək mümkün deyildi. Əksəriyyəti İrandan, hət-

ta Azərbaycandan gəlmiş zəvvarlar uca səslə qurandan ayələr oxuyur, mərsiyyələr deyərək ağır-ağır addımlayırdılar.

Burada çox geniş ərazidə üz-üzə tikilmiş iki məscid var: birincisində Həzrət Abbasın, ikincisində isə İmam Hüseynin məzarları yerləşir. İki məscidi bir-biri ilə isə ətraflarında cərgə ilə uca xurma ağacları və elektirik dirəkləri sıraralanan, həmişə zəvvarlarla dolub daşan meydan uzanır.

Yeri gəlmişkən, Həzrət Abbas məscidinin yaxınlığında – küçənin solunda balaca türbə də var. Orada Həzrət Abbasın qılıncla kəsilmiş qolu dəfn olunub. Ona görə də, zəvvarlar iki müqəddəs məscidə girmədən öncə həmin türbəni ziyarət edir.

Məscidlər çox ciddi mühafizə olunur. Özü də burada iş saysız-hesabsız yoxlanış postlarından keçməklə yekunlaşmır, məscidlərə girmədən öncə zəvvarlar telefon, fotoaparat və başqa əşyalarını xüsusi əmanət saxlanan seyflərə təhvil verməli, ayaqqabılarını da çıxarıb minlərlə sayda quraşdırılmış saxlanğaclardan birində yerləşdirməlidirlər. Təbii ki, mən də qaydalar üzrə bunu edib içəri keçdim.

Döşəməsi başdan-başa qiymətli İran xalıları ilə örtülü olan Həzrət Abbas məscidinin iç divarları, bayır hissəsi kimi, tamamilə zəngin nəqqaşlıq nümunələri ilə bəzədilib. Tavan və hündür tağları örtən büllur şüşə örtük isə məscidin olduqca geniş salonlarına əlavə nur saçır. Üstəlik, günbəzin çölü və içi xalis qızılla örtülüb deyə, bura ayaq basan

zəvvara elə gəlir ki, günəşin qoynundadır. Həzrət Abbasın salonun mərkəzində yerləşən məzarı üzərindəki sərdabə isə xalis ağ qızıldan tikilib.

Tədqiqatçılar hesab edir ki, Həzrət Abbas məscidi dünyanın ən zəngin dini mərkəzlərindən biridir.

Hər il milyonlarla insanın ziyarət etdiyi bu məscidə müxtəlif sülalərdən olan hökmdarlar zaman-zaman qiymətli hədiyyələr, ləl-cəvahiratlar bağışlayıb, tikilinin təmir-bərpasına fikir veriblər. İran və Mərkəzi Asiya memarları tərəfindən dizayn edilən məscidin mərkəzində armud formalı, dəbdəbəli bəzəkləri ilə göz qamaşdıran günbəz, kənarlarında isə iki minarə ucaldılıb.

Qurani-Kərimdən iki dua oxuyub, necə deyərlər, dörd gözlə divarlarına-tavanına baxa-baxa bayıra çıxdım. Ayağım yalın olduğundan, daş plitələrlə örtülmüş həyətə döşənmiş qırmızı bəzəkli xalçaların üstü ilə addımlayaraq, əmanətlər bazasından telefonumu və ayaqqabımı götürdüm.

Artıq üzbəüzdə – meydanın o başında yerləşən İmam Hüseyn məscidinə rahat gedə bilərdim. Bəlkə yenidən bu müqəddəs yerləri görə bilməyəcəyimi düşünüb, üç-dörd xatirə şəkli çəkdirməyi də unutmadım.

İmam Hüseyn məscidi Həzrət Abbas məscidindən sahəsinə görə daha böyük olsa da, divarlarını daha az ləl-cəvahirat süstləyir. Amma Həzrət Abbas məscidində olduğu kimi, burada

da imamın müqəddəs məzarı üzərində xalis qızıldan türbə tikilib, ziyarətə gələn izdihamın gurultusundan da qulaq tutulur.

– Həzrət Abbas məscidinin daha zəngin bəzədilməsinin səbəbi var, – Əli bəy güclə eşidiləcək səslə pıçıldadı. – Həzrət Abbas məscidini şiələrlə yanaşı, sünnilər də maddi baxımdan himayə edirlər. Belə desək, ora bütün İslam dünyasının etiqad mərkəzidir. Həm sünni, həm də şiə ölkələri Həzrət Abbas məscidinə böyük ianələr bağışlayır, lazım olanda təmir edir, hər cür ehtiyaclarını qarşılayırlar. Amma bura mənəvi dünyanın qapısıdır. Heç bir parıltı bura gələn zəvvarları məscidlərin birini digərindən ayırmağa məcbur edə bilməz.

Hə, onu da deyim ki, başqa Kərbəla şəhidlərinin məzarları da 680-ci ildə tikilmiş İmam Hüseyn məscidindədir.

Ziyarətimizi tamamlayıb, məsciddən ayrıldıq. Bir saat əvvəlkinə nisbətən indi küçələrdə daha sıx izdiham vardı. Qaraya bürünmüş qadınlar, saqqallı kişilər, ana-atasının yanında imamların məzarını ziyarətə gəlmiş azyaşlılar – məqsədi-məramı eyni olan hər kəs buradaydı. Yaşından, cinsindən asılı olmayaraq fanat insanlar, sanki bu dəqiqə əzizləri ölübmüş kimi, fəryad qoparır, uca səslə ağı deyirlər.

Birtəhər izdihamı yarıb məsciddən xeyli aralandıq. Səhər də qəlyanaltı eləmədiyimiz üçün binalardan birinin altında yerləşən yeməkxanada qarnımızı doyurub, Kərbalanın qədim məhəl-

ləsində bir az dolaşdıq.

Buradakı dar küçələrdə binalar bir-birinə bitişik tikildiyindən şəhər çox sıx görünür. Divarların qapqara rəngi göstərir ki, şəhərdə təmir-yenidənqurma işlərinə əhəmiyyət verilmir. Əsasən üç-beş qatlı bunaların hamısının birinci mərtəbəsi ya dükan, kafe, ya da başqa iaşə obyekti kimi istifadə edilir. Ağız deyəni qulaq eşitməyən küçələrin kənarları boyunca adda-budda əlavə piştaxtalar quran alverçilər əsasən Türkiyə və Çindən gətirilən malları satmaq üçün müştəri çağırırlar.

Burada Kərbəla halvası da satılır, özü də isti-isti, ocağın üstündəcə çəkib verirlər alıcıya. Maraqlanıb yaxınlaşdım: iri, dayaz tiyanlarda buğlanan, biri sadə, digəri qozlu olmaqla iki cür halvaya baxanda adamın ağzı sulanır. Qiyməti də elə yüksək deyil – kilosu iki dinar. Əli bəy dedi ki, bu halvanı nəinki dünyanın, heç İraqın başqa şəhərlərində görmək mümkün deyil, dadına baxmaq istəyən mütləq Kərbəlaya gəlməlidir.

Bir saat gəzib-dolaşdıqdan sonra maşına oturub Nəcəfə səmt aldıq.

Kərbəladan Nəcəfə qədər bir saatlıq yol olardı. Amma birtərəfli, geniş və hamar yolda maşın sürətlə şütüdüyündən sanki məsafə anbaan qısalırdı. Arabir maşını saxlayan postları ötüb, ətrafını başı göylərə ucalan xurma ağacları saran yolu, beləcə başa vurduq.

Nəcəf keçmişlə müasirliyi özündə birləşdirən şəhərdir. Kərbəladan fərqli olaraq bura-

da küçələr daha enli, tikililər daha yenidir. Elə küçələrdəki izdham da Kərbəladakından daha seyrək görünür.

Maşını Həzrət Əli məscidinə gedən səmtdə – küçənin ətrafındakı kiçik və baxımsız avtodayanacaqda saxlayıb, birlikdə üz tutduq ziyarətgaha.

Əvvəlki məscidlərdə olduğu kimi, əşya və ayaqqabılarımızı xüsusi saxlanğaclarda yerləşdirib içəri keçdik. Məscidin daxili də çölü kimi olduqca möhtəşəmdir. Zərif naxışlarla süstlənmiş divarlar, bahalı çilçıraqların işıqlandırdığı tavan, İran və ərəb xalıları döşənmiş döşəmə bu müqəddəs məscidin mənəvi zənginliyi önündə solğun görünsə də, yenə də zəvvarları heyran etməkdədir. Tən ortada imam Əlinin məzar-sərdabəsi yerləşir. Məzarı əhatələyən sərdabənin qızıldan hörülmüş divarlarına toxunmaq üçün insanlar fürsət axtarır.

Qeyd edim ki, hər il milyonlarla şiənin ziyarət etdiyi bu məsciddə İslamın yayılmasında və möhkəmlənməsində xidməti olan bir sıra başqa görkəmli şəxslərin də qəbirləri var...

Beləcə, Həzrət Əlinin məzarını ziyarət edəndən sonra yolüstü müasir geyim-kecimin, hər cür məişət əşyasının satıldığı bazara baş çəkdim. Qəribəydi, dedilər ki, burada İraqı və ümumiyyətlə, yerli tarixi, adət-ənənələri tərənnüm edən heç nə tapmaq mümkün deyil. Onlar xüsusi ənənəvi dükanlarda olur, burada isə dünyanın hər yerindən gətirilmiş malları almaq olar. Özü

də ən ucuz qiymətlərə. Hətta bazarda bir neçə yerdə geyinilmiş paltarların satıldığını da gördüm. Hansı ki, onların alıcısı təzə mallarla maraqlananlardan heç də az deyil.

Günorta saatlarında Nəcəfdən ayrıldıq. Yolumuz paytaxt Bağdadadır. Maşın Fərat çayı üzərindəki hündür körpüdən keçib hər iki tərəfini ucsuz-bucaqsız xurma bağlarının sardığı magistralla şütüməyə başladı.

Buralar necə də gözəl görünür. Uşaqlıq illərimizin nağıllarını xatırladan əzəmətli Fərat çayının dərəsini yaşıl yorğanına bürüyən xurma ağacları qılınc yarpaqları ilə sanki çətir qurublar. Dekabr ayı olmasına baxmayaraq, bəzi ağacların təpəsində iri, qupquru, sarı xurma salxımları sallanır. Görünür ya məhsul bol olduğundan, ya da bağbanların laqeydliyi üzündən xurma salxımları ağacda dərilməmiş qalmışdı.

Pəncərədən ətrafı seyr etdikcə, marağım daha da artırdı. Xurma bağlarını magistral yoldan tipik İraq kəndlərinin özünəməxsus dizaynlı evləri ayırır. Özündən az qala dörd-beş dəfə hündür olan ağacların kölgəsinə sığınmış bu evlərə baxdıqca xəyal məni keçmişə – qızmar səhralarda insanı günəşdən qoruyan əfsanəvi vahələrə götürdü.

Maşında tam səssizlik vardı. Məni xurma plantasiyaları öz sehrinə salmışdı, Əli bəy oturduğu yerdə mürgüləyir, sürücü isə diqqətini yola vermişdi. Elə bu an Əli bəyin telefona gələn zəngin səsi hamımızı diksindirdi.

Əli bəy könülsüz də olsa, telefonu açıb qulağına tutdu, qısa, amma çox isti danışdı. Sağollaşan kimi də:

– Bizi qonaq çağırdılar, yolüstü onlara getməsək, inciyərlər, – dedi.

Sürücü də, mən də sanki sual verirmişik kimi ona zilləndik. Nə soruşacağımızı gözümüzdən oxuyan Əli bəy:

– Ailə dostlarımdır, – dedi. – Mosulda yaşayırdılar, İŞİD oranı işğal edəndə, yazıqlar quru canlarını götürüb qaçıblar. Bağdada, başqa yerlərə gediblər, qalmağa-məskunlaşmağa bir dam tapa bilmədikləri üçün sonda bura qədər gəliblər.

– Nəcəfdə qalırlar? – soruşdum.

– Yox, Nəcəfdə deyillər, amma qaldıqları yer bura çox yaxındır. Kufə ətrafındakı Həvatim kəndində məskunlaşıblar. Elə gözəl yerdir ki... – Əli bəyin gözləri güldü. – Kənd Fərat çayının sol sahilindədir, başdan-başa xurma bağlarına bürünüb. Onsuz da yolumuz həmin kəndin yaxınlığından keçir.

Magistral yolun kəndlərdən keçən hissəsinin kənarlarında çox sayda pərakəndə piştaxtalar düzülmüşdü, üstü də xurma, banan, pomidor, soğan, kartof – hər cür meyvə-tərəvəzlə dolu. Özü də buradakı meyvələr, tərəvəzlər, necə deyərlər, tam orqanikdir, birbaşa tarladan dərilib satıcıya satılır. Həm də çox ucuz – su qiymətinə.

Maşınımız sola burulub ensiz, toz-torpaqla örtülmüş yolla Fərat sahillərini bürüyən xurma bağ-

larının içinə səmt aldı və az sonra yaşıllıqların tən ortasındakı birmərtəbəli evin qarşısında dayandı. Hə, buraydı – qonaq gəldiyimiz evə çatmışdıq.

– Əmi, xoş gəldiniz, – gənc oğlan Əli bəylə əl sıxdı.

Ev sahibinin oğluydu, adı da Nəbil idi. Mənimlə də salamlaşdı, evə dəvət elədi.

Üç otaqdan ibarət yer evi idi. Bir daş kürsülü döşəməyə qrafit üzlük döşənmişdi. Əslində bura İraqda hər yaşayış məskənində mövcud olan Hüseyniyyəyə məxsus olub, amma qaçqın ailə çöllərdə qalmasın deyə, müvəqqəti verilmişdi ixtiyarlarına. Əksər İraq kəndlərində olduğu kimi, bu evdə də masa gözə çarpmırdı. Daş döşəməyə başdan-başa xalça-palaz döşənmişdi. Divar boyunca isə döşəkçələr, mütəkkələr düzülmüşdü və biz də elə həmin döşəkçələrin üstündə bardaş qurub oturduq.

Azərbaycanda belə bir deyim var: kasıb mərd olar. Qaçqınlıqları ilə bu uzaq və yad yerdə məskunlaşan ailə gəldiyimizi eşidib lüləkababdan tutmuş cürəbəcür şirniyyatlaradək alıb süfrəyə düzmüşdü. Düzdür, içəri xeyli soyuq idi, kerasinlə işləyən qızdırıcıdan istifadə olunurdu, amma zal böyük olduğu üçün bu yetərli deyildi.

Süfrə ətrafında xeyli söhbət elədik. Məlum oldu ki, evin sahibi Qanim Cəmil Bayatlı Mosulun Qarayataq kəndində yaşayırmış. İŞİD-in hücumları zamanı, hamı kimi o da ev-eşiyini qoyub, ailəsini də götürüb kənddən çıxıb. Əvvəl

Kərkükə yerləşmək istəyiblər, amma imkan olmayıb, məcburiyyətdən üz tutublar ölkənin güneyinə. Nəhayət ki, Kufənin Həvatim kəndində, indi gördüyüm Hüseyniyyədə yerləşiblər.

– Müharibəyədək kəndimizdə beş min türkmən yaşayırdı, – Qanim bəy güclə başa düşdüyüm ləhcədə dedi.

Bu arada, indiyədək həmsöhbət olduğum türkmənlər arasında Qanim bəyin ailəsi qədər çətin anladıqlarım olmamışdı. Görünür ərəb cəmiyyətinin təsiri altında assimilyasiyaya uğramışdılar. Bəlkə də qonşuları, dost-tanışları ərəblər olub, ona görə də türkmancələri ərəb dilinin təzyiqinə dözməmişdi.

– İŞİD bir gecənin içində girdi kəndə, daşı daş üstə qoymadı. Həmin beş min sakin də kənd işğal edilmədən – bir gün əvvəl canlarını götürüb səpələndilər ölkənin dörd bir yanına. Bildiyim qədər bütün kənd camaatı İraqın güneyindəki beş vilayətin ərazisində məskunlaşıblar, – Qanim bəy sözünə davam etdi. – Kənddən 2014-cü il avqustun 18-də çıxmışıq. İndi İŞİD yoxdur Qarayataqda, ordu azad edib oranı. Deyilənə görə, sakinlərin 60 faizi evlərinə qayıdıb. Amma orada vəziyyət çox ağırdır. Nə su var, nə işıq. Məktəb, xəstəxana dağıdılıb. Bu səbəbdən, biz də daxil olmaqla, sakinlərin yarısı geri qayıda bilmir. Burada birtəhər başımızı girləyirik. Ən azından məktəb var, qızım da xəstəxanada çalışır. Bir ara biz də istədik qayıdaq evimizə, amma problem

iş yerinin olmamasıdır. Qayıtsaq qızım burdakı işindən çıxarılacaq, kənddə də xəstəxana dağıdılıb deyə işsiz qalacaq. Bütün ailəmizin dolanışığı qızımın maaşından asılıdır.

Qanim bəyin səsi boğazında titrədi. Qarabəniz simasında bir az qızartı, bir az da tər vardı. Deyəsən qızının maaşına möhtac qaldıqlarını deməsi onu çox utandırmışdı. Nəbilin elə indicə gətirdiyi təzə samovar çayından bir-iki qudum içib:

– Əslində, Mosulla əlaqələrimiz tam kəsilməyib. Hazırda bir oğlum – onun adı Əlidir – "Haşdi-Şabi"nin Mosuldakı briqadasında qulluq edir. Bir dəfə imkan tapıb, Qarayataq kəndinə baş çəkib. Deyir, evimizi tamamilə dağıdıblar. Tutaq ki, bütün çətinlikləri gözə alıb qayıtdıq, harada yaşayacağıq? Qışın günüdür, insanın daldalanacağı bir ev olmalıdır. Hökumət də kömək eləmir ki, evi yenidən tikək. Deyirlər öz hesabınıza bərpa edin, bizimsə imkanımız yoxdur. Böyük ailəyik, səkkiz başıq. Evdə qadın-qız, körpə uşaq var, ona görə də ikiqat narahatıq.

– Bildiyim qədər, bu gün tibb işçilərinə İraqda ehtiyac böyükdür. Müraciət eləmisinizmi hökumətə, Qarayataq da olmasa, yaxın yerlərin birində xəstəxanada iş verəcəklər bəlkə? – dedim.

– Dövlət söz verib, bir-iki aya qızımı Mosulda işlə təmin etməlidirlər. İnşallah, dəqiqləşsin, birdəfəlik gedəcəyik buralardan – öz kəndimizə qayıdacağıq. Buralarda ancaq ərəblər yaşayır, bizsə türkmənik, Türkməneli kimi yurdumuz

var. Bu gün dağıdılsa da, yenidən tikib-bərpa edəcəyik oranı.

***

Bağdada iki-üç saat yol getməliydik. Keçəcəyimiz çox sayda hərbi post bir yana, həm də deyilənə görə axşam saatlarında Bağdad yolunda saysız-hesabsız ağır tonnajlı yük maşınları olurdu. Ona görə də ailənin, xüsusilə də Nəbilin gecəni onlarda qalmaq üçün israrlı xahişlərinə baxmayaraq sağollaşıb yola çıxdıq.

Bağdada axşamdan xeyli keçmiş çatdıq. Gündüzlər küçə və prospektləri tıxacdan tərpənməyən paytaxtda xeyli sakitlik vardı: küçələrdə avtomobillər seyrəlmiş, camaat evlərinə çəkilmişdi.

Ortabab bir otelə gələrək ikinci qatda otaq kirayələyib, küçəyə çıxdım. Bura eynən Bakının "Tarqovıy" küçəsinə bənzəyir – maşınların hərəkətinə icazə verilmir. Əli bəy dedi ki, səhər tezdən Kərkükə yola düşəcəydik. Ona görə də yaxşı olar ki, İmam Kazımın məqbərəsi yerləşən Kazımiyyə məscidini elə indicə ziyarət edək. Vaxt məhdudiyyəti bir yana, həm də bu saatda məsciddə adam az olduğundan çox əlverişlidir.

Doğrudan da, şəhərin ən yaxşı yerində yerləşən məscidə gecənin qaranlığında dörd göz lazım idi ki, baxsın. Günbəzlər güclü projektorlarla işıqlandırıldığı üçün günəş kimi bərq vururdu. İçi də ki, axşam saat 9-u keçməsinə baxmayaraq,

zəvvarla dolub daşırdı.

Məsciddən çıxıb sağını-solunu şıdırğı alver gedən kiçik dükanlar saran küçəni o başa-bu başa gəzib, dolaşdıq. Artıq gec idi, 14 milyon nəfər əhalisi olan Bağdadı gəzib görməyi Kərkükdən qayıdan başa saxlayıb, ötelə döndüm...

Səhər tezdən qalxıb qəlyanaltı elədik. Bağdadın bir-iki görməli yerinə baş çəkib avtovoğzala gəldik. Səhər saatları olmasına baxmayaraq, burada iynə atsan yerə düşməzdi. O qədər maşın vardı ki... Avtobus gözləməyə dəyməzdi, ona görə də taksilərdən birinə yaxınlaşdıq. Əslən türkmən olan sürücünün şəxsi avtomobili idi, iş yeri olmadığından taksiçilik edir, evinə çörəkpulu qazanırdı. Yolhaqqını razılaşdıq, digər sərnişinlərlə birlikdə maşına oturub yola çıxdıq.

Avtomobil üzüquzeyə şütüdükcə, içimdə heç vaxt anlamayacağım, sevincə qarışmış həyəcan aşıb-daşır, iki il aradan sonra əziz dostlarımın görüşünə yetişmək üçün səbrsizlənirdim. Bu hislər o vaxtadək davam etdi ki, avtomobil Tavuk qəsəbəsinin yanından ötürdü. Bəlkə ona görəydi ki, bu yerlərin sakinləri, tək-tək ərəb və kürdlər istisna olmaqla, əksəriyyəti türkmənlər idi. Yəni dil və adət-ənənə baxımından buralar elə Azərbaycanı xatırladırdı.

Tavuk qəsəbəsindən söz düşmüşkən, ilk səfərim zamanı bu yerlər İŞİD-in işğalı altındaydı. Bu gün isə qəsəbəsi azad olunub, ürəyi yaralı sakinlər evlərinə qayıtmışdılar.

Tavuk – Azərbaycan türkcəsində Toyuq deməkdir – qəsəbəsi İraq ərazisində türkmənlərin yığcam məskunlaşdığı qədim türk yaşayış məskənlərindəndir. Qədim olduğu qədər və türkmənlər yaşadığı üçün dərdləri də böyükdür. Səddamın zülmündən yenicə qurtulan qəsəbə əhli az sonra İŞİD terrorçularının zülmünə uğramışdılar. 2015-ci ilin oktyabrında terrorçular buranı zəbt ediblər. Məsələ ondadır ki, ABŞ və müttəfiqlərinin hərbi qüvvələri guya bölgəni azad etmək üçün əməliyyata başlamışdılar, yenə də olan bu yerin türkmən sakinlərinə oldu. Müttəfiq təyyarələrinin bombardmanı zamanı mərasim evinə toplaşan türkmən sakinlərdən iyirmi nəfər yerindəcə həlak oldu, əllidən çoxu isə yaralandı. Hətta bombardmanda bir türkmən ailəsinin bütün üzvləri həlak oldu...

İki il öncə keçdiyim bu yol mənə tanış idi – Kərkükü quzeydən günəyə doğru ikiyə ayıran Bağdad prospektidir. Avtomobil şəhərin ənginliklərində bir az irəlilədikdən sonra sola burulub balaca həyəti olan iki qatlı binanın qarşısında dayandı. Hə, Türkməneli Partiyası Kərkük şəhər şöbəsinin ofisinə gəlmişdik. Bu ofisə iki gündür məni İraqın müqəddəs məkanlarını gəzdirən Əli bəy rəhbərlik edirdi.

Azərbaycandan qonaq gələcəyini bilən hər kəs ordaydı. Hamısı da bir-birindən doğma, bir-birindən əziz. Hələ Yılmazı demirəm, əla insandır – səmimi, mehriban, mərd. İki il əvvəlki

səfərim zamanı da çox zəhmətimi çəkib, qayğı göstərmişdi. Hansı ki, bu böyük zəhmətin əvəzini qaytarmaq heç nəylə mümkün deyil. Görüşüb hal-əhval tutdu, bir az söhbət elədik. Gözləməyə vaxt yox idi. Odur ki, "qalxın, bizə gedirik, Riyaz bəy də bizdə gözləyir" deyərək çantamı öz maşınına apardı...

Kərkük iki il əvvəl gördüyümdən çox fərqlənirdi. Küçələrində maşın əlindən tərpənmək olmurdu. Hara baxırsan insanlar ora-bura tələsir, yolların kənarlarında iri dükanlar sıralanmışdı. Hansı ki, iki il əvvəl küçələrdə beton istehkamlar, tikanlı məftillərlə sarılan keçidləri görmək olardı. Bu tarixi şəhərin küçələrindəki elektrik dirəklərində, evlərin damlarında, bütün idarə və təşkilatların qarşısında İraqın dövlət bayrağı dalğalanırdı. Amma iki il öncə hər yeri kürd bayraqları zəbt eləmişdi.

İlk gördüyüm Kərküklə müqayisədə bu gün şəhərdə az-çox tikinti-quruculuq işləri də gedirdi. İnsanlar sərbəst gəzib-dolaşır, daha nə terror törədilir, nə adam oğurlanır, nə də kimisə evində qətlə yetirirlər. "Haşdi Şabi"nin və federal polisin səyi nəticəsində Kərkük rifahına qovuşmaqdaydı.

Şəhərlə növbəti tanışlığım heç vaxt unutmayacağım saf xatirələr yazdı ürəyimə. İki il öncə gələrkən tarixin minillərinə bələdçilik etmiş Kərkük qalasını görə bilməmişdim. Səbəbi vardı: qalanın bürcündə dalğalanan türkmən bayrağını endirən kürdlər onu yandıraraq yerinə

öz bayraqlarını sancmışdılar. Buna görə orada qarşıdurma da yaranmışdı. Nə yazıq ki, o vaxt çevrəsini İŞİD təhlükəsi saran Kərkükü içindən də kürd separatçıları söküb dağıdırdı. Hökumət isə sadəcə, bu vəhşəti kənardan seyr etməklə kifayətlənirdi...

Axşam Yılmazgildə qonaq idim. Gənc ailəsi, övladları, anası nə qədər mehriban, qonaqsevərdilər. Ömür boyu qonaq getdiyim yerlərdə həmişə sıxılmışam, çünki bir az qapalı xarakterliyəm, amma qəribədir ki, bu evdə özümü çox rahat, evimizdəki kimi hiss edirdim.

Evdə dəcəllik edən balacalar tamam başqa aləm idi. Xüsusilə də Yunus, səhv etmirəmsə Yılmazın övladlarından dördüncüsüydü – Allah qorusun, çox sevimli uşaq idi. Böyük oğlu Yusuf idi, məktəbə gedirdi, ağıllı-kamallı, yüksək tərbiyəli. Yılmaz doğma qardaş qədər hörmət edirdi, bəlkə elə buna görəydi ki, darıxmağa səbəb qalmamışdı. Şirin-şirin söhbət etdiyimiz zaman Riyaz bəy də gəldi. Görüşüb, hal-əhval tutdu, yolçuluğumun, Bağdada, Kərbəla və Nəcəfə səfərimin necə keçdiyini soruşdu. Çox deyil, on beş dəqiqə sonra sağollaşıb getdi. Gedəndə də dedi ki, səhər partiyanın baş ofisində görüşüb, səfər proqramını müzakirə edəcəyik.

Axşam Yılmazgildə şam yeməyini yedik. Otelə getmək istədiyimi bildirdikdə, Yılmaz qəti etiraz elədi. Bildirdi ki, Riyaz bəylə məsləhətləşiblər, Kərkükdə olduğum müddətdə onlarda qalaca-

ğam. Əlacım yox idi, dinməz-söyləməz ikinci qatda mənim üçün ayrılmış otağa yerləşdim.

***

Səhər tezdən qalxıb qəlyanaltı etdik. Bugünki gəzintimiz barədə əlimdə proqram yox idi deyə hara gedəcəyimi bilmirdim. Ona görə də ümidim Yılmaza qalmışdı. Maşına oturub Türkməneli Partiyasının iqamətgahına – Riyaz bəyin yanına yollandıq.

Maşın sakit, hər iki tərəfində iki-üç qatlı tikililərin sıralandığı dalana burulanda ürəyim fərəhdən dağa döndü. İki il əvvəl gördüyümdən fərqli olaraq, küçə boyunca tikinti işləri canlanmışdı. Bir yerdə ev tikilir, başqa bir yerdə dükan-ticarət mərkəzi.

Ətrafı nəzərdən keçirib balaca əl qapısından partiyanın həyətinə girdim. Yılmaz qabaqda, mən də arxasıyla partiyanın salonuna ayaq basar-basmaz hərə bir tərəfdən "xoş gəldiniz" deyib üstümə yürüdülər. Hər biri ilə görüşüb, hal-əhval tutdum, adəti üzrə, pəncərənin qarşısındakı divanda oturdum. Yerimi elə yenicə rahatlamışdım ki, Riyaz bəy də gəldi.

Xeyli söhbət elədik. Azərbaycanda gedən inkişafdan söz açdım, tikinti-quruculuq, yaradılan infrastruktur, xaricdə qazandığımız hörmətdən danışdım, Qarabağ münaqişəsi barədə məlumat verdim. Təbii ki, Riyaz bəy də Kərkükdə – bütün Türkməneli yurdunda yaşayan üç milyonluq

türkmən icmasının yaşamından söz açıb, xalqın qayğılarını, problemlərini dilə gətirdi.

Əslində, İraq türkmənləri haqda çox şey bilirdim. Demək olar ki, hər gün orada yaşanan hər şeyi internet üzərindən, xarici mediadan oxuyub-öyrənirdim. Hətta daha ciddi hadisələr baş verəndə sosial şəbəkələr vasitəsilə Kərkükdəki dostlarla danışıb, yaşanan olayı təfsilatı ilə dəqiqləşdirirdim. Ona görə də, Riyaz bəylə söhbət elədikcə sanki baş verənlər gözlərimdə canlanırdı.

– Sizin daha çox yerləri görməyiniz üçün geniş bir proqram hazırlamışıq, – Riyaz bəy dedi. – İki il əvvəlki səfəriniz zamanı müharibənin alovlu vaxtları idi, Kərkükün ətrafını İŞİD terrorçuları sarmışdı, hər yer silahlılar tərəfindən işğal edilmişdi. İndi isə, həmd olsun, terrorçular məğlub edilib, torpaqlar viran olunsa da, hər halda azadlıqdadır. Keçən dəfə görə bilmədiyiniz yerləri, inşallah, bu dəfə mütləq gedib gəzərsiniz, insanlarımızın çəkdiyi əzab-əziyyəti öz gözlərinizlə görərsiniz.

– Hə, əlbəttə, – başımı aşağı saldım. – İki il əvvəlki səfərimdə Kərkük qalasını görə bilməmək dərd olub mənə. Bu dəfə çalışıb ora gedəcəyəm. Mosulu, Təlafəri görmək, insanların sıxıntıları ilə yerində tanış olmaq istərdim.

– Bütün bunlar proqramda var. İstərsiniz bu gün dostlar sizi Kərkük qalasına müşayiət etsinlər. Həm hava da çox yaxşıdır, həm də qalada hər şey qaydasındadır. Bilmək olmaz sabah nə naş

verəcək, odur ki, bu gün gedin gəzin o əzəmətli qalanı. Ora ayaq basan kimi türkmən xalqının əzəmətini açıq-aydın hiss edəcəksiniz, – deyən Riyaz bəyin bəyaz çöhrəsində təbəssüm parladı.

Bir azdan türkmən dostlarla birlikdə maşına oturub qalaya yol aldım.

Kərkük qalası çox da hündür olmayan təpələrin üstündə tikilib, ətəyini isə Hasa çayınının su üzünə həsrət qalmış dərəsi kəsir. Qalanı Kərkük şəhərinin əsas hissəsi ilə geniş körpülər birləşdirir. Şəhərin ən qədim bölgəsi buradır. 1863-cü ildə Osmanlı dövləti qalanın ətraf divarlarında və içindəki tikililərdə bir sıra bərpa-təmir işləri aparıb. Tarixi eramızdan əvvəl üçüncü minilliyin ortalarına qədər uzanan qala dörd məhəllədən ibarətdir: Ağalıq, Hamam, Meydan və Zindan. Bura dörd qapıdan giriş-çıxış var. Bunlar Topqapı, Daşqapı, Yeddi qız və Halvaçılar qapılarıdır. Bundan əlavə, qalaya aparan bir geçid isə Seyid Nəcib təkkəsindən keçən pilləkənli yoldur.

Kərkük qalasının mövcud olduğu ərazi ümumilikdə 247,5 min kvadratmetrdir. Qalanın tarixi ilə bağlı müxtəlif qruplar tərəfindən aparılmış araşdırmalar, eləcə də fərqli yazılı və daş mənbələr mövcuddur. Bu araşdırmalardan birində deyilir ki, Kərkük ən azı beş min illik xarabalıqların üzərində inşa edilsə də, günümüzədək gəlib çatan qala 2,7 min il əvvəl Assuriya hökmdarı II Aşur Nasrabal tərəfindən eramızdan əvvəl 884-858-ci illərdə tikdirilib. Qədim Babil dövlətində

bura Arabakha adlanırmış, sonradan ad təhrif edilir və Aravaya çevrilir.

Başqa bir mənbədə isə deyilir ki, eramızdan əvvəl 331-ci ildə Makedoniyalı İsgəndər ordusu ilə Ərbilədək gəlir və orada İran şahı III Daranın qoşunlarını böyük təlafata uğradır. Bundan sonra o, iranlıları təqib edə-edə güneyə istiqamətlənir və Kərkükə çatır. Qalanı ziyarət edən İsgəndər ordusuna bir neçə gün burada qalaraq dincəlməyi əmr edir. Hətta İsgəndər ordusunu Babil üzərinə də məhz Kərkük qalasından göndərir. Mənbəyə əsasən, səkkiz il sonra – eramızdan əvvəl 323-cü ildə xəstələnərək ölən İsgəndərin istila siyasətində Kərkük strateji mövqeli mərkəz rolunu oynayıb...

1990-1995-cı illərdə İraqın o vaxtkı prezidenti Səddam Hüseynin göstərişi ilə Kərkük qalasını təmir etmək adı ilə, orada yaşayan əhalini bilərəkdən köçürüblər. Sonra isə qalanı söküb, dağıdıblar. 1997-ci ildən 2003-cü ilə qədər yüzlərlə ənənəvi türk tarixi evləri və əsərləri uçurularaq məhv edilib. Beləliklə, bu illərdə qaladakı dörd məhəllədə mövcud olan və hamısında türkmənlərin yaşadığı 740 ev, hətta məzar daşları belə dağıdılıb. Bu isə Kərkükdə türkmən tarixini silərək, bölgənin guya ərəb və kürdlərə aid olduğunu isbatlamağa xidmət edirdi.

Günümüzdə qalada qorunub-saxlanılan tək-tük abidələr qalıb. Bunlar arasında dörd peyğəmbərin – Daniel, Üzeyir, Mikayıl və Hu-

nain peyğəmbərin məzarları olan qədim yəhudi məbədi, sonradan məscidə çevrilmiş Daniel peyğəmbər məscidi, Göy günbəz abidəsi və sairin adını çəkə bilərik.

Genişliyi 820 kvadratmetr, hündürlüyü 17 metr olan Göy günbəz 1361-ci ildə, Cəlayirlər dövründə tikilib. Bu, qalada günümüzə gəlib çatan əsas qədim türk əsəridir. Üstündəki kitabədə yazılıb ki, abidə XIV əsrdə Səlcuq sülalərindən olan Buğday Xatunun şərəfinə tikilib. Buğday Xatun Həccə gedib, amma qayıdarkən yolda xəstələnib, vəfat edib.

Həftənin şənbə günləri qala şəhər camaatının ən sevimli istirahət yeridir, qalan vaxtlarda isə ora giriş yasaqdır.

Qalanı gəzib-görmək məndə dillə demək mümkün olmayan xoş ovqat yaratdı. Sanki qala sakini olan insanların meydanda gəzişdiyini, daş evlərin olduqca balaca, dar pəncərəsindən baxdıqlarını görürdüm. Əlbəttə, bütün bunlar tarixin sehri idi ki, məni də öz əsrarəngiz yuxusuna daldırmışdı.

Dar, ilan kimi qıvrılmış, doğranmış daş yayılmış, kimsəsizləşən məhəllələr arasında toz basmış yolla qalanın yuxarı başında yerləşən məscidə qalxdım.

Yol məscidin qapısında qurtarırdı. Qala əhli köçürüləndən sonra məscid də namaza-duaya gələn möminlərin səs-səmirinə qəribsəmişdi. Sadəcə məscidin axundu ordaydı – başqa heç

kim. Qısa söhbətim zamanı axund dedi ki, bura namaza-filana gələn yoxdur, amma həftənin bəlli günlərində ziyarətçilər olur. Çünki məsciddə dörd peyğəmbərin – Daniel, Üzeyir, Mikayıl və Hunain peyğəmbərin məzarları yerləşir. Onları ziyarət etmək isə hər bir möminin arzusudur. Əlbəttə, mən də məzarlar olan geniş otağa girdim. Divarların dibində üz-üzə olmaqla dörd qədim məzar vardı, dördünün də üzəri yaşıl rəngli ipəklə örtülüb. Hamı kimi mən də arzu-diləklərimi ürəyimin dərinliklərində dilə gətirdim.

Geri qayıdarkən qala divarları boyunca uzanan qədim qapalı çarşıya (bazara) baş çəkdim. Doğrudan da, Kərkükə gələsən, çarşılarını gəzib-görmədən gedəsən, mümkün deyil. Bura Böyük Bazar adlanır. Əsas hissəsi qala divarları ilə çay dərəsi arasında yerləşsə də, artıq piştaxtalar çayın o biri sahilinə də yayılıb. Satlıq mallar əsasən Türkiyə və Çindən gətirilir. Bundan başqa, bazarda alıcıya cürbəcür ərzaq məhsulları, elektirk malları, əl işi olan əsərlər təklif olunur. Özü də çox ucuzluqdur. Hətta adını çəkməsəm də, elə məhsullar gördüm ki, qiyməti Azərbaycanda satılandan 3-4 dəfə aşağıdır.

Üstünü piştaxtalar dolduran "Şəhidlər körpüsü"nü adlayıb bazarın əsas bölməsinə gəldim.

Bu arada, xatırladım ki, körpü 1959-cu ildə baş verən aksiyalarda öldürülən türkmənlərin xatirəsinə belə adlanır.

Bu bazarın tarixi xeyli qədimdir. Üstü qapalı

olan, yerlilərin Kayseri bazarı da adlandırdığı bu alış-veriş məkanının içindən qalaya qalxan pilləkənli yol da var. Hansı ki, sonradan onu bağlayıblar. Ümumiyyətlə, axşamdan xeyli keçənədək açıq olan Böyük Bazarda qədim şərq memarlıq ənənələrinə uyğun olaraq hamamdan yeməkxanalara, dərzidən dəmirçiyədək nəyi desən tapmaq mümkündür. Satıcılarının əksəriyyəti də bölgənin yerli sakinləri olan türkmənlərdir.

Satıcıların bəziləri ilə söhbətləşdim. Gündəlik yaşayışlarından, İŞİD-in onlara vurduğu ziyandan, vaxtaşırı kürd separatçıların başlarına açdığı oyunlardan söz açdılar.

Hə, qalanı özününküləşdirməyə çalışan kürd separatçılar, divarlar boyunca uzanan qədim türkmən bazarının qalmasına razı deyillər. Çünki bu bazar qaldıqca, qalanın kürdlərə və ya ərəblərə məxsus olduğunu isbatlamaq olmazdı. Yəqin bu səbəbdən idi ki, mən Kərkükdən Azərbaycana qayıdandan sonra bazar müəmmalı şəkildə yandırıldı...

Kərkükdən yadigar qalsın deyə, bazardan əl işi olan iki-üç milli ruhlu suvenir alıb körpüyə üz tutdum. Qələbəlik idi. Adam o qədər çox idi ki, körpünün ağırlığa dözməyib uçacağını düşünmək olardı. Gəzə-gəzə çayın qarşı sahilinə keçdim. Körpünün yanında kəsişən küçələrin hamısında şıdırğı alver gedirdi. Sanki insanlar bir müddət terror qorxusundan evdə keçirdikləri aylarının əvəzini çıxırdılar – hamı küçədəydi.

Bir adətim var: hansı ölkəyə getsəm oradan ilk növbədə milli mahiyyətli suvenir, bir də həmin dövlətin bayrağını alıb gətirərdim. Bu səbəbdəndir ki, qələbəlik arasından gözlərimə İraqın masaüstü bayraqları dəydi. Cəld birini aldım. Qəribəydi, deyəsən Kərkükdə dükandan İraq bayrağını almaq, sonra da nümayişkəranə şəkildə əlində tutub şəhərdə gəzmək ənənəsi yox idi. Çünki məhz əlimdəki bayraqla ətrafdakı adamların diqqətini çəkirdim – hamı istər-istəməz mənə baxırdı. Amma bu məni maraqlandırmırdı, taksi saxladıb şəhərin mərkəzinə – ən müasir ticarət mərkəzlərinin olduğu yerə sürdürdüm.

Küçə yaman izdihamlı görünürdü. Səkilər bir yana, adam əlindən maşınlar öz yolları ilə hərəkət edə bilmirdilər. Bakıdakı "Tarqovıy", Moskvadakı "Arbat", Tehrandakı Vəli Əsr, İstanbuldakı Taksim meydanı kimi bu küçədə də bütün binaların birinci mərtəbəsində ticarət mərkəzləri, sosial iaşə obyektləri, bank filialları yerləşirdi. Hətta bu bəs etmirmiş kimi, küçənin lap kənarları boyunca pərakəndə piştaxtalar quraşdırıb üstündə nə desən satan satıcılar izdihamın sərbəst hərəkətini daha da çətinləşdirirdi. Bütün bunlara baxmayaraq, gördüklərim məni çox sevindirdi. Axı cəmi iki il öncə gəldiyim zaman şəhərin bu küçələrində günün günorta saatlarında belə gəzmək mümkün deyildi.

Təxminən bir saat da şəhərin bu yerlərini gəzib-dolaşdım. Dükanların birindən məşhur "Min

bir gecə" nağıllarının sujetini özündə əks etdirən suvenir də aldım. Sonra mənə bələdçilik edən türkmən dostlarla birlikdə Kərkükün unudulmaz məkanlarından birinə – Osmanlı Kışlasına yol aldıq.

Osmanlı Kışlası, Osmanlı dövləti zamanı hərbi baza kimi istifadə edilib. Bu gün isə bura muzey kimi fəaliyyət göstərməkdədir.

Bina Osmanlı dövlətinin Bağdad valisi olmuş Məhməd Namık Paşa tərəfindən 1863-cü ildə tikilib. Kışla 1985-ci ilədək İraq ordusu tərəfindən hərbi hissə olaraq istifadə edilsə də, 1985-ci ildə İraq Müdafiə Nazirliyinin balansından çıxarılaraq Mədəniyyət Nazirliyinin sərəncamına verilib. Mədəniyyət Nazirliyi də orada təmir-bərpa işlərinə başlayıb, amma Səddam Hüseyn devrilən kimi təmir işləri də dayandırılıb. Kışlanın bir hissəsi bir neçə il əvvəl yağan güclü leysan nəticəsində uçulub-dağılıb. Amma insanlar ümidsiz deyillər, düşünürlər ki, bundan sonra təşkil olunacaq yerli hakimiyyət bütün mədəni irsin bərpasına diqqət ayıracaq.

Kışlanın həyətindəki birqatlı muzey binasında əvvəllər Kərkükün tarixini əks etdirən qədim eksponatlar sərgilənib. Amma peşmərgə və PKK terrorçuları şəhərdə olarkən buranı çapıb-talayaraq, bir-neçə iri küpdən başqa hər şeyi Kürdüstana aparıblar. Ona görə də rəfləri boş qalan muzeyin əvəzinə kışlanın əskidən kazarma kimi istifadə olunan binasının ikinci qatında yeni muzey təsis olunmaqdadır. Burada Kərkükün

keçmişdən bəri milli adət-ənənələrini özündə əks etdirən bölmələr yaradılıb. Hələlik tərtibatı tam başa çatmayan muzeyə girən adama elə gəlir ki, əsrlərlə öncəki Kərkükdədir: bir tərəfdə dulusçular, o tərəfdə dəmirçilər, başqa bir yanda dərzilər öz işlərini görürlər. Burada ictimai hamamdan sünnət məclisinə, toy səhnəsindən bərbərxanayadək hər şey mumfiqurlar vasitəsilə obrazlaşdırılıb. Hətta salonun yuxarı başındakı guşədə əsrlər boyu Kərkükdə bir arada yaşayan türkmən, ərəb və kürd ziyalıların hərəsindən birinin mumfiqur obrazı yaradılıb və baxan adama elə gəlir ki, onlar guya hansısa məsələni müzakirə edirlər.

Fürsətdən yararlanaraq kışlanın muzeyə çevrilmiş salonlarında Osmanlı əsgərlərinin obrazını əks etdirən guşənin yaradılmasını da təklif elədim və əlbəttə, muzey rəhbərliyi tərəfindən maraqla qarşılandı.

Kərkük şəhərinin görməli yerlərini gəzəndən sonra Türkməneli Partiyasının ofisinə gəldim. Hamı məni gözləyirdi. Böyük salondakı divanlardan birində özümə yer edib oturdum. Nəfəsimi dərməmiş adəti üzrə armudu stəkanda çay da gətirdilər. Riyaz bəy Kərkükü necə gördüyümü, bəyənib-bəyənmədiyimi soruşdu. Mən də ki, çayımı udumlaya-udumlaya təəssüratlarımı bir-bir bölüşməyə başladım.

Kərkük qalasının baxımsızlıq üzündən az qala dağıldığını dedim. Riyaz bəy cavab verdi ki,

qala türkmən xalqının içində boğulduğu problem dənizinin sadəcə bir damlasıdır.

– Türkmənlərin çətinlikləri indi ortaya çıxmayıb, İraq dövləti yarandığı gündən xalqımız bu sıxıntıların içindədir, – Riyaz bəy təəssüflə başını yellədi. – Həmişə haqsızlızla üz-üzə qalmışıq. Xüsusilə də Səddam Hüseynin zamanında türkmənlərə münasibət sərt olub. Açıq-aşkar türkmənlərin ərəbləşdirilməsi siyasəti yürüdülüb. Hətta iş o yerə çatıb ki, bir çox türkmənin özü ərizə yazaraq ərəb olmaq istəyib. Səddamın dövründə çox sayda türkmən siyasətçi və ziyalı edam olunub, ya da zindanlara atılıb. O, türk millətinə qarşı aşkar düşmənçilik edib. Əslində tək türkmənlər yox, İraqdakı bütün şiələr, həm də kürdlər Səddamdan sərt münasibət görüb. O, devrildikdən sonra kürdü də, başqaları da hüquqlarını əldə edə bilib, tək biz türkmənlərdən başqa. Amerika İraqa yerləşəndən sonra, yerli idarəetməni qanuni sahiblərinə – türkmənlərə deyil, kürdləri təmsil edən iki kürd partiyasına verdi. Onlar da bölgəni kürdləşdirmək üçün türkmənlərin hüquqlarını tapdadılar. Son dörd il ərzində Kərkükün milliyətcə kürd olan valisi Nəcməddin Kərim də çox radikal, millətçi siyasət yürütdü, bölgəmizdə silahlı dəstələr yaratdı. O, Kərkükdə hər şeyi kürdlər üçün etdi, türkmənləri bacardıqca idarəetmədən kənarda saxladı. Özbaşınalığı o həddə çatdı ki, altı ay əvvəl Kərkük və çevrəsindəki bütün dövlət qurumlarının

üzərinə kürd bayrağı asdırdı. Bununla da bölgədə gərginlik pik həddə yüksəldi, İraq mərkəzi hökuməti hərəkətə keçdi: parlamentdə müzakirələrə başlanıldı, federal məhkəmələrə şikayət edildi və sair. Bundan sonra Bağdad qərar verdi ki, Kərkükdə qaldırılan kürd bayraqlarının qanuni istinadı yoxdur və endirilməlidir. Yerinə isə İraqın dövlət bayraqları asılmalıdır. Ardıyla da Nəcməddin Kərim vali vəzifəsindən uzaqlaşdırıldı. Bölgəmizdə dövlətçiliyin bərpası yönündə görülən bütün bu işlərdə isə biz türkmənlərin çox ciddi rolu olub.

– Hökumət kürd valini işdən çıxarmaqla yanaşı, həm də onların qondarma bayraqlarını yığışdırdı Kərkükün hər yerindən. Amma kürdlər Bağdad hökumətinin qərarları ilə razı deyillər. Sabah PKK və ya peşmərgə yenidən şəhərdə təxribat törətməzmi? – təəccüblə Riyaz bəyə baxdım.

– Elədir, kürdlər hökumətin qərar və təlimatlarına məhəl qoymurlar. Elə ona görə də dövlət Kərkükə ordu yeritdi. Nə qədər ki, ordu buradadır, narahat olmayın, Kərkükdə rahat yaşaya bilərik, – Riyaz bəy gülümsədi. – Həm də, Kərkükün azad olunmasında ordu ilə yanaşı federal polis və "Haşdi Şabi" birlikdə mübarizə aparıb. Bu gün bölgəmizdə yerləşən "Haşdi Şabi" birliklərində əksər döyüşçülər türkmənlərdir. Onların qorxusundan kürd separatçılar səslərini çıxara bilməzlər.

– Hə, yadıma düşmüşkən, ordu Kərkükə girəndə çox sayda kürd sakin şəhərdən qaçmış-

dı. Onları məcbur eləmişdilər?

– Yox, nə danışırsınız, nə məcbur? – Riyaz bəy etiraz elədi. – Gedənlərin əksəriyyəti bölücülüyü dəstəkləyənlərdir, onları kimsə evlərindən çıxarmayıb. Düzdür, xarici mətbuat belə bir fikir formalaşdırıb ki, guya ordu kürdləri zorla şəhərdən sürgün edib, əslində, özləri gediblər. Amma bütün bunlar geridə qaldı, gələcəyə baxmalıyıq. Məncə əvvəlki vəziyyət bir daha təkrarlanmayacaq, hətta ordu şəhəri tərk etsə belə, peşmərgə buralara qayıtmayacaq. Çünki kürd hərəkatının öz içində parçalanma baş verir. Bərzaninin partiyası Tələbaninin partiyasını xəyanətdə günahlandırır. Referendumdan sonra kürdlər siyasi meydanda çox şeyi itirdilər. Bu yandan da İraq xalqları kürd partiyalarına qarşı müəyyən mövqe tutublar. Amma pis elə pis olaraq qalacaq. Kərküklə yanaşı, Tuz Hurmatuda yaşayan kürdlər də yanlış mövqeləri üzündən İraq ordusu bölgəyə çatmamış köçüb getmişdilər Kürdüstana. Sonra da BMT-yə, Avropa İttifaqına-filana şikayət etmişdilər ki, guya onları qovublar. Hansı ki, burada köçürülmədən söhbət gedə bilməzdi: hərbi toqquşma baş verib və onlar ərazidən köçüblər. Amma biz yenə də deyirik ki, keçmişdə baş verənləri unudaq, bütün problemlər siyasi yolla çözülsün. Bu yönümdə bəzi keçici modellər də təklif edirik.

– Hansı modelləri? Bu, kürdləri siz türkmənlərlə barışdıra biləcək? – soruşdum.

– Beşi şiə, dördü sünni olmaqla doqquz nəfərlik Türkmən Əlaqələndirmə Qrupu yaradılıb. Məhz bu qrup bizi İraq hökumətində, həm də BMT və digər beynəlxalq təşkilatlarda təmsil edir. Qrup təklif verib ki, Kərkükdə idarəetmə sistemi 32 faiz prinsipi ilə türkmən, ərəb və kürdlər arasında bölünsün, 4 faiz də xristianlara verilsin. Bu təklifdə valinin bir müddət türkmənlər arasından seçilməsi tələbi var. Əgər bu model keçməzsə, o zaman Kərkükün baş nazirin təyin edəcəyi üç vali yardımçısı tərəfindən idarə edilməsini istəyirik. Amma dediyim bu model irəlidəki beş ay üçün qüvvədə olacaq. Onsuz da beş aydan sonra yeni seçkilər keçiriləcək.

– Hə, maraqlı təklifdir... Bəs kürdlər nə deyir?

– Bərzaninin tərəfdarları deyir ki, ordu orada olduğu müddətdə Kərkükə qayıtmayacaqlar. Tələbaninin tərəfdarları isə deyir ki, ordu şəhərdə qalsa da, gələ bilərlər, özü də əliyalın – silahsız. Amma bir şərtlə ki, vali kürd olsun, məclis sədri türkmən, vali müavini isə ərəb, qalan qurumlar da 32 faiz nisbətində bərabər bölünsün. Danışıqlar gedir, gözləyək görək nə olacaq. Biz valinin türkmənlər arasından seçilməsini istəyirik və hətta israr edirik. Amma qarşı tərəf də israrlıdır. İraqda kürdlərin dörd valisi var, qalanları da ərəblərdir. Yalnız türkmən vali yoxdur. Ona görə də türkmən şəhəri olan Kərkükdə bu vəzifə bizə çox görülməməlidir. Artıq 14 ildir Kərkükü kürdlər idarə edir, qoy 14 il də türkmənlər etsin,

nə olacaq ki? Bunlar tərəflər arasında müzakirə edilə bilən məsələlərdir.

– Eşitdiyimə görə, polis rəisinin türkmən olması təklifini səsləndirilib qarşı tərəf, – dedim. – Məncə indiki vəziyyətdə polis rəisinin yerli əhaliyə təsiri daha güclüdür...

– Kərkükdə polisin 80 faizi kürd və ərəblərdir! – Riyaz bəy amiranə səslə dilləndi. – Qanunla polisin siyasi partiyaların qərargahlarına girməsi yolverilməzdir, amma bu kağız üzərində qalıb. Bizdə polis, necə deyərlər, mafiyalaşmış vəziyyətdədir, özləri vaxtaşırı millətə zərər verməkdədirlər. Amma siz deyən kimi, rəis türkmən seçilərsə, polis də daha az ziyanlı olar. Çünki biz polisdən də çox zərər görmüşük. Düzdür, təhlükəsizliyin təmin olunması türkmənlərin narahatlığını aradan qaldırıb. Amma bu şəhər daxilində belədir. Kərkükün ətraf kənd və qəsəbələrində vəziyyət bir az qarışıqdır. Hər gün adam oğurluğu, güllə ilə vurulma halları yaşanır, Duz Hurmatu hətta top atəşinə tutulur. Bunu edənlər yalnız İŞİD terrorçuları deyil, həm də PKK silahlıları, İŞİD-dən ayrılmış aşırı islamçılar, kürd partiyalarındakı bölücü qruplardır. Bölgədə gərginlik davam etdikcə sakitliyimiz olmayacaq. Amma yenə də ümid edirik ki, hər şey yaxşı qurtaracaq. Biz türkmən olaraq kürdləri öz qardaşlarımız bilirik, mədəniyyət, sosial yaşam ortaqlığımız mövcuddur, xalqlarımızı bəzi hallarda quhumluq bağları birləşdirir. Bizim işimiz ancaq

bölücü kürd partiyaları idədir. İnşallah, onlar da bu cür qara fəaliyyətlərindən vaz keçərlər, birlikdə oturub bölgəmizin sağlam gələcəyi üçün çalışarıq.

– Kərkük Türkiyə-İran-İraq üçlüyünün birgə səyi nəticəsində xilas olunub. Onlar təhlükəsizliyə təminat verirmirmi? – soruşdum.

– Mən şəxsən Türkiyədə prezident Ərdoğanla görüşdə (29 oktyabr 2016-cı il – müəllif) dedim ki, Kərkük üç dövlətin səyi nəticəsində rahat nəfəs aldı. Amma bu üç ölkənin ittifaqı nə qədər davam edəcək? Ona görə də bizi gücləndirin ki, ittifaq dağıldığı halda ayaqda dayana bilək, – Riyaz bəy dedi. – Mosul və Təlafər tərəflərdə vəziyyət doğrudan da ağırdır. Təlafərdə evlərin iyirmi faizi yerlə bir edilib, məktəblər, xəstəxanalar dağıdılıb, yandırılıb. Təlafər ətrafında yerləşən Ayaziyyədə isə evlərin səksən faizi məhv edilib. Bu gün Bağdad, Nəcəf, Kərbəla, Duhok, hətta Türkiyədə ümumilikdə 150 minədək təlafərli qaçqın məskunlaşıb. Müharibədən əvvəl 400 mindən çox insanın yaşadığı Təlafər Türkməneli bölgəsində ən iri türkmən rayonudur. Bölgə İŞİD-dən geri alınsa da, insanlar ev-eşiklərinə qayıda bilmirlər. Çünki yenə deyirəm: evlər dağıdılıb, elektrik yoxdur, içməli su qıtlığı yaşanır, məktəblər, xəstəxanalar partladılıb, çox yerlər, evlər belə minalanıb. Adamlar evlərinə girə bilmirlər, qapını açmaq istəyir, bomba partlayır. Təəssüf ki, minaların zərərsizləşdirilməsi,

dağıntıların aradan qaldırılması prosesi çox ləng gedir. Bu da türkmənlərin geridönüşünü ləngidir. Əlbəttə, biz bu vəziyyətdən narahatıq. Artıq dörd ildir başqa yerlərdə məskunlaşan qaçqınlar bir-iki ilə də evlərinə qaytarılmasa, bir daha dönməyəcəklər. Çünki onlar məskunlaşdıqları yerlərdə ev tikir, iş-güc sahibi olurlar.

– Hmm, düzdür, mənim görüşdüyüm Təlafər qaçqınları da minaların təmizlənməsi prosesinin ləng getməsindən gileylənirdilər...

– Müharibənin əldən saldığı ölkəmizdə yeyinti halları baş alıb gedir. Hökumət quruculuq işləri ilə yanaşı, həm də korrupsiyaya qarşı mübarizə aparmalıdır. Bütün hallarda külli miqdarda vəsait tələb edən bu prosesin öhdəsindən İraq hökumətinin təkbaşına gəlməsi mümkün görünmür. Mütləq xaricdən yardım göstərilməsi lazımdır. Türkiyə zaman-zaman İraq türkmənlərinin vəziyyəti ilə maraqlanır, Azərbaycandan da eyni münasibəti gözləyirik. İraq türkmənləri Azərbaycanın bir parçasıdır. Bu gün Azərbaycan türkcəsi yalnız Azərbaycan dövlətində, İran Azərbaycanında deyil, həm də İraqda yaşamaqdadır. Sağ olsunlar, vaxtaşırı Azərbaycan parlamentindəki bəzi millət vəkilləri Kərkük məsələsini gündəmə gətirir, bu bizi qürurlandırır. Amma bu azdır, Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasını eşitmək, mənəvi dəstəyini hiss eləmək istəyirik.

– Bu gün şəhəri gəzib-dolaşandan sonra belə

qənaətə gəldim ki, Kərkük dünya türklərinin mənəvi qibləgahıdır – eynən Məkkə İslam dünyasının mərkəzi olduğu kimi. Bildiyimə görə, türkmənlərin bütün siyasi partiya və təşkilatlarının baş ofisləri də burada yerləşir...

– Hə, elədir. Altı partiyamız var, hamısı Kərkükdə yaradılıb və baş iqamətgahları da buradadır, – Riyaz bəy cavab verdi. – İndi üzərimizdəki məsuliyyət tələb edir ki, çalışıb türkmən partiyalarının hamısını gücləndirək. Çünki bu altı partiyadan yalnız ikisinin – Türkməneli Partiyası və Türkmən Cəbhəsinin ölkənin digər yerlərində büroları – şöbələri var. Türkmən Cəbhəsinin binaları bizimkindən daha çoxdur, amma layihə və proqramlara gəldikdə, biz türkmən partiyaları arasında birinciyik. Hətta o biri partiyalar bizim proqramlardan bəhrələnirlər. Ona görə də bəzən Türkməneli Partiyasını Türkmən İdeya Partiyası da adlandırırlar. Türkməneli Partiyası türkmən milli hərəkatının mərkəzi sayılır. Şəxsən mənim qədər uzun müddətli siyasi iş təcrübəsi olan ikinci türkmən lider yoxdur. Bu gün hesab edirik ki, Türkmən Məclisi yaradılmalıdır – bu milli hərəkatın inkişafı üçün çox vacibdir. Sonra, hər bir partiyanı gücləndirməliyik. Məncə hər partiyanın ən azı otuz bölgə şöbəsi olmalıdır. Hansı ki, əksər partiyalarımız, məsələn, “Qərar” (“Karar”), “Ədalət” və sair partiyalarımız tək bir binada fəaliyyət göstərir. Türkmən mətbuatı genişlənməlidir. Cəmi iki telekanalımız var, onlar

da ki, qeyri-peşəkar.

– Məncə türkmənlərin problemlərini həll etmək üçün bircə yol var: tarixi türkmən torpaqları federal subyektə çevrilməlidir. Eynən Kürdüstanda olduğu kimi, muxtariyyət elan edilməlidir...

– Elədir, bu bütün türkmən xalqının arzusudur, – Riyaz bəy dərindən köks ötürdü. – Bu, çox yaxında baş verəcək. Öncə çalışırıq ki, Təlafərə və Duz Hurmatuya ayrı-ayrılıqda vilayət statusu verilsin. Daha sonra iki vilayətin əsasında Türkməneli torpaqlarına muxtariyyət almağı düşünürük. Eyni zamanda, Kərkük və Mosulun da statusu müəyyənləşməlidir. Yaddan çıxarmayaq ki, Mosulun Türkiyə üçün əhəmiyyəti Şimali Kiprdən daha böyükdür. Bu səbəbdən də türk milləti olaraq birləşib, bir araya gəlməyimiz lazımdır. Demirəm ərazilərimiz bir-birinə qatılmalıdır, yox, Avropa Birliyində olduğu kimi, əməkdaşlıq etməliyik. Məsələn, Türkiyə – Azərbaycan və ya Azərbaycan – Türkmənistan kimi. Bu mənim şəxsi görüşümdür, inşallah, biz görməsək də, gələcək nəsillər mütləq türk birliyinin yarandığını görəcəklər.

Riyaz bəylə uzun-uzadı söhbət elədik. Bəzilərini tanıdığım, bəzilərini isə heç vaxt görüb-eşitmədiyim başqa adamlar da gəlmişdi. Məndən Azərbaycandakı vəziyyəti soruşurdular, suallar verirdilər: Bakı necədir, insanlar necə dolanır, iqtisadi inkişaf necə gedir. Əlbəttə, Qarabağ münaqişəsindən daha çox söz açırdılar və

hamısı bir ağızdan ermənilərə lənət yağdırırdılar. Beləcə, uzun-uzadı söhbət elədik.

Riyaz bəy Yılmazı yanına çağırıb mənim eşitmədiyim səslə nəsə dedi. Sonra da mənə sarı dönüb:

– Yılmazla bir yerə gedəcəksiniz, orada Kərkük mətbəxinin ən ləziz yeməklərinin dadına baxmaq mümkündür. Gedin şam yeməyinizi yeyin, sanra da yatın dincəlin, inşallah sabah bir-birindən daha maraqlı proqramlarımız olacaq, – dedi.

***

Hər zamankı kimi, səhər saat 9-da Türkməneli Partiyasının iqamətgahındaydıq. Səhər erkəndən olmasına baxmayaraq, hər kəs işinin başındaydı. Bir azdan öyrəndim ki, bu gün Təlafərlə tanışlıq proqramımız var. Zarafat deyil, müharibədən yenicə çıxmış, İŞİD-in son qalası olan bu bölgəni görüb-öyrənmək ən böyük arzularımdan idi və bu gün mən İraq türkmənlərinin ən böyük şəhəri olan Təlafərə gedəcəkdim...

Mosulun cənub-qərbində – Suriya sərhədləri ilə hüdudlanan, hər bir azərbaycanlı üçün doğma olan bir yer var – Təlafər. Əhalisinin tamamı türkmənlərdir. Həm də danışıqları az qala Azərbaycan türkcəsi ilə eynidir. Nə yazıq ki, İŞİD bu doğma türk yurdunu viran qoyub, ev-eşikləri daş yığınına çevirib, nə məktəb qalıb, nə xəstəxana, yollarında o qədər mərmi partladılıb

ki, çala-çökəklər görəni heyrətə salır.

İraq ordusu "Haşdi Şabi" ilə birlikdə hücuma keçərək Təlafəri İŞİD-dən geri alsa da, ölkənin dörd bir yanına səpələnmiş türkmənlər ömür boyu min əziyyətlə tikib-qurduqları evlərinə dönə bilmirlər. Axı gəlib harda yaşayacaqlar, uşaqlarını harda oxudacaqlar, birinin bir yeri ağrıyanda xəstəxanası olmayan bölgədə kimin qapısını döyəcəklər, gündüzü birtəhər keçirsələr də, soyuq qış gecəsində enerji sistemi dağıdılan Təlafərin xarabazara çevrilmiş evlərində ayaqlarının altını nə ilə işıqlandıracaq, nə ilə isinəcəklər? Üstəlik, İŞİD rejim olaraq məhv edilsə də, qruplar şəklində hər yerdə mövcuddur, hətta yeraltı quyularda, haradan başlayıb, harada bitdiyi bilinməyən yeraltı tunellərdə gizlənərək, fürsət tapan kimi insan qanına susayan bu yırtıcılar günahsız insanların qanını tökürlər.

Hə, bir az da doğma Təlafər haqqında. Şəhərin özündə 250 minədək, eyniadlı rayonda isə şəhərqarışıq toplam yarım milyon nəfərədək əhali yaşayır. Amma onların çoxu İŞİD-lə savaş zamanı bölgədən gediblər. Bütün çətinliklərə rəğmən, evi-eşiyi salamat qalmış bəzi sakinlər yavaş-yavaş geri qayıtmaqdaydılar. Haradasa, əhalinin 30 faizi evlərinə dönüb, amma əksəriyyəti heç də qayıtmağa tələsmir. Çünki onlar əvvəlcə həyati təhlükəsizliyin tam qorunduğuna əmin olmaq, sonra isə sosial problemlərin çözülməsini istəyirlər. Bu da ki, indiki şəraitdə çox

ləng gedən bərpa-təmizləmə prosesinin timsalında çətin görünür. Üstəlik, görüşüb-danışdığım hər kəs deyir ki, geri qayıdanlar evini dağılmış görür, amma cibində kifayət qədər pulu yoxdur ki, yenidən tikib, təmir eləsin. Dövlət isə bu işdə ziyan çəkmiş vətəndaşına qətiyyən yardım göstərmir. Yəni kimin pulu varsa tikib yaşasın, pulu olmayan oturub qalsın çadırlarda.

– Nə vaxtdır ailəmlə birlikdə Leylandakı çadır düşərgəsində yaşayıram, – həmsöhbət olduğum, Təlafərin Ayaziyyə kənd sakini Rafı Təlafərli sözə başladı.

– Bizim kəndimiz Ayaziyyədir, Təlafərin Suriya ilə həmsərhəd bölgəsində yerləşir. Təəssüf ki, öz sahiblərinə qalmayan kənd İŞİD-in bölgədəki son istehkamı olub. Düzdür, indi kəndimiz terrorçulardan azad edilib, amma sakinlər geri qayıtmayıb. Ora bu gün də qapalı zona olaraq qalır. İŞİD gələndə 6-7 min əhalisi vardı Ayaziyyənin. Sən saydığını say, gör fələk nə sayır, terrorçular kənddəki evlərin səksən faizdən çoxunu dağıdıb. Heç bir mülki şəxsin girmədiyi kənddə indi ancaq əsgərlər dolaşır. İŞİD terrorçuları kəndə doğru iki istiqamətdən irəliləyirdi. Hər an kütləvi qırğın başlaya bilərdi deyə, bizi nisbətən təhlükəsiz yol tapıb ərazidən çıxardılar. Hamı canını götürüb qaçırdı, qadın, uşaq, xəstə və qocalar payi-piyada düşmüşdülər yola. İnsanlarımız o qədər ağır şəraitdə qaçırdılar ki... Yolda neçə nəfər dünyasını dəyişdi, hətta dayanmağa

vaxt yox idi deyə meyitləri qaldı orda – basdıra bilmədik. Nəhayət, gəlib çatdıq Kərkükə, bizi düşərgəyə yerləşdirdilər.

– Qohum-qonşularınızı görürsünüzmü, yəqin hərəsi bir diyara səpələnib. Elə bir ailəniz Nəcəf yaxınlığındakı kənddə məskunlaşıb, yolüstü qonaqları olmuşam, – dedim.

– Bu gün İraqın harasına getsəniz mütləq bir təlafərli qaçqını görə bilərsiniz, – Rafı başını yellədi. – Yaşadığımız Leylan düşərgəsində Təlafərdən 758 türkmən ailəsi var. İŞİD quldurları ev-eşiklərimizi, dəyərli-dəyərsiz nəyimiz vardısa çalıb-çapdı, yandırıb viran qoydu. Amma biz yenə də qışın soyuğunda üşüyüb, yayın istisində qovrulduğumuz çadırlarda evimizə dönəcəyimiz günü gözləyirik. Düzdür, bizə hər ay müəyyən qədər ərzaq yardımı, hətta 40-80 dollar pul da verirlər. Amma bunlar uşaqlarımızı xəstəlikdən qoruya bilmir. Çox əziyyət çəkirik. Türkiyədən həkimlər gəlmişdi, düşərgə əhlinə dava-dərman da gətirmişdilər. Amma bu bizim dərdlərimizi yüngülləşdirə bilməz. Biz ancaq öz evimizdə rahat ola bilərik.

Rafı ilə söhbətləşib ayrıldım, yandakı ağacın yerə əyilən budağından limona bənzəyən, adını bilmədiyim girdə və sarı iki meyvə dərib çantama atdım.

Daha bir neçə təlafərli ilə də söhbətləşdim. İnsanlar birmənalı şəkildə narazı idilər. Hər kəsin dilində şikayət aşıb-daşırdı: ev-eşikləri dağı-

lıb, məktəb-xəstəxana yoxdur, nə işıq var, nə qaz, iş yeri yoxdur deyə evə bir tikə çörəyi necə qazanıb gətirmək dərdi... Müharibədən çıxdıqlarının fərqində olan təlafərlilər deyirdilər ki, hökumət eyni problemi yaşayan ərəb və kürdlərə daha çox dəstək verir, onlara isə türkmən olduqları üçün ögey münasibət bəslənilir.

Bölgədə evlərin, infrastrukturun dağılması bir yana, terror təhlükəsi daha vahiməlidir. Burada yerlilərin quyu adlandırdığı çox sayda tunellər aşkar edilib ki, orada yüzlərlə İŞİD terrorçusunun gizlənməsindən şübhələnilirdi. Hətta həmin tunellərdən istənilən an böyük bir terrorçu ordusu da çıxa bilərdi. Əlbəttə, bu camaatın ehtimalı olsa da, hər halda, bir çoxu bombalanaraq partladılan yetmişdən çox quyu – tunel hələ də insanlar üçün xof mənbəyi olaraq qalırdı.

Əslində, girişləri bəlli olan bu tunellərin dağıdılması ordunun əlində çətin deyildi, sadəcə əsgərlər orada terrorçuların əsir saxladığı mülki insanların ola biləcəyindən ehtiyyatlanırlar.

– Tunellər dəhşət saçır, o qədər uzundurlar ki, kilometrlərlə uzanır, – bu an mənə yaxınlaşan, adını bilmədiyim, yüksəkrütbəli “Haşdi Şabi” zabiti dedi. – Tunellərin çoxunun girişi bəllidir, amma, haradək uzanır, harada qurtarır, bilinmir. Məlumdur, mütləq haradansa çıxışı var, başqa cür ola da bilməz. Təmizləmə əməliyyatlarına tələsik başlamaq istəmirik. Ola bilər tunellərin içinə mina döşənsin, ya da ola bilər əsirlər orda saxla-

nılsın, insan tələfatına yol vermək istəmirik.

– Heç olmaya tunellərin ağzını minalayın, yaxud da hərbçilərin ciddi nəzarətinə götürülsün, – özümdən asılı olmayaraq məsləhət verdim.

Duruxdum, mayor olduğu çiynini bəzəyən ulduzlardan açıq görünən zabitə bu məsələdə məsləhət vermək mənə düşməzdi, amma artıq olan olmuşdu.

– "Haşdi Şabi"nin mərd oğulları siz deyən ehtiyyat tədbirlərini çöxdan görüblər, – mayor düşündüyümün əksinə olaraq, səmimi və mehriban tərzdə cavab verdi. – Qorxudan torpağın altında gizlənən terrorçular insan ovuna əsasən gecələr çıxırlar. Çox qorxaq, cürətsizdirlər. Bu yaxınlarda tuneldən çıxan bir terrorçu ərazidə təhlükəsizliyi qoruyan "Haşdi Şabi" hərbçisini öldürmüşdü. Amma bilirsiniz necə, qəfil hərbçimizin üstünə atılaraq onu qucaqlayıb, sonra da özünü partladıb. Hər ikisi parça-parça olmuşdu. Bir dəfə də, yoxlama məqsədilə tunellərdən birinə girən üç hərbçimiz İŞİD quldurlarının hücumuna məruz qalmışdı. Terrorçu qəfil hərbçimizlə qarşılaşıb, heç nə düşünmədən özünü partlatmışdı. Nəticədə daha qabaqda olan iki hərbçimiz şəhid olmuşdu, arxada gedən bir əsgər isə təsadüfən sağ qalmışdı.

– Bayaq Rafı bəylə söhbət edirdim – Ayaziyyə kəndindəndir. Evlərinə qayıda bilmir, ailəsi ilə birlikdə Leylandakı qaçqın düşərgəsində yaşayır. Getmək olarmı o kəndə? – sual dolu gözləri-

mi mayorun üzünə dikdim.

– Məsləhət görməzdim! – zabit amiranə tərzdə sözümü kəsdi. – Ayaziyyə güllədən, terrordan daha qorxulu olan xəstəliklərin yayılma meydanına çevrilməkdədir. Dağıdılmış evlərin qalıqları altında, hətta yolun ortasında qalmış cəsədlər hələ də torpağa tapşırılmayıb – dəfn olunmayıb. Artıq meyitlər çürüyüb iylənir. Bu da infeksiyanın yayılmasını sürətləndirir. Bu səbəbdən də, hətta əsgərlər belə mümkün yoluxmadan qorunmaq üçün kənddə meyitlər olan yerlərə yaxınlaşmırlar.

Qorxulu xəbər idi, kənddə getməsəm belə, eşitdiklərim məndə vahimə yaradırdı. Sakitcə mayordan ayrılıb bir az arxada dayanan Rafı bəyə yaxınlaşdım. Kənd haqqında ondan da nəsə öyrənməyə çalışdım.

– Ayaziyyəyə getdim ki, evimizə baxım, görüm salamatdırsa ailəmi götürüb geri qayıdaq. Çox təəssüflər olsun, evi partladıb daş qalağına çeviriblər. Kənd məni dəhşətə gətirdi, hər yer viran olmuşdu, – Rafı bəy heyrətdən səsini qaldırdı. – Dağıdılmamış bir evin qapısını açdıq. İçəridə 15 meyit vardı – bütün ailəni qırmışdılar. Kənddə səkkiz gün qaldım, üstəlik, hərbi geyimdəydim. Mənə silah da vermişdilər. Əsgərlərlə bir yeyib, bir gəzib-dolaşırdım. Tək gəzmək həyat üçün təhlükəliydi. Adi mülki geyimdə Ayaziyyəyə girmək olmaz, çünki terrorçuların hücumu bir yana, əsgər də belə halda İŞİD-çi zənn edib

atəş aça bilər. Amma yenə də, belə hallar müvəqqətidir, təhlükəsizlik məsələsi düzələcək, əsas odur ki, dağılmış evlərimizin bərpasına kömək göstərsinlər.

– Birdən ailəniz-övladlarınız kəndə qayıtmaq istədi, onda nə edəcəksiniz? – deyə maraqla ona baxdım.

– Neçə vaxtdır müharibə gedir, amma şükür ki, ailəm sağ-salamatdır. İnşallah harada yaşamasına baxmayaraq Allahın nəzərləri üstümüzdə olar, – cavab verdi. – Hazırda iki oğlum əsgərdir, vətənə xidmət edirlər, bir oğlum isə döyüşdə yaralanıb. Hə, yaralanıb, amma mükafat olaraq bu gün heç bir şəraiti olmayan çadırda yaşayırıq. Hökumət evimizin bərpasına yardım etməyə maraq belə göstərmir. Deyirsiniz kəndə qayıtmaq istəyər ailəm, çox da istəsin, hara gedəcəklər, kimin qapısını döyəcəklər? Hökumət deyir yardım edə bilmərik, gedin özünüz tikin evinizi. Belə etinasızlıq olar? Yeganə köməkliyi "Haşdi Şabi"dən görürük. Nəsə bir problemimiz olanda, harasa getmək istəyəndə, məsələn, Ayaziyyəyə gələndə "Haşdi Şabi" təhlükəsizliyimizi təmin edir, imkanı daxilində texniki dəstək verir. Bəs hökumət, axı o da öz üzərinə düşənləri eləməlidir!

Bayaqdan söhbətimizə qulaq asan mayor yanımıza gəldi. Sağ əlini Rafı bəyin çiyninə qoyub:

– Bütün Təlafərdə vəziyyət ağırdır. Hətta bu gün Təlafərin bərpasına başlanılsa və işlər tam

sürətlə görülərsə, azından iki il lazımdır, – dedi. – Bölgədə həyat üçün lazım olan hər cür sosial infrastruktur dağıdılıb. Buna baxmayaraq, biz türkmənlər elimizə-yurdumuza bağlı adamlarıq, yavaş-yavaş evlərimizə dönürük. Qaçqın düşən yarım milyon insandan 42 min ailə geri qayıdıb, bu da ortalama 250 min nəfər deməkdir. Qalanları isə ya evləri dağıdıldığı üçün, ya da iş yerləri və sair olmadığından qayıtmır. Hətta salamat qalmış evinə dönən ailələr də bir çox halda faciəyə tuş gəlirlər. Məsələn, evinə qayıdandan sonra təsadüfən minaya düşüb həlak olan təlafərlilərin sayı 50-dən çoxdur.

– İki il niyə? – heyrətdən gözüm bərəldi. – İki ilə şəhər salmaq mümkündür. Tam dağılmamış evlərin, yerli infrastrukturun bərpası niyə o qədər uzansın ki, bunu öz imkanlarınızla da edə bilərsiniz, – dedim.

– Hər şey mümkündür, amma iş Təlafərə gələndə, vəziyyət tamam fərqlidir, – mayor asta səslə cavab verdi. – Quruculuq işlərinin ləng getməsinə əsas səbəb mina axtaran mütəxəssislərin sayının az olmasıdır. Həm də bu prosesdə istifadə edilən texnika, elektron cihazlar çox azdır. Bildiyim qədər bölgədə cəmi yeddi nəfər mina axtarışı ilə məşğul olurmuş, onlardan da üçü partlayış zamanı dünyasını dəyişib. Ona görə xaricdən kömək gəlməlidir. Əks təqdirdə bu iş daha çox uzanacaq. Bura ərəb şəhəri deyil ki, Səudiyyə Krallığı, Küveyt, Misir, Ərəb Əmirlikləri, nə bilim

hansı ölkə yardım göstərsin, Kürdüstan da deyil ki, Amerika, Avropa düşünmədən yardım gətirsin, bura türk torpağıdır. Təlafər türkmən yurdu, türkmən şəhəridir, nəinki dünya bizə kömək eləmək istəmir, əksinə, buradakı türkmənlərin yox olmasını, ərazinin Kürdüstana birləşdirilməsinə çalışırlar. Təlafər, İraq və Suriya kürdləri arasında körpüdür. Ümidimiz Türkiyəyədir. Türkiyə onsuz da yardım edir, amma təkdir, qardaş türk dövlətləri bir araya gəlməlidir. Heç olmaya indki vaxtda – dünya xəritəsi yenidən cızıldığı bir vaxtda milli maraqlar xatirinə birləşməlidirlər. Minaların tapılıb-zərərsizləşdirilməsi o qədər də çətin proses deyil, Türkiyə kimi, Qazaxıstan, Özbəkistan, elə sizin Azərbaycan da Təlafərə dəstək verməlidir. Sizin təcrübəniz böyükdür, ən azından Ermənistanla müharibə şəraitindəsiniz, minatəmizləmə işlərində qazandığınız uğurlardan xəbərimiz var.

Bu yerdə qeyd edim ki, doğrudan da, İraqda türkmən əhalinin yaşadığı ən böyük və strateji rayon Təlafər öz tarixi boyunca ən dəhşətli faciələri 2004-2006-cı illər arasında dadıb. Şəxsən mənə görə, türkmənlər bu faciələri 2004-cü il sentyabrın 9-dan başlayaraq sistemli şəkildə yaşamağa başlayıblar. Bu tarixdə ABŞ təyyarələri Təlafər şəhərini şiddətli şəkildə bombalamışdı. Çox sayda insanın ölümünə səbəb olan aviahücum nəticəsində bu qədim türk şəhəri xarabaya çevrilmişdi. Faciənin həcmi o qədər geniş olmuş-

du ki, dağıntılar altında qalan insanları – uşaq və qadınları xilas etmək üçün gələn yardım qruplarını şəhərə buraxmamışdılar. Üstündən yarım il keçəndən sonra – 2005-ci il fevralın 21-də Təlafər şəhəri yenidən bombardman olunub. Şahidlərin dediyinə görə, bu dəfə faciənin miqyası daha böyük idi, saysız-hesabsız günahsız, mülki insan həlak olmuş, salamat qalmış qalan tikililər də yerlə yeksan edilmişdi.

Yerli sakinlər bildirirlər ki, 2006-cı ildə şəhərə təyyarələrdən bomba yağdırılmasa da, əhali ifrat təzyiq altında saxlanılıb. Yəni onsuz da zülm və məşəqqət içində olan xalqı terrorçu obrazında görüblər.

Təlafərin məruz qaldığı başqa bir faciə 2014-cü il iyunun 10-da İŞİD tərəfindən zəbt edilməsi ilə başlayıb. İŞİD-in işğalı səbəbilə yüzlərlə ailə ev-eşiyini ataraq şəhəri tərk edib. İnsanlar, kim hara gəldi – bir qismi Türkiyə sərhədlərinə, bir qismi Ərbilə, bir qismi Sincar tərəflərə, digərləri də Kərkükə, Bağdada, ölkənin ucqar cənublarına yol alıblar.

...Təlafərdən qayıdırdıq. Maşın bombaların partlatdığı, tankların tırtılları altında dağılmış şossedə üzüqərbə – Kərkükə doğru şütüdükcə yaralı siması gözlərimdən getməyən Təlafər arxadan sanki məni haraylayırdı. Küçələrdə, öz evlərinin içində qətlə yetirilmiş insanların, şəhərdən kənarda tapılmış çox sayda kütləvi məzarlara tökülərək üstü torpaqlanmış qadınların,

qocaların, azyaşlı uşaqların ruhları ədalətdən pay diləyirdi. Təəssüf ki, sağlıqlarında ala bilmədikləri ədaləti öləndən sonra da onlara verən olmayacaqdı bu haqsız dünyada. Haqq olsaydı, izsiz-səssiz itkin düşmüş insanlar öldürülərək, meyitləri Əbu Antar adlanan ərazidəki 100 metr dərinliyi olan quyuya atılmazdı.

Həyətə çıxıb, qədim Kərkük evlərinin gecənin qaranlığında sayrışan işıqlarına tamaşa edirdim. Gün ərzində yaşadığım uzun yol yorğunluğunu hiss etmirdim. Fikirlərimdə Tələfərin xarabaya çevrilmiş siması, bir də türkmən ata-anaların ömür boyu işləyib, alın təriylə qazandıqları pulla qurub-yaratdıqları, amma İŞİD terrorçularının bir gecədə viran qoyduğu evlərinə baxdıqca dolub-daşan gözləri canlanırdı. Daş qalağına çevrilmiş evlərin xarabalığı hər yerdən əlləri üzülmüş, heç yandan yardım ala bilməyən sahiblərinin belini bükmüşdü. Amma əlimdən nə gəlir ki, sadəcə yazmaq, gördüklərimi dünyaya hayqırmaq!

İkinci qatdakı otağıma çəkilib yerimə uzandım. Gözlərim önündə canlı tamaşaya dönən zəhər kimi acı təəssüratlarımla çarpışa-çarpışa birtəhər yuxuya daldım.

***

Səhəri gün Türkməneli Partiyasının iqamətgahında dostlarla birlikdəydim. Nə əcəbsə, harasa getmək kimi bir proqramım olmamışdı. Bəlkə də dünənki yol yorğun-

luğumu nəzərə alaraq bir az istirahər etməyim üçün şərait yaratmışdılar. Amma əlbəttə, İraqda, xüsusilə də Türkməneli yurdunda keçirdiyim hər an mənim üçün çox qiymətli idi. Bu səbəbdən də vaxtımı boşa sərf eləmək istəmirdim.

– Bir az şəhəri gəzək, görməli yerlər çoxdur burada, – deyə üzbəüz divanda oturan Yılmaza baxdım.

– Gözüm üstə abi, amma öncə Riyaz bəylə məsləhətləşim, sizinlə kimlərinsə görüş-filanını düşünmüş ola bilər, – Yılmaz cəld yerindən qalxıb otaqdan çıxdı.

Hə, Yılmaz haqlıydı, bu gün çox vacib görüşümüz varmış. İraq millət vəkili Hasan Turanla görüşdə məni maraqlandıran hər cür suala cavab ala bilərdim. Ona görə də çox sevindim. Amma görüşə hələ çox vardı, ona görə də dostlarla çay udumlaya-udumlaya söhbətə davam etdim.

Günorta saat 12-də Yılmazın maşına oturub partiyanın binasından ayrıldıq.

Əslində Hasan Turanın oturduğu qərargah binası uzaqda deyilmiş – elə Türkməneli Partiyasının iqamətgahının arxasındakı küçədə. Öyrəndim ki, Hasan Turan Türkmən Cəbhəsinin və ya türkmənlərin qısaca adlandırdıqları kimi, İTC-nin əsas simalarından biridir. İraq parlamentinə də elə İTC-nin siyahısı üzrə seçilib.

Görüşümüz hələ başlamamışdı. Çünki məndən əvvəl onunla görüşmək istəyən, xeyli vaxtdır dərd-sərini danışıb kömək almaq üçün növ-

bəsini gözləyənlər vardı.

Deputat köməkçisinin otağında oturub növbəmi gözləməyə başladım. Bu müddətdə qəbula gələn bəzi vətəndaşların dərd-sərini də eşitdim. Kimi ev tikdirmək, kimi tarlasını suvarmaq üçün texniki yardım, bir başqası övladının təhsilində yaranmış problemi həll etmək ümidi ilə burdaydı.

Orada olarkən qərargahın həyətində, qapı ağzında – küçədə çox sayda hərbi mundirli, əli-avtomatlı döyüşçülər diqqətimi çəkdi. Bir anlıq özümü hərbi düşərgədə hiss etdim. Çünki bu qədər hərbçi ancaq hərbi bazada ola bilərdi. Amma Ərşad Salehi ilə görüşə gedərkən də eyni mənzərə ilə qarşılaşmışdım və səbəbini Riyaz bəydən soruşduqda cavabımı almışdım – İraqda hər bir millət vəkili onlarla hərbçi mühafizə edir...

Fikirlərimlə söhbətləşdiyim bu an köməkçi məni Hasan Turanın otağına dəvət etdi.

İnsafən, Hasan Turan olduqca səmimi, mehriban xasiyyətli biri idi. Ərşad Salehidən fərqli olaraq məni qarşılamaq üçün qapıya gəldi, əl sıxıb, hal-əhval tutdu. Oturmağa yer göstərib, köməkçilərinə çay, şirniyyat gətirmələrini tapşırdı. Sanki əziz dostunu görürmüş kimi sevinirdi. Bu insanın gözlərindəki işıq, ürəyindəki səmimilik üzündə əks olunmuşdu.

– Türkmənlər sayca İraqda üçüncü əsas xalqdır. Amma nə fayda, hər zaman problemlərlə üz-üzədirlər, – Hasan bəy sözə başladı. – 2003-cü ildən əvvəl Səddamın yaratdığı sıxıntılar,

sonra isə Amerikanın gətirdiyi süni problemlər insanları narahat edir. Amerika İraqı işğal edəndən sonra, ölkədə siyasət şiə-sünni-kürd faktoru üzərində qurulub. Türkmənlər isə ümumiyyətlə, bütün məsələlədə bir xalq olaraq kənarda saxlanılıb. Bu gün də bu belədir: türkmənlər ölkə əhalisinin 10 faizini təşkil eləsələr də, dövlət və hökumət strukturlarında çox cüzi təmsil olunurlar. Xüsusən də nəzərdən qaçırmayaq ki, kürdlərlə ərəblər arasında yerləşən böyük Türkməneli coğrafiyasında yaşayırıq. Türkməneli torpaqları hər cür sərvətlə – neft və qazla zəngindir.

– Nə olsun, zənginlik xalqlara kədərdən başqa heç nə vermir, – narazı şəkildə sözünü kəsdim...

– Düz deyirsiniz, təbii sərvətlərin bolluğu problemlərimizi bir az da artırıb. Kürdlər həmişə bölgələrimizə iddialı olublar. 2005-ci ildə kürd tərəfi Bağdaddakı şiə qruplarla razılaşaraq, Türkməneli bölgəsini konstitusiyada mübahisəli ərazi adlandırıblar. Kürdlərin məqsədi nəyin bahasına olursa olsun, türkmən torpaqlarını İraq Kürdüstanına qatmaqdır. Bu ərazilər böyük neft mədənləri ilə zəngindir. Əgər kürdlər Kərkük vilayəti, Duz Hurmatu, eləcə də Mosul vilayətinin neftlə zəng bəzi rayonlarını əldə etməzlərsə, öz dövlətlərini qura bilməzlər. Kürd muxtariyyəti mövcud sərhədləri daxilində dövlət olaraq inkişaf edəcək iqtisadi qüvvəyə malik deyil. Onlar həmişə qazancını-gücünü bizim ərazilərdən alıblar.

– Bəs niyə bu illər ərzində parlamentdə

məsələ qaldırıb haqqınızı tələb etməmisiniz?

– Niyə ki, 2003-cü ildən 2017-ci ilədək qapısını döymədiyimiz dövlət qurumu qalmadı. Amma təəssüf ki, şikayətlərimizi kimsə dinləmədi. Əksinə, bu illərdə Kərkük ciddi şəkildə demoqrafik dəyişikliyə uğradı, Kərkükə ən azı yarım milyon kürd yerləşdirilib, – Hasan bəy etirazla dilləndi. – Kürdüstanda keçirilən referendum prosesinə Kərkükü də qatdılar. Amma Allaha şükür, son vaxtlar hökumət türkmənlərin dediyinə inanmağa başlayıb. Referendumdan sonra Bağdadda anladılar ki, 2003-cü ildən bəri türkmənlərin dedikləri həqiqətmiş, kürdlər Kərkükdə demoqrafik vəziyyəti dəyişməklə ölkənin parçalanmasına hazırlıq görürmüşlər. Kürdüstan İraqdan ayrılsaydı, Türkiyə də parçalanacaqdı, İran da, Suriya da. Kürdüstanın xain planının puç olmasında türkmənlərin böyük rolu olub. Biz millət vəkili olaraq Bağdadda, eləcə də digər türkmən siyasətçilər və ziyalılar Kərkük vilayəti ərazisində kürdlərin separatçı planlarına qarşı genişmiqyaslı mübarizə apardıq. Sonda da İraq ordusu bölgəyə yerləşərək nəzarəti ələ keçirdi. Amma biz daha çox işlərin görülməsini istəyirik. Bu işlər hansılardır: birincisi, təhlükəsizliyin Bağdad tərəfindən təmin olunması, ikincisi, Kərkükdə ortaq idarəetmə formasının tapılması. İdarəetmə strukturları türkmənlər, kürdlər və ərəblər arasında müvafiq olaraq 32 faiz səviyyəsində bölünməli, qalan dörd faiz isə xristianlara

verilməlidir. Bu, biz türkmənlərin təklifidir. Təklifimiz qəbul olunmazsa, bölgəmizdə təhlükə varlığını qoruyacaq.

– Daha böyük bir problem görürəm. Parlament seçkilərinə 4-5 ay qalır, amma İŞİD-in zülmündən qaçaraq İraqın dörd tərəfinə yayılan türkmən əhali hələ də Türkmənelinə geri qayıtmayıb. Bu da o deməkdir ki, kürdlər öz namizədlərini keçirmək üçün çox böyük şans qazanıblar...

– Haqlısınız, Türkməneli bölgəsində yaşayan minlərlə türkmən ailəsi ölkənin başqa yerlərinə, hətta xaricə miqrasiya edib. Seçkidən əvvəl onların öz yurdlarına qayıdışı təmin edilməlidir ki, müsbət nəticə ala bilək. Yalnız Təlafər bölgəsindən yarım milyondan artıq türkmən ev-eşiyindən didərgin düşüb. Deyə bilərsiniz ki, İŞİD çoxdan yoxdur, niyə xalq evinə dönmür? Cavab sadədir –bir sıra problemlər var. Əvvəla, İŞİD geri çəkilərkən çox yeri minalayıb, hazırda onların tapılıb, zərərsizləşdirilməsi prosesi gedir. İnfrastruktur parça-parça edilib, evlər, məktəblər, xəstəxanalar bombalanaraq dağıdılıb, içməli su yoxdur, elektrik xətləri sıradan çıxdığı üçün enerji qıtlığı yaşanır. Deməli, insanların geridönüşünə qədər bu problemlərin də həll edilməsi vacibdir. Əks təqdirdə, önümüzdə keçiriləcək seçkilərdə türkmənlər zərər görə bilər. Biz bu barədə narahatlığımızı Bağdad hökumətinə də bildirmişik, BMT-nin Bağdaddakı ofisinin rəhbərinə də. İnşallah, seçki gününədək qeyd elədiyim

problemlərin aradan qaldırılmasına çalışacağıq.

– Problemləriniz çoxdur, üstəlik, türkmən qaçqınlar böyük arealda məskunlaşıblar. Belə olduğu halda, onları tapıb, bir araya gətirmək çətin olacaq, – dedim.

– May ayında biz türkmənlər qurultay keçirib, Türkmənelinin bütün ərazisini əhatə edən doqquz nəfərlik koordinasiya şurası yaratdıq. Həmin heyət İraqla yanaşı, Türkiyə və İranda da görüşlər keçirib, İnşallah, yaxın zamanlarda Azərbaycana da gələcəyik, – Hasan bəy gülümsədi. – Ən böyük sıxıntımız odur ki, türkmənlər müəyyən ərazidə yığcam məskunlaşmayıb. Suriya sərhədlərindəki Təlafərdən İran sərhədinədək böyük bir coğrafiyada yerləşən Türkməneli bizə həm də özü kimi geniş imkanlar açır. Yəni geniş coğrafiyada yaşadığımızı isbat edir. Amma həm də bəzi yerlərdə seçki qanununa əsasən milli kimliyini təsbit etməkdə çətinlik yaradır. Buna baxmayaraq, indiki parlamentdə türkmən millət vəkillərinin sayı 10-dur, amma növbəti seçkilərdə bu sayı yüksəltməyə çalışacağıq. Ən azı, 15 millət vəkili seçə biləcəyimizi düşünürük. Bu gün İraq parlamentində etnik azlıqlara bəlli sayda kvota ayrılıb. Məsələn, xristianlara beş kürsü verilib. Amma biz belə kvotanı qəbul eləmirik. Çünki bu halda türkmənlər ölkədə üçüncü iri xalq statusunu itirir və etnik azlığa çevrilir. Təəssüf ki, bizi parlamentdə dəstəkləyənlər qədər, əleyhimizə çıxanlar da var. Biz sadəcə, millət vəkillərinin sayını artırmağı

deyil, həm də siyasəti yaxşı bilən, savadlı, yüksək mədəniyyətə malik insanların parlamentə seçilməsini istəyirik.

– Kərkükdə yerli hakimiyyətin bölünməsinə dair təkliflər səsləndirilir. Bağdad hökumətinin xəbəri var bundan? – soruşdum.

– İraq ordusu Kərkükü nəzarətə götürəndən sonra baş nazir Heydər əl-İbadiyə məktub yazıb, vilayətdə 32 faiz modeli üzərində bir idarəetmə sisteminin yaradılmasını təklif elədim. Sağ olsunlar, ötən həftə bir komissiya yaradılıb, Kərkükün müvəqqəti valisini mənim məktubumla əlaqədar Bağdada dəvət ediblər, hazırda iş gedir, – cavab verdi. – Dünən də mənimlə əlaqə saxlayıb bəzi sənədləri istədilər. Ümid edirəm ki, yaxın gələcəkdə hökumət bəzi vacib addımları atacaq. Kürdlər deyir vali kürd olmalıdır. Biz isə əksinə, o təklifi qəbul etmirik. Kərkükdə vali türkmənlər arasından seçilməlidir, vəssalam.

– Müharibə qurtaracaq, kürdlərlə türkmənlər də ömür boyu ixtilaf içində qalmayacaqlar – bunlar düzələcək. Amma İraq sürətlə sürükləndiyi sünni-şiə məzhəbçiliyində məhv olacaq, – əsəbi şəkildə bildirdim.

– Türkmənlər arasında həm şiə, həm də sünnilər var, amma bizim üçün ən vacibi etnik kimlikdir. Bizi ancaq etnik kimlik birləşdirir, sünni-şiə desək parçalanarıq. Türkmənlərin burada min ildən artıq tarixi var və bütün tarixi dövrlərdə özlərini məhz türkmən olaraq tanıdıblar. Qurul-

taydan sonra türkmən xalqı olaraq məzhəbçiliyi bir yana qoyaraq vahid türkmən kimliyi ətrafında birləşdik. Məzhəb hər kəsin özünə aid inanc məsələsidir, onun ictimailəşməsi ziyanımıza ola bilər. Hətta bir dəfə görüş zamanı BMT-nin İraqdakı nümayəndəsi mənə dedi ki, türkmənlərin məzhəb məsələsini kənara qoyaraq, xalq olaraq birləşməsini təqdir edir. Çalışacağıq əldə etdiyimiz bu uğuru qoruyaq. Etnik birliyimizi saxlayıb möhkəmləndirməkdə Türkiyə və İrandan, eləcə də Azərbaycandan kömək istəyirik. Yaxın gələcəkdə İrana səfərimiz olacaq, orada məhz bu məsələni müzakirə edəcəyik. Yeri gəlmişkən, sizdən əvvəl yanıma Kərkükdəki şiə vəqfinin rəhbəri gəlmişdi. Onların da çoxlu problemləri var. Oturub danışdıq, ümumi çətinliklərdən qurtulmaq yollarını müzakirə elədik. O da bizimlə tam razıdır ki, məzhəb bölücülüyünü bir kənara qoyaraq etnik xüsusda birləşmək lazımdır.

– Məncə siz Azərbaycanın təcrübəsindən yararlanmalısınız, – dedim. – Bizdə Qafqaz Müsəlmanları İdarəsi var ki, ona İslam aləmində çox nüfuzlu olan Şeyxülislam rəhbərlik edir. Şeyxülislam şiə olsa da, birinci müavini sünnilərin təmsilçisidir. Dini arenada hər şey beləcə, zərgər dəqiqliyi ilə bölündüyü üçün məzhəb məsələsi də yoxdur...

– Şükür ki, yoxdur, bu, dövlətin inkişafı üçün yaxşı başlanğıcdır, – Hasan bəy sevincini gizlətmədi. –Bizdə də artıq eyni siyasət yürüdülür. Məsələn, Duz Hurmatuda bir şiə bölgəsi var. İŞİD

ora kimyəvi silahdan atəş açmışdı, amma ilk yardıma gedən bizlər olmuşuq. Sünni din adamlarından ibarət heyət yaratdıq, gedib onlarla görüşdülər. Çox razı qaldılar ki, sünnilər köməklərinə ilk çatdılar, təsəlli verdilər və sair. Bizdən sonra da Türkiyə nümayəndələri getdilər ora.

– SSRİ zamanında İraq dövləti və siz türkmənlərlə sovet Azərbaycanı arasında sıx əməkdaşlıq vardı. Özü də bu əlaqələri hər iki tərəfin ədəbiyyatçıları, mədəniyyət xadimləri qururdular. Bu gün isə bunlar yox səviyyəsindədir. Bildiyim qədər hazırda Azərbaycanda 50-dək türkmən tələbə təhsil alır, amma heç bir diaspor fəaliyyəti ilə məşğul deyillər...

– Azərbaycanın xarici ölkələrdə ermənilərə qarşı çox güclü diaspor fəaliyyəti var. Xüsusilə də İngiltərə və Amerika kimi ölkələrdə aparılan genişmiqyaslı işləri alqışlayıram. Bizim də diaspor təşkilatlarına ehtiyacımız var və hesab edirəm bu istiqamətdə ciddi addımlar atmalıyıq, – Hasan Turan dedi.

Beləliklə, bir saatdan çox idi ki, Hasan Turanla çay süfrəsi ətrafında söhbət edirdik. Qapı arxasında xeyli vətəndaşın toplaşdığını hər qapı açılanda açıq eşidirdim. Başadüşüləndir, axı millət vəkili çox vaxt Bağdadda – parlamentdə oturur. Ona görə də Kərkükə gələn kimi, dərdini danışmaq üçün uzaq yolu Bağdada gedə bilməyən seçici-sakinlər kəsdirirdilər qapısını. Ona görə də söhbəti uzatmamaq qərarına gəldim. Qəbula

görə Hasan bəyə təşəkkür edib ayağa qalxdım, son dəfə sağollaşıb otaqdan çıxdım.

Yılmaz bayaqdan avtomobili işə salıb məni gözləyirdi. Amma havanın çox gözəl olduğunu əsas gətirdim, üzrxahlıq edib, Türkməneli Partiyasının ofisinə piyada getmək istədiyimi bildirdim. Əlbəttə, əvvəl etiraz eləsə də, ora qədər ayaqla 7-8 dəqiqəlik yol olduğunu düşünüb razılaşdı. Amma narahatlıq yaranmasın deyə yanımızdakı türkmən gənclərdən birini mənə bələdçi qoşdu.

Küçə boyunca sıralanan evlərin əksəriyyətinin həyətində qəribə bir sitrus meyvəsinin ağacı var, üstü də sarı rəngli meyvələrlə dolu. Bir az limona bənzəyir, amma oval formalıdır. Nə badə dadına baxsan, o qədər turşdur ki... Bilmirəm bu səbəbdəndir, yoxsa başqa bir məqsəd var, meyvələr necə yetişibsə, eləcə də budaqlarda qalır, adamlar dərib yeməyə tələsmirlər. Şəxsən mən Azərbaycanda bu meyvəyə heç təsadüf eləməmişdim. Meyvənin adını yanımdakı gəncdən soruşdum, qəribə bir şey dedi, maşınların səsindən yaxşı eşitmədim, amma ikinci dəfə də soruşmağa utandım. Ona görə də daha heç nə soruşmadım, ətrafı seyr edə-edə Türkməneli Partiyasının iqamətgahına gəldim.

Bu günlük proqramım yekunlaşmışdı, ya istirahət etməliydim, ya da gəzdiyim yerlərdən, görüb-eşitdiklərimdən aldığım təəssüratları netbuka köçürməliydim. Hətta, Kərkükə gəzməyə də çıxa bilərdim – sərf özümdən asılı idi. Odur

ki, mən təəssüratlarımı qələmə almağı seçdim. Partiyanın sakit otaqlarından birində netbukumu yandırıb yazmağa başladım...

***

Dekabr ayı olmasına baxmayaraq, səhər günəşli hava vardı. Bakıda olsaydım bu vaxtlar gödəkçəsiz bayıra çıxmazdım, amma burada hava elə xoş idi ki, heç adi pencək də geyinmək istəmirdim.

Dünəndən Feyha xanım dönə-dönə tapşırmışdı ki, səhər yeməyinə bizi evində gözləyəcək. Yadımdan çıxmaz, iki il öncə gələndə də məni evinə dəvət etmişdi, amma o vaxt müharibənin od-alovlu günləri idi deyə xatırlamadığım səbəbdən gedə bilməmişdim. Ona görə də bu dəfə mütləq getmək lazım idi.

Feyha xanımgilin evini bir az axtarmalı olduq. Əslində evin məscid binasının yaxınlığında olduğunu, hətta küçənin adını da öyrənmişdik. Amma burada evlər bir-birinə çox axşayırdı, həm də görünür Yılmaz bu məhəlləyə o qədər də bələd deyildi deyə, tapa bilmirdik. Yaxşı ki, Feyha xanım küçəyə çıxıb, bizi görüb, əl işarəsi ilə çağırdı...

İraq qadınlarının cəmiyyətin inkişafında hər zaman özünəməxsus yeri olub. Bu gün də elədir: qadınlar fərqli mənsəb sahibləridir, parlamentdə təmsil olunurlar. Amma ümumi göstəricilərə baxmayaraq, türkmən xanımlar ərəb və kürd qadınlardan daha fəal, daha müasirdirlər. Hər hal-

da mən belə gördüm onları. Türkmən qadınlarla dünya siyasətini müzakirə etmək mümkündür, eyni zamanda ailə mədəniyyətləri, qonaqpərvərlikləri, milli dəyərlərə, həyata-gələcəyə baxışları çox üstün idi – onlarda bölgənin digər qadın toplumlarındakı köhnəlik, keçmişdənqalma kimi baxışları görmək mümkün deyil.

Feyha Bayatlını İraqda, Türkiyədə, lap elə bizim Azərbaycanda çoxları tanıyır. Xeyli müddət İraq parlamentinin deputatı olub, qanunların qəbulunda rol oynayıb. Eyni zamanda, Türkmən Qadınlar Dərnəyinin rəhbəri olan bu xanım sözün əsl mənasında, İraqın dəmir ledisi sayıla bilər. Qüruru, davranışı, savadı-elmi, liderlik bacarığı, ən vacibi isə millətçi baxışları ilə seçilən bu xanım türkmən xalqının sərvətidir.

Süfrəyə nələr düzməmişdi Feyha xanım, süddən qaymağa, baldan cürəbəcür şirniyyatlara, zeytundan portağala, yumurta, yağ, pendir, kükü, səhər süfrəsi üçün isti yeməklər... Bir sözlə, süfrədə barmaq basmağa yer qalmamışdı. Amma əlbəttə, mənim səhər menyümdə bir tikə çörək, şirinçay olur həmişə. Ona görə də elə bu bir tikəmi atışdıra-atışdıra Feyha xanımla İraq qadınlarının ictimai həyatdakı rolunu müzakirə etməyə başladıq.

– İstər keçmişdə, istərsə də indi, İraq qadınları hüquqlarının qorunması baxımından ərəb dünyasında irəlidə olub. İraq dövləti insan hüquqlarına dair beynəlxalq sazişlərə imza atıb.

Bizim qadınlara hələ krallıq dövründə seçib-seçilmək hüququ verilib. Nəticəsi də budur ki, az sayda olsalar da, qadınlarımız millət vəkili, nazir və ya nazir müavinləri vəzifəsindədirlər, ötən əsrin ortalarında universitet bitirmiş xanımlarımız var. Qadınlarımız dünyagörüşlü həkimlər, ədəbiyyatçılar, şairlər, rəssamlar, pedaqoqlar, hüquq müdafiəçiləridir. Anayasamız kişilərə nə hüquq veribsə, biz qadınlara da eynisini verib, – Feyha xanım dedi.

– Qanunlar birlik aşılayır, bəs milli mənsubiyyətlər? – incik tərzdə dilləndim. – Siz türkmənlər həmişə fərqli olmusunuz...

– İraqda çox sayda xalq yaşayır – ərəb, türkmən, kürd, assur... Amma sizinlə razıyam: türkmən qadınlar mədəniyyət və təhsil baxımından o biri xalqların qadınlarından daha çox inkişaf ediblər. Türkmən qadınların həyata baxışları fərqlidir, özlərinə fikir verən olurlar, hətta mətbəxdə də başqa xalqlardan fərqlənirlər. Bir baxın: türkmən mətbəxi istər ərəb, istərsə də kürd mətbəxindən daha zəngin, daha çoxçeşidlidir. Bunlar biz qadınların zəhmətinin nəticəsidir.

– Bir dəfə İraq səfirinin ərəb mənşəli xanımı ilə müsahibədə saatyarım söhbət elədim, müasir geyimli o xanım ingilis dili müəlliməsi olsa da, fikirlərində tipik Şərq məişətinə bağlı görünürdü. Amma siz türkmən qadınlar avropalılar kimi, həyatınızı inkişaf etdirməyə daha meyllisiniz, – dedim.

– Şəxsən mən 2005-ci ildə millət vəkili seçilərək beş il ərzində türkmən xalqını parlamentdə təmsil etmişəm. Əlbəttə, millət vəkili olmaq asan deyil, həm seçki prosesində, həm də parlamentdə fəaliyyət göstərərkən böyük fəallıq göstərmək lazımdır. Hətta deyərdim ki, xalqın hüquqlarını qorumaq seçilməkdən daha çətindir. Mən millət vəkili olarkən İraqın indiki anayasasını yazıb qəbul eləmişik. Məhz bu anayasada iraqlıların, o cümlədən biz türkmənlərin təbii haqları təsbit edilib. Bu gün biz türkmənlərin öz dilimizdə təhsil almaq, siyasi təşkilatlanma prosesini, mədəniyyətlərini, ədəbiyyatlarını inkişaf etdirmək hüququ var. Anayasa ilə Türkməneli adlanan bölgədə milli kimliyimiz təsbitlənib. Allaha şükürlər ki, əziyyətimiz hədər getməyib.

– Bu bizi çox sevindirir, – gülümsədim. – Bilirsiniz, bizim ölkədə hamı hesab edir ki, siz türkmənlər Azərbaycan xalqının bir hissəsisiniz. Yəni siz türkmənlər Türkiyə türklərindən biz azərbaycanlılara daha yaxınsınız...

– İraq türkmənlərinin kökü, deyilənlərə görə, Orta asiyadan, Səlcuqlardan, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən, Osmanlı və sairdən gəlir. Yəni bu dövlətlər biz türkmənlərin bir xalq kimi formalaşmasına təsir göstərib, – Feyha xanım dedi. – Hətta bəzi tarixçilər düşünür ki, türkmənlərin ulu əcdadı qədim Şumerlərə yaxın olub. Bütün bunlar mülahizələrdir. Amma həqiqət budur ki, türkmənlərin təkamülündə rol

alan iki böyük tayfa – Bəndər və Yassaflar Azərbaycandan gəliblər. Onlar öncə Kərkük və Duz Hurmatuda məskunlaşıblar, sonradan bütün Türkmənəli bölgəsinə yayılıblar. O da həqiqətdir ki, İraq türkmənlərinin şifahi danışıq dili Azərbaycan türkcəsinə çox yaxındır. Bir müddət əvvəl Azərbaycana getmişdim. Bizim yaxın dostumuz Qəzənfər Paşayevin xanımı ilə tanış oldum. Deyərdim ki, o, bütün Azərbaycan xanımlarının gözəl nümunəsidir – mədəni, qonaqpərvər, ictimai fəaliyyətli və sair. Heç yadımdan çıxmaz, 2003-cü ilin dekabrında Türkiyədə keçirilən Türk Dünyası Qadınlarının Konfransında çox sayda azərbaycanlı xanımlar da iştirak edirdi. Onların hamısı ya dövlət işlərində çalışırdı, ya da ictimai təşkilat rəhbərləri idi.

– Amma razılaşaq ki, Azərbaycan müstəqilliyini uzun müddətdir bərpa etməsinə baxmayaraq, azərbaycanlı və türkmən qadınlar arasında yetərli əlaqələ qurulmayıb. Hətta deyərdim ki, Səddam dönəmində əlaqələrimiz daha geniş idi..

– Türkmən və azərbaycanlı qadınları birləşdirən cəhətlər çoxdur. Ailəyə bağlılıq, övladlarına tərbiyə vermək, mətbəx-məişət işləri, mədəni fəaliyyət sferasındakı işlər və sair baxımından xalqlarımızın qadınları bir-birinə çox bənzərdir. Bax, budur, – əli ilə süfrənin üstünü bəzəyən nemətlərə işarə etdi, – türkmən qadını olaraq mən hazırladım, tam əminəm ki, Azərbaycan qadınlarının da səhər süfrəsində eyni təamlar

olur, – dedi. – Fikrim var ki, imkan düşən kimi Azərbaycana gedərək, bir neçə qadın təşkilatını ziyarət edim. Mənə çox maraqlıdır Azərbaycan qadınlarının işini müşahidə eləmək. İnşallah, qadınlarımız arasında əlaqələr dünyaya örnək olacaq qədər inkişaf edib, genişlənər.

Süfrə başında Yılmaz dedi ki, Riyaz bəyin tapşırığı var, ötən dəfəki səfərim zamanı İŞİD-in işğalında olan Bəşir qəsəbəsinə gedəcəyik. Sonra da hərbi bazalardan birində çox maraqlı görüşümüz olacaq. Düzü çox sevindim. Doğrudan da, 2015-ci ildə Kərkükə səfərim zamanı Bəşir qəsəbəsinin azad edilməsi uğrunda döyüşlər gedirdi. Hətta Amerika qırıcılarının terrorçuların başına yağdırdığı bombalar partlayarkən yaranan titrəmə otel tavanının tozunu oturduğum yerdə başıma ələyirdi. Görünür, bu dəfə qismətimdə varmış oranı görmək. Ona görə də maraqlı keçən qonaqlığımızı bitirib sağollaşdıq. Hətta vidalaşanda Feyha xanım mənə yadigar qalsın deyə suvenir də hədiyyə elədi.

Yılmazın maşını ilə əvvəlcə Türkməneli Partiyasının iqamətgahına gəldik, beş-on dəqiqə orada yubanıb, Bəşir kəndinə yollandıq.

Bu arada, Kərkük ətrafında yerləşən Bəşir kəndi İraqdakı ən iri türkmən yaşayış məntəqələrindən biridir. İŞİD terrorçuları oranı işğal etmədən öncə bütün sakinlər qonşu Qarayataq kəndinin türkmən camaatına qoşulub hara gəldi qaçıb canlarını qurtarmışdılar.

Bəşir kəndi 40 mindən çox əhalisi olan türkmən şəhəri Təzə Hurmatunun ikiaddımlığında yerləşir. Varlı-bərəkətli tarlaların arasında salınmış, amma İŞİD terrorçularının yararsız hala saldığı asfalt yolla şütüyən maşınımız 10 dəqiqədən sonra Bəşir kəndinə çatdı.

Olduqca böyük kənddir, amma nə yazıq ki, evlərin çoxu daş qalağına çevrilib. Kənddə yalnız yaşayış evləri deyil, məscid, bütün sosial təyinatlı tikililər dağıdılıb. Hətta İmam Əlinin məqamı – vaxtilə qaldığı güman edilən ev, qəbiristanlıqdakı başdaşıları belə uçurulub. Amma torpağa bağlı insanlar – Bəşir əhli tədricən geri qayıtmaqdadır. Kimin ki, evi dağıdılmayıb, qayıdıb, qalanlar da min cür çətinlik bahasına ev-eşiklərini bərpa eləməyə çalışırlar. Özü də insanlar tikinti-quruculuq işlərini öz hesablarına görürlər. Çünki Bağdad hökuməti, hələlik, yardım ayırmayıb.

Kəndin mərkəzində yerləşən, İŞİD tərəfindən yandırılmış məktəb binası kosmetik təmir edilib və hazırda müvəqqəti olaraq sinif otaqlarında uşaqlara dərs keçilir. Amma onun lap yanında Türkiyənin Qızıl Aypara Cəmiyyəti tərəfindən yeni məktəb binası tikilməkdədir. Tədricən su və işıq da bərpa edilir. Qısası, altı min əhalisi ola Bəşirdə həyat normal axarına qayıtmaqdadır.

Bəşir kəndini gəzib-dolaşdıq, daş qalağına çevrilmiş evlərin, məscidin, sosial tikililərin şəkillərini çəkdim, məktəbin qarşısında dayanıb, aşağı siniflərdə təhsil alan övladlarının dərsdən

çıxmasını gözləyən sakinlərlə söhbətləşdim. Bu yerlərdə müharibə başa çatsa da, İŞİD-in hücrə taktikasından əndişələnirdi insanlar. Çünki terrorçular evlərdə, yeraltı quyularda-tunellərdə gizlənərək fürsət düşən kimi qan tökməyə çalışırdılar. Amma nə yaxşı ki, ordu, daha çox isə "Haşdi Şabi"nin bölmələri buradaydı, insanlar onlara arxayın olub, pis-yaxşı sosial problemlərinin həlli ilə məşğul idilər.

"Haşdi Şabi"dən söz düşmüşkən, Bəşir kəndini ziyarətdən sonra bu hərbi təşkilatın yüksək rütbəli zabiti ilə görüşə yollandıq. Kərkükdə olarkən zabitlə görüşümüzə dair heç nə deməmişdilər. Görünür sürpriz olsun deyə gizlədiblərmiş.

Bazaya çatınca bir neçə hərbi postdan keçəsi olduq. Komandanlığın əmri vardı deyə, bizi postda yoxlamırdılar, sadəcə avtomobildəkilərin kim olduğunu öyrənmək üçün saxladırdılar, sonra da hörmət-izzətlə buraxırdılar. Beləliklə, açıq yerdə tikilmiş bir qatlı, çox geniş binanın həyətinə gəldik. Çoxlu əliavtomatlı əsgər vardı, kənarda isə üç-dörd "Hummer" markalı zirehli döyüş maşını, bir neçə yanacaq daşıyan, nəqliyyat maşınları sıralanmışdı. Küncdə isə iki BTR zirehli döyüş maşını vardı. Amma düşərgədə qətiyyən təlaş hiss olunmurdu – hərbçilər çox rahat görünürdülər.

– Buyurun gəlin, – yanımıza yaxınlaşan əsgər bizi içəri dəvət etdi.

Yaxşı təmir olunmuş kazarma salonu ilə irəliləyərək sağ tərəfdəki qapının ağzında ayaq sax-

ladıq. Hərbi qaydalara uyğun olaraq, əsgər gəldiyimizi xəbər vermək üçün içəri girdikdə, Yılmaz güclə eşidəcəyim səslə:

– "Haşdi Şabi" daxilində Türkmən Gücləri Komandanlığının qərargahındayıq. Bizi komandir qəbul edəcəkdi, amma o, döyüş bölgəsindədir, ona görə də komandirin müavini Zəki Muradla görüşəcəksən. Türkməndir, əsl türk millətçisidir, canlara dəyən adamdır, – dedi.

Əsgərin işarəsi ilə içəri girdik. Kabinet xeyli böyük idi. Yan divar boyunca oturmaq üçün stullar düzülmüşdü. Lap başda isə komandir müavininin bahalı masası və hündür söykənəcəkli kreslosu qoyulmuşdu. Əlbəttə, divardan da İraqın və "Haşdi Şabi"nin bayraqları asılmışdı.

Qapıdan girən kimi, Zəki bəy zabitlərə xas olmayan tərzdə yerindən qalxıb məni qarşıladı, əl sıxıb, hal-əhval tutdu, oturmaq üçün öz masasının sağında qoyulmuş kreslonu göstərdi. Olduqca mehriban, qonaqpərvər insandır, sanki əzizini görübmüş kimi sevinirdi.

– Görürsünüz, ölkəmizin, xalqımızın rifahı üçün xidmətdəyik, – gülümsəyərək sözünə davam etdi: – İŞİD-in İraq torpaqlarının bir qismində necə, hansı yolla yerləşdiyini siz də bilirsiniz. Onlar ABŞ-ın, İsrailin, "Mason"un yaratdığı terror şəbəkəsidir. Məqsəd də bəllidir: İslam dünyasında terror əsdirərək dövlətləri parçalayıb-zəiflətmək, İsrailin maraqlarına uyğun olaraq Yaxın Şərqdə yeni xəritə cızmaqdır.

Gördünüz, birtərəfli şəkildə Qüdsü İsrailin paytaxtı elan edən ABŞ sonda öz gizli planlarını üzə çıxardı. Ən pisi odur ki, İslama qarşı yaradılan İŞİD-in sıralarını elə müsəlmanlar doldurub. Təşkilatın sıralarında 36 dövlətin vətəndaşları var. Çox təəssüf ki, bu qaniçən terrorçu yığınında iraqlılar da var, azərbaycanlılar da, türklər də, ərəblər də... Ən dəhşətlisi isə budur ki, belinə bomba bağlayıb, özünü partladanların əksəriyyəti fələstinli uşaqlardır. Amma yenə də, Allaha şükürlər olsun ki, öhdəsindən gəldik, ölkəmizin və millətimizin asayişini bərpa edə bildik.

– Terrorla mübarizədə İraq ordusu uğurlar qazandığı halda, "Haşdi Şabi"nin yaranma zərurəti hər kəsi maraqlandırır və hətta təəccübləndirir, – maraqla ona baxdım.

– Bu qanlı mübarizədə çox az dövlət İraqa dəstək verib. Demək olar ki, bütün uğurları xalqımız öz canı-qanı bahasına qazanıb. Allah başımızın üstündən əskik etməsin, ayətullah Seyid Əli Sistani 2014-cü ildə Nəcəfdəki qərargahında İŞİD-ə və onun himayədarlarına qarşı cihad elan etdi. Bundan sonra "Haşdi Şabi"nin formalaşdırılmasına başlanıldı. Məhz onun fətvasından sonra İraqda yeddidən yetmiş yeddiyə hər hər kəs silaha sarılıb, gecə-gündüz, isti-soyuq bilmədən mübarizəyə ruhlandı.

– Kərkükdə eşitdim ki, "Haşdi Şabi"nin uğurlarının bir qismini siz türkmənlər qazanmısınız...

– "Haşdi Şabi"də türkmən gücü böyük təsirə

malikdir, – Zəki bəy sözümü ağzımda qoydu. – 1920-ci ildən bu yana, çox təssüflər, türkmənin dövlətdə heç bir rolu olmayıb və ya buna imkan verilməyib. Türkmənə həmişə istər Bağdadda, istərsə də Şimali İraqda yuxarıdan aşağı baxılıb, onu sıradan etnik qrup olaraq görüblər. Səddamın dövründə ziyalı türkmənlər təqibə məruz qalıb, ya həpsxanalara salınıblar, ya da edam ediliblər. Səddam devriləndə düşündük ki, vəziyyət yaxşılaşacaq. Amma acı həqiqətdir ki, onun yerinə gələn yeni hökumət də türkmənə əvvəlki münasibəti göstərdi. Bizi Türkiyəyə, İrana, nə bilim Azərbaycana işləməkdə günahlandırıb, şübhəylə baxdılar. Nəticədə də İraqı vəhdət olaraq görmədilər, birləşdirə bilmədilər. Bu vəziyyət 2013-cü ilədək davam etdi. Allaha şükür ki, "Haşdi Şabi" təşkil ediləndən sonra, özümüzü bir güc olaraq isbatladığımız üçün vəziyyət yaxşılaşdıb. İlk gündən indiyədək torpaqlarımızın və millətimizin azadlığı uğrunda türkmən gücü olaraq 206 şəhid vermişik, yüzlərlə yaralımız olub. Tək bununla da qurtarmayıb, yüzlərlə türkmən evi yandırılıb İŞİD terrorçuları tərəfindən, məktəblər, xəstəxanalar dağıdılıb, sosial-məişət obyektləri bombalanaraq havaya uçurulub, yollar, əkin sahələri minalanaraq partladılıb və sair. Qəsəbəmizə kimyəvi silahla atəş açdılar, nəticədə üç azyaşlı uşaq şəhid oldu, dörd yüzdən artıq günahsız sakin yaralandı ki, onların arasında uşaqlar, qadınlar, qocalar daha çox idi. Buna baxmayaraq, gördüyünüz bu kiçik

türkmən kəndinin sakinləri ev-eşiklərini qoyub qaçmadılar. Hər kəs ölümün qarşısında qorxmadan, mətanətlə dayandı. Bu bir qaydadır: kimin gücü var, hamı tərəfindən sevilir, hörmət görür. Biz də güc formalaşdırdıqdan sonra gördüyünüz bu qəsəbədən başlayaraq irəlilədik və şöhrətimizi şücaətimiz sayəsində bütün İraqa yaydıq.

– Bayaq bir söz dediniz – İŞİD-in sıralarında azərbaycanlılar da var. Döyüşlərdə onlardan bircəciyinin ölüsü və ya dirisi ilə rastlaşdınızmı? – soruşdum.

– Dirisi və ya ölüsü rastımıza çıxmayıb... – bir anlıq susdu. – Amma, axı İŞİD-in içində öz adamlarımız da vardı, onlar bizə məlumat ötürürdülər ki, burada filan millətlərin nümayəndələri, filan ölkədən gələnlər var və sair, – Zəki bəy sualdan yayınmağa çalışdı. – Təlafər bölgəsində sırf türkmənlər yaşadığı üçün Türkiyə və Azərbaycandan gəlib, İŞİD-ə qoşulanlar məhz o tərəflərdə yerləşmişdilər. Bütün hallarda təəssüflənirik ki, nəyinsə xatirinə İŞİD-ə qoşulub bizə – öz millətinin insanlarına və müsəlmanlara güllə atdılar. Düşünürəm ki, onları faciəvi sonluqla bitən bu yanlış yola çəkənlər var. İradəsi zəif insanlardır, seçib gətiriblər, şirnikləndiriblər, hətta aldadıblar. Bu da sonu. Bayaq dediyim kimi, onlar əsasən Təlafər bölgəsində məskunlaşsalar da, antiterror əməliyyatları başlayan kimi, tutulanların bir hissəsi xüsusi mühafizə altında Bağdada göndərilib, qalan iki yüz ailə isə kürdlər tərəfindən

Kürdüstana aparılıb. Bunların arasında əlbəttə, azərbaycanlılar da vardı.

– Əsir götürdüyünüz İŞİD silahlılarını nə edirdiniz, hara göndərirdiniz?

– Dindirib-danışdırırdıq, sonra da dövlətə təslim edirdik, – dedi. – Hamısı ağlayıb, göz yaşı tökür. Birmənalı şəkildə peşman olduqlarını deyirlər. Hansından soruşuruq, deyir ki, aldadıblar, yalan söyləyiblər, nə bilim, nəsə vəd ediblər və sair. Bağışlanmalarını istəyirlər, amma dövlət özü baxacaq ki, onların fərdi olaraq günahı nədir, cinayətlərinin miqyası nə qədərdir.

– Sirr deyilsə, Türkmən Güclərinin neçə döyüşçüsü var?

– Belə cavab verim: İraqda türkmən əhalinin ümumi sayı üç milyondan çoxdur. "Haşdi Şabi"-nin də ölkə üzrə silahlı qüvvələrinin sayı 150 min nəfərdir ki, bunun da 15 mindən artığı türkmənlərdir. Yəni 10 faizi, – dedi. – Amma təəssüf edirəm ki, 15 mindən artıq türkmən gücü "Haşdi Şabi"də bir komandanlıqda birləşməyib. Onlara istər Mosulda, istər Təlafərdə, istər Bəşirdə, istər Duz Hurmatuda – ölkənin hər yerindəki "Haşdi Şabi" qüvvələrinin tərkibində rast gələ bilərsiniz. Təkcə Mosulda iki minlik türkmən döyüşçü var, ancaq onlar türkmən gücü sayılmır. Yəni bir qismi "Haşdi Şabi"də, bir qismi "Bədr döyüşçüləri" sırasında xidmət edir. Konkret türkmən gücü hesab olunan hissə bizim rəhbərlik etdiyimiz qüvvədir ki, hazırda siz onun baş qərargahındasınız.

Bu qərargah isə Kərkük, Amirli və Duz Hurmatunu əhatə edir. Bu gün komandanlığımızda xidmət keçən türkmən gücü beş minədək döyüşçüdən ibarətdir. Bundan iki dəfə çox sayda türkmən isə, bayaq dediyim kimi, "Haşdi Şabi"nin digər bölgələrdəki bölmələrində xidmətdədir.

– "Haşdi Şabi"yə silah-sursat, maliyyə, texniki yardım hardan gəlir?

– Dövlətdən. Başqa heç kim bizə yardım etmir! – Zəki bəy amiranə tərzdə cavab verdi. – Fransa prezidenti Makron deyir ki, İŞİD-i təslim etmisiniz, daha "Haşdi Şabi" buraxılmalıdır. Amma biz nə özümüz özümüzü buraxmağı düşünürük, nə də ki, dövlət. Hesab edirəm İraqın çox ehtiyacı olacaq bundan sonra bizə. "Haşdi Şabi" silahlı dəstə yox, dövlətə bağlı olan rəsmi silahlı qüvvədir və ölkənin daxili təhlükəsizliyini, ərazi bütövlüyünün keşiyindədir. Deyirsiniz İŞİD məhv edilib, xeyr, sadəcə bu terror yığnağının nəzarətindəki ərazilər geri alınıb, amma ayrı-ayrı İŞİD terrorçuları hələ də var. Onlar müxtəlif yerlərdə gizlənirlər, qəfil haradasa terror aktı törədirlər. Ona görə də hesab edirəm ki, İraq və onun ordusu var olduqca «Haşdi Şabi» də olacaq. Çünki bu gün İraqın dövlət ordusu ilə "Haşdi Şabi" bir-birindən ayrılmayan vəhdətə çevriliblər. Qısası, bizi yalnız mənəvi rəhbərimiz olan Əli Sistani buraxa bilər.

– Dünən biz gələndə Bağdad-Kərkük yolunda neft daşıyan iki tanker-maşının yandırıldığını

gördüm. Dedilər İŞİD terrorçuları gecə saatında hücum edib, yandırıblar. Bu vəziyyətə kim nəzarət etməlidir: polis, ordu, yoxsa siz? – gözlərimi ona dikdim.

– Yox, niyə ki, əlbəttə bizim, – Zəki bəy kreslosunda qurdalandı. – Dünən hadisə baş vermişdi, döyüşçülər göndərdik, bir İŞİD terrorçusunu da gətirmişdilər. Bundan əvvəl də səkkizini ölü ələ keçirmişdik.

– Amma o da ola bilər ki, İŞİD yox, PKK terrorçuları eyni cür terror hücumları həyata keçirsin...

– Məsud Bərzaninin yanlış siyasəti kürdlər arasında radikallığı gücləndirib. Amma deməzdim ki, onlar hamısı eyni cür düşünür, dörd-beş hissəyə parçalanıblar. Təəssüf ki, çoxluq Bərzaninin tərəfində dayandı. Hansı ki, onlar bu gün İŞİD-lə əməkdaşlıq edirlər. ABŞ və İsrail İŞİD-i dəstəkləməkdən vaz keçdilər, ona görə də pərən-pərən düşən terrorçular Kürdüstana qaçaraq peşmərgənin nəzarətinə sığınıblar. Bizdəki məlumata görə, onların sayı beş mindən çoxdur. Bunlar da əsasən əslən iraqlı olan İŞİD-çilərdir. Onlar Bərzaninin qarşısında qul kimi, nə deyilsə yerinə yetirəcək vəziyyətdədirlər. Bu gün Kərkükdə, başqa yerlərdə terror törətmək üçün kürdlər məhz həmin İŞİD-çilərdən istifadə eləməkdədir, – Zəki bəy təəssüfləndi.

Deyəsən hərbi düşərgədə nahar fasiləsi idi. Özüm əsgər olmuşdum, bilirdim ki, hərbidə hər şeyin öz dəqiq vaxtı olur. Zəki bəy məni yanına

alıb otaqdan çıxdı. Kazarmanın içini gəzdik. Bir neçə otağı göstərdi. Biri əsgərlərin yataq otağıydı. Hətta 5-6 əsgər yatmışdı. Zəki bəy dedi ki, gecə növbədə olublar, ona görə yatırlar. Başqa otağa keçdik, deşəməyə xalçalar sərilmişdi. Bura ibadət guşəsiydi, günorta namazı qılmaq üçün 10-dək hərbçi dəstəmazını alıb namaza oturmuşdu. Sonda böyük zala gəldik – bura yeməkxana idi. Oturan kimi yemək gəldi – əsgər yeməyi idi. Bu yeməkdən o qədər yemişdim ki, bir illik əsgərlik dönəmində.

Nahardan sonra Zəki bəylə sağollaşıb Kərkükə qayıtdıq. Axşama yaxın çatdığımız üçün birbaşa şəhər restoranlarından birinə gəlib şam yeməyini yedik. Sonra isə həmişəki kimi, Türkməneli Partiyasının iqamətgahına gəlib, dostlarla birlikdə çay içə-içə söhbətləşməyə başladım.

Daha bir sürprizlə rastlaşdım. Söhbət zamanı Yılmaz dedi ki, axşam “Al Turkmania” TV-yə dəvətliyəm. Sən demə canlı yayımlanan “Qırmızı masa” proqramında bir saat ərzində İraqa, xüsusilə Kərkükə səfərim, burada gördüklərimlə bağlı diskussiyada iştirak edəcəkdim. Əlbəttə, bu maraqlı sürpriz məni ürəkdən sevindirdi. Axşam deyildiyi kimi, proqrama qatıldım, canlı bağlantıya qoşulan insanların suallarını cavabladım, iki il əvvəl və bu gün gördüyüm İraqdakı vəziyyəti müqayisəli şəkildə anlatdım. Beləliklə, səfərimin son gününü bu cür xoş anlarla başa vurub, Yılmazla birlikdə evə qayıtdım...

***

Səhəri gün Kərkükdən ayılacaqdım. Bəlkə də bundan sonra heç vaxt qapısından addım ata bilməyəcəkdim İraqa. Ona görə də bir az kefsiz idim. Hətta Kərkük Universitetinin müəllimi, Türkməneli Partiyası qadın təşkilatının fəallarından olan Məlahət Kassabın israrlı dəvəti ilə sonuncu səhər yeməyi üçün onlara gedəndə də fikirlərim dağınıq idi. Düzdür, Məlahət Kassab İraqda gördüyüm ən zarafatcıl, qonaqpərvərliyi ilə yanaşı, olduqca müasir düşüncəli, deyib-gülən bir xanım olduğu üçün onlarda olduğum bir saat ərzində özümü qayğısız hiss edirdim. Amma bu müvəqqətiydi...

Günortaüstü Yılmaz məni Kərkükün yeni məhəllələrindən birində yerləşən bir ünvana gətirdi. Ağ rəngli avtomobil gözləyirdi. Məlum oldu ki, ilk dəfə gördüyüm bu maşın məni axşamadək Bağdada çatdıracaq, gecələmək üçün otelə də yerləşdirəcək və sair. Nə etmək olar, türk millətinin mənəvi qalası olan Kərkükdən beləcə ayrıldım. Təxminən beş-altı saatlıq yorucu yolla, hərbi-polis postlarını bir-bir arxada qoyaraq ərəb dünyasının Qahirədən sonra ikinci ən böyük şəhəri olan qədim Bağdada istiqamət aldıq...

...Bağdada çatanda artıq hava qaralmışdı. Nəhəng şəhərin geniş küçələrində o qədər maşın vardı ki, içində oturduğum avtomobil sanki irəliləmirdi. Təxminən bir saat tıxacdan qurtulmaq üçün səbr etdik. Nəhayət, maşınlar tədricən

sürət yığdıqları üçün, deyəsən yol seyrəlməyə başlamışdı.

Adını bilmədiyim enli küçədə o qədər zir-zibil vardı ki, mənim kimi nabələdləri heyrətləndirirdi. Sürücü dedi ki, bu küçə boyunca sübh tezdən başlayan alver hava qaralanda bitir. Yəni alver indilərdə başa çatıb, gecə boyunca təmizlənəcək buralar. Amma sabah gün ərzində tökülən zir-zibil axşama yenidən bu mənzərəni yaradacaq.

Xeyli irəlilədikdən sonra sürücü maşını küçənin sol kənarına verib saxladı. "Çatdıq" deyib, cavab gözləmədən endi, yük yerindən təkərli çemodanımı götürüb binaya girdi.

"Hotel Diwan"a gəlmişdik. Dördulduzlu mehmanxanadır, şəhərin mərkəzində, vaxtilə Səddam Hüseynin nəhəng heykəlinin ucaldığı meydanın lap yaxınlığındadır. Elə buna görəydi ki, fasadında təmirə ehtiyac duyulan, keçmiş dəbdə təhciz edilmiş, şərq memarlığında tikilmiş, gecəsi adambaşına 50 dollar edən otelin bütün otaqları doluydu.

Sürücü yaxınlaşıb online qaydada sifariş olunmuş otağın açarını alıb mənə verdi, tapşırdı ki, ikinci qatda yerləşən otağıma qalxıb çantamı qoyum, sonra da aşağı düşüm, gedəsi yerimiz var.

Dediyi kimi də etdim. Sən demə mən hələ Kərkükdə olarkən Riyaz bəy Bağdadda mənim üçün otel otağı kirayələyib. Təkcə taksinin yolxərcini ödəməyib, hətta sürücüyə axşam məni Bağdadda gəzdirməyi, şam yeməyi almağı da tapşırıb və

bütün bunlar üçün müəyyən ödəniş də edilib.

Bağdadın gecələri gündüzündən daha gözəlmiş. Gündüzlər qaynayıb-qarışan, səs-küydən ağız deyəni qulaq eşitməyən şəhərin küçələri gecələr boş və səssiz idi. Sürücü məni bir sıra yerlərə apardı: Türkiyə şirkətlərindən birinin tikdiyi, alt qatlarında ticarət mərkəzi, yuxarı qatlarında isə əyləncə mərkəzləri, kafe və restoranlar, ofislər yerləşən, Bağdadın ən hündür göydələnini, Bağdadın qədim və izdihamlı, gecələr al-əlvan işıqlarla bərq vuran məscidlərini göstərdi. Daha sonra səfirliklərin, dövlət və hökumət binalarının yerləşdiyi "Yaşıl zona"nın yanından sürdü, Dəclə çayının üstündəki hündür körpüdən keçdi... Bir sözlə, axşam saatlarında Bağdadın görməli yerlərinin az bir qismini də olsa beləcə seyr etdik. Sonra isə hündür binaların arealından ayrılaraq əksəriyyəti iki və üç, bəzən dörd qatlı villaların yerləşdiyi bölgəyə gəldik. Sürücü dedi ki, bu bölgədə ancaq zənginlər yaşayır. Ona görə də burada nə avtomobillərin nəriltisini duymaq olar, nə də küçə ticarəti ilə məşğul olanların səs-küyünü.

Yolkənarı balıq evlərindən birinə yaxınlaşdıq. Sürücü sifarişini verdi, sonra da mənə bildirdi ki, yarım saatlıq vaxt var, bu müddətdə istəsəm yolun kənarıyla sıralanan dükanlara baş çəkə bilərəm. Mən də elə himə bəndəmmiş kimi özümü verdim dükanlara, Azərbaycana gətirmək üçün İraq istehsalı olan bəzi şeylər alıb ma-

şına qoydum. Bundan sonra, elə küçənin kənarında – açıq havadaca açılmış masada əyləşərək, Dəclə çayından tutulmuş, bütöv formada, izqara şəklində közdə kabablanmış kiloyarımlıq sazan balığını didişdirməyə başladıq...

***

Artıq Bakıdaydım. İraq şəhərləri ilə müqayisədə xeyli soyuq, şaxtalı və nəfəs kəsən küləklər əsən Bakının küçələri nə qədər doğma olsa da, Kərkükdə qoyub gəldiyim insanlar üçün yamanca darıxırdım. Nə yaxşı ki, masanın üstündəki, Kərkükdən aldığım Babil zadəganına aid atarabasının, dünyalarca məşhur "Min bir gecə" nağıllarının ağıllı obrazı olan Şəhrizadın taxtında uzanan hökmdar Şəhriyarla söhbət etdiyini göstərən suvenirlər vardı, onlara baxıb bir az sakitləşirdim.

İraqdan gəlsəm də, ordakı dostlarımla teztez əlaqə saxlayırdım. Kərkükdə, Ərbildə – bütün Türkmənelidə təzə nə baş versəydi, əlüstü mənə xəbər verərdilər, mən də mətbuatda yayımlayaraq Azərbaycan ictimaiyyətinə çatdırardım. Xüsusilə də, Yılmazla mütəmadi əlaqə saxlayırdım. Belə demək mümkündürsə, Yılmaz əlim çatmayan İraqda məlumat mənbəyim idi. Vətənini, torpağını çox sevən insandır, türk millətçisidir, amma heç vaxt millətçiliyi radikallıqla qarışdırmır. Əksinə, hamının ağıllı-başlı millətçi olmasını, atdığı addımları, gördüyü işləri ağılla,

düşünərək etməsinin tərəfdarı idi. Ona görə də, Yılmazdan nəyinsə haqqında soruşanda rahat olurdum, bilirdim ki, dediklərini şişirtmir, nə varsa onu deyir.

***

Aradan üç ay ötmüşdü. Ata yurdumda – Göyçay rayonundaydım. Böyük şəhərin səs-küyündən uzaqlaşdığım üçün telefondan, internetdən bir az kənar saxlayırdım özümü. Demək olar ki, iki gündə bir dəfə internetə girirdim. Bir səhər internetə girəndə gördüm ki, Yılmaz mənə yazıb. Hətta messencer və votcap üzərindən dəfələrlə zəng də vurub. Danışa bilmədiyini görüb ismarıc buraxmışdı – Riyaz bəy Bakıdadır, qaldığı ünvanı və Azərbaycanda işlətdiyi telefon nömrəsini də qeyd eləmişdi. Odur ki, istirahətimi dayandırıb təcili paytaxta qayıtdım.

Riyaz bəy Bakının "Ayna Sultanova" adlanan məhşur bölgəsindəki otellərdən birində qalırdı. Axşamdan redaktoruma işə çıxmayacağımı, İraqdan mötəbər qonağımız gəldiyini deyib icazə almışdım. Ona görə də səhər tanınmış jurnalist dostlarımdan olan Cavid Şahverdiyevi də yanıma alıb birbaşa həmin otelə getdim.

Riyaz bəylə görüşüb, xoş gəlmisiniz dedim, hal-əhval tutub, Kərkükdəki dostlarımı soruşdum.

– Əlhəmdülillah, hamısı əladır, Kərkükdə vəziyyət gündən-günə daha da yaxşılaşır, insan-

ların həyati təhlükəsizliyi daha da güvənli olur, – dedi Riyaz bəy. – Amma burada qalmayaq, ayaqüstü söhbət etməyəcəyik ki! İkinci qatda söhbətləşmək üçün əla yer var – restorandır. Çay içə-içə vaxt keçirərik.

Jurnalist kimi, hansısa tədbirdə iştirak etmək məqsədilə Bakının bir çox otelində olmuşdum. Amma bura ilk dəfə gəlirdim – heç yerini belə bilmirdim. Günlük qiyməti o qədər aşağı olmasa da, kiçik, sakit yer idi. Özümüzə yer edib oturduq.

Hə, Riyaz bəyin yanında Yahya adlı gənc oğlan da vardı. Onunla Kərkükdə tanış olmuşdum, hətta Kərkük qalasına gedərkən məni müşayiət edənlərdən biri də o idi. O vaxt Yahya Türkməneli Partiyasının Azərbaycanla iş üzrə məsulu idi...

Çay gətirdilər, Azərbaycan süfrəsinin bəzəyi olan mürəbbələr də yanında. Ordan-burdan xeyli söhbət etdik, İraq türkmənlərinin gələcəyindən söz açdıq. Burada – Azərbaycanda hər kəsin İraq türkmənlərini, xüsusilə də kərküklüləri öz xalqımızın bir hissəsi hesab etdiyini dedim.

– Uşaqlıq illərimizi Kərkük mahnılarının sədası altında keçirib, böyümüşük. Tarix, ədəbiyyat kitablarından Kərkükün qədim Azərbaycan-türk qalası olduğunu, orada öz soydaşlarımızın yaşadığını öyrənirik. Baxın, indicə küçəyə çıxıb, – əlimi qeyri-ixtiyari pəncərəyə uzatdım – rastgələ insanlardan Kərkükü soruşsanız, hamı mütləq bu şəhər haqda nəsə danışacaq, – dedim.

– Bu sevgi qarşılıqlıdır, – Riyaz bəyin sifə-

tində razılıq əlaməti olaraq təbəssüm parladı. – Azərbaycanın da İraq türkmənlərinin ürəyində özünəməxsus yeri var. Çünki azərbaycanlılarla türkmənlər eyni dildə danışır, eyni mədəniyyəti-məişəti bölüşür. Bizim Özbəkistan və Türkmənistanla mədəniyyətimizdə müəyyən fərqlər ola bilər, amma bunu Azərbaycan üçün demək olmaz. Elə bu səbəbdən də biz türkmən xalqı olaraq, özümüzü Azərbaycanın bir parçası sayırıq.

– Azərbaycan aşağı-yuxarı otuz ildir müstəqildir, qapılarımız bütün xalqların üzünə açıqdır, o cümlədən siz türkmənlərin də. Amma niyə bu vaxtadək gəlmədiniz?.. – təəccüblə soruşdum.

– Onu düz deyirsiniz – haqqınız var, – hər zaman təvazökar olan Riyaz bəy gözlərini masaya dikdi.

Armudu stəkandakı yarımçıq qalmış çayından bir qurtum alıb sözünə davam etdi:

– Səddam Hüseynin vaxtında imkan tapa bilmirdik. Çünki türkmən xalqı onun hakimiyyətinə qarşı müxalif mövqe sərgiləyərdi. Türkmənlər tez-tez toplantılar keçirib, onun siyasətini müzakirə edirdi. Bu səbəbdən də bizlərə ölkədən çıxmağa qadağalar qoyulurdu. Sonra da, bildiyiniz kimi, Amerikanın İraqda və xüsusilə türkmənlərə qarşı mövqeyi, İŞİD-in, kürd partiyalarının bizə münasibəti sərt olub, yolumuzda maneələr yaradıb. Amma şükürlər olsun, nəhayət ki, Bakını görmək fürsəti yarandı. Öz millətimlə görüşdüyüm üçün olduqca məmnunam. İnsanlarla

söhbət elədim, hamıdan sevgi, hörmət gördüm. Bakıda ilk dəfə görüşdüyüm adamlar elə bil otuz ildir məni tanıyırlarmış kimi davranırdılar. Gördüm ki, buradakı insanlarla biz türkmənlərin düşüncəsi təxminən eynidir. Ən əsası odur ki, həm türkmənlər, həm də azərbaycanlılar özlərini türk millətinin bir parçası hesab edir, hər ikisi Türkiyəyə sevgiylə yanaşır. Hər iki xalq zorakılığa, ədavətə qarşıdır, istənilən problemin sülh yoluyla həllinə çalışır, öz şanlı tarixini unutmur, keçmişinə dönüşü dəstəkləyir. Azərbaycan son bir neçə onillər ərzində xeyli əziyyət çəkib, müharibə yaşayıb, sosial sıxıntısı olub, amma bütün bunların qarşısında onların daxili şuxluqları, insanlara sevgisi, mərhəmət hissi dəyişməyib. İraqda isə Səddam dönəmində ölkə daxilində sərt siyasət yürüdülüb, daha sonra xalq İranla, Küveytlə müharibəyə sürüklənib, məlum terrorlar törədilib... Ona görə də bütün bunlar insanların bir-birilərinə münasibətində müəyyən sərtləşmə yaradıb. Şükür ki, bu cür hallar Azərbaycanda yoxdur və buna görə şadam. İraqdan fərqli olaraq Azərbaycanda sənətə, musiqiyə, milli mədəniyyətin inkişafına çox böyük yer verilir ki, bu da Azərbaycan dövlətinin və xalqının uğurudur. Əlbəttə, müəyyən problemlər də var, nə olsun, problemlər Avropada da var, Amerikada da, hər yerdə var – bunsuz inkişaf olmaz. Amma bu çətinlikləri sırf siyasi yolla, hökumət daxilində həll etmək qərarı alan Azərbaycanın

seçimi ən doğru yoldur. Tam əminəm ki, Azərbaycanın gələcəyi çox parlaq olacaq.

– Əlbəttə, xalqla hökumət arasında əməkdaşlıq olmalıdır, anlaşılmazlıq yarananda masada danışıb həll edilməlidir. Bizim Azərbaycanda hüquqi dövlət qurulub, siyasətimiz budur. Bizdə xalqla hakimiyyət bütün hallarda vəhdətdir, – dedim. – Yoxsa ki, Bakını belə gözəl görə bilməzdiniz.., – başımı aşağı salıb susdum.

– Tamamilə doğru deyirsiniz, Bakı Bağdaddan, hətta Ankaradan da yaxşı inkişaf edib. Şəhər çox təmizdir, yaşıllıqları, hündür göydələnləri, park və bulvarı ilə heyran etdi məni. Belə deyərdim: Bakının timsalında ən inkişaf etmiş Avropa şəhərini gördüm və bu məni qürurlandırdı. Müqayisə üçün deyim ki, Bakı Ankaradan daha çox inkişaf edib. Azərbaycan xalqı oxumağa, yenilikləri mənimsəməyə çox həvəslidir. Düzdür, bəzən dünyanın fərqli mədəniyyətlərindən mənfi təsirə də məruz qalmaq olar, amma əminəm ki, Azərbaycan xalqı onları böyük məharətlə özünə yaxın buraxmayacaq. Mən Azərbaycan xalqına cəmiyyətin əsasını təşkil edən ailə bağlarının möhkəm olmasını arzu edirəm. Bizim İraqda evlənən hər üç cütlükdən biri müəyyən vaxt sonra ayrılır. Çox istərdim xalqınız bu kimi mənfi halları ailə mədəniyyətinə yaxın buraxmasın. Azərbaycan insanları hansı millət dostudur, hansı düşməni, yaxşı bilir. Azərbaycanlılar bu gün təkcə Azərbaycanda deyil, Gürcüstanda, Türkiyə-

də, İraqda yaşayır, İran əhalisinin böyük hissəsi azərbaycanlılardır və onların hamısı bilir ki, torpaqlarına göz dikənlər çoxdur. Amma gələcəkdə daha böyük Azərbaycanın qurulması arzusu insanlara ümid verməkdədir, – Riyaz bəy dedi.

– Şükürlər olsun ki, türkdilli ölkələr, Ərəb liqası kimi, öz birliklərini qurur. Amma əlbəttə, ərəblərdən fərqli olaraq, türk dövlətləri sözün əsl mənasında milli ailə olacaq, – dedim.

– Mən bunu həmişə demişəm ki, türk dövlətləri öz sərhədlərini və bayraqlarını saxlamaqla mütləq Türk Dövlətləri Birliyini yaratmalıdır, – Riyaz bəy amiranə səslə dilləndi. – Necə ki, Avropanın çox sayda ölkəsi Avropa İttifaqını təsis edib. Bu birlik daxilində insanların sərbəst hərəkəti təmin ediləcək. Yəni özbəkistanlı Azərbaycana, azərbaycanlı Qazaxıstana sərbəst gedib-gələ biləcək və sair. Əlbəttə, bu bizim arzumuzdur. İllərlə türk ölkələri arasında divarlar hördülər, eyni millətin övladlarını bir-birinə yadlaşdırdılar. Bu gün Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda siyasətçilər bir-birilərini rusca danışmaqla anlaya bilirlər. Bu səbəbdən də mütləq ortaq ünsiyyət dili tapılmalıdır. Necə ki, bunu ərəb ölkələri edir. Məsələn, İraq ərəbləri ilə Tunis ərəbləri eyni millət olsalar da, bir-birilərini anlamayacaq dərəcədə fərqli şivədə danışırlar. Ona görə də bu gün ərəb dünyasının siyasətçiləri ortaq anlaşma vasitəsi kimi Quran ağzı ilə danışırlar. Bu, ərəb dünyasını birləşdirən

başlıca ünsiyyət formasıdır. Hesab edirəm ki, türk ziyalılar toplaşıb türkdilli ölkələrin xalqları arasında ortaq ünsiyyət formasını tapmalıdırlar. Türk ölkələrinin gözəl təbiəti, inkişaf etmiş iqtisadiyyatı, savadlı, işgüzar və nəcib insanları var. Allah türk ölkələrinə lazım olan bütün zənginlikləri verib.

– Hə, doğrudan da, Azərbaycana axışan ərəb turistlərin sayı ildən-ilə artır. Özləri də etiraf edirlər ki, belə əsrarəngiz gözəllik, cənnətə bənzəyən yaşıl təbiət onlarda yoxdur, – gülümsədim. – Elə iraqlılar da az deyil Azərbaycanda...

– Bilirsiniz, ərəb ölkələrinin çoxu İraqa qapılarını bağlayıb. Suriyada müharibə gedir, Misirə yollar bağlıdır, İordaniya sərhəd qapılarından keçid qaydalarını sərtləşdirib və sair. O səbəbdən də iraqlıların çıxışı şimala – Türkiyə və Azərbaycanadır. Bunlar sevindiricidir, amma viza məsələsi əlaqələri çətinləşdirir, istərdim ölkələrimiz arasında viza sistemi olmasın.

– Biz də çox istəyərdik viza sistemi ləğv olunsun, amma bu səlahiyyət əlimizdə deyil, yəqin ki, ölkələrimizin rəhbərləri danışıb yoluna qoyacaqlar, – dedim. – Əsas odur ki, sizin kimi əziz insanların Bakıya gəlməsinə heç bir viza əngəl ola bilmir.

– Hə, əlbəttə, – gülümsədi. –Bu gün Azərbaycanın adı hər bir türkmənin dilinin əzbəridir. Hətta siyasi müstəvidə də, İraqdakı bütün türkmən partiyaları çox istəyirlər Azərbaycandakı qardaş partiyalarla əməkdaşlıq eləsinlər. Bizim

də Azərbaycana səfərimiz zamanı Liberal-Demokrat Partiyasının sədri Fuad Əliyevlə görüşmək imkanımız oldu. Çox məhsuldar keçdi görüşümüz, iki partiya arasında əməkdaşlıq barədə müqavilə imzaladıq. Bundan sonra çalışacağıq ki, iki partiya bir-birinin təcrübəsindən faydalansın, məlumat mübadiləsi eləsin və sair. Hesab edirəm, partiyalarımız arasındakı əməkdaşlıq hər iki ölkənin və xalqın mənafeyinə tam uyğundur. Burada olduğumuz müddətdə əlavə olaraq Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, millət vəkili Qüdrət Həsənquliyevlə və sair görüşlərimiz oldu ki, hər biri çox faydalı keçdi. Onu da deyim ki, görüşdüyüm partiyalarda gənclik qollarının üzvlərini görüb, sevindim. Bilirsiniz, pulu-parası olan, zəngin ölkələr deyil, yaxşı siyasət yürüdən ölkələr uğur qazanır həmişə. Məsələn, bəzi körfəz ölkələri çox varlıdırlar, amma düzgün siyasət yürüdə bilmədikləri üçün Avropa dövlətləri tərəfindən istismar olunurlar. Partiyalar tətbiqi siyasətin mərkəzidir, necə siyasət yürütməyi məhz onlar öyrədir. Yetər ki, onlar ölkənin milli maraqları məsələsində birgə olsunlar. İnşallah, gələcəkdə İraqda mövcud olan altı türkmən partiyasının nümayəndələri də Bakıya gələrək, əməkdaşlıq edərlər.

– İşə baxın, ömrünüzdə ilk dəfə Azərbaycana gəlin, o da milli matəm vaxtına təsadüf eləsin, –

təəssüflə başımı yellədim. – Xocalı soyqırımın ildönümüdür...

– Allah həlak olanların hamısına rəhmət eləsin, yaxınlarına da səbr versin. Azərbaycanın dərdi İraq türkmənlərinin də dərdidir. Biz ötən il Kərkükdə Xocalı soyqırımın anım günü xüsusi tədbirlər keçirdik. Sizli-bizli yaxşı bilirik ki, torpaqlarımıza göz dikənlər çoxdur. Xüsusilə də bu tamah ermənilərdə və onları müdafiə edənlərdə daha güclüdür. Əlbəttə, ermənilərin ağlı olsa işğal etdikləri torpaqları azad edər, azərbaycanlı qardaşlarımızla eyni coğrafiyada sülh, əmin-amanlıq içində yaşayıb, inkişaf edə bilərlər. Onlar bilməlidirlər ki, 150 il əvvəl bu bölgədə çox az sayda olublar, amma sonradan rusların himayəsində özlərinə dövlət qurublar. Bu uzun müddət davam edə bilməz. Nə vaxtsa ermənilər Azərbaycan torpaqlarından çıxmalıdırlar. Şəhidlər Xiyabanına getdim, vətən uğrunda canından keçmiş şəhidlərimizin ruhuna fatihə oxudum. Allah hamısına rəhmət eləsin. Şəxsən mən onların qanlı, amma şərəfli tarixi ilə efirdə yayımlanan filmlərdən tanış olmuşam. Bu günlərdə isə Bakının ən yüksək yerində salınmış xiyabanda bu hisləri yaşadım. Allah bir də xalqımıza şəhid vermək talehini yaşatmasın.

– Amin, – deyib susdum.

Qəribəydi, hardan söz salırdıq, mütləq gəlib qəmli hadisələrə calanırdı. İlahi, millətimizin nə çox dərdi var, azərbaycanlısı, türkməni, türkü,

qazaxı – adı nə olur olsun, bütöv türk millətinin saysız-hesabsız unutmayacağı dərdləri varmış...

Hə, İraq türkmənləri də öz dərdlərini yüngülləşdirmək üçün iki ay sonra keçiriləcək parlament seçkilərinə ümid bəsləyirdilər. Az deyil, 3-4 milyonluq xalq öz hüquqlarını əldə etmək, dövlətin idarəetmə sisteminə daxil olmaq istəyir.

Qəmli notlardan qurtulmaq üçün söhbəti seçki məsələsinə yönəltdim.

– Seçki mədəniyyəti İraqa Səddam Hüseyn devriləndən sonra gəldiyi üçün hələ tam oturuşmayıb. İraqda partiyaların fəaliyyətində problemlər var – onlar birrənglidir, – Riyaz bəy dedi. – Bu gün İraqda partiyalar sadəcə şiədir, sünnidir, kürddür, türkməndir və sair. Bu da ölkənin demokratik infrastrukturunu zədələyir. Səddam vaxtı olmayan demokratiyanı, o, devriləndən sonra qazanacağımıza ümid edirdik. Amma təəssüf ki, Səddamdan sonrakı 15 il ərzində problemlər azalmaqdansa, daha da artıb. Bu səbəbdən də seçkidən gözləntilər ölkə miqyasında zəifdir. Amma bunlar biz türkmənlərin baxışlarında fərqlidir. Niyə, ona görə ki, milli haqlarımız da var. Yəni həm parlamentdə kürsü qazanmaq, həm də dolayısıyla milli haqlarımızı əldə etmək baxımından bu seçki türkmənlər üçün həyati əhəmiyyətlidir.

– Əlbəttə ki, köhnə parlamentiniz vaxtını başa vurur, orada neçə türkmən millət vəkili vardı?

– Türkmən millət vəkillərinin sayı 10-dur,

amma düşünürəm bu dəfə sayı 15-ə qaldırmaq olar, – Riyaz bəy nikbin tərzdə cavab verdi. Əslində bu da azdır, hədəfimiz türkmən millət vəkillərinin sayını 40-a qaldırmaqdır. Çünki Türkməneli bölgəsinin əsas xalqı türkmənlərdir. Bu gün İraq parlamentində 360 millət vəkili var. Əhalinin sayına görə bölsək, türkmənlərin 40 millət vəkili ilə təmsil olunması normaldır. Ancaq seçki ərəfəsi olsa da, problemlərimiz var. İŞİD təhlükəsindən canlarını götürüb qaçan türkmənlər İraqın hər tərəfinə yayılıblar. Hətta bir neçə yüz min türkmən Türkiyədə məskunlaşıb. Onların daha əvvəldən evlərinə qaytarılması lazım idi, hansı ki, bu baş vermədi. Ona görə də türkmənlərin seçkidə iştirak faizi çox aşağı olacaq.

– Hə, o da başqa problemdir, İraqın hansı guşəsinə gedirsən, mütləq türkməni görürsən, – səsimi qaldırdım. – Daha fikirləşmirlər ki, bu cür səpələnmək millətin ziyanınadır...

– Əslində onlar məcburən ölkənin hər yerinə səpələniblər. Harada başlarını soxmağa koma tapıblar, orada da məskunlaşıblar. İndi də geriqayıdışları çox zəif gedir. Cəmi üçdən bir hissəsi öz ev-eşiklərinə geri dönə bilib. Çünki çox evlər dağıdılıb, məktəb, iş yeri yox, bütün infrastruktur sıradan çıxıb, enerji, içməli su təminatı yox dərəcəsindədir, polis idarələri fəaliyyətini bərpa etmədiyi üçün təhlükəsizliyə təminat verilmir və sair. Biz deyirik ki, seçkiyədək qaçqınların üçdən ikisinin evlərinə dönməsi bəsdir, amma

cəmi üçdən biri qayıdıb. Bu da bizi çox narahat edir, seçkinin nəticələrini ərəb və kürdlərin xeyrinə dəyişəcəyindən ehtiyyatlanırıq.

***

Riyaz bəy bir həftəlik səfərini başa vurub İraqa qayıtmışdı. Bilirdim ki, orada vəziyyət Bakıdakı kimi yaxşı deyil, mütəmadi olaraq türkmənləri hədəf alan silahlı hücumlar edilir, insanlar həlak olur. Bu, Kərkükün, Türkmənelinin tale yazısıdır.

Kərkükdə siyasi həyat həmişə gərgin olub. Yadımdadır, 2011-ci ilin oktyabrında Türkmən Cəbhəsinin Kərkükdə yerləşən binasına bombalı hücum olmuşdu. Düzdür, xoşbəxtlikdən ölən və yaralanan olmamışdı, amma binaya çox böyük maddi ziyan dəymişdi. O vaxt bu hadisənin arxasında birmənalı şəkildə kürd separatçı qrupları dayanırdı. Çünki Səddam Hüseyn devriləndən sonra Amerikanın dəstəyini hiss edərək, Kərkükü kürd şəhərinə çevirməyə çalışırdılar. Bu niyyətə çatmaq üçün isə türkmənləri hədəf almışdılar.

Yadımdadır, 2017-ci il aprelin 15-də eyni hadisə Türkməneli Partiyasının Kərkükün Leylan nahiyəsinə bağlı olan Yahyava kəndində yerləşən ofisinə qarşı törədilmişdi. Binaya od vurub yandırmışdılar. O vaxt hər nə olsa İŞİD-in üstünə atsalar da, əslində sırf türkmənləri hədəf alan bu hadisənin məhz PKK və ona dəstək verən separatçı cinayətkar qruplar tərəfindən törədil-

diyi aşkar idi. Çünki Kərkükün hər yerində Kürdüstan muxtariyyətinin bayrağını asan kürdlər, şəhəri birdəfəlik kürdləşdirmək yolunda türkmənləri yeganə əngəl hesab edirdilər.

Hadisədən dərhal sonra türkmən siyasətçilər İraq hökumətindən təhlükəsizliklərini qorumaq üçün kömək istədilər. Əslində türkmənlərin həyatına böyük təhlükə olduğunu Bağdadda hər kəs bilirdi, amma bu qürurlu türk millətinə biganə davranırdılar. Bunun da iki səbəbi ola bilərdi. Birincisi, kürdlər İraqın mərkəzi hakimiyyəti üzərində yetərli təsir mexanizminə sahib idilər, ikincisi, Səddam dönəmindən üzübəri mərkəzi hökumət türkmənlərə və onların timsalında Türkiyəyə, eləcə də türk millətinə qısqanclıqla yanaşırdı.

Türkmənlərə qarşı hücumların qarşısı alınmadığı və ya cinayətkarlar ən sərt şəkildə cəzalandırılmadığı üçün eyni müstəvidə terror hadisələri davam edirdi. Aprel hücumundan cəmi beş ay sonra – 2017-ci il sentyabrın 19-da, Türkmən Millətçi Hərəkatının Kərkükdəki baş ofisinin binasına yenidən silahlı hücum təşkil edildi. Mərkəzi hökumətin biganəliyini görən cinayətkar qrupların özbaşınalığı o yerə çatmışdı ki, Kərkükü nəzarətə götürmüş kürd peşmərgəsinin bir qrup silahlısı küçədən keçərkən Türkmən Millətçi Hərəkatının binasını avtomat silahla atəşə tutub. Təbii ki, binadakı mühafizəçilər də onlara atəş açıb. Bir az atışdıqdan sonra peşmərgə silahlıları ərazidən uzaqlaşmışdılar. Hətta

kürd döyüşçülərdən biri öldürülmüşdü, iki nəfəri isə yaralı vəziyyətdə ərazidən qaça bilmişdi.

Söz vaxtına çəkər deyərlər, elə Riyaz bəyin Bakıya səfəri ərəfəsində xəbər yayıldı ki, Türkmən Cəbhəsinin funksionerlərindən olan Əhməd Bulavalı və ailəsinin olduğu avtomobilə silahlı hücum edilib. Düzdür, ölüm baş verməyib, amma maşındakı hər üç adam yaralı vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Ümumiyyətlə, son dörd ay ərzində Kərkükdə ziyalı türkmənlərə qarşı çoxlu hücumlar, sui-qəsdlər törədilmişdi ki, nəticədə 19 türkmən həlak olmuşdu. Onların da əksəriyyəti siyasətçilər və müəllimlər idi. Dəhşətli hal o idi ki, bu cinayətlərin çoxu açılmamış qalır, İraq hökuməti türkmənlərə qarşı cinayət törədənləri tapıb cəzalandırmağa həvəs göstərmir.

Şair Turan Toksözün türkmənlərin dərdini dilə gətirərək hələ dörd il əvvəl yazdığı bir şeiri var, onun ilk bəndində belə deyirdi:

*Bir neçə qısa filmlə bitməz bizim acımız,*
*Gündən-günə kor olur, artır intiqamımız.*
*Ət dırnaqdan ayrıldı, yandı bizim canımız,*
*Nə mutlu, bizim də var cənnətdə məqamımız...*

Vaxt sanki yüyürərək gedir, göz yumub açınca bir ili də başa vurduq. Artıq 2019-cu ilin oktyabr ayı idi. O başqa söhbətin mövzusudur ki, hansı xalq ili necə keçirdi. Hər halda, türkmənlər bu bir ildən yaxşı heç nə ala bilmədilər. Yenə

əzab-əziyyət, yenə milli və insan hüquqlarına qarşı hörmətsizlik və sair. Təsəvvür edin ki, bu il iki dəfə türkmənlərə qarşı silahlı hücum edilmişdi. İlin əvvəlində – fevralda Türkmən Milliyətçi Hərəkatının Kərkükdə yerləşən mərkəzi ofisinin binasına kimliyi bilinməyən şəxslər tərəfindən hücum olmuşdu. Cinayətkarlar binanı odlu silahdan atəşə tutduqdan sonra hadisə yerindən qaçmışdılar.

İkinci dəfə isə sentyabrın axırlarında yenidən Türkmən Milliyətçi Hərəkatının binasına naməlum şəxslər tərəfindən atəş açılıb. Düzdür, insan təlafatı olmamışdı, amma çox ciddi siqnal idi – türk millətçiləri ciddi hədəf alınmışdı və proses sonda açıq müstəvidə etnik münaqişəyə çevrilə bilərdi.

Bu bir il ərzində də Kərkükün statusu həll olunmadı, idarəetmə strukturlarında əsas vəzifələr və digər məmur postları şəhərdə yaşayan türkmənlər, kürdlər və ərəblər arasında ədalətli şəkildə bölüşdürülmədi, yenə də kürdlər və ərəblər önə çəkildi. Hətta sonuncu parlament seçkiləri zamanı türkmənlər millət vəkili sayını haqlı olaraq iyirmiyədək artıracaqlarını düşünsələr də, baş verən böyük saxtalaşdırma nəticəsində bu olmadı.

Bu yalnız türkmənlərin dərdini artırmadı, həm də bütün İraqa yeni bəlalar gətirdi. Amerika hərbi qüvvələrinin Bağdad yaxınlığında İran ordusunun yüksək rütbəli komandirinə sui-qəsd edərək qətlə yetirməsindən sonra Bağ-

dadda və ölkənin digər şəhərlərində iğtişaşlar başladı. Yüzlərlə insan həlak oldu, minlərləsi yaralandı, dövlətin büdcəsinə milyonlarla dollar ziyan dəydi və sair. Gözlənildiyi kimi, İraq Kürdüstanının rəhbərliyi hadisələrdən sui-istifadə edərək Amerikaya yarınmağa çalışdı. Bu da təbii idi, çünki muxtariyyət elə Amerikanın ssenarisi əsasında müstəqil dövlət qurmağa çalışır. Kürdüstanın müstəqil olması, Amerikanın İraqın ərazi bütövlüyünə zərər vermək istəməsi, əlbəttə ki, Kərkükün statusunu da dəyişməyi nəzərdə tutur. Plana görə, Kərkük Küdüstana birləşəcək və şəhərin əsl sahibi olan türkmənlərin taleyi bundan sonra necə olacaq, bilinmir...

Hadisələrin böhrana aparır İraqı. Çünki məzhəblə bağlı qarşıdurmalar tarix boyu heç bir ölkəyə müsbət sonluq bəxş etməyib. Onsuz da, otuz ilə yaxındır müharibə və münaqişələr içində olan İraqda, indi də bu cür qiyamların start götürməsi təhlükəliydi. Odur ki, dözə bilmədim, oktyabrın 10-da Türkməneli Partiyasının sədri Riyaz Sarıkahya ilə internet üzərindən bağlantı qurub, məni narahat edən məqamlara aydınlıq gətirməyə çalışdım.

– İraqda nələr baş verir, bu qədim ölkədə niyə asayiş yaranmır, – soruşdum.

– İraqda xalqın bir hissəsi indiki hökumətə qarşı etiraz aksiyaları keçirməkdədir. Səbəb də sırf sosial problemlərdir, – Riyaz bəy cavab verdi. – Bu gün İraqda işsizlik ciddi problemə çevrilib.

Yüz minlərlə vətəndaş ali təhsil almalarına baxmayaraq illərdir iş tapa bilmir. Dövlət qurumlarında rüşvətxorluq, korrupsiya, qohumbazlıq halları baş alıb gedir. Mövcud siyasi kadrlardan qurtulmaq üçün son seçkilərə ümid edən xalq, burada da ciddi şəkildə saxtalaşdırma və digər qanun pozuntularının baş verməsi səbəbi ilə heç nə əldə edə bilmədi. Yəni bütün gözləntiləri puç oldu.

– Niyə, axı indiki hökumət islahatlar keçirəcəyini vəd edirdi…

– Baş nazir Adil Əbdülmehdi çox yaxşı insandır, dürüst şəxsiyyətdir, amma siyasi qruplaşmalar ona istədiyi kimi işləməyə imkan vermirlər. Bütün bunlar isə xalqın səbrini daşdırdı, – Riyaz bəy sözümü kəsdi. – Hökumətin dinc aksiyaları yatırmaq üçün gücdən istifadə etməsi faktını İraqın əksər siyasi partiyaları qınayıb, etirazlarını açıq şəkildə bildiriblər. Amma məsələ ondadır ki, etirazçılar arasından kimlərsə ictimai mülkiyyətə ciddi ziyan verməyə, qəsbkarlıq və oğurluq etməyə başladı. Yalnız bundan sonra hökumət gücdən istifadəyə qərar verdi. Xaricdən dəstəklənən qruplar həm hökumətə, həm də etirazçı kütlə arasına sızaraq tərəfləri qarşı-qarşıya qoya bildilər. Nəticəsi də bu oldu ki, iki yüz civarında vətəndaşımız həlak oldu, minlərlə insan yaralandı. Hadisələr başlayandan ölkədə internet kəsilib, bir çox telekanalların yayımı dayandırılıb və sair. Məsələnin adi etirazdan daha çox silah yolu ilə inqilaba cəhd olduğunu anlayan hökumətin

sərt tədbirlərə əl atmaqdan başqa çarəsi qamadı. Xalq çıxışlarının dayandırılması üçün İran İraq hökumətinə çox güclü dəstək verdi.

– İran dəstək verdi deyirsiniz, məncə elə bu da ABŞ-ı hövsələdən çıxardı...

– Amerika ilk başda etirazçıları dəstəkləyib. Bunu onların verdiyi açıqlamalardan da hiss eləmək olur. Əlbətdə, bu vəziyyət İrana yaxınlığı ilə seçilən şiə mərkəzlərini narahat edirdi. Oa görə də etiraz aksiyası keçirən kütləyə sərt mövqe bildirdilər, onlara dəstək vermədilər.

– Amma etiraz edənlər şiələrdilər…

– Hə, elədir, aksiyalar əsasən Bağdadda, bir də cənubda – şiələrin yaşadığı bölgələrdə keçirilib. Sünnilərin yaşadığı bölgələrdə bu aksiyalara dəstək verilmədi. Xüsusilə kürd və türkmənlər baş verənlərə qarışmadı. Şiələrin özləri də, var İrana yaxınlığı ilə seçilənlər, bir də var şiə olsalar da, ərəb ölkələri ilə həmrəy olanlar. Aksiyaya çıxanlar əslində, İranla yaxın olmayanlar idi və buna görə də hökumət sərt tədbirlərə əl atdı. Aksiyaları Amerikayönümülü telekanallar böyük canfəşanlıqla işıqlandırırdılar, bu da şübhə doğururdu. Sonda ABŞ-ın aksiyaları dəstəkləməsi barədə fikir formalaşdırdı. Nəticələrə əsaslanan İran da aksiyaçılara qarşı hökumətin yanında yer aldı. Zərəri isə günahsız İraq xalqına dəydi…

– Mənə elə gəlir ki, bu məsələdə mütləq xarici kəşfiyyatın barmağı var, – etiraz etdim. – Baxın, etirazlar ancaq şiələrin yaşadığı şəhərlərdə baş

verir. Heç bir sünni bölgəsində qarşıdurma yaşanmır. Bu çox şübhəlidir…

– Çıxışlarda İranı sevməyən, bir də ərəb millətçisi olan şiələr iştirak edib. Bayaq da dedim: işsiz-gücsüz, savadlı şiələr, hökumətin siyasətindən narazı qalan kütlə də onlara dəstək verdi ki, bəlkə nəticədə öz sosial problemlərindən qurtulalar. Amerika dəstəkli bəzi qeyri hökumət təşkilatları və telekanallar da onların yanaında yer aldılar. Yəni belə demək mümkündürsə, hadisələr ABŞ – İran qarşıdurmasını xatırladırdı. Hələlik, Amerika prosesləri qazanmadı və yumşaq “U” dönüşü edərək hökumətə dəstək verəcəklərini bildirərək hadisələrdə əli olmadıqlarına inandırmağa çalışırlar.

– Hadisələrə qarışmayan bölgələrdən biri də sizsiniz – Türkməneli yurdudur. Niyə özünüzü kənarda saxlamısınız? – soruşdum.

– Türkmənlər olaraq bölgəmizin sabitliyi naminə hər hansı aksiyaya qoşulmamışıq. Bu cür aksiyalarla problemləri həll edə bilmərik – bunlar Bağdadda yoluna qoyulmalıdır və qoyulacaq da. Əlbətdə, biz də İraq hökumətində yeniliyin, islahatların baş verməsini istəyirik. Amma qəti olaraq hökumətin devrilməsinə qarşıyıq. Çünki problemin arxaında xaricdən uzanan barmaqları açıq-aşkar görürük. Ona görə də xarici müdaxilələrin yolu dövlətdə çox ciddi islahatlar aparmaq, işsizliyin səviyyəsini azaltmaq, rüşvət və korrupsiyanın qarşısı kəsilməklə bağlanma-

lıdır. İstəyirik ki, dövlət ictimailəşsin, hökumət institutlarımız güclü olsun. Xüsusilə də seçki prosesi şəffaflaşsın, bu müstəvidə müdaxilələr aradan qaldırılsın.

– Şəxsən mən narahatam ki, hadisələrin gedişatından yararlana bilən peşmərgə yenidən Kərkükə hücum edə bilər. Maraqlıdır, kürdlər baş verənlərə necə münasibət bəsləyir?

– Kərkükdə hadisələr qarışarsa, yaxın ətrafda yerləşib fürsət gözləyən peşmərgə qüvvələri şəhərə girə bilər. Onlara zatən bəhanə lazımdır, – Riyaz bəy mənimlə razılaşdı. – Məncə bu hadisələrin əsas səbəbi baş nazir Adil Əbdülmehdinin Çinə səfəridir. İraq bir neçə gün öncə Çinlə büyük anlaşmalar imzaladı. Bu da Amerikanın xoşuna gəlmədi. Yoxsa ki, etiraz aksiyalarının müqavilələr imzalan günün sabahı başlaması təsadüfi sayıla bilməz. Vaşinqtona nəzarətdə saxlaya biləcəyi hökumət lazımdır və ona görə də indiki kabineti devirməyə çalışdı. Hər halda hadisələr səngiyib, amma aksiyaların yenidən başlaya bilmə ehtimalları də az deyil…

***

Riyaz bəylə söhbətimizin üstündən xeyli keçmişdi. Artıq yeni il gəlmişdi – 2020-ci ilin yanvar ayı idi. İraq bu ilə də qarmaqarışıq daxili siyasəti, qarşıdurmaları ilə qədəm basmışdı. Ölkədə hadisələr nəinki səngiməmişdi, əksinə qarşısıalınmaz vəziyyətə çev-

rilmişdi. Bağdad hökumətində iranlı generalın qisasını alacaqlarına dair çıxışlar, bəyanatlar səslənirdi. Bu səbəbdən də ABŞ İraqı ən sərt sanksiyalarla hədələyir, dövlətin tələbinə baxmayaraq onun ərazisindən əsgərlərini çıxarmamaqda israr edirdi. Gözlənildiyi kimi, sanki bu ölkəyə aidiyyəti yoxmuş kimi, Kürdüstan muxtariyyəti tamam fərqli mövqe tutumuş, dövlətin ziddinə gedərək Amerika hərbi qüvvələrinin İraqda qalmasını istəyirdi. Bununla da, Ərbil muxtar hökuməti İraqı daxili siyasi müstəvidə parçalayırdı. Bağdadla Ərbilin arasında qalan, türk milli mənəviyyatının qalası, lap elə biz Azərbaycan üçün də xüsusi mahiyyət daşıyan Kərkükdə isə tamam səssizlik hökm sürürdü.

Əslində qınamalı deyildi, türkmənləri heç vaxt İraqda üçüncü iri xalq və tərəf olaraq görməyən ərəblər və kürdlər, Kərkükdəki siyasi canlanmadan sui-istifadə edə bilərdilər. Buna baxmayaraq, Türkməneli bölgəsi, o cümlədən də bu bölgənin bir parçası olan Kərkük İraqın ərazi bütövlüyünün qorunmasını istəyirdi. Türkmənlər kürdlərdən fərqli olaraq heç bir halda İraqın parçalanmasına razı deyildilər. Amma bu o demək deyildi ki, onlar öz kimliklərini qorumaqdan vaz keçiblər, əsla. Türkmənlər ərəblər və kürdlərdən sonra İraqın üçüncü böyük xalqı olaraq vətənlərini qorumaq, inkişaf etdirmək və idarəetmə sistemində bərabərhüquqlu tərəf kimi iştirak etmək əzmindəydilər.

Axşam internet vasitəsilə Yılmazla danışdım. Bildirdim ki, Riyaz bəyi tapa bilmirəm, hansı ki, onunla danışmaq çox vacibdir, əgər harda olduğunu bilirsə, söhbətləşməyimiz üçün vasitəçilik eləsin. Yılmaz da ki... Bu adamdan kim inciyər, heç kim. Türkmənlərin marağı olan hər şeyi edirdi. Ölkəsinin başına gətirilən müsibətləri olduğu kimi dünya ictimaiyyətinə çatdırılması hər bir iraqlı kimi onun da mənəvi borcu idi. Əlüstü söz verdi ki, Riyaz bəylə danışıb mənə xəbər verəcək. Elə də etdi: heç on dəqiqə keçməmişdi ki, votcapla zəng vurub, Riyaz bəyin xətdə olduğunu dedi. Mən də təbii ki, uşaq kimi sevinərək, Riyaz bəylə söhbətə başladım.

Hal-əhval tutdum, əziz olan türkmən dostlarım üçün darıxdığımı dedim. Riyaz bəy də bizim üçün darıxdığını, inşallah, imkan düşən kimi Kərkükdə görmək istədyini bildirdi. Beləcə, danışa-danışa əsas söhbətə gəldik.

– İraqın hər yerində vəziyyət ağırdır, sabah nə olacağını bu gündən bilmək olmur, – Riyaz bəy dərindən ah çəkdi. – Amma şükür ki, heç olmaya qonşu ölkələrlə əlaqələr normal vəziyyətdədir. Şükürlər olsun ki, ölkə daxilində məzhəb və etnik xarakterli qarşıdurma yaşanmır. Baxmayaraq ki, xaricdə belə bir fikir formalaşdırıblar. Bağdadda davam edən siyasi çıxışlar sadəcə şiələrin öz aralarında gedən iqtidar-müxalifət qarşıdurmasının təzahürüdür. Hökumətin arxasında İran dayanır, qarşı tərəfi isə ABŞ dəstək-

ləyir. Ən pisi isə odur ki, son vaxtlar mütəmadi şəkildə sui-qəsdlərin baş verdiyini görürük. Çox sayda qurban verilir ölkədə. Ancaq bilin ki, bu qurbanlar fərdi müstəvidə verilir. İraq parlamenti ölkə ərazisində yerləşən bütün xarci hərbi qüvvələrin çıxarılmasına qərar verib. Amma təəssüf ki, parlament həmin məsələni müzakirə edərkən, 4-5 millət vəkili istisna olmaqla, iclasda yalnız şiə deputatlar iştirak edib. Ona görə də, hüquqən parlamentin qərarı olsa da, siyasi mənada sırf şiələrin mövqeyini əks etdirir.

– Hə, eşitdiyimə görə, parlamentin qərarını bəzi dairələr qəbul etmir...

– O cür fikirlər olsa da, hələ çox tezdir, praktik olaraq qərarın hər hansı icra vəziyyətindən söz açmaq mümkün deyil. Bunun üçün vaxt lazımdır. Prosesin başa çatdırılması üçün böyük maliyyə problemləri həll olunmalıdır və sair. Əslində qərar ölkə ərazisindəki bütün xarici hərbi qüvvələrə aid olsa da, bildiyimiz kimi, iranlı zabitə ancaq ABŞ ordusu hücumu edib. Parlamentin məqsədi də məhz Amerikaya etirazını bildirmək olub. Qərar hələlik qərar olaraq qalır, İraqda hər hansı yerüstü hərəkətlilik yoxdur, bütün xarici hərbi qüvvələr olduqları yerdədir, – Riyaz bəy dedi.

– Çox maraqlı vəziyyət yaranıb: İraq parlamenti deyir ki, ay Amerika, mən səni öz evimdə görmək istəmirəm. Amerika isə cavab verir ki, istəsən də, istəməsən də, heç yana getməyə-

cəyəm – bu evdə qalacağam, hətta sizə ağalıq da edəcəyəm, – dedim.

– Hə, doğrudan da... Amerika öz qoşunlarını İraqdan çıxarmaq istəmir. Həm də niyə çıxarsın ki, İraq Yaxın Şərqdə neftin mərkəzidir. Bu gün Amerika çox ağır şərtlər qoyur, yüksək həcmli maliyyə xərclərini bəhanə gətirir, deyir milyardlar xərcləmişəm İraqın quruculuğuna, ta demir ki, İraqın şəhər və kəndlərini xarabaya elə özü çevirib, – Riyaz bəy səsini qaldırdı.

Ona əsəbləşmək olmazdı, ürəyi narahat idi. Amma insan ölkəsini, millətini o qədər sevirdi ki, belə söhbətlər düşəndə sağlamlığını düşünmək yadından çıxırdı.

– Hətta İraq tərəfi israr edərsə, Amerika bir-iki bölgədən əsgərlərini çıxara bilər, amma bu ölkədən çıxmaq mənası verməyəcək – İraqın digər bölgələrinə yerləşəcəklər. Məsələn, Ərbilə, ya da sünnilərin yaşadığı digər bölgələrə gedəcəklər. Bu zaman isə "B" planı işə düşəcək.

– Ərbildən söz düşmüşkən, onların amerikalıların getməsini istəməməsi düzdür? – soruşdum.

– Kürdüstan muxtariyyətinin hakimiyyəti həmişə Qərblə siyasi ittifaqda olmağa çalışıb. Ərbil heç vaxt Bağdad hökumətinə inanmayıb. Həm də axı Ərbil iqtidarı "Böyük Yaxın Şərq" layihəsinin tərəfdarı olub. Odur ki, Amerika qoşunlarının bölgədə olması onların maraqlarına tam uyğundur.

– Qardaş ölkənin – Türkiyənin fikri nədir? Deyəsən, Mövlud Çavuşoğlu, Bərzaniyə Türkiyə adından tam təhlükəsizlik təminatı verib...

– Hə, elədir. Bu təbidir, Ərbil hökuməti hazırda Türkiyə ilə ittifaq vəziyyətindədir, – Riyaz bəy arxayın tərzdə cavab verdi. – Türkiyə Kürdüstan muxtariyyətinin təhlükəsizliyi üçün məsuliyyət daşıyır.

– Bəs Kərkükün təhlükəsizliyi, Türkiyə Ərbilə vəd etdiyi təminatı Kərkükə, Türkmənelinə də verir? – soruşdum.

– Hazırda Kərkük şəhərinin özündə vəziyyət sabitdir, amma ətraf bölgələrdə İŞİD silahlıları tərəfindən vaxtaşırı terror aktları törədilir. Əlbəttə, elə ciddi zərər vura bilmirlər, çoxunun qarşısı təhlükəsizlik qüvvələri tərəfindən vaxtında alınır. Türkiyə hər zaman Kərküklə həmrəy olub, bu gün də o dəstəyi alırıq. Türkiyə dövləti kərküklülərə qarşı milli-mənəvi məsuliyyət daşıyır...

...İraqda ümumi vəziyyət sabitləşsə də, kürdlərdən qaynaqlanan müəyyən narahatlıq davam edirdi. Çünki Suriyanın şimal və İraqla həmsərhəd şimal-şərq bölgələrində YPG tərəfindən de-fakto kürd idarəetmə bölgəsi qurulmuşdu. Bundan yararlanan və uzun illərdir şimali İraqda – Kürdüstan muxtariyyətinin ərazisində məskunlaşmış PKK terrorçuları fəaliyyətlərini genişləndirmiş, hətta Sincar vasitəsilə Suriyadakı terrorçu qruplarla birbaşa əməkdaşlıq edirdilər.

Bununla da İraqın şimalında İŞİD-dən heç də az təhlükəli olmayan vəziyyət yaranmışdı.

Baş verənlər qeyd-şərtsiz İraqın ərazi bütövlüyünə qarşıydı. Əslində Kürdüstan muxtariyyətinin rəhbərliyi tərəfindən müəyyən formalarda dəstəklənən qeyri-qanuni silahlı kürd dəstələri İraq və Suriya ərazisində, türkmənlərin, ərəblərin və digərlərinin yaşamayacağı müstəqil kürd dövləti qurmaq müstəvisində addım-addım irəliləyirdilər. ABŞ, Avropanın bir sıra ölkələri, Rusiya, İsrail və sair tərəfindən dəstəklənən müstəqil kürd dövlətinin yaradılması faktı İraq və Suriya torpaqlarının parçalanması ilə yanaşı, həm də gələcəkdə Türkiyə ərazisinə qarşı potensial iddia təhlükəsini ortaya çıxarırdı. Ona görə də, Türkiyə sərhədlərinin cənub tərəfində – İraqın şimalında kürd terrorçulara qarşı mütəmadi hava və yerüstü əməliyyatlar icra edirdi. Düzdür, Bağdad hökuməti bir neçə dəfə Türkiyəni hücumları dayandırmağa, İraqın ərazi bütövlüyünə sayğılı olmağa çağırsa da, qüdrətli Türkiyə dövləti öz torpaqlarına olan təhlükəni dəf etməkdə israrlı idi. Ankara hər dəfə İraq hökumətinə açıq-aşkar bildirirdi ki, ərazinizdə kök atan türrorçu yuvalarını məhv edin, sərhədlərə olan təhlükəni birdəfəlik aradan qaldırın, biz sizin ərazinizdə antiterror əməliyyatları dayandıraq. Əlbəttə ki, İraq ya bunu etmək gücündə deyildi, ya da etmək istəmirdi. Ona görə də, Bağdadın etirazı bəyanat verməkdən o tərəfə keçmirdi.

İraqda yaşanan təlatümlər heç də türkmənlərin həyatına təsirsiz ötüşmürdü. Mərkəzi hökumətin əliylə hər vəchlə türkmənləri dövlət işlərindən kənarda tutmağa çalışan kürdlər bacardıqca bu qədim və qururlu xalqın kimliyini örtbasdır etməyə çalışırdı. Xüsusilə də Kərkükdə və Türkməneli yurdunun digər şəhər və qəsəbələrində kürdləşdirmə siyasətini yürüdürdülər. Bu mənfur siyasətə etiraz edən türkmən siyasətçi və ziyalılara qarşı isə, birmənalı şəkildə terror hücumu işə salınırdı.

Söz yerinə düşər deyərlər, 2020-ci il may ayının əvvəllərində Ata Partiyası Kərkük ofisinin rəsmisi Ammar Kahyanın evinə bomba atılmışdı. Səbəbi sadə idi: Ammar Kahya kürdlərin Kərkük siyasətinə qarşı çıxmışdı və türkmənlərin hüquqlarını müdafiə eləmişdi. Düzdür, hücum zamanı ölüm-itim olmamışdı, amma evə ciddi ziyan dəymişdi.

Kərkükün mərkəzində türkmən siyasətçiyə qarşı edilmiş bu amansız silahlı hücum elə bir vaxta təsadüf edirdi ki, Kərkük valisi ölkə parlamentinin qərarı ilə işdən çıxarılmışdı. Əlbəttə, uzun illərdir türkmənlər israr edirdilər ki, vali türkmənlər arasından seçilsin. Hadisənin baş verməsi isə isbatlayırdı ki, kürdlər bu ərəfədə türkmənləri susdurmaq, bəlkə də qorxutmaq istəyir.

Mayın 26-da Türkməneli Partiyasının sədri Riyaz Sarıkahyanın imzası ilə İraqın baş nazirinə

müraciət ünvanlandı. Riyaz bəy müraciətdə bildirirdi ki, üç ildir rəsmi vali (Rakan Sait əl-Cuburi) tərəfindən idarə edilməyən Kərkükdə illərdir assimilyasiyaya və ən ağır haqsızlıqlara məruz qalan türkmənlər məhz sonuncu vali əvəzi tərəfindən də incidilib. Elə bu səbəbdən də, Kərkükdə milli-etnik müstəvidə uğur qazanmaq mümkün olmayıb. Hansı ki, İraqın Anayasasına görə, türkmənlərin və digər etnik birliklərin də yerli idarəetmədə təmsil olunması zəruri sayılır. Yəni, vali postuna türkmənlər arasından birinin təyin edilməsi uzun illərdir mövcud olmuş ayrıseçkiliyin aradan qaldırılmasına kömək göstərərdi.

Təəssüf ki, türkmən liderin mərkəzi hökumətə çağırış etdiyi bir vaxtda, Bağdadı heçə sayan Kərkük rəhbərliyi şəhərdə milli-etnik müstəvidə ocaqları alovlandırmağa davam edirdi. Məhz vali əvəzi Rakan sait əl-Cuburi Kərkükün türkmənlər yaşayan bölgəsində – Korya məhəlləsində yerləşən futbol meydançasını sökdürmək barədə göstəriş verdi. Buna hiddətlənən türkmənlər isə həmin meydançada çadırlar quraraq bu ədalətsiz qərarın icrasına mane olmağa çılışırdılar. Hansı ki, koronavirus pandemiyasının sürətlə yayıldığı bir vaxtda insanların kütləvi toplanması olmazdı. Deməli, haqlarını qoruyan türkmənlərin indiki şəraitdə bir yerə toplaşaraq virusa yoluxmaq risqi də ərəb və kürd vəzifəliləri nəinki narahat etmirdi, bəlkə də sevindirirdi.

***

Həftə boyu davam edən tutqunluq, elə bil bu gün bozumtul pərdəsini Bakının üzərindən çəkmişdi – gün adamı yandırıb-yaxırdı. Ona görə də ağacın kölgəsinə çəkilib jurnalist Cavidi gözləməyə başladım.

Cavid Şahverdiyevi deyirəm, Azərbaycan mətbuatında iz qoymuş, öz üslubu ilə tanınan jurnalistlərdəndir. Dünəndən danışmışdıq ki, səhər saatlarında görüşüb özünün də mənsubu olduğu Liberal Demokrat Partiyasının baş ofisinə gedək. Partiyanın sədri Fuad Əliyevlə söhbətimiz vardı.

Bir az geciksə də, nəhayət, gəlib çıxdı və söhbət edə-edə küçə boyu üzüaşağı addımlamağa başladıq.

– Fuad bəyin ofisinə sonuncu dəfə ora Riyaz bəy qonaq gələndə getmişəm – təxminən üç il əvvəl, – sözə başladım. – Elə bil dünən idi, yaxşı adamdır Riyaz bəy. O vaxdan nə üzünü görmüşəm, nə də səsini eşitmişəm, arada haqqında paylaşılanları izləyirəm internetdən, vəssalam.

– Hə, mənim də ürəyimə yatdı, sadədir, savadlıdır, mübarizdir, uzaqgörən fikirləru var, – Cavid sözümü təsdiqlədi. – Elə mən də sənin kimi, arada Yılmazla danışıram sosial səhifələrdə.

– Təki canları sağ olsun, bu bəsimizdir. Koronavirus İraqı cənginə alıb, az idi dərd-sərləri, bir az da bu xəstəlik əziyyət verir onlara, – dedim.

Səkidə xeyli adam toplaşmışdı. Deyəsən mək-

təb binası vardı, hə, elədir ki, var. Koronavirus təhlükəsini nəzərə alaraq uşaqları hissə-hissə buraxırdılar içəri ki, çox basırıq olmasın. Elə bir gözümüz məktəbin qapısına yığışan uşaqlarda, küçəni qarşı tərəfə keçib yolumuza davam etdik.

– Pandemiya şəraitidir, görəsən iraqlı tələbələr qayıda biliblər ölkələrinə? – Cavid asta səslə soruşdu.

– Bilmirəm, qayıtmış olarlar, zatən buradakı bütün əcnəbilər vətənlərinə göndərilib.

– İraqlı deyəndə, türkmən tələbələri nəzərdə tuturam, çox passivdirlər, – Cavid gileyləndi.

– Tamamilə razıyam. Mən bu fikri həmişə səsləndirmişəm və arxasında dururam. Hətta Kərkükdə olanda, İraqın o vaxtkı millət vəkili Hasan Turana da demişdim sözümü. Heç kimə sirr deyil ki, İraqdan qalxıb Bakıya universitet oxumağa gələn uşaqlar müəyyən maddi imkanlara sahib ailələri təmsil edirlər. İnanmıram ki, onların Bakıda hər hansı maddi sıxıntısı olsun. Amma onlar nə edirlər xalqları, milli-mənəvi haqq və hüquqlarının təsbiti üçün, heç nə! Səhər dərsə gedirlər, dərsdən sonra da vaxtlarını kafelərdə, barlarda keçirirlər – "ərköyün oğlan" həyatı yaşayırlar. Adamın içində olmalıdır milli mübarizlik, deməklə mübariz etmək olmaz.

Əsəbimi cilovlaya bilmirdim. Hiss edirdim ki, danışdıqca səsimi yüksəldirəm. Ona görə də bir anlıq susdum.

– Əşşi boş ver, zorla vətənpərvər yetişdirmək

olmaz, onlar təbii şəkildə, səssiz-sədasız yetişirlər. Bəyəm Riyaz bəy tələbə olanda kimlərsə onu zorla vətənpərvər edib, mümkün deyil, – Cavid yüksək səslə fikrini bildirdi.

Çatmışdıq. Dövlətin, ofis məqsədilə bir sıra siyasi partiyalar üçün ayırdığı binanın üçüncü qatına – Liberal Demokrat Partiyasının qərargahına qalxdıq.

Koronavirus təhlükəsini nəzərə alan sədr Fuad Əliyev qərargah kadrlarına işə çıxmamağı, bütün işləri evdən görməyi tapşırmışdı. Özü isə hər gün səhərlər ofisə gələr və bir neçə saat burada çalışardı. Biz də gələcəyimizi dünəndən demişdik deyə, gözləyirdi.

Qapıdaca salamlaşdıq, hal-əhval tutub içəri keçdik. Otağın səliqə-sahmanı, mebellərin düzülüşü demək olar ki, üç il əvvəl gördüyümdən çox fərqlənmirdi. Masaların üstündə Azərbaycanın kiçik bayraqları düzülmüşdü. Divardan da Azərbaycanın və Liberal Demokrat Partiyasının atributu olan bayraqlar asılmışdı. Hə, dövlət bayrağımızla qoşa başqa bir bayraq da asılmışdı – kənarlarında ağ zolaqları, üstündə ağ aypara və ulduz həkk olunmuş göy rəngli türkmən bayrağı. Xatırlayıram, həmin bayrağı Fuad Əliyevə, vaxtilə partiyanın qonağı olan Riyaz bəy hədiyyə etmişdi.

Yanaşı asılan bayraqlara baxanda böyük şair İsmayıl Türkmənin şerindən bir parçanı xatırladım:

*Uzadaq duyğuları Ağ dənizdən Xəzərə*
*Bir ucunda sən dayan, digərində mən*
*Qurulacaq xəyalları paylaşaq*
*Nə xəyal quracağıq danışaq...*

– Türkmən bayrağının dövlət bayrağımızla yanaşı görmək məni qürurlandırdı, – əlimlə divara işarə etdim.

– Hə, əlbəttə, türkmən bayrağının bizim üçün önəmi bir başqadır. Xalq tarix boyu əzilir, öldürülür, təqib olunur, amma milli haqlarından vaz keçmir, bu qədər təzyiq və təqiblərə rəğmən bayrağını göylərdə tuta bilir. Bu da türkmənlərin mübariz xalq olduğunu göstərir, – Fuad bəy dedi.

– Riyaz bəylə danışırsınız, – soruşdum və cavab gözləmədən:

– Sonuncu dəfə keçirilən parlament seçkilərində yenə saxtakarlıq edildi, həm də ifrata varan saxtakarlıq. Mandat almalı olan əsl xalq nümayəndələri yenə kənarda saxlanıldı. Dəhşətdir, dünya kosmosda həyat axtarır, İraq kimi tarixin canlı muzeyi olan bir dövlətdə hələ də azad seçki mədəniyyəti formalaşmayıb, – deyə üz-gözümü turşutdum.

– Bütün Yaxın və Orta Şərq ölkələrində vəziyyət elədir, əksəriyyəti həqiqi və azad seçkinin nə olduğunu bilmir, – Fuad bəy dilləndi.

Bir anlıq susdu. Altdan yuxarı divardan asılan türkmən bayrağına baxaraq:

– Görürsünüz, bir ovuc erməni Azərbaycan torpaqlarının 20 faizini işğal edib, separatçı re-

jim yaradıb. Əlbəttə, yalnız Ermənistanın deyil, arxalarında dayanan və açıq-aşkar dəstək verən böyük ölkələrin yardımı ilə. Qarabağda səksən-yüz min erməni var, ya yox, amma İraqda dörd milyon türkmən əsrlərdir yaşayır. Onlara da siyasi və hərbi dəstək verilsə, çoxdan öz dövlətlərini yaradardılar, – dedi.

– Bunu onlar özləri də etiraf edir. Hələlik, pis-yaxşı ancaq Türkiyə tərəfindən dəstəklənirlər. Neçə dəfə müsahibə zamanı elə mənim özümə deyiblər ki, Azərbaycandan da ən azı mənəvi dəstək gözləyirlər. Mən də başa salmağa çalışmışam ki, Azərbaycanın Qarabağ kimi qanlı yarası var, ona görə də xarici siyasətdə bir az ehtiyyatlı qərarlar qəbul etməyə məcburdur, – susdum.

Elə indicə gətirilmiş çaydan bir-iki qurtum içib sözümə davam elədim:

– Son vaxtlar türkmənlər özlərini bir az daha təhlükəsiz hiss edir. Düzdür, İŞİD silahlıları zaman-zaman hücum edib, günahsız insanları qətlə yetirirlər. PKK terrorçuları da bir yandan sui-qəsdlər, terror hücumları edirlər türkmənlərin üzdə olan tanınmışlarına qarşı. Amma “Haşdi Şabi” yaranandan sonra türkmənlər bir az rahat nəfəs alırlar. Çünki, şiə təhlükəsizlik təşkilatı olan “Haşdi Şabi” əsgərlərinin xeyli hissəsi elə türkmənlərdir. Hətta təşkilatın Türkməneli bölgəsindəki bölməsi sırf türkmənlərdən ibarətdir, komandanları da türkməndir. İndi İraq türkmənlərinin əsas hədəfi Türkməneli bölgəsinin fede-

rasiya subyekti olaraq status almasıdır. Bundan sonra yəqin ki, həm mədəni muxtariyyət almaq olar, həm də xalqın sosial-iqtisadi problemlərini aradan qaldırmaq mümkündür. Bu da indiki şəraitdə İraqda mümkün görünmür. Ona görə deyirlər ki, xaricdən siyasi dəstək verilsə, özlərini haqq mübarizəsində arxalı, daha güclü hiss edərlər.

– Səhv etmirəmsə, ABŞ "Haşdi Şabi"nin ləğv olunmasını istəmişdi, – Cavid söhbətə qarışdı.

– Hə, düzdür. Amma İraq tərəfi də cavab verdi ki, bu təşkilat dövlətin təhlükəsizliyinin qorunmasında böyük rol oynayan qanuni qurumdur və onu ləğv etmək kimi bir fikirləri yoxdur, – dedim. – Sən dünyanın işinə bax, İraq ərazisində Babillər, Assuriyalılar, Akkadlar, elə orta əsrlərin yadımızda qalanlarından Abbasilər tarix yazanda, ümumiyyətlə, Amerika adlı bir yerin olduğu bəşəriyyətə məlum deyildi. İndi Amerika qaydalar tətbiq edir İraqda...

– Bilirsiniz, əgər dörd milyonluq türkmən xalqının ən adi hüquqları qorunmursa İraqda, deməli, burada günahın bir hissəsi elə türkmən siyasətçilərdədir. Yəni belə deyim: hiss olunur ki, türkmən hərəkatı vahid mərkəzdən idarə edilmir, – Fuad bəy amiranə şəkildə dedi. – Tarixdə bir sıra böyük dövlətlərdə yaranan, fərqi yoxdur milli zəmində olsun, yaxud sinfi müstəvidə, xalq hərəkatlarına nəzər salın: mütləq əksəriyyəti süquta uğrayıb. Səbəb də olub ki, onları sonadən bir arada tutan konkret mərkəzi qüvvə,

xalq tərəfindən qəbul edilmiş güclü və vahid lider olmayıb. Mən Riyaz Sarıkahyanı tanıyıram, bilirəm ki, İraq türkmənləri arasında çox böyük nüfuz sahibidir. Amma mən Ərşad Salehi barədə də eşitmişəm. Deyirlər bu adam da türkmənlərin lideridir. Xalqın ən adi haqları tanınmadığı, nəinki muxtariyyəti, heç yığcam yaşadıqları, konkret türkmən vilayətinin belə olmadığı bir vaxtda iki lider nəyə lazımdır, olmazdımı ki, birləşələr, ikisindən biri geri dura? Əminəm ki, bu halda hərəkat irəli getməyəcək. Hətta getsə belə, iki liderli cəmiyyətin finala çatması mümkün olmayacaq. Məhz iki lider olduğu üçün, bu xalqın düşmənləri istifadə edib hərəkatda fitnə-fəsad çıxaracaqlar və onu süquta uğradacaqlar.

– Fuad bəy, sizin dediklərinizi hər birimiz təsdiq edirik və hətta İraqda olarkən keçirdiyim görüşlərdə də səsləndirmişəm, – səsimi qaldırdım. – Ərşad Salehi deyirsiniz, o adama sual verdim ki, niyə vahid lider seçmirsiniz və ya ümumiyyətlə, kimi lider görürsünüz. Nə cavab versə yaxşıdır: xalq kimə səs veribsə, lider də odur. Yəni yalan-doğri deputat seçiləın kəs lider olmalıdır. İraq cəmiyyətində seçilmiş deputatdan lidermi olar? Bu sözdən sonra başa düşdüm ki, zavallı türkmən xalqının gələcəyi keçmişindən də ağır keçəcək. İnsanlar şöhrət və başçılıq üçün milli mənafeləri görmək istəmirlər.

– Görürsən, Salehini Türkiyə dəstəkləyir, deməli, ibtidai formada da olsa, türkmən hərə-

katı indidən xarici ölkələr tərəfindən ifarə edilir, – Cavid yenidən söhbətə qarışdı. – Mən demirəm Türkiyə bu hərəkata ziyan vurur, əsla, amma bu elə incə məsələdir ki, xalqın öz ixtiyarına buraxmaq lazımdır təşkilatçılığı. Xalq kimi istəyir lider seçsin, Türkiyə də məhz həmin lideri dəstəkləsin, bu daha müsbət nəticələr verər.

– Əslində, İraq türkmənlərinin xaricdəki əksər dərnək və təşkilatları ya Türkiyədədir, ya da hansısa bir formada mütləq bu ölkəyə bağlıdır. Danimarkada filanda da var, amma gəlin Şərq ölkələrinə baxaq, hansı ki, tarixi və mədəni-məişət baxımından birbaşa bağlılıqları var türkmənlərlə, hansında mədəni mahiyyətli türkmən ocağı, dərnəyi olduğunu eşitmisiniz, heç birində. Elə Riyaz bəyin də, İraqda görüşdüyüm bütün türkmən dostların da istəyi budur ki, Azərbaycanda adi bir dərnəkləri olsun, eyni zamanda, Azərbaycanın Kərkükdə Mədəniyyət Mərkəzi təsis edilsin.

Bayaqdan masada qalıb soyumuş çaydan biriki qurtum içib boğazımı yaşladım. Hələ də sakit baxışlarla mənə baxan Fuad bəyə üz tutaraq:

– Siz Azərbaycanda tanınıb-seçilən siyasi partiyalardan birinin rəhbərisiniz, prezident seçkilərində iştirak etmisiniz, yolunu-yöntəmini bilərsiniz, Bakıda türkmənlərin mədəniyyət dərnəyini necə açmaq olar? Məncə bu dərnək vasitəsilə türkmənlərlə azərbaycanlılar arasında dostluq əlaqələrini daha da genişləndirmək mümkündür, – soruşdum.

– Mədəniyyət dərnəyini yaratmaq problem deyil, amma bunu kim edəcək, biz? – Fuad bəy təəccüblə soruşdu və cavab gözləmədən sözünə davam etdi:

– Belə bir dərnəyi ancaq türkmənlər yarada bilər. Məsələn, Azərbaycanda yaşayan, yaxud təhsil alan türkmənlər bunun üçün qanunvericilikdə nəzərdə tutulduğu qaydada sənədləri Ədliyyə Nazirliyinə təqdim edə bilərlər. Hə, bizdəki iki Qeyri Hökumət Təşkilatı da birlikdə belə bir təşəbbüslə çıxış edə bilər. Amma bu iki QHT-ni hardan alaq, bu sual doğurur. Ən yaxşısı budur ki, dərnəyi buradakı türkmənlər yaratsın. Ondan sonrası asandır, biz də əlimizdən gələni edərik ki, dərnək inkişaf eləsin, əlaqələri genişlənsin və sair.

– Düzdür, burdakı türkmənlər yarada bilər bu dərnəyi, – bizi dinləyən Cavid, bayaqdan oturub nəsə qurdalandığı bilgisayardan gözlərini çəkmədən dedi. – Mədəniyyət dərnəyini elə-belədən açmırlar, rəsmi qaydada əlqədar orqanlara müraciət edilir. Əgər razılıq verilsə, açılışda İraqın ölkəmizdəki səfirliyinin təmsilçisi, biz tərəfdən dövlət nümayəndəsi, tanınan-seçilən qonaqlar iştirak edəcək. Bundan əlavə, açılış harda olacaq sualına da aydınlıq gətirilməlidir. Yəni dərnəyin normal fəaliyyəti üçün bir otaqlı da olsa, ofis kirayələnməli, içinə adi ofis mebele, yazışmaları aparmaq üçün bilgisayar alınmalı, telefon çəkilməlidir və sair. Konkret desəm, xeyli vaxt və xərc tələb edən məsələdir.

– Əminəm ki, Azərbaycanda yaşayan və ya məskunlaşıb işləyən hansısa türkmən mənşəli İraq vətəndaşı ofis tapar dərnək üçün. Əsas odur ki, dərnəyi yaratma təşəbbüsü olsun və proses qanuni şəkildə başa çatdırılsın, – Fuad bəy əlavə etdi...

Partiyanın qərargahında başqa kimsə olmasa da, Fuad bəy gələn qonaqlarını necə qarşılayacağını yaxşı bilirdi. Əla çay dəmləmişdi, evdən gələndə şirniyyat da almışdı marketdən. Beləcə, xoruzquyruğu çaydan udumlaya-udumlaya bir saatdan çox söhbət elədik. Amma daha gec idi, mən də, Cavid də işə qayıtmalı idik. Ona görə də Fuad bəylə sağollaşıb qərargahdan ayrıldıq...

***

Sentyabrın sonları idi. Ermənistan ordusu ayın 27-si gecə saatlarından başlayaraq atəşkəs rejimini pozaraq Azərbaycan torpaqlarına qarşı hücuma başlamışdı deyə, ölkədə hərbi səfərbərlik elan edilmişdi. Əlbəttə, əvvəlcədən kəşfiyyat məlumatları alan Azərbaycan ordusu düşmənin xain hücumlarının qarşısını almaq üçün tam hazır dayanmışdı. Ona görə də ermənilər nəinki irəliləyə bilməmişdilər, əksinə, Azərbaycan qoşunları sürətlə cəbhə xəttini yararaq düşmən mövqelərinə ardıcıl zərbə vururdular.

Dünya ölkələrində nisbi sakitlik idi: Rusiya, bəzi başqa ölkələr Ermənistanın qəfil hücumuna səssiz qalaraq, onu işğala son qoymağa çağırmaqdansa, sadəcə narahat olduqlarını bildirməklə

işlərini bitmiş sayırdılar. Qardaş Türkiyə dövləti isə ilk dəqiqələrdən Azərbaycanla həmrəylik nümayiş etdirir, bu haqq işində ona hərtərəfli dəstək verirdi. Bir də Pakistan və Əfqanıstan Azərbaycanı açıq müdafiə edirdi. Bu ölkələr hətta lazım gələrsə, öz orduları ilə Azərbaycana dəstək verməyə hazır olduqlarını bildirmişdilər. Çox təəssüf ki, həmişə özünü Azərbaycana dost ölkə kimi göstərən, əhalisinin yarısı azərbaycanlı olan İran nəinki Ermənistandan Azərbaycana qarşı hücumları dayandırıb qoşunlarını işğal olunmuş torpaqlardan çıxarmağa çağırırdı, əksinə, Azərbaycandan tələb edirdi ki, hərbi əməliyyatları dayandırıb sülh danışıqlarına başlasın. Bu da o demək idi ki, İran açıq-aşkar Ermənistan ordusunun işğal etdiyi bölgələrdə Azərbaycan ordusu qarşısında uduzmasını istəmirdi...

Ukrayna, Macarıstan, Moldova və İsraildən də Azərbaycana dəstək bəyanatları verilmişdi. Bununla da, indiyədək İsrailin İslam dünyasına qarşı böyük təhdid olmasına dair formalaşdırılmış mif puç olmuşdu. Axı necə ola bilər ki, İtaliya parlamenti Bakını müdafiə etdiyi bir halda, İslam dünyasının mənəvi mərkəzi hesab edilən Səudiyyə Ərəbistanı, Azərbaycanla yaxın dost əlaqəlçəri olan Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Misir, Mərakeş, Əlcəzair, İordaniya, İraq və sair kimi ərəb ölkələri Azərbaycana arxa durmurdular.

İraqdan söz düşmüşkən, bu ölkədən açıq dəstək verilməsə də, ermənilərin işğalçı hərə-

kətlərindən müəyyən mənada narahatlıq bildirən açıqlamalar eşidirdik. Xüsusilə də bu ölkədə yaşayan türkmənlər azərbaycanla birlik nümayiş etdirməkdəydilər. İlk olaraq İraqın tanınıb-seçilən siyasətçilərindən, keçmiş millət vəkili, Türkməneli Partiyasının sədri Riyaz Sarıkahya Azərbaycan dövlətinə və xalqına birmənalı dəstək bildirən bəyanatla çıxış edərək, Ermənistanı heç bir şərt irəli sürmədən işğal etdiyi Azərbaycan torpaqlarından çıxmağa səsləmişdi.

Yalın əlləri və tək canları ilə Azərbaycana dəstək olan türkmənlər düşmənimizlə savaşmağa belə hazır idilər. Milli birliyi, qardaşlığı əksetdirən şeirlərin birində türkmən şair Məhmət Ömər Kazançı belə deyirdi:

*Hüzndə ortağıq*
*Sevincdə ortaq*
*Çörəyi isti-isti*
*bölüşürdük ortasından*
*şəkəri*
*duzu*
*suyu*
*paylaşırdıq qardaşca*
*və birlikdə yaşardıq*
*hər eşqi, hər duyğunu*
*birlikdə bənd olurduq*
*sevgilərə*
*birlikdə uzaqlaşardıq*
*kinlərdən*

*birlikdə bəslərdik*
*ümidləri*
*o ümidləri ki*
*yarısı səndə qaldı*
*yarısı məndə...*

İraq parlamentindəki türkmən mənşəli millət vəkilləri də ermənilərin işğalçılıq siyasətinə qarşı qəzəbli mövqe bildirirdilər. Mosuldan seçilmiş türkmən millət vəkili Seyid Muxtar əl-Musəvi də bəyanat verərək Ermənistandan işğal hücumlarına son qoymağı tələb etmişdi. Seyid Muxtar bildirmişdi ki, bir türkmən insanı olaraq Azərbaycanın haqlı mübarizəsinə dəstək verir. Çünki haqq və ədalət məhz Azərbaycanın yanındadır.

Bu yerdə şair İsmayıl Türkməndən iki bənd əməlli-başlı yerinə düşərdi:

*Qarabağa yas tutan gənc qızın*
*ürək sızıltsı mən*
*Öz vətənində şəhid olan qardaşımın*
*Ürək yanğısı sən ol*
*Sevgidə birləşib yuxularımızda bu şeiri*
*Acıyla, ürək yanğısıyla bərabər yazaq*
*Ağ dənizdə yakamoz olsun yaşıl gözlərin*
*Limonunda sarısı olsun saçların*
*Xəzər sahilində ayna olsun sənə baxan ay*
*Gözəl ürəyini yansıtsın sevgimə*
*Sən Xəzərdə gül ol*
*Mən Ağ dənizdə bülbül, bərabər yazaq...*

...İraqda türkmənlərə qarşı yenidən təxribat törədilmişdi. Azərbaycanda heç bir günahı olmayan, dinc insanların yaşadığı, cəbhə xəttindən çox-çox uzaqlarda yerləşən şəhərlər Ermənistandan atılan ballistik raketlərlə vurulduğu bir vaxtda, İraqın məzlum türkmən xalqına da PKK terrorçuları tərəfindən hücum edilmişdi. Bir vaxtlar Səddam Hüseyn tərəfindən soyqırıma uğrayan Altunkörpüdə baş verən hücum nəticəsində, Türkməneli Partiyasının bu şəhərdəki bürosunun binasına əl qumbarası atılmışdı. Düzdür, hücum vaxtı binada adam olmadığı üçün kimsəyə də zərər toxunmamışdı, amma tikiliyə müəyyən maddi ziyan dəymişdi. Çox maraqlı idi ki, dövlət, ictimai və özəl binalın mühafizəsi ilə məşğul olan və bunun üçün hər il milyonlarla dollar vəsait qazanan "Dəclə" mühafizə şirkətinin əməkdaşlarının bu hücumdan xəbəri olmamışdı. Bu da onu deməyə əsas verir ki, "Dəclə" şirkəti də, baxmayaraq ki, mühafizəsi üçün pul alırdı, türkmənlərə məxsus binaları qorumaqda maraqlı deyildi...

***

Azərbaycan ordusu sentyabrın 27-də hərbi əməliyyatlara başlayaraq, təxminən 30 il idi ki, Ermənistan tərəfindən işğal edilmiş vətən torpaqlarını cəmi 44 gün ərzində tamamilə azad edərək, dövlətin ərazi bütövlüyünü təmin etmişdi. Bütün Azərbaycan,

eləcə də bir an belə bizi bu haqq mübarizəsində tək buraxmayan Türkiyə əhalisi, eləcə də duaları hər zaman bizimlə birlikdə olan İraq və Suriya türkmənləri düşmən üzərində şanlı qələbəmizi bayram edirdi. Amma təəssüf ki, dünyanı cənginə alan koronavirus epidemiyası təhlükəli hücumunu daha da artırmışdı. Cəmi 10 milyon nəfər əhalisi olan Azərbaycanda gündəlik yoluxma sayı 4 mindən, gündəlik ölüm sayı isə 40-dan yuxarı qalxmışdı. İnsanlar vacib iş-gücü olmasa küçə-bayıra çıxmırdı yoluxma qorxusundan. Belə çətin vəziyyətdə Kərkükdən aldığımız qara xəbər bizi ikiqat üzdü – Türkməneli Partiyasının sədri Riyaz Sarıkahyanın həyat yoldaşı xanım Yüksəl Məhmət İzzət Ankarada vəfat etmişdi.

Eynən atası, böyük dava adamı, mərhum Məhmət İzzət Xəttat kimi, həyatını xalqının milli azadlıq mübarizəsinə xərcləyən Yüksəl xanım 63 yaşındaydı. O, 1957-ci ildə Kərkükün Musalla bölgəsində doğulmuşdu. Orta məktəb, eləcə də universitet təhsilini Kərkükdə almışdı. Gözünü açandan atasını milli mübarizə meydanında gördüyündən, sanki onun davamçısına çevrilmişdi. Buna görə də, Səddam Hüseyn dönəmində dəfələrlə haqsız yerə təqiblərə məruz qalmışdı. Həbsdən çıxandan sonra ailəsi onu Türkiyəyə göndərib. Həmin vaxt Riyaz bəy də orada olub və beləliklə, tanış olub, ailə qurublar.

Riyaz Sarıkahya Kərkükə gəlməyə məcbur olsa da, Yüksəl xanım gələ bilməyib, vətən həs-

rətini Türkiyədə yaşamağa məcbur olub. Bilirdi ki, İraqa gələn kimi, Səddam rejimi onu həbs edəcək, hətta qətlə yetirə bilərdilər. Səddam Hüseynin devrildiyi 90-cı illərədək vətəninin, eləcə də doğma ailəsinin ətrini qoxulamağa həsrət qalan Yüksəl xanım, Səddam Hüseyn hakimiyyəti yıxılandan sonra nəhayət ki, ölkəsinə qayıdır.

Yüksəl xanım qürbətdə qaldığı uzun müddət ata-anasını, bacı-qardaşlarını, qohum-qonşularının həsrətilə yaşayıb. Hətta zaman-zaman həyat yoldaşı Riyaz bəydən də ayrı düşmək məcburyyətində qalıb. Çünki Riyaz bəy türk millətçisi, milli mübariz olduğu üçün İraqda olmalı və mücadiləsini sürdürməliydi. Buna görə də o, zaman-zaman Kərkükdə, Ərbildə qalıb milli-siyasi mübarizəsini aparar, türkmən xalqının siyasi müstəvidə təşkilatlanması üçün çalışardı.

Yüksəl xanım Ankarada yaşadığı illərdə də boş dayanmır, Türkiyədəki türkmən dərnəkləri, eləcə də Türkiyə Milliyyətçi Hərəkat Partiyası ilə sıx əməkdaşlıq edir, bu partiyanın və türkmən dərnəklərinin işinə qatılar, xüsusilə də qadın qollarının işlərinində fəallıq göstərərdi. Bundan əlavə, o, Ankarada balaca bir evdə Quran kursu açır, ərəbcə yazıb-oxuya bilməyən türkiyəli qadınlara Quran oxumağı öyrədir.

Yüksəl xanım yalnız İraq türkmənlərinin haqları uğrunda mübarizə aparmayıb, o, dünyanın hər yerində yaşayan türklərin azad olmasını və inkişaf edərək güclənməsini istəyib. O cümlə-

dən, Azərbaycanı da həmişə diqqətdə saxlayıb. Nə vaxtsa Bakıya gəlmək, Azərbaycanın əsrarəngiz təbiətə mailik bölgələrini gəzib-görmək arzusunda olub. Qarabağda 44 günlük müharibə gedən dövrdə, Yüksəl xanım hər gün cəbhədə qazandığımız uğurları duymaq üçün mətbuatdan prosesi izləyib. Deyirmiş ki, inşallah, işğal altındakı torpaqlar azadlığına qovuşsun, bir gün Azərbaycana gələcək və məhz azad olunmuş bölgələrə gedəcək. Təəssüf, bu arzusu gerçək olmadı, millətinə sevgisini və parlaq arzularını özü ilə birlikdə əbədiyyətə götürdü.

Acılar bununla bitmədi, bir gün Riyaz bəyin özünün də koronavirusa yaxalandığını eşitdik. Sən demə Yüksəl xanımın yas məclisində yoluxubmuş. Əvvəl evdə müalicə olunsa da, vəziyyətinin ağırlaşdığını görən yaxınları onu Ankaradakı xəstəxanalardan birinə yatırıblar. Yalnız bundan sonra Riyaz bəyin sağlıq durumu yaxşılaşmağa başlayıb və bir neçə gün sonra xəstəxanadan evə buraxılıb.

Koronavirus pandemiyasının tüğyan etdiyi İraqda, onsuz da milli kimliklərinə görə onillər boyunca basqı altında saxlanılan türkmənlər üçün 2020-ci il əvvəlkilərdən daha fəaləkətli keçsə də, dekabrın 17-də Baş nazir Mustafa əl-Kazıminin Ankaraya səfəri onları az da olsa sevindirib. Çünki prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən qırmızı xalça üzərində, yüksək səviyyədə qəbul edilən Kazımi ilə aparılan danışıqlar və bağlanan

müqavilələr Türkiyə–İraq əlaqələrinin daha da genişlənəcəyinə əminliyi artırıb. Kazımi türk sərmayədarları İraqa dəvət edərək, ölkə iqtisadiyyatının bütün sahələrində iş qurmalarına dəstək verəcəklərini bildirib. Bu yandan Kürdüstan muxtariyyətinin iqtidarı da Türkiyə ilə sıx əməkdaşlıq içindəydi. Ona görə də, türkmənlərin bütün bu əlaqələrdən bəhrələnəcəklərinə, yəni işlə təminatlarında, təhsildə, qardaş ölkəyə daha asan gediş-gəlişdə və ən əsası milli təhlükəsizliklərinin təminatında daha üstün şanslar qazanacaqlarına ümidləri artmışdı.

*Son*

**Vüsal Tağıbəyli**

# TÜRKMƏNLƏR

*(siyasi roman)*

Korrektor: **Şakir Əlifoğlu**
Operator: **Aynur Çingizqızı**
Dizayner: **Fariz Məhərrəmov**

Çapa imzalanmışdır: 02.04.2021.
Kağız formatı: 60x84 $^{1}/_{16}$.
Həcmi: 17 ç.v. Sifariş 17. Tiraj 200.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.